**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Qanira Pirquliyeva, Mayis Cəfərov**

# NUMİZMATİKA

**(Ali məktəblər üçün dərs vəsaiti)**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bakı Dövlət Universitetinin 10.01.2024-cü il tarixli 3-29-45/3-1R-06/2024 saylı əmrinə əsasən nəşr hüququ (qrif) verilmişdir.

**BAKI – 2024**

**Elmi redaktor:** T.ü.f.d.dos.Kərəm Hətəm oğlu Məmmədov

**Rəyçilər:** T.ü.f.d.Özbəkistan MTM baş mühafizi
Alfiya Adılovna Musakayeva
T.ü.f.d.dos.Rakif Hüseyn oğlu İbadov
T.ü.f.d. Hicran Rəhman qızı Mahmudova

**Q.Ə.Pirquliyeva., M.V.Cəfərov. Numizmatika. Ali məktəblər üçün dərs vəsaiti. Bakı-2024. Füyuzat. 272 s.**

*Numizmatika fənni üzrə dərs vəsaiti dünya və Azərbaycan sikkəçiliyinin atribusiyaları anlayışları, ümumi qanunauyğunluqları, ticarət əlaqələri və numizmatika elminin inkişaf mərhələlərini miladdan öncə VII əsrdən XX sərin əvvəllərinə qədərki zamanı əhatə edir. Ayrıca müxtəlif dövrlərdə meydana gəlmiş numizmatik konsepsiyalar, islahatlar nəzərdən keçirilmişdir.*

*Dərs vəsaiti tarix üzrə ixtisaslaşan tələbə, magistr və doktorantlar üçün nəzərdə tutulmuşdur.*

# ÖN SOZ

Tələbələrə təqdim olunan dərs vəsaiti insan şüurunun inkişaf pilləsində önəmli yerlərdən birini tutan pul və sikkə zərbi işinin özəlliklərini öyrənən numizmatika elminə həsr edilmişdi. Belə ki, hələ üst paleolitdən mübadiləni dərk edən insan tipləri zaman keçdikcə həyat fəaliyyətinin vacib hissəsini məhz bu sahəyə həsr etməyə başlamışlar. İnsanı insana çevirən əmək nəticəsində nələrin ən yaxşısı icad edilmişsə, onları mübadilə, yaxud əmtəə dəyərinə çevirmişlər. Bu proses minilliklərlə davam edərək nəhayət ki, ən dəyərli metallardan olan qızıl və gümüşün təbii, süni qarışımından insanlar ən mükəmməl, lakonik, bütün arzu və ümidlərini, hakimiyyətlərini və inanclarını nümayiş etdirdikləri ümumi dəyər nişanələri olan elektra sikkələrinin qəliblərdə hazırlanmasına qədər davam etmişdi. Beləcə sikkələrin icadı dünyanın tarixində elə bir kəşf olmuşdu ki, bütün bəşəriyyətin dönüş nöqtələri bundan sonra bu kiçik metal kütləsinindən birbaşa asılı olmuşdu.

Dərs vəsaitində əhatə edilən coğrafiyanın sikkələri haqqında olan elmi məlumatların analizi nəticəsində tam bir məsuliyyətlə qeyd edə bilərik ki, sikkələrin kəşfi insanların həyatında yeni bir məşğuliyyət sahəsi-sikkəçilik yaratdı.Sahə metalişləmə, bir qədər də zərgərliklə əlaqəli olsa da, fərqli əmək alətlərinə, üsullara və ən vacibi dövlətlərin idarəçiliyində hakim sinifin mövqeyini təsdiq edən sikkələr qısa müddət ərzində onları hamıya tanıdan ölçüdə kiçik, dəyərdə çox böyük yer tutmaq dərəcəsinə çatdırıldı. Sikkələrin meydana gəlməsi ticarət yollarını qanuniləşdirdi, xalqları bir-birinə tanıtdı, dünya iqtisadiyyat tarixinin əsaslarını yaratdı. Məhz sikkələrin işinə birbaşa nəzarət edən hakim sinfin birinci şəxsləri hər dəfə bir müşkülə düşdükdə, siyasi böhranlar yarandıqda çıxış yolunu müharibələrdən əvvəl pulların qərəzli şəkildə qiymətsizləşdirilməsində, yeni pul islahatları keçirməkdə görürdülər. Beləcə ilk iqtisadi böhranlar süni olaraq ilk dəfə miladdan öncə III əsrdə antik dövrün zirvəsinin mövcudluğu zamanı yaradıldı. O zaman bu böhranın ilk göstəricisi inqilabçı metal sikkələrdən imtina etməyə çalışan çinlilərin dövriyyəyə kağızdan kiçik dəyər vahidlərinin buraxmaları cəhdini hesab etmək olar. Bu artıq köhnə dünyanın yeni dövrə keçidi demək idi. İnsanlar ilk dəfə görünür anladılar ki, sitayiş etdikləri kiçik metal sikkələr hər zaman çıxış yolu deyil, istənilən zaman onlar adi bir kağız parçasına

çevrilərək bir heç ola bilərlər. Fakt insanların psixologiyasına vurulan inanılmaz zərbə, elə insanlar tərəfindən həyata keçirilən müdhiş bir kəşf idi.

Dinin dövlət yaradıcısı olması faktı erkən orta əsrlərinin ən möhtəşəm dövləti olan Xilafətlə təsdiqləndi. Təkallahlığın yaranma tarixinin dövlətlərlə demək olar ki, eyni tarixdə yaranmasını ilk dəfə islam sikkələri tam olaraq təsdiqlədi. Bu sikkələrdə artıq müqəddəs kitabdan ayələr var idi. Ayələrdəki əsas ideya ədalət, haqqın qorunması olsa da, bu sikkələrin istifadə dövrü 50 ildən bir qədər artıq oldu. Böyük torpaqları işğal edərək imperiya yaradan ərəblər çox tezliklə belə elementlərdən sikkə işində imtina edərək, "pulun harada və hansı din bayrağı altında buraxılmasından asılı olmadan bütün dəyərlərin başında durması" fikri yenidən həyata qayıtdı. Erkən orta əsrlərin sonunu gətirib çatdıran səbəblərdən biri də məhz elə müsəlman ölkələrindəki pulların çox keyfiyyətli olması və bu səbəbdən əmtəə - pul - düsturunun pulun - pula dəyişdirilməsi sisteminə keçidi ilə bağlı oldu. Beləcə, pul işinin 2700-3000 minillik tarixində ikinci dəfə kəskin dəyişikliklər elmdə "gümüş böhranı"adlanan dövrü başladı. Bu zaman nisbətən şərqin inkişaf etmiş dövlətlərin tarixində ilk dəfə görünməmiş şəhər mədəniyyəti o dərəcədə yüksəlimiş ki, "pul babaları", "əli pulla oynayan" işbazlar böyük əmək tələb etməyən sikkələrin ölkələr arasında daşınması ilə kəskin şəkildə varlandılar. Daşınan sikkələr əsasən gümüş dəyər vahidləri oldu. Nəticədə pul işində çıxılmaz vəziyyət yarandı və dövlətlər əldə etdikləri bu gəlirlərdən imtina etməyərək, gümüşü əvəz etmək üçün ucuz metallardan sikkələr zərb etdirərək, sadəcə üz qatlarına azaçıq gümüş əridib örtdülər. Bu görünməmiş yalanı bir də təsdiqləmək üçün bəzən sikkənin gümüş olduğunu təsdiq etmək üçün ayrı-ayrı işarələr, sözlər yazdırmağa əl atdılar. Bu erkən orta əsrlərin sonunu gətirib çıxardı. Belə ki, pul çatışmazlığı böyük insan kütləsinin aclıqla, xəstəliklərə üz - üz qoydu və insanlar təsdiqlənmiş ticarət yollarının daha ucuzunu - su yollarını axtarmağa, tanımadıqları yeni torpaqları kəşf etməyə qədər getdilər. Amma o vaxta qədər hələ 200 il Avrasiyada köçəri-maldar tayfalarından olan monqolların dünya rarixində görünməmiş ölşülərə malik olan imperiyası yaradıldı. Dünyanı qloballaşdırmağa çalışan monqollar nə qədər sikkə işinə önəm verməsələr də, özləri bilmədən Avropanın bu günkü inkişaf etmiş ölkələrinin iqtisadiyyatının əsasını yaratdılar. Beləcə böhran aradan qaldırıldı, Xilafət məhv edildi, dünyanın siyasi və iqtisadi səhnəsinə yeni dövlətlər və xalqlar daxil oldu.

Avrasiyanın tarixində böyük coğrafi kəşflər nə qədər yeniliklər yaratsa da, sikkə işi o qədər də dəyişilmədi. Belə ki, mühafizəkar Çin tuncdan hazırladıqları sikkə işini dəyişmədən davam etdirməklərinə baxmayaraq, gümüş böhranından əvvəl yenidən kağız pullar hazırlayıb dövriyyəyə buraxdılar. Bu pulların böyük gəlir gətirməsindən xəbəri olan monqol Keyxatu xan idarəçiliyi dövründə belə pullar buraxdırsa da, uğur qazana bilmədi. O dərk edə bilmədi ki, idarə etdiyi xalqların şürunda dövlətçilik təfəkkürünün əsas işarəsi qiymətli metal sikkələrdir. Üstündə pul kisəsi daşıyan insanlar üçün o metalın cingiltisi hər şeydən vacib idi. Avropada yerli xalqların sikkə ilə tanışğlığı (Yunanıstan və Roma istisna olmaqla) az bir zamanı əhatə etsə də, sürətlə bu iş inkişaf etdirildi. Din burada əsas sələmşilər sinfini-kilsə xadimlərini formalaşdırdı və onlar da lazım olan zamanda böyük pul kütləsindən davamlı gəlir götürmək üçün tamplierləri yaratdılar. Beləcə, tezliklə artıq XVI əsrdə indiki dolların əcdadı yaradıldı. Avropa həm də "qiymətlər inqilabının" vətəni hesab olunur. Gündəlik tələbat mallarının qiymətlərini hər dəfə istədikləri zaman qaldıran avriopalı hakim sinif, tezliklə parçalamağa doğru getdi. Amma bu parçalanma daha mütərəqqi inqilablara, o cümlədən sənaye inqilabı, yeni və nisbətən azad dövlətlərin yaradılması ilə nəticələndi. Dünya xalqlarının tarixində yeni dövr, elmdə şərti olaraq adlandırılan "Yeni tarix" başlandı. Bu zaman mövcud imperiyaların dağılma prosesinin mühüm səbəblərindən biri də məhz Avropanın çox dəyərli pul vahidlərinin şərqin sikkələrindən önə keçməsi, hamının qəbul etdiyi bir pul vahidinə çevrilməsi oldu.

Beləliklə, Avrasiyanın numizmatika tarixi bizlərə təqdim etdiyi ən vacib elmi nəticə günümüzdə bəşəriyyət tarixinin məhvərinin dəyişilməsində yaranan dövrdən hər zaman sikkəlıərin çox böyük əhəmiyyət daşıması, bu problemin hələ də aktual olaraq qalması barədə olan fikirdən ibarətdir. İnsanlar irqindən, dinindən, dilindən, mədəniyyətindən asılı olmadan şüuru yaranan gündən daha çox pul qazanmaq, bildiklərini, kəşf etdiklərini daha baha satmaqla məşğuldurlar. Sanki heç nə dəyişilməmişdir. Amma hər zaman bu fikirlər çox güclü olaraq, həyatın əsas məqsədinə çevriləndə dünya sistemi kəskin olaraq, dəyişilir. Bunu heç zaman unutmaq olmaz. Böyük pullar daha böyük bəlalara səbəb olur. Pullar bütün dünyada sitayiş obyektinə çevriləndə dünya elə onun hakimiyyətində qlobal ola bilər, yəni

bir pul, bir dil, bir din şüarı qələbə çala bilər. Biz bəşəriyyət olaraq buna hazırıqmı?

Kitaba ön sözü burada bitirərək bütün oxucularımıza, o cümlədən tələbələrə özünüdərk prosesində pullara böyük önəm verməməyi arzu edərək, uğurlar diləyirik.

Dərs vəsaiti ilə əlaqədar bütün fikirlərinizi və iradlarınızı aşağıda göstərilən elektron ünvana göndərməyinizi xahiş edirik:

p_qanira@hotmail.com
mayis1968@mail.ru

*Müəlliflərdən.*

# NUMİZMATİKA FƏNNİNİN TARİXŞÜNASLIĞI, PREDMETİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

**Numizmatika elminin tarixşünaslığı, yazılı və digər narrativ qaynaqları**. Bütün dövrlərin və xalqların ən vacib problemi olan pul və onunla əlaqədar olan prosesləri, o cümlədən sikkə zərbi, pul sistemləri, dəyəri, metroloji ölçüləri, mübadilə vahidi kimi ticarət münasibətlərində yeri və digər çox vacib iqtisadi məsələləri öyrənən elm numizmatika və ya sikkəşünaslıq adlanır.

Dünyada son 200 ilə yaxın bir zamanda aparılan elmi araşdırmaların nəticəsinə görə ilk dəfə italiyalılar numizmatika elminin mənasını dərk etmişlər və bəzi elmi-populyar əsərlər yazmışlar. Belə əsərlər sırasında İtaliyanın Modena şəhərinin sakini Yakopo Sadoletonun (1477 - 1547) 1517-ci ildə çap etdirdiyi kitabda ona məlum olan sikkə nümunələrinin şəkillərini daxil etmiş və xüsusi olaraq, həmvətənlərini numizmatika elmi ilə ciddi məşğul olmağa çağırmışdı. Eyni vaxtda alman alimlərindən İohann Ruttix (1589-1625) Strasburq şəhərində qədim Roma haqqında maraqlı elmi-populyar əsərlər yazmışdır. Qeyd etmək lazımdır ki, Almaniyada XVI əsrin əvvəllərində əsasları qoyulan numizmatika elmi çox tezliklə daha geniş məkanda sürətlə inkişaf etməyə başlamışdı. Belə ki, V.Clatriusdan sonra A.Vicus və O.F.Orsinusun Roma, Siciliya və Qədim Yunanıstan sikkələrinə həkk olunmuş 7 cildlik monoqrafiyaları dərc olunmuşdur. Numizmatika elminin tarixində ilk dəfə "Qədim sikkəşünaslığa giriş" adlı əsərin müəllifi alman mənşəli Çarls Patin (1633 - 1693) adlı bir alim olmuşdur. Əsər 3 dildə-latın, fransız və italyan dillərində yazılmışdı.

Numizmatika elminin inkişafında alman alimlərindən Eduard Julius Theodor Friedlender (1813-1884), Ernest Carls François Babelon (1854-1924), Ferdinand Fridensburq (1858-1939), Arnold Luisin fon Ebenqreyt (1841-1932), Maks Bernxart (1883-1952) və başqalarının adlarını çəkmək lazımdır. Qeyd etmək lazımdır ki, ilk dəfə elmdən uzaq olan, alqı-satqı yolu ilə topladığı şəxsi sikkə kolleksiyasının şəkilləri ilə zəngin olan kitab hələ 1313-1320-ci illərdə İtaliyada humanist alim Covanni da Matorius tərəfindən "İmperiyaların tarixi" adlı əsər olmuşdu. Bu əsər təkrar olaraq 1968-ci ildə

R.Veys tərəfindən çap olunmuşdu.

Müasir dövrümüzdə bəzi mütəxəssislər numizmatika elminin əsasını şair Françesko Petrarkanın (1304-1374) adı ilə əlaqələndirirlər. Qeyd etmək lazımdır ki, F.Petrarka heç vaxt numizmatika elmi ilə məşğul olmamışdır. O, geniş maddi imkanlara malik olaraq, sikkə kolleksiyası toplamışdır. Avropanın digər belə bir məşhur kolleksionerlərdən Covanni Bokkaconun adı qeyd edilməlidir.



Françesko Petrarka
(1304-1374)



Jakopo Sadoleto
(1477 - 1547)

Beləliklə, XIV əsrin sonu - XV əsrdə qədim sikkələr o qədər “dəbə” düşürlər ki, onlarla məşğul olan tacirlər cəmiyyətdə sayılıb-seçilirlər. Belə “alverçi-pul tacirləri” XVI əsrin sonu - XVII əsrdən etibarən sikkələrin satış auksionlarını-bazarlarını keçirməyə başlayırlar. Qısa müddət içərisində qədim sikkələr üzrə «işbaz tacirlər» auksionlara daha çox alıcı cəlb etmək üçün xüsusi sikkə kataloqları çap edirlər. XVIII əsrin əvvələrindən etibarən belə katoloqlarda satışa çıxarılan sikkə nominallarının şəkilləri ilə yanaşı ilkin qiymətləri də göstərilirdi. Zaman keçdikcə Avropada- Qotada, Florensiyada, Berlində və Londonda rəsmi auksionlar keçirilməyə başlanılır. Bu cür satış qalereyalarından günümüzədək fəaliyyət göstərən dünya şöhrətli 1755-ci ildən London, 1752-ci ildən Berlin, 1747-ci ildən Florensiya auksionlarının adlarını çəkmək olar. Bu auksionları sikkələrlə təmin edən insanlar bütün dövrlərdə

zəngin insanlar olmuşlar. Xronoloji baxımdan beləlirindən Avropada erkən ən məşhur olan kolleksioner-numizmat Jak Berri (1340-1416) olmuşdur.



Çarlz Patin
(1633 - 1693)




İohann Ruttix
(1589-1625)



Yulius Fridlender
(1813 – 1884)



Ernest Babelon
(1854-1924)

Fransız kralı II İohannın oğlu və V Karlın qardaşı olan hersoq Jak Berri ilk dəfə numizmatika tarixində 1401-1416-cı illərdə toplamış olduğu

sikkə kolleksiyasını inventarlaşdırmış və əsas əlamətlərinə görə sənədləşdirmişdi. Ondan sonra məşhur Mediçilər ailəsinin Florensiyadakı kolleksiyası elmi qaydada siyahıya alınmış və kataloqda pulların əsas əlamətlərini-çəkisi, diametri, tapıldığı vaxtı, yeri, yazıları, şəkillərin izahı, zərb tarixi və digər məlumatlar göstərilmişdi. Mediçilərin tapşırığı ilə çox ciddi həyata keçirilən bu “yaradıcılıq işi” 1465-ci ildə başa çatmışdı.



Hersoq Jak Berri
(1340-1416)



Villivald Pirkxaymer
(1470 – 1530)

Digər belə elmi əsər statusunu ala biləcək iş, 1614-cü ildə alman imperatoru III Fridrix və I Maksimilianın rəsmi məsləhətçisi olmuş Dadenxard Pfeffingerin kolleksiyasının kitabı hesab olunur. Zaman keçdikcə sikkələrin toplanması və alqı-satqısı çox gəlirli bir sahəyə çevrilir. Bu səbəbdən də sikkələrin araşdırılmasına həsr olunmuş elmi əsərlərə daha çox ehtiyac yaranır.

Bununla da numizmatika elminin inkişafı tarixində ilk dəfə yeni sahələr yaranır. Sikkələrin metrologiyasına həsr olunan ilk elmi əsər Niyrenberqli Villivald Pirkxaymer (1470 – 1530) adlı alim tərəfindən 1528-ci ildə qələmə alınan kitab hesab olunur. Kitabda ilk dəfə antik dövrün sikkə nominallarının dəyərinin dövrün pullarına nisbəti çox dəqiqliklə hesablanmışdı.

Antik dövrün sikkələrinin çəkisi, ölçüləri və hazırlanma texnologiyasına aid olan ilk elmi əsər alman alimi Q.Aqrikolanın adı ilə bağlıdır. Numizmatikada sikkələrin topoqrafiyasına həsr olunan ilk əsər U.Qurmayr tərəfindən qələmə alınmışdı. Sikkə kolleksiyasının ilk elmi nəşri 1564-cü ildə Antverpendə slovak humanist alimi, peşəsi həkim olan Yan Sambrekun  əsəri hesab olunur.



İosif Hillariy Ekkel
(1737–1798)



Maks Bernxart
(1883-1952)

Əslində "gözəl və nəfis pulların yığılması" işinin tarixi daha qədimlərə gedib çıxır. Belə ki, elmə məlumdur ki, pul kolleksiyaları hələ eramızdan əvvəl I əsrdə Romada imperator dövründə mövcud olmuşdu. Yuxarıda qeyd etdiyimiz Renesans dövrünün sikkə nümunələrinin yığımı və ilkin araşdırmaları zamanı XIV-XVI əsrlərə aid olub numizmatika elminin yaranmasının I dövrünü əhatə edir. Qədim dövrlərin sikkələrinin düzgün seçilməsi, təyin edilməsi üçün elmi əsərlərin yazılmağa başlanılması bu yüzillidən etibarən əsasən zəngin kolleksionerlərin sifarişi ilə yerinə yetirilirdi.

XVI əsrin sonu - XVIII əsrlərdə numizmatika elminin tarixşünaslığının II dövr**ü** zamanı  mövcud olan biliklərin sırasında yeni cərəyanlar meydana gəlir. Belə ki, ayrı-ayrılıqda yunan sikkələri ilə məşğul olan alimlər və onların əsərləri; Roma sikkələrini mükəmməl bilən alimlər və onların araşdırmaları, ümumiyyətlə  numizmatikada digər, ciddi mövzuların

yazılmasının əsasları bu zaman qoyulmuşdu. Numizmatikanın elmi inkişafı bu yüzilliklərdə daha geniş coğtafiyada yayılaraq, Avropanın inkişaf etmiş ölkələrindən – Almaniyada, İtaliyada geniş vüsət almağa başlaymışdı. Bu illərdə numizmatika elmində yaranan bir çox problemli məsələlərə yenidən baxılır. Belə ki, 1592-ci ildə italiyalı P.Pariziya Yunanıstanın ona məlum olan sikkələrini öyrənir və ilk dəfə Cənubi İtaliya və Sicilya adasının qədim sikkələrini ayrıca fəsillərdə araşdırır. Bu zaman həm də mütərəqqi bir yenilik nəticəsində numizmatika elminin tarixində ilk dəfə sikkələr nominal dəyərlərinə görə seçilir, kolleksiyaların düzgün daxili seçimi üçün xüsusi təsnifat əlamətləri təyin edilir. Numizmatika elmi üzrə çap olunan əsərlərdə "kürfür kabinet"-yəni mis sikkələrin öyrənildiyi, yaxud "taller kabinet" yəni taler adlı pulların öyrənildiyi, "dukaten kabinet"-dukat adlı sikkələrin yığıldığı və öyrənildiyi məkanın xüsusi məlumatları öz əksini tapır. Zaman keçdikcə bu cür kabinetlər digər dünya muzeylərində formalaşır və yazılan əsərlərin adından artıq alimlər hansı nominallardan söhbət gedəcəyini öncədən anlaya bilirlər.

XVIII əsrin ortalarında Avropada xeyli sayda kataloqlar, sanballı elmi əsərlər nəşr edilmişdi. Dünyanın ayrı-ayrı yerlərində həyata keçirilən rəsmi arxeoloji qazıntılar nəticəsində, yaxud da zəngin ailələrin kolleksiyalarında milyonlarla sikkə nominalları, çoxlu sayda dəyərli dəfinələr toplanmışdı. Bu dövrü həm də "sikkələrin öyrənilməsinin sistemləşdirildiyi dövr» adlandırmaq düzgün olardı. Fikrimizi əsaslandırmaq üçün bəzi elmi əsərləri misal çəkmək olar: 1762-ci ildə nəşr olunmuş 36 min qədim yunan sikkələrini əhatə edən kitabın müəllifi Joze Pelleri ilk dəfə nominalların təsvirini coğrafi məkanlara uyğun olaraq təqdim etmişdi. "Antik dövrün numizmatikasının atası" adlandırılan avstriyalı rahib İosif Hillariy Ekkelin (1737–1798) 8 cilddən ibarət "Qədim sikkələr haqqında elm" adlı akademik elmi əsəri 1792-1798-ci illərdə Vyanada çap olunmuşdu. Qeyd etmək lazımdır ki, bu insan rahib olmaqla yanaşı, Avstriyada İmperator münskabinetinin direktoru və Vyana universitetində klassik arxeologiya üzrə professor vəzifəsində çalışmışdı. Müəllif ilk dəfə adı çəkilən əsərdə elmi sistemləşdirmə metodu ilə coğrafiya elminin prinsiplərini əsas götürərək, Avrasiyada aşkar edilən sikkələri Aralıq dənizi sahillərindən saat əqrəbi istiqaməti ilə İspaniyaya, İtaliyaya, Balkan yarımadasına, Kiçik Asiyaya, Şərqi Aralıq dənizi ölkələrinə, oradan Şimali Afrikaya qədər olan məkana

uyğun yerləşdirmişdi. Bu cür tarixi-coğrafi yerləşdirmənin daxilində müəllif xronoloji çərçivəni də izləmişdi. 1769-cu ildə Almaniyanın Leypsiq şəhərində İ.F.İoxini və İ.Q.Bellinin yazmış olduqları çoxcildli kataloqda yalnız sikkələrin üzərində olan məlumatlar əsas əlamət kimi seçilərək elmə daxil edilmişdi. Bu fakt öz-özlüyündə bir daha sikkə nümunələrinin heç bir əlavələr olmadan vacib tarixi-mədəni mənbə olduğunu sübut edir.

XIX əsrin əvvəllərindən başlayaraq, dünyanın mütərəqqi alimləri numizmatika elminə başqa və daha ciddi konteksdən yanaşmağa başlayaraq, fərqli əsərlər yazmağa və yaymağa başlamışlar.Şərti olaraq, numizmatika elminin tarixşünaslığının III dövrü  məhz bu yüzillikdən başlayaraq, günümüzədək davam edir. Belə ki, bu dövrün ilk illərindən başlayaraq, yazılan və çap olunan elmi əsərlərlə yanaşı, alimlər tərəfindən universitetlərdə numizmatika elminin təbliği və tədrisi məsələsi vacib sahələrdən sayılmışdı.



Xristian Martin İoahim  Fren
(1782-1851)



Aleksey Konstantinoviç Markov
(1858  -1920)

Numizmatika elmi üzrə ilk dəfə mühazirələr Saksoniyanın Hall və İsveçin Upsala Universitetlərində oxunmağa başlanır. Mühazirə xüsusiyyətli ilk əsər Avstriya alimi İ.Mader  tərəfindən hazırlanmışdı. “Orta əsrlərin sikkə

tarixinə tənqidi oçerk” adlı bu əsərdə müəllif ona qədərki alimlərdən fərqli olaraq, sikkələrin təsvirindən başqa, onlara siyasi tarixin əsas qalığı kimi baxmağı, həmçinin bu zaman mövcud olan hüquqi sənədlərə və qanunlar kodeksinə fikir verməyi əsas metod kimi tələbələrinə təlqin etmişdi. Başqa bir dərslik xarakterli əsər, daha konkret araşdırılan tarixi dövrün sikkə və sikkə işinə həsr edilərək, “Orta əsrlərin numizmatikası” adlandırılmış və Polşa alimi İ.Level tərəfindən Parisdə 1835-ci ildə dərc olunmuşdu. Müəllifin sələflərindən əsas fərqi orta əsrlərə aid sikkələrlə yanaşı, həm də onların müfəssəl şəkillərini, topoqrafik atlasını, xronoloji cədvəllərini də xüsusi interaktiv vasitə kimi kitaba daxil etməsi olmuşdu. Bu fakt metodoloji yeniliklərdən biri idi.



Zoqraf Aleksandr Nikolaeviç
(1889-1942)



Fasmer Riçard Riçardoviç
(1888 - 1938)

Numizmatika elminin “məhsuldar” metodlarından hesab edilən ikonoqrafiya üsulunun araşdırmalarda erkən tətbiqini 1865-1866-cı illərdə alman numizmatı V.Rençman Berlində ilk dəfə Avropa miqyasında ən qədim dövrlərdə zərb olunan sikkələrin hər iki tərəfində məlumatları oxunan hökmdarların və müqəddəslərin adları, zərbxanaların yerləşdikləri şəhərləri, bütün digər yazıların geniş təsviri təqdim olunan əsər çap etmişdi.

Numizmatika elminin tarixində digər mühüm hadisə fransız alimləri A.Anjelya və P.Serryoranın çap etdirdikləri «Orta əsrlərin numizmatikası» haqqında olan traktat olmuşdu. 1891-1905-ci illərdə yazılan bu əsərdə faktiki sikkə materiallarının kəmiyyətinə, ilk dəfə qədim əlyazmalardan sikkə nümunələrinin öyrənilməsində istifadəsinə, həmçinin sikkə işinin analizlərinin əsasına görə günümüzə qədər analogiyası yoxdur.



Pavel Stepanoviç Savelyev
(1814-1859)



Yevgeni Aleksandroviç Paxomov
(1880 - 1965)





Əli Məhəmməd oğlu Rəcəbli
(1927-2022)

Məhəmməd Əhməd oğlu
Seyfəddini
(1927-2004)

Bir çox dünya numizmat-alimləri üçün bu əsər Avropa numizmatikasının orta əsr dövrünün öyrənilməsi işində "ensiklopediya" olaraq qalmaqdadır. XX əsrin əvvəllərindən başlayaraq numizmatika elminin "rəsmi statusu" onun xeyrinə olaraq dəyişilməyə başlayır. Belə ki, məhz bu zamandan etibarən "numizmat-kolleksioner" söz sinonimi bir çox xalqların leksikologiyasından çıxmağa başlayır. Bu sahədə olan ciddi elmi araşdırmalar artıq ayrı-ayrı şəxslərə deyil, dövlətlərin və xalqların tarixini öyrənməyə xidmət etməyə başlayır.

Azərbaycanın keçən 200 ilə qədər daxil olduğu Rusiya imperiyasında numizmatika elminə maraq XIX əsrin ortalarında başlamışdı. Sikkə nümunələrinin kolleksiya şəklində yığılması, alqı-satqısı bu ölkədə daha tez, yəni XVII əsrdə yaranmış, XIX əsrdə ali zümrənin əsas peşələrindən birinə çevrilmişdi. İlk qədim sikkələrdən ibarət qiymətli kolleksiya I Pyotrun hakimiyyəti illərində onun şəxsi təşəbbüsü ilə Sankt-Peterburqda yaradılan Kunstkamerada toplanmışdı. Zaman keçdikcə belə eksponatların sayı artdıqca onları Ermitaj muzeyinə vermişlər.

Bu gün Sankt-Peterburqda yerləşən sikkə nümunələrinin toplandığı və

qorunub saxlandığı Ermitaj muzeyinin eksponatlarının sayının tam yarısı numizmatika fonduna aid olaraq, dünyanın ən qiymətli kolleksiyalarının zəngin məkanı hesab edilir. XIX əsrin sonlarına doğru Rusiya muzeylərində işləyən görkəmli alimlər sikkələr haqqında dəyərli əsərlər yazmışlar. Ermitajın fondlarında kəmiyyət və keyfiyyəti, həm də dəyəri ilə seçilən Şərq dövlətlərinə aid sikkələr X. Fren və V.Tizenqauzen, o cümlədən alimlərdən A.K.Markov, P.S.Savelyev və başqaları tərəfindən çox ciddi araşdırılmışdı.

Azərbaycanda numizmatika elminin əsası bu məktəbin layiqli yetirmələrindən və davamçılarından olan Y.A.Paxomov tərəfindən qoyulmuşdu. Bu günkü Azərbaycan Milli Tarix muzeyinin numizmatika şöbəsinin yaradıcısı olan bu alim fəaliyyəti illərində sikkə nümunələrinin toplanılmasına həsr olunmuş, həmçinin numizmatika elmi haqqında monoqrafiya xarakterli 9 clddən ibarət əsər, həmçinin Azərbaycan numizmatikası haqqında çox qiymətli əsərlər yazıb çap etdirmişdi.İlk dəfə Y.A.Paxomovun rəhbərliyi altında indiki Bakı Dövlət Universitetində Arxeologiya və Numizmatika kafedrası açılmışdı. Muzeyin numizmatika fondunda bu gün 150 mindən artıq sikkə nümunəsi toplanmışdı. Bu qiymətli sikkə nümunələrini Y.A.Paxomovdan sonra, M.Ə.Seyfəddini, Ə.M.Rəcəbli və onların hazırladıqları milli kadrlar tərəfindən öyrənilməkdə və elmə daxil edilməkdədir.

Numizmatika elminin əsas məqsədləri sırasında aşağıdakıları qeyd etmək olar:

❖ Dünya dövlətlərinin dövlətçilik tarixinin maddi sübutları sırasında rəsmi sikkələri üzə çıxarmaq və bu elmin özünəməxsus metodları ilə araşdırmaq;
❖ Əsasən arxeoloji qazıntılardan aşkar edilən sikkə və sikkə dəfinələrinin tərkibinin dəqiqləşdirilməsi ilə dövlətlərin dəqiq xronoloji çərçivələrinin təyin etmək;
❖ Ayrı-ayrı şəxslərin kolleksiyalarında qorunan sikkələrlə tanış olaraq, müstəsna xarakter daşıyan sikkələrin və ya dəfinələrin numizmatik təsvirini təyin edərək, elmə daxil etmək;
❖ Numizmatika elminin metodları vasitəsi ilə sikkə və dəfinələrin metroloji, ikonoqrafik, topoqrafik tədqiqini yerinə yetirmək və xalqların pul işi tarixini öyrənmək;
❖ Numizmatika elminin dünya tərəfindən qəbul edilən terminlərinin elmi izahı üzərində işləri davam etdirərək, ümumi konsessusun əldə

edilməsinə yardım etmək.

**Göstərilən məqsədlərə çatmaq üçün numizmatikanın əsas vəzifələrindən**:

- ❖ Arxeoloji qazıntıların nəticələrini daimi olaraq elmi araşdırmalar vasitəsilə izləməklə, tapıntılar arasında ola biləcək sikkə və sikkə dəfinələrini araşdırmaq, yaxud ayrı-ayrı mütəxəssislər tərəfindən elmə daxil edilən araşdırmaların nəticələri üzərində çalışmaları davam etdirmək:bununla da mümkün ola biləcək hansısa səhvləri üzə çıxarmaq, ən yeni tapıntılarla elmi ehtimalları üzərində araşdırmaları davam etdirmək;
- ❖ Dövlətçilik atributlarından sayılan və demək olar ki, hər zaman az sayda olsa da, aşkar edilən numizmatik materiallar əsasında xalqların tarixinin problemli məsələlərinə müəyyən aydınlıq gətirməyə cəhd etmək;
- ❖ Xalqların pulaqədərki mübadilə vasitələrinin rəngarəngliyini arxeoloji tapıntılarla müqayisə edərək, hər etnosun milli kimlik məsələsinə müəyyən yeniliklər gətirmək;
- ❖ Mədəniyyətlərin qarşılıqlı təsirinin mühüm göstərici atributu statusunu daşıya biləcək maddi mədəniyyət nümunələrindən olan numizmatik materialların hərtəfəli araşdırması ilə millətlərin miqrasiya, assimilyasiya, identifikasiya və digər vacib etnogenetik problemlərinə yeni sübutların əlavə etmək;
- ❖ Metalişləmə və metallurgiya sahəsinin yaranma və genezisinin başlanğıc, yayılma coğrafiyasının, texniki və texnoloji tərəflərinin öyrənilməsində numizmatikanın yerinin və rolunun təyini;
- ❖ Çoxallahlılıq və təkallahlılıq baxımından xalqların din tarixinə numizmatik materialların əhəmiyyətinin sübutları kimi sikkələrin ikonoqrafik analizinə xüsusi yer vermək;
- ❖ Xalqların mədəniyyət və iqtisadiyyat tarixinin yazılmasında numizmatika elminin iştirakı və digər mühüm məqamları qeyd etmək olar.

**Pul və sikkə anlayışları.** Dünya alimlərinin araşdırmalarına görə, numizmatika sözünə ilk öncə qədim Romanın yazılı mənbələrində rast gəlinmişdir. Sözün kökü olan «numizma» latın dilindən yunan dilinə keçərək, müəyyən dəyişikliklərə uğrayaraq “moneta” kimi tərcümə olunmuşdur. Hərfi tərcümədə numizmatika sözü «nomos» sözündən götürülərək “təyin edirəm”, “qanunilşdirirəm” kimi tərcümə olunur. Romada sikkə sözü qədim zaman-

larda «Yuno Moneta» kimi işlədilir və Yunona tanrısının epiteti olaraq, eyni mənanı, yəni "moneta" - "moneo- qoruyuram, xəbər verirəm" felinin kökündən əmələ gəlmişdi. Qədim Roma əfsanələrindən birinə görə, Yunona Tanrısı romalılara onların zəlzələylə sınağa çəkiləcəklərini xəbər vermişdi. Buna görə də romalılar minnətdarlıq əlaməti olaraq, Kapitolinin ən hündür yerində Yunonaya gözəl bir məbəd ucaldır və üzərində latın dilində abidənin Yunona Monetanın şərəfinə tikdirdiklərini bildirən kitabə həkk edirlər. Bununla əlaqədar başqa bir əfsanədə «moneta» sözünün meydana gəlməsinin səbəbi belə göstərilir: «Yunonanın bir Tanrı kimi cürbəcür adları və epitetləri olmuşdur. Amma bunların hamısının əsasında "öyrədən", "xəbərdarlıq edən" mənası dururdu. Konkret olaraq, guya ki, "moneta" epiteti ona zəlzələ ərəfəsində romalılara müraciət edərək Tanrıları bu fikirdən uzaqlaşdırmaq üçün donuz və donuz balalarını qurban kəsməyi məsləhət gördüyü zaman, onlar bu işi yerinə yetirirlər və zəlzələ onlardan yan keçdiyinə görə verilmişdir».

Digər bir əfsanədə Romanın Pirr və Tarrendinallılarla müharibəsi zamanı pula ehtiyacın yaranması ilə əlaqədar romalılar Yunonadan xahiş edirlər ki, onlara məsləhət versin. Yunona onlara xəbərdarlıq edib deyir ki, əgər romalılar heç vaxt pulsuz qalmaq istəmirlərsə, həmişə müharibələri ədalətlə aparmalıdırlar. Romalılar məsləhəti qəbul edir və zaman- zaman sınaqdan keçirirlər. Bu səbəbdən də xüsusi qanun qəbul edirlər. Qanuna görə, pullar Yunonanın şərəfinə tikilən məbəddə zərb olunmalıdır. Lakin bir müddət keçdikdən sonra onun yeni adı "moneta" sözü ayrılaraq, xüsusi eyni adlı Tanrının adına keçdiyinə görə dini məbədlərdə zərb işinə icazə verimişdi.

Bununla da, qədim Roma mifologiyasında yeni bir Tanrı adı meydana gəldi. Onun təsviri Romada zərb olunan sikkələrdə öz əksini tapmışdı. «Moneta» adlı bu Tanrı sikkələrdə dik durmuş, əlində çəki tərəzisi tutmuş və ayaqları altında çoxlu metal külçələri olan bir gözəl qadın obrazı tərzində təsvir edilmişdir. Zaman keçdikcə bu obraz müəyyən dəyişikliyə uğrayır və 3 metalın - qızıl, gümüş və misin göstəricisi şəklində təsvir olunur.

Beləliklə, qədim Romada sikkə və sikkə zərbi işi yalnız Tanrılara aid müqəddəs peşələrdən biri hesab olunur. Sonralar romalılar bir qədər də irəli gedərək sikkələrin hazırlandığı metalları belə Tanrı adları ilə «müqəddəsləşdirirlər». Beləcə gümüş sikkələrin tanrısı müvafiq olaraq «Argentina» hesab edilir. Argentina öz növbəsində mis Tanrısının-Assın oğlu hesab edilir. Qızıl

sikkələrin qoruyucu Tanrısı Aureusla əlaqələndirilmişdi. Hər üç metalın adları günümüzədək numizmatik ədəbiyyatda terminlərin qısaldımış şəklində qeyd olunur.

Sikkələrlə əlaqəli qədim dünyada digər bir əfsanə də mövcuddur. Bu əfsanəyə görə, Promotey insanlara yalnız odu qaytarmamış, həm də onlara ev tikməyi, saxsı qablar hazırlamağı, yazını və hesabı, yəni pulları hesablamağı öyrətmişdi. Elmə bu əfsanəni sübut edə biləcək bir ədəd sikkə nümunəsi məlumdur. Belə ki, Roma imperatoru Antoninin (138-161) hakimiyyəti illərində Romada mis sikkə üzərində Promotey insanı gildən düzəltdiyi məqamda onun başı üzərində Zevsin qızı Minervanın əksi vardır. Minervanın hesabla əlaqəli Tanrı olması barədə mifologiyada məlumat vardır.

**Əmtəə mübadiləsi. Dəyər nəzəriyyəsi.** Bəşəriyyətin tarixində əmtəə mübadiləsindən sikkələrə keçidi ilə bağlı bəzi elmi nəzəriyyələr mövcuddur. Öncə xüsusi olaraq qeyd etmək lazımdır ki, ümumiyyətlə əmtəə təsərrüfatı forması natural təsərrüfatın əksi kimi yaranmışdır. Məlumdur ki, təsərrüfat tiplərinin sonrakı təkamülü ictimai əmək bölgüsünü yaratmışdı. Ictimai əmək bölgüsü-bir məhsul və ya məhsulun bir hissəsini istehsal etmək üçün ixtisaslaşmasıdır. İctimai əmək bölgüsünün formaları aşağıdakılardır:

- ❖ Maldar tayfaların əkinçilikdən ayrılması birinci ictimai əmək bölgüsünü yaradır.
- ❖ İctimai sənətkarların formalaşması və sənətkarlıq sahələrinin meydana gəlməsi ikinci iri ictimai əmək bölgüsünü yaradır.
- ❖ Tacirlərin bir sinif kimi formalaşması üçüncü iri ictimai əmək bölgüsünü yaradır.
- ❖ Natural təsərrüfatdan fərqli olaraq, əmtəə təsərrüfatı istehsalın elə bir təşkili formasıdır ki, burada istehsal olunan məhsullar ancaq mübadilə sahəsinə daxil olur. Əmtəə təsərrüfatının yaranması üçün aşağıdakı şərtlər tələb olunur:
- ❖ İctimai əmək bölgüsü. Əmtəə istehsalı şəraitində müxtəlif təsərrüfat sahələri fəaliyyət göstərir. Bu təsərrüfat sahələri müxtəlif növ məhsul istehsalı üzrə ixtisaslaşırlar. Sənaye kənd təsərrüfatından ayrılır. Sənaye istehsalının müxtəlif sahələri yaranır.
- ❖ Mülkiyyət formaları. Istehsal vasitələri üzərində xüsusi mülkiyyətin olması əsas amillərdən biridir. Əmək məhsulu olan əmtəə istehsal vasitələri üzərində olan mülkiyyət sahibinə məxsusdur. Bu səbəb-

dəndir ki, sahibkar öz məhsulunu əmtəə kimi digər zəruri əmtəəyə dəyişdirməlidir, yəni məhsul mübadilə olunmalıdır.

- İstehsalçılar arasında iqtisadi əlaqə forması kimi əmtəə mübadiləsi olmalıdır.
- Təsərrüfatın bazarla tənzimlənən xarakteri yaranmalıdır.
- Ümumiyyətlə hər bir istehsal olunan əmtəənin 2 xassəsi vardır: istehlak dəyəri, mübadilə dəyəri:

Əmtəədə təcəssüm olunan və mübadilə zamanı təzahür edən ictimai əmək əmtəənin dəyərini yaradır. Bərabər dəyərə malik olan əmtəələr bir-birinə mübadilə edilir; yəni mübadiləyə məruz qalan əmtəələr ekvivalentdirlər.

Deməli, əmtənin dəyəri istehsal prosesində əmək vasitəsilə yaradılır. Mübadilə prosesində dəyər bir əmtəəni digər əmtəəyə dəyişdirəndə təzahür edir. Buna mübadilə dəyəri deyilir. Dəyərin ilkin inkişaf forması sadə dəyər formasıdır. Məsələn, bir balta = 20 kq. taxıl. Burada baltanın dəyəri 20 kq. taxılda ifadə olunmuşdur. Taxıl baltanın dəyərini əks etdirir. Baltanın dəyəri taxılın istehlak dəyərində ifadə olunmuşdur; çünki həm taxılın, həm də baltanın istehsalına əmək sərf olunmuşdur. Bu iki əmtəənin bir-birinə bərabər tutulması o deməkdir ki, onların hər ikisinin istehsalına sərf olunmuş əmək bərabərdir. Əmtəələrin bir-birinə bərabər olmasının əsasını bu əmtəələrdə təcəssüm edən bərabər əmək sərfi təşkil edir. Öz dəyərini digər əmtəədə ifadə edən əmtəə (balta) nisbi dəyər forması, öz dəyərini baltanın istehlak dəyərində əks etdirən əmtəə (taxıl) ekvivalent dəyər formasıdır.

İlk mübadilə təsadüfi xarakter daşımış və hansısa növ məhsulun başqa növ məhsula dəyişdirilməsi olmuşdur. Dəyərin belə formasına sadə və ya təsadüfi dəyər forması deyilir. Birinci iri ictimai əmək bölgüsünün yaranması ilə mübadilə müntəzəm şəkil alır. Məsələn, maldar tayfalar maldarlıq məhsulları istehsal etdikcə, əkinçi tayfaların və sənətkarların istehsal etdiyi məhsullara ehtiyacı artır. Beləliklə, bu tayfalar arasında olan mübadilə müntəzəm xarakter daşıyır. Belə bir tarixi inkişaf nəticəsində dəyərin ikinci mübadilə forması tam və ya dolğun dəyər forması yaranır.

Dəyərin inkişafının ikinci formasında dəyər öz təcəssümünü bir neçə əmtəənin istehlak dəyərində tapır. Lakin bu prosesdə də əmtəələr əmtəələrə dəyişdirilir. İctimai əmək bölgüsünün və əmtəə istehsalının inkişafı, onların dərinləşməsi, bir əmtəənin digər əmtəəyə dəyişdirilməsi qənaətbəxş olmur.

Mübadilə prosesi çətinləşir. Məsələn, ayaqqabı sahibinin baltaya, balta sahibinin taxıla olan ehtiyacı artır.

**Ümumi dəyər forması** onunla xarakterizə edilir ki, bütün əmtəələr bir əmtəəyə, yəni ümumi ekvivalent rolu oynayan əmtəəyə mübadilə olunur. Ayrı- ayrı zamanlarda xalqların tarixində yerləşdikləri məkana və təsərrüfat tiplərinə görə dəri, xəz, duz və s. müxtəlif yerlərdə ümumi ekvivalent rolunu oynamışlar. Müxtəlif əmtəələrin ümumi ekvivalent rolunu oynaması genişlənməkdə və artmaqda olan bazar tələbatını ödəyə bilmir və bununla da əmtəə təsərrüfatında ziddiyyətlər yaranır.

Beləliklə, müəyyən bir əmtəə uzun müddət ümumi ekvivalent rolunu oynamaqda passivləşir və dəyərin pul forması yaranır, yəni ümumi ekvivalent rolu oynayan əmtəə öz yerini dəyərin pul formasına verir. Pul rolunu müxtəlif metallar yerinə yetirməyə başlayır. Nəhayət, gümüş, qızıl və mis öz xassələrinə görə tədavüldən bütün özündən əvvəliki ekvivalentləri sıxışdırıb çıxarır. Çünki qızıl öz dəyərini həmişə saxlayır, paslanmır, xarab olmur, çəkisi və həcmi əlverişlidir, bölünmə xassəsinə malikdir, istənilən yerə aparıla bilir. Təxminən eyni xüsusiyyətlərə gümüş də malikdir. Mis və digər ucuz mütallardan hazırlanan dəyər vahidləri zaman keçdikcə yalnız xırda dəyər vahidi rolunu oynağa başlamışlar.

**Pul-sikkə sistemləri.** Pul sistemi - ölkədə pul dövriyyəsinin tarixən təşəkkül tapmış və qanunvericiliklə təsbit olunmuş quruluşudur. Pul sisteminin əsas elementi olan pul iqtisadi kateqoriyadır. Pullar xüsusi növ əmtəə olub, bir sıra funksiyaları yerinə yetirsə də 5 əsas funksiyanı həyata keçirən ümumi bir ekvivalentdir:

**1.Dəyər ölçüsü** - müxtəlif mal və xidmətlərin dəyərlərinin ölçülməsi və müqayisə edilməsi üçün istifadə olunur. Malların pulla ifadə olunmuş dəyəri onların qiymətini təşkil edir. Qiymət miqyası elə bir mexanizmdir ki, dövlət bu mexanizm vasitəsilə pulların bu funksiyasını reallaşdırır;

**2.Yığım vasitəsi** - pulların istənilən anda öz nominal dəyərini itirmədən ödəniş vasitəsi kimi istifadə oluna bilmək qabiliyyətidir, yəni mütləq likvidlik xüsusiyyətini daşıyır;

**3.Dövriyyə vasitəsi** - pulların mal və xidmətlərin hərəkətində vasitəçi rolunu oynamaq qabiliyyəti, həmçinin digər ödəniş əməliyyatlarının həyata keçirilməsi üçün istifadə olunma xüsusiyyəti vardır;

**4.Ödəniş vasitəsi** - mal və xidmətlərin kreditlə satışında, yəni möhlətli ödəniş zamanı meydana çıxır. Bu funksiyanın mənbəyini kredit və bu iqtisadi münasibət əsasında əmələ gəlmiş borc öhdəlikləri təşkil edir;

**5.Beynəlxalq pullar** (ticarət pulları) - mal, xidmət və kapitalın beynəlxalq dövriyyədə istifadə olunmaq imkanı, bütün funksiyaları təkcə bir dövlət çərçivəsində yox, bütün dünya birliyi çərçivəsində yerinə yetirməsidir. Müasir mərhələdə pul vahidlərinin heç biri göstərilən funksiyanı tam mənada yerinə yetirmir.

**Pulların bir neçə növü var.** Natural pullar-mal dövriyyəsinin ilkin inkişaf dövründə istifadə olunan ümumi ekvivalentlərdir Bunlardan balıq-qulağlılar, xəzlər, qiymətli metallar və digərlərini misal kimi göstərmək olar. Natural pulların təkamülü bir neçə mərhələdən keçmişdir.

Ədədlə sayılan pulların bəsit formaları nə bölünmə qabiliyyətinə, nə də bircinsliyə malik idi. Dəyərin hesablanması kobud şəkildə, bölünməz və keyfiyyətcə qeyri identik olan vahidlərdə - pul rolunu oynayan malın dənə hesabı ilə aparılırdı. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu cür dəyər vahidi rolunu oynayan və metal növlərindən hazırlanan əmtəələr ilk dəfə Mesopotamiyada, Misirdə m.ö.III minilikdə, o cümlədən Azərbaycanda Yaloylutəpə mədəniyyətində alimlər tərəfindən təsbit edilmişdi. Ədədi pullardan metal pullara keçid ictimai əmək bölgüsünün daha yüksək mərhələsində sənətkarlığın əkinçilikdən ayrıldığı, mal istehsalının və müntəzəm mal mübadiləsinin təşəkkül tapdığı zaman həyata keçmişdi.

Pulların sikkə forması ictimai əmək bölgüsünün sonuncu üçüncü səviyyəsində geniş yayılmışdır. Bu dövrdə mübadilənin, yəni bazar münasibətlərinin inkişafı nəticəsində ticarətdə vasitəçilər sinfi - tacirlər sinfi yaranmışdır. Daha sonra həqiqi pullar - nominal dəyərləri onların tərkibindəki metalın dəyərinə əsasən uyğun olan tam qiymətli pullar meydana gəldi. Pərakəndə dövriyyədə xidmət göstərmək məqsədilə bəzən tam dəyərə malik olmayan xırda sikkələr - billonlar kəsilirdi. Bu pulların nominal dəyəri onların tərkibindəki metalın dəyərini və pulun kəsilməsi ilə bağlı xərcləri üstələyirdi.

**Kağız pullar və kredit pullar** *s*imvolik pullar silsiləsindən hesab olunaraq, bonistika elmi tərəfindən öyrənilsə də, numizmatika elminin bir qolu kimi yarnmışdı. Kağız pullar dövlət hakimiyyətinin qüvvəsinə əsaslanaraq, dövriyyədə qızılı və gümüşü əvəz edir və ilkin olaraq nominal

üzrə nəcib və qiymətli metallarla mübadilə oluna bilirdi. Bu pullar üzərinə məcburi kurs qoyulan, adətən metala mübadilə olunmayan və dövlət tərəfindən öz xərclərinin ödənilməsi üçün buraxılan pul nişanlarıdır; yəni dəyərin nominal işarəsi olan dəyər vahidləridir. Tarixən onlar qızıl və gümüş nişanları kimi meydana gəlmişdir. Kredit pulları müvəqqəti borc münasibətlərinin inkişafı nəticəsində yaranmış, yəni həm uyğun şəkildə rəsmiləşdirilmiş kağızlar şəklində (banknot, çek, veksel kimi qiymətli kağızlar), həm də hesablardakı qeydlər şəklində təzahür etmişdi. Bu cür qiymətli kağız pullardan fərqli olaraq, kredit pulları - xəzinə vasitəsi yarandığı andan təkcə qızıl nişanı kimi yox, kredit nişanı kimi də çıxış etmişdi.

Beləliklə, kredit pulları borc kapitalının kreditorlarla-borcalanlar arasındakı hərəkətini əks etdirir və özünün mövcudluq formalarını əldə edir.Pul vahidi kimi pulların növləri, emissiya sistemi və kredit aparatı ilə yanaşı pul sisteminin elementləridir.

**Pul sistemi - bütün malların qiymətlərinin ölçülməsinə və ifadə olunmasına xidmət edən və qanunverici şəkildə müəyyənləşdirilmiş pul nişanlarının ümumiləşdirilmiş əlamətlərə məxsus quruluşudur.**

**Emissiya sistemi** - ölkənin qanunu ilə müəyyənləşdirilmiş emissiya və pul dövriyyəsi qaydasıdır.

Pul sisteminin əsasında pul dövriyyəsi yerləşir: Pul dövriyyəsi - mal və xidmətlərin dövriyyəsinə, kapitalın hərəkətinə xidmət edən pulların nağd və qeyri - nağd formada kəsilməz hərəkətini nəzərdə tutur. Pul dövriyyəsi iki sferaya ayrılır: nağd və qeyri-nağd. Nağd dövriyyə banknotlarla, banknot biletləri ilə, xəzinə biletləri ilə və ya xırdalanmış metal pullarla təmsil olunan nağd pulların hərəkətini nəzərdə tutur. Qeyri-nağd dövriyyə - nağd pulların iştirakı olmadan dəyərin hərəkətini göstərir və pul vəsaitlərinin kredit müəssisələrinin hesablarına köçürülməsi vasitəsilə, həmçinin qarşılıqlı tələblər hesabına həyata keçirilir.

Pulların növlərindən asılı olaraq, pul sistemləri metal dövriyyə sistemlərinə və kağız-kredit dövriyyə sistemlərinə bölünürlər.

**Pulaqədərki əmtəə mübadilə vasitələri. pulun hazirlanma texnologiyası.** Dəmir dövrü zamanı meydana gələn bəzi erkən qədim dövlətlərdə pulun ortaya çıxması xarakterik hala çevrildiyini xüsusi olaraq arxeoloji qazıntıların nəticələrində dünya elmi ictimaiyyəti izləməkdədir. Bu qəbildən,

Yunan və Kiçik Asiya şəhərlərində qızıl və gümüşdən kəsilmiş sikkələr miladdan öncə VII əsrdən artıq işə düşmüşdü. İkiçayarasında sikkələrin zərbi və istifadəsi Selevkilərin zamanından tam olaraq intensiv şəkildə işə düşməsi alimlər tərəfindən təsdiqlənmişdi. Ehtimal etmək olar ki,ilk öncə göstərilən ərazilərdə pulaqədər mübadilə ödənişi üçün müxtəlif həcmli, qəlibdə hazırlanmış gümüş külçələrdən istifadə edilirdi. Bəzi zamanlarda gümüşlə bərabər qızıl və qurğuşundan da eyni məqsədlə istifadə edilmişdi.

III-II minilliklərdə mübadilədə cürbəcür, məhz ticarət üçün istehsal edilmiş əmtəələrdən istifadə edilirdi. Bu əmtəə mübadilə sisteminə daha çox xırdabuynuzlu heyvanlar davar sayı ilə tənzimlənirdisə, sonralar mal dəyişmə ticarəti- yəni əsas vahid olan pullar ortaya çıxarıldı.Bununla da, pullar tacirlərin ilk zənginlik simvollarına və əsas silahına çevrildi. Pul istehsalçılarının yaratdıqları əmtəələr - dairəvi formada metal növlərindən hazırlanan sikkələr dəyər vahidinə çevrildi.

**Pul sözünün ilk işləndiyi epiqrafik kitabə barədə**: Naxçıvanda İlandağ-Haçadağ üzərində olan kitabədə olan bəzi sözlər linqvistlər tərəfindən araşdırılaraq, maraqlı faktları üzə çıxarılmışdı. Məsələn, Amerikada yaşayan azərbaycanlı alim. T.Azərtükün araşdırmalarında bu kitabə belə izah edilir "Haldinin sazişi nə oyundursa, Sərduri bərk qəzəblənib Beh mini aşa, bu latu oynu qızışa, bil ki, ərşini əyilib, xain harunun ərşini əyə ha (qanunun) Onda Ani əyanları gör necə coşub daşacaqlar. Doğrudan da düz deyiblər ki, xainin özünü sözündən dönən anda gör (oğrunu oğurluq üstdə tut). Bütün mayanı girov qoydu Haldiyə, beh pulu kimi, axı niyə bütün əlindən mayanı beh verdi Sərdura Ərdi (gəlib çatdı) sabahısı gün Haldiyə (Sərdar) indi geri aldığın beh pulundan Haldiyə (Tanrı yolunda) savab pulu sal və sil müqəddəs pir qarşısında borcunu" Mətndəki **maanu-mayam-** maya-ilkin kapital anlamını; Teruni-terhun-zamin-girov qoymaq Pulle-pul uadi-uyədi-pul yerləşdirmək anlayışı kimi alim tərəfindən tərcümə olunur.

Bu kitabədə ilk dəfə biz pul sözünü dəyər vahidi kimi yazılışını görürük. Daha konkret ifadə etsək, kitabədə bu cümlə belə yazılıb: **"ur puluni suab** (savab) **haldiye, sil aya pulum - ur** (ver) yəni, pulunu savab Haldiyə, **sil aya** (müqəddəslik) pulun - öz girovunu geri aldı, ədalətli ol. Haldi ilə hesabını bitir, onun müqəddəsliyini ödə".

Beləliklə, biz Ön Asiyanın önəmli starateji məkanlarından olan Naxçıvan ərazisindəki İlandağdakı kitabədə aramey əlifbasında ilk dəfə

bütün dünya çapında iqtisadiyyat tarixi üçün çox vacib olan və günümüzədək türk xalqlatının leksikologiyasında yaşadılan bəzi terminlərə, o cümlədən, pul, maya, alqı-satqı, pulla sədəqə kimi sözlərə rast gəlirik. Bu kitabə onu ilk dəfə aşkar edən və sonralar təyin edən rus alimlərinin fikrincə m.ö.800-750-ci illərə aiddir.

Görünür, yalnız az miqdarda, amma dəyəri çox olan pulları kisələrdə daşıyan tacirlərin heç ağlına da gəlmirdi ki, qısa bir müddətdən sonra bu dəyirmi metallar insanlar arasında əsas "ibadət" mənbəyinə çevriləcəklər, məhz bu pullara görə qırğınlar, müharibələr və insanlığa qarşı digər faciələr başlayacaqdır.

Kağız pullardan çox - çox əvvəllərdə türklərdə qiymətli kağız status daşıyan çeklərin işlənməsi barədə Z.V.Toğan, ümumiyyətlə, ticarətdə işlənən müxtəlif ölçülü metal külçə, sonralar isə pul-sikkə sistemi olan vahidlərin Ön Asiyadan, Hind və Çin ölkələrinə keçdiyini yazır. Müxtəlif dillərdə "pul" anlamlı sözlərin heyvan dərisi ilə bağlı olması qətidir. Bu isə yalnız dərinin dəyərindən deyil, heyvanların sayının dəqiqləşdirilməsindən xəbər verir. Məsələn, latın dilində pekus-qaramal, pekunya-pul, qədim hind dilində rupa-qaramal, rupi-pul mənasını daşırıyır. Bu dildən rus dilinə keçən rubl-rubit - kəsmək, doğramaq anlamanı izah edir. Göstərilən bu misalların hamısında kəsmək, qaramalın kəsilməsi və ən əsas rus dilindəki bütün əmtəələrin adı "tovar" sözü davar-qoyun-quzu sözündən götürülərək, günümüzədək bir çox dillərdə, xüsusilə slavyan xalqlarının dillərində yaşamaqdadır. Eynilə türk dillərində bütün əmtəələr ümumiləşdirilmiş bir sözlə-mal sözü ilə tam anlamda yaşamaqdadır. Hal - hazırda Türkiyə türkcəsində bütün pulların ümümiləşdirilmiş adı olan para sözü eynilə paralamaq, bölmək sözünün qısaldılmış formasıdır, yəni demək olar ki, qədim dünyanın insanları erkən pulların adlarını metal növlərinin kəsilməsi, paralanması,parlaqlaşdırlması, bölünməsindən sonra hazırlanan dəyər vahidlərini eyni məna ilə adlandırmışlar. Bu fakt öz - özlüyündə erkən dövlətlər arasında hələ sərhədlərin, gömrüklərin, pul mübadiləsinin olmadığı, pul istehsalının eyni funksiyalarla əmələ gəldiyini, yaxud da ticari-mədəni əlaqələrin yarandıgını sübut edən önəmli faktlardan hesab oluna bilər.

Heyvan dərisinin adına uyğun "dəri" sözü hələ Əhəmənilərdə ilk gümüş və qızıl sikkə nominallarında "darik" sözündə qorunmuşdu.Bu sözün əhəməni hökmdarı I Daranın adı ilə də əlaqələndirilməsi ehtimalları var-

dır.Amma adıçəkilən nominal adı bu hökmdardan əvvəlkilərin istifadə etdiyi sikkələrin adına da aid olduğunu unutmaq olmaz. Monqol hökmdarı Qazan xanın pul islahatından sonra dövriyyəyə buraxılmış təngə sözünün ilk dəfə yazılı şəklinə Persepol yazılarında "danaka" kimi rast gəlinmişdir. Bizim dilimizdə hələ də tənəkə sözü metaldan hazırlanan yüngül çəkili, kiçik ölçülü əşyaların ümüumiləşdirilmiş forması kimi istifadə edilməkdədir. Bu söz sonralar Rusiya dövləti yarananda denqa-denqi kimi bütün pulların ümumi adına çevrilərək leksikologiyada yaşmaqda davam edilir.

İnsanlar arasında pulaqədər bir çox məhsullar mübadilə vasitəsi rolunu oynamışlar. Əmtəə funksiyalı mübadilənin dünyanın bir çox ərazilərində ibtidai icma quruluşunun üst paleolit dövründən mövcud olduğu elmi ictimaiyyətə məlumdur. Zaman keçdikcə insanlar arasında mübadilə mütəmadi xarakter daşıdıqca, artıq şüurlu insanlar əmtəə-pul münasibətlərini yaratmağa başlamışlar və "primitiv pullar" meydana gəlmişdir. Bu cür "primitiv pullarla" keçən yüzillikdən nəinki numizmatlar, həmçinin iqtisadiyyat tarixi ilə məşğul olanlar, etnoqraflar, arxeoloqlar da çox ciddi məşğul olurlar.

Beləliklə, insan cəmiyyəti inkişafının ən aşağı pillələrində "natural" mübadilə mövcud olmuşdu. Erkən tunc dövründən etibarən - birinci ictimai əmək bölgüsü nəticəsində bu cür mübadilə daha da geniş yayılır. Bu gün numizmatika elminə cürbəcür əmtəə-pul növləri məlumdur. Onları ümumiləşdirərək aşağıdakı qruplara bölmək mümkündür.

- **Ərzaq məhsulları və istehlak malları** - Çindən gətirilən çay, ipək, çini qablar, Hindistandan,İndoneziyadan-duz, Meksikadan kakao və s.
- **Əmək alətləri və dinlə əlaqədar əşyalar** - Yunanıstandan baltalar, Konqonqdan nizə ucluqları.
- **Bəzək əşyaları** - Hind və Sakit okeandan kauri-balıqqulaqları, Azərbaycandan tunc bilərziklər və üzüklər və s.

Bəzi əmtəə-pul nümunələri pula çevrilənə qədər çox maraqlı inkişaf yolu keçmişlər. Çində çox qədimdən mübadilə vasitəsi kimi istifadə edilən baltalar, sonralar pul zərbi zamanı öz kiçildilmiş formasında eyni funksiyanı daşımışdır. "Balta formalı" Çin pulları istisna təşkil etmirlər. Onlarla yanaşı, xış formalı, bıçaq formalı pullar da elmə məlumdur. Yunan adası Tenedosda m.ö.550-470-ci illərdən m.ö.189-cu ilədək zərb olunan obol, didrxama və tetradraxamaların üstündə 2 balta şəkli zərb olunurdu.

Homerin məşhur "İliada" əsərində bəzi mis pullar və onların üzərindəki öküz şəkli haqqında məlumat vardır.

Dünyanın bir çox sivilizasiyalarında maldarlığın və əkinçiliyin inkişafı ilə əlaqədar bu sahələrə aid əmtəələr uzun zamanlar mübadilə vasitəsi olmuşlar. Məsələn: İtaliyanın m.ö.dövrlərində, yəni qədim italyan dilində pul sözü "peçuma" demək idi. Bu sözün hərfi tərcümədə sinonimi mal-qara kimi istifadə edilirdi. Rusiyada erkən orta əsrlərdən slavyanlar pul sözünü "skot" kimi istifadə edirdilər, sözün cəm şəkli "skotnica" isə xəzinə, dəfinə mənasını daşıyırdı.

Digər bir maraqlı fakt şərq ölkələrində iqtisadi inkişafın ən yüksək pilləsini əhatə edən m.ö.II-I minilliklərə aiddir. Belə ki, Avropanın dini məzmunlu-teoloji ədəbiyyatında XVII əsrə qədər "kapitalizm" dedikdə onu ictimai quruluş kimi Babil dövləti ilə əlaqələndirirlər. Uqaritdən XIX əsrdə tapılmış gil kitabələrdə "tamkaru" adlı xüsusi bir insan qrupundan danışılır. Tam tərcümədən sonra məlum olmuşdu ki, tamkaru ticarətlə məşğul olan insanların ümumi adıdır. Onlar hökmdar saraylarını və məbədələrini lazım olan əmtəələrlə təmin edirdilər. Bu insanlar hakimiyyət dairəsinə daxil olaraq, çox varlı idilər. Onlar nəinki istehlak mallarının alqı- satqısı, həmçinin Kəngər-Fars körfəzi və Aralıq dənizi hövzəsində yerləşən ölkələrdən Babilə, Mesopatamiyaya mal gətirilməsi üçün birləşib, gəlirləri və məsuliyyətləri bölüşüdürürdülər. Həmin mətnlərdə digər tez-tez təkrar olunan ad-karudur. Karu dünyada yazılı məlumatlarla göstərilən ilk ticarət müəssisəsidir ki, onun idarə mərkəzi və hüquqi statusu sənədləşdirilmişdi. Bu işlərlə məşğul olan tacirlər Anadoluda qazıntılarla aşkar edilən Kaniş şəhərində toplaşırdılar. Onlar özləri üçün xüsusi yaşayış məskənləri tikdirirlər. Bu qəsəbə tipli məskənlər əsasən ticarət yollarında, daha dəqiq Assuriyaya gedən yolda salınırdı. Bütün bu ticarət əməliyyatları haqqında yazılar olan gil lövhələrdən 16 minə qədəri Kanişdən və Boğazköydən; çox az hissəsi isə Anadoludan kənarda tapılmışdı. Maridən tapılan yazılarda beynəlxalq ticarət haqqında məlumatlar vardı. Kitabələrin məlumatlarına əsasən Maridən ticarət yolları Kəngər-Fars körfəzini və onun Dilmun adasında yerləşən ticarət mərkəzini Fərat çayı sahillərini keçərək, oradan da Oronta və Aralıq dənizi sahillərinə gedib çıxır. Mari əsasən mərgümüşün alınıb-satıldığı ticarət məkanıydı. Miladdan öncə I minilliyə aid bu cür faktları sübut edən

maddi-mədəniyyət qalıqlarının sayı ildən-ilə qazıntılar nəticəsində daha da artır.

Azərbaycanın numizmat alimlərinin ehtimalına görə, burada pulaqədər kauri-qarnıyarıq balıqqulaqlarından istifadə olunmuşdu. Lakin nəzərə alsaq ki, Hind və Sakit okeandan Azərbaycana qədər yol çox uzundur, digər tərəfdən bu balıqqulaqları adı çəkilən sularda belə nadir tapıntılar sırasına daxildir, bu ehtimal özünü doğrultmur. Biz arxeoloji qazıntıların nəticəsinə görə güman edirik ki, Azərbaycan və ümumiyyətlə, Cənubi Qafqaz ərazisində pulaqədər xronoloji ardıcıllıqla aşağıdakı əmtəələrdən istifadə edilmişdi.

- ❖ Yerli çaxmaqdaşından - Tağlardan, Qobustandan, Damcılıdan aşkar edilən əmək alətləri buna sübutdur. Xüsusilə Tağlar düşərgəsindən tapılan əmək alətlərinin analogiyalarının Ön Asiyadan tapılması faktı buna sübutdur.
- ❖ Boyalı qablar - Xocalı-Gədəbəy, Talış - Muğan, Naxçıvan-Qızılvəng mədəniyyətlərinə aid edilən boyalı qablar həm daxili mübadilədə istifadə edilmiş, həm də digər Asiya ölkələri ilə ticarətdə istifadə edilmişdir .
- ❖ Tunc bilərziklər və üzüklər. Əsasən qəbir abidələrindən hər il saysız-hesabsız sayda aşkar edilir. 1:4:8:12 nisbətində çəkidə olaraq, heç bir bəzək funksiyasına malik deyillər. İlk hesabata alınmış belə tapıntılar Daşkəsən, Gədəbəydə almanlar tərəfindən aşkar edilmişdir.
- ❖ Maldarlıqla bağlı iri və xırdabuynuzlu heyvanlar. Bu günə qədər bizim leksikologiyamızda hər hansı bir əmtəə ümumiləşdirilmiş, semantik olaraq mal kimi adlandırılır. Yəqin ki, neolit inqilabından başlayaraq, mübadilə vasitəsi kimi mal-qaradan da istifadə edilmişdi.

Qeyd etmək lazımdır ki, numizmatika elmində "əşya dəfinələri" anlayışı mövcuddur. Bu cür dəfinələr əslində puladaqədərki insan cəmiyyətinin inkişaf pilləsinin iqtisadi göstəricisi hesab edilir. Keçən əsrdə Xankəndində aparılan arxeoloji qazıntılar zamanı içərisində kauri-balıqqulağı yığılan gil qab aşkar edilmişdi. Naxçıvan ərazisində keçən il son tunc, erkən dəmir dövrünə aid bir qəbir abidəsindən 30 ədəd təsərrüfatda istifadə edilməyən müxtəlif funksiyalı gil qablar aşkar edilmişdi. Bütün bu və digər faktlar Azərbaycanın qədim sivilizasiyalar arasında öz yerinin olmasının və onun göstəricisi kimi iqtisadiyyatın da

burada çox qədim zamanlardan inkişafda olmasını sübut edir.

## Sikkənin istehsal üsulları, sikkə materialları



**1. Tökmə üsulu**: Dünyanın ən qədim sikkələri olan Lidiyanın elektradan hazırlanan nominalları bu üsulla qızıldan hazırlanmışdı. Bu üsulla hazırlanan sikkələrin daha qədim olması numizmatika elmində qəbul edilmişdir. Belə sikkə nümunələrindən Roma «ass»ları və onların ayrı-ayrı nümunələri tökmə üsulu ilə misdən hazırlanırdı, yəni eyni vaxtda bir neçəsi xüsusi formalara qaynadılmış metal şəklində gildən hazırlanan qəliblərə tökülür, sonra bir az soyuduqdan sonra çıxarılır və soyudulurdu.

Britaniya muzeyində saxlanılan 4 mis ass kəsilməmiş, birləşmiş şəkildə ekspozisiyada saxlanılır. Roma tarixində ikinci dəfə bu üsulun sikkə işində tətbiqi III əsrdə bərpa edilmişdi. Fərq onda idi ki, bu zaman bu üsul artıq gümüş pullara tətbiq edilirdi. Avropa ölkələrindən Fransada, İsveçrədə, İngiltərədə III əsrə aid edilən gildən hazırlanan xüsusi formalarda tökmə sikkələr üçün istifadə edilməsi elmə məlumdur.

Beləliklə, numizmat-alimlərin fikrincə Romada m.ö. 217-ci ilə qədər mis sikkələr, əsasən tökmə üsulu ilə hazırlanıb dövriyyəyə buraxılsa da, sonralar zərb üsuluna keçid olmuşdur.

**2.** Daha uzun ömürlü və 2000 ildən artıq cüzi dəyişikliyə uğrayan üsul - **zərb etmədir**. Bu texnikaya əsasən sikkələr insan əməyinin məhsulu olaraq, tək-tək hazırlanırdı. Zərbetmə prosesində zindan, çəkic, qısqac, kəlbətin və üzərində hazırlanacaq sikkənin hər iki üzü olan hazır möhür-ştempellərdən istifadə edilir. Elmi ədəbiyyatda zərbetmə işinin aşağıdakı əməliyyatlardan ibarət olduğu göstərilir:

**I**. Sikkə zərbi üçün lazım olan qədər metal xüsusi sobalarda yüksək temperaturda əridilirdi və bununla da, onun təbii tərkibindəki hər cür qarışıqlar təmizlənirdi.

- ❖ Əridilmiş kütlə uzunsov formalara salınırdı.
- ❖ Daha əlverişli iş prosesinə keçid üçün bu kütlədən hələ isti-isti mil kimi uzun çubuqlar hazırlanırdı.

- ❖ Bu çubuqvari metalı müəyyən ölçüdə hissələrə bölürdülər.
- ❖ Kəsilmiş hissələri zindanın üzərində kəlbətin, qısqac və çəkic vasitəsi ilə dairəvi formaya salırdılar.
- ❖ Alınan dairəvi formada olan hissələr xüsusi məhlulun içərisində mütləq ağardılırdı.
- ❖ Ağardılmış dairələri xüsusi tərəzilərdə lazımı çəkiyə salırdılar, yəni artıq çəki kəsilib götürülürdü. Hər bir dairənin diametri, hətta kənar çərçivələri-yəni «qurt» dəqiqləşdirilirdi.

**II.** Sikkənin əsas əlaməti olan avers və reversin, yəni üz və əks tərəfin möhürləri-ştempelləri vurulması işinə başlayırdılar. Burada artıq sikkə zərbi işinin hamıdan çox məsuliyyət daşıyan işçiləri (əksər hallarda 2 nəfər) alt tərəfin ştempellərini zindanda yerləşdirir və qanunauyğunluğa əsasən, sikkənin üz qatının-aversinin əksi alınırdı. Bu proses iki dəfə yerinə yetirilirdi. Bununla da sikkə zərbi işi son mərhələyə çatırdı. Zərb olunan sikkələr xüsusi bir yerə yığılırdı və quruduqdan sonra sayılıb götürülür və məsul şəxslərə təhvil verilirdi.

**Sikkə zərbi tarixi haqqında.** Sikkələrin hazırlanma üsullarının təsviri nə yunan, nə də latındilli ədəbiyyatda aşkar edilməmişdir. Buna baxmayaraq, bu prosesin geniş elmi təsviri XIX əsrdə rus numizmat-alimi A.K.Markov tərəfindən verilmişdi. Müəllif m.ö.I əsrin I yarısında Romada dövriyyədə olan sikkələrin «magistr» vəzifəli Fit Korizeyin adlı şəxsin adından zərb edildiyini göstərir. Belə sikkələrin birinin əks tərəfində, müəllifə görə, zərb işinin əsas elementləri təsvir edilmişdi. Lakin A.K.Markov bu sikkənin təsvirini verməmişdi. İkinci belə bir sikkə-yəni üzərində zərb işinin təsviri olan nümunə Romada hökmdar Pestum tərəfindən zərb edilməsi haqqında eynilə elmi ədəbiyyatda yalnız nəzəri təsvir vardır.



Qədim dünya tarixində fasiləsiz işləyən zərbxanaların dövlət tərəfindən rəsmi olaraq təsis edilməsi m.ö.486-cı ildə baş vermişdi. Bu zərbxana Yunona məbədinin yaxınlığında tikilmişdi. Bizim eradan əvvəl 486-cı ilə qədər, konkret Romada sikkələrin hansı zərbxanada hazırlandığı haqqında heç bir məlumat yoxdur. “Zərbxana” məfhumu ilk dəfə yunan filosofu, alimlərinin - Siseronun, Marrabiyanın, liviyanın əsərlərində qeyd olunmuşdu.

Bu məlumatlardan ən maraqlısı Siserona aiddir. O yazırdı: “Avqust Senata aid qızıl və gümüş sikkə zərbi hüququnu Senatdan aldıqda və bu işi öz səlahiyyəti çərçivəsinə daxil etdiyi zaman köhnə zərbxanada yalnız mis sikkələr zərb edirdilər”.

Orta əsrlərdə Şərq ölkələrinin sikkə işi haqqında ilk dəfə əl-Bəlazuri qələmə aldığı “An-Nüqt” adlı əsərində məlumat vermişdi. Bu əsərə istinad edən professor M.Ə.Seyfəddini zərbxanada çalışan sənətkarlar haqqında aşağıdakı məlumatları verir:

1. **Sina**-zərbxananın bütün işçiləri belə adlanırdı.
2. **Zarib**-sikkələrin hər iki üzünə möhür-ştempel vuran şəxs.
3. **At-tabbaeyn**- nəqqaş.
4. **Ashab-əl-əyar**- əyarı təyin edən nəzarətçi.
5. **Amil**- vergi yığan məmur.
6. **Mühtəsib**-zərbxananın bütün iş prosesinə cavabdeh olan şəxs.

Adı çəkilən əsərin yazıldığı zaman dövlətdə zərbxana işi ilə «divan-i dar-əz-zərb» adlı xüsusi qurum məşğul olurdu.

Zərb edilən hər 100 dirhəmdən 1 dirhəm, tüstüyə görə ümumi gəlirin 0.01%-i tutulurdu. Bu vergi birbaşa divanxananın xəzinəsinə çatırdı. Bundan başqa, amil hər 100 misqal təmizlənmiş metal üçün zərbxanadan 10 dirhəm vergi alırdı. Xüsusi hallarda, yəni zərbxanaya təhvil verilən metal Hindistanın qırmızı qızılı olurdusa, onda hər min misqaldan 10 dirhəm alınırdı.

XIV əsrin II yarısında **Məhəmməd Hinduşah Naxçıvani “Dəstur-əl-katib fi tayn əl-məratib”** adlı əsərində Cəlairilər dövlətində fəaliyyət göstərən zərbxanaların iş prinsipinin qısa təsvirini vermişdi. Son orta əsrlərdə zərbxanalar haqqında geniş məlumat XVIII əsrdə yazılmış **“Təzkirat əl-mülk”** adlı əsərdə vardır. Anonim müəllif burada ilk dəfə sikkə zərbi işində istifadə olunan əmək alətlərinin və dəzgahların adlarını, funksiyalarını göstərmişdir.

Beləliklə, ən vacib əmək alətləri zindan, çəkic, qısqac, kəlbətin olmaqla aşağıdakı qurğu və dəzgahlardan istifadə olunmuşdu.

- **Səbbak** – sikkə zərbinə lazım olan metalı təmizləyən
- **Dar-kub**–sikkələr üçün girdə formaları, dairələri hazırlayan
- **Axanqar**–dəmirçi dəzgahı

- **Çərxkeş**–poladdan hazırlanan girdə metalları dəqiqliklə formaya salan
- **Qatta**–kəsici funksiyasını yerinə yetirən
- **Kahla–kub**-hazır girdə dairələrin qıraqlarını «qurt» formasına gətirən
- **Taxş-ken-** standarta uyğun olmayan dairə formalı metalları yenidən əridən
- **Sefitqar**-hazır dairələri tam təmizləyib hamarlayan
- **Sikkə-kan**-nəqqaş funksiyasını yerinə yetirmək üçün
- **Zərrab və ya zarib** – hazırlanan sikkələrin hər iki tərəfinə möhür vurmaq üçün istifadə olunan dəzgah.

XV əsrin birinci yarısında **Abdullah Mazandaranin "Risaley-e fəlakiye"** adlı əsəri zərbxana işi haqqında geniş məlumat verən dəyərli mənbələrdən hesab edilir. Burada zərbxananın işçiləri - amil, müşrif, katib, zarib, sabike-saz, sikke-kan, əl-həddaddan ibarət idi. Bundan başqa müəllif bəzi işçilərin maaşları barəsində məlumat verir. Belə ki, zərbxanada çalışan amil, müşrif və katib hər gün 20 dirhəm olmaqla, ayda 600, ildə 7200 dirhəm maaş alırdılar. Zarib hər gün 12 dirhəm, ildə 4320 dirhəm; sabike-saz–yəni metalın əridilməsinə cavabdeh olan şəxs hər gün 15, ildə 5400 dirhəm maaş alırdılar. Sikke-kan və əl-həddad, yəni hazır sikkələr üçün möhür hazırlayan və dəmirçi, hazırladıqları hər bir məmulata görə 200 dirhəm maaş alırdılar. Ehtimal etmək olar ki, yuxarıda adı çəkilən hər iki sənətkar- Sikke-kan və əl-həddad zərbxanadan kənarda, xüsusi məkanda və şəraitdə dövlətin ciddi nəzarəti altında öz vəzifələrini yalnız ehtiyac olduqda, yəni sikkə tipləri dəyişildikdə yerinə yetirirdilər.

**3.Monometal və bimetal çəki-sikkə sistemləri.** Metal dövriyyə sisteminə bimetallizm və monometallizm aiddir. Bimetallizmdə ümumi ekvivalent rolunu, qanunvericiliyə uyğun olaraq, adətən iki metal – qızıl və gümüş oynayır. Qalan qiymətlər  iki ölçü ilə müəyyənləşir. Erkən dövrlərdə qızıl və gümüş pullar sərbəst şəkildə 1:15 nisbətində və ya 1:16 nisbətində mübadilə edilirdi. Bimetallizm XIV –XVII əsrlərdə mövcud olmuş, Qərbi Avropanın bəzi ölkələrində isə XIX əsrdə də qorunub saxlanmışdır.

**Monometallizm elə bir pul sistemidir ki, bu zaman bir pul metalı qanuni şəkildə ümumi ekvivalent rolunu oynayır və pul dövriyyəsinin əsası olur**. Bu və ya digər qiymətli metalın əldə edilmə imkanlarından asılı

olaraq, bəzi ölkələrdə gümüş monometallizmi, digər ölkələrdə isə qızıl monometallizmi mövcud idi. Qızıl monometallizmi və ya qızıl standart daha geniş yayılmışdır. Məsələn, ellin dövründə 31,1 qramlıq Troya unsiyası bu və ya digər pulun və ya külçənin tərkibində olan qızılın çəki ölçüsü qismində çıxış edirdi. Troya unsiyasından indiyə qədər qızılın qiymətinin müəyyənləşdirilməsi üçün istifadə olunur. Qızıl standartı üç formada mövcud olmuşdur:

- **qızıl pul**
- **qızıl külçə**
- **qızıl deviz, yaxud mübadilə**

Qızıl pul standartında qızıl pullar və tərkiblərində qızıl olan müxtəlif növ pul nişanları dövriyyədə olur. Xarici ölkə valyutalarının qızıl tərkibinə uyğun olaraq, onların paritetləri müəyənləşdirilirdi. Valyutalar sərbəst şəkildə qızıl pullara konversiya olunurdu.

Qızıl külçə standartında pul nişanları qızıl pullara yox, çəkisi 125 kq-a qədər olan külçə qızılına, həm də müəyyən məhdudiyyətlərlə mübadilə olunurdu. Qızıl külsə standartı iqtisadiyyatın qismən stabilləşməsinin müharibələrarası dövründə tətbiq olunmuşdur (1924 -1928).

Qızıl deviz standartında milli valyutalar digər valyutalara, o cümlədən qızıl külçə standartlı ölkə valytalarına mübadilə olunurdu. Bu standartda dünyanın 30 ölkəsində pul sisteminin fəaliyyət əsasını qızıl və devizlər təşkil edirdi.

Numizmatika elmində pul və pul sisteminə aid olan "bimetalizm" termini də mövcuddur. Bimetalizm-dünya alimlərinin yekdil rəyinə görə eyni vaxtda hansısa bir ölkənin pul sistemində 2 metaldan-qızıldan və gümüşdən hazırlanan pullardan eyni dəyərlə istifadə edilməsi deməkdir. İlk dəfə dünya tarixində bimetalizmdən Əhəməni imperiyasında (m.ö.VI-IV əsr) istifadə edilmişdi. Romada padşahlıq dövründə; Bizans və Xilafət imperiyasının tarixində də belə pul sistemi olmuşdur. Bununla belə bimetalizmin 2 növü alimlər tərəfindən araşdırılmışdı:

1. **Parallel valyutalar sistemi** - bu zaman qızıl və gümüş pullar dövriyyədə kortəbii olaraq qiymətləndirilirdi, yəni belə pulların hazırlandığı metalın bazarda dəyər qiymətinə görə pullar işlədilirdi.
2. **İkiqat dövriyyə sistemi** - belə sistemdə qızılın gümüşə nisbəti dövlət tərəfindən dəqiqləşdirilirdi. Lakin pulların zərb işi tam müstəqil

olaraq qalırdı.

Pul sistemlərinə aid olmayan bir qrup pullar da vardır ki, onlar numizmatika elmində "varvar bənzətmələr" adlanır. Bu pullar Yunan və Roma pullarının təhrif olunmuş oxşatmalarıdır. Belə pulları zərb edən xalqlar və ya etnik qruplar öz tarixlərində heç vaxt Yunan-Roma mədəniyyətinin təsiri altında olmamışlar. Amma özlərini onlara oxşatmaq üçün pullar zərb etmişlər. Belə pulların "ömrü" çox qısa olmuşdu. Bu cür "oxşatma" pulların "vəhşi" tipinə keltlərin işğal etdikləri İspaniyanın şimal-şərqində yerləşən Podo Koloniyasını, Massiliyanı (Marsel), Parentanın (Cənubi İtaliyanın) pul nümunələrini, həmçinin vestqotların, ostqotların, svevlərin, lonqobardların və frankların (Merovinqlərin hakimiyyəti altında olduqları zaman) xalqların "böyük köçü" baş verdikdə (300-600-cı illər) Roma pullarına oxşar sikkələr zərb etdikləri nümunələri misal çəkmək olar.

# ANTİK PUL - SİKKƏ SİSTEMLƏRİ

Sikkələr metal növlərindən asılı olaraq 3 növdə olur.

**1. Qızıla əsaslanan pul sistemləri.** Bu sistem 3 böyük qrupa bölünür:



**I. Antik dövrün pul sisteminə** aid edilən pulların ən qədim nümunələri numizmatika elmində Milet pul sisteminə aid edilir və tarixi m.ö.VII-V əsrlərdən hesablanır. Bu pul sisteminin adı Kiçik Asiyada göstərilən zaman kəsiyində Lidiya hökmdarlarından asılı olan Milet ərazisinə aiddir. Elektradan tökmə üsulu ilə hazırlanan bu nadir pulların üz qatında hər hansı bir təsvir deyil, sadə, kiçik barmaqdan da balaca çökəklik olur. Bir neçə yüzillik keçdikdən sonra bu çökəkliyin yerində hökmdarın adı, şir başı təsviri zərb edilməyə başlanmışdı. Sikkənin əks tərəfində-yəni reversdə dəqiq görünən heç bır təsvir yoxdur. Bunun əvəzində sikkənin hazırlanması zamanı 3 tərəfdən pulu tutan tutacaqların yeri görünür.

**II. Fokey sistemi** – Miladdan öncə VII-IV əsrin 30-cu illərini əhatə edir. Bu sistemə daxil olan sikkələrin üz tərəfində suiti obrazı göstərilirdi. Suiti sözünün yunan dilindən tərcüməsi Fokeydir. Əks tərəfdə heç bir təsvir, yazı yoxdur.

**III. Fars pul sisteminin** - ilk nümunələri elmdə hökmdar Krezin qızıl, gümüş staterlərinə aid edilir. Qızıl staterlərin çəkisi 8,1 qramdan-10,8 qrama qədər olmuşdu. Gümüşün qızıla nisbəti 10:1 hesablanırdı, yəni orta hesabla 1 qızıl statərə 10 gümüş stater və ya 20 yarımstater dəyişdirilirdi. Belə yarımstaterlərin həmin dövrdə çəkisi 5,4 qram olurdu. I Daranın işğallarından sonra fars qızıl darikləri və gümüş sikkələri zərb edilməyə başlanırdı. Belə diriklərin çəkisi 8,4 qrama bərabər olaraq, 20 gümüş siklə, yəni 5,6 qrama bərabər olan siklə bərabər idi. Bu 2 pul nominalı-darik və sikl (qədim yəhudi sikkə vahidi olan şekelin qısaldılmış adı) fars pul sisteminin əsasını təşkil edirdi. Bu cür pullar Əhəməni Fars İmperiyası və onun işğal etdiyi ərazilərdə m.ö. VI əsrin II yarısından – m.ö.IV əsrin 30-cu illərinə qədər, yəni Makedoniyalı İsgəndərin Şərq yürüşlərinin qələbəsinə qədər dövriyyədə olmuşdu.

Göstərdiyimiz hər 3 pul nominalları tarixən ən qədim olaraq, qeyd edidiyi kimi qızıla əsaslanırdı; yəni dövriyyədə əsas pul vahidi qızıl sikkələr olurdu, onlara nisbətdə gümüş pullar hesablanırdı.

**II.Gümüşə əsaslanan pul sistemləri.**

**1.Egin pul sistemi -** vaxt etibarilə bu pullar Milet sikkələri ilə eyni zamanda dövriyyədə olmuşdur. Gümüş staterlərin orta çəkisi 12,14, 14,55 qrama bərabər olmuşdu. Xüsusi element kimi bu sikkələrin üz qatında zərb edilən tısbağa obrazı - Egin şəhərinin emblemi olduğu üçün, sikkənin əsas simvolu hesab edilir.

**2.Attika pul sistemi** - qədim yunanlara aiddir. Sistemin əsasında aşağıdakı çəki və hesablama dəyərləri dururdu:

1 talant (26,196 kq) = 60 minaya
1 mina (436,6 qr) =100 draxmaya
1 draxma (4.36 qr) = 6 obola
1 obol (6,72 qr)= 8 xalka bərabər olmuşdur.

Bu sistem **Evbey sikkə sisteminə** əsaslanır. Attika pul sisteminin da Solonun hakimiyyəti illərində (m.ö.640-560-cı illər) həyata keçirildiyi ehtimal olunur. Bununla da, m.ö.VI əsrdə Egin pul sistemi sıxışdırılıb çıxarılır və onun yerinə Attika sikkə sistemi qəbul edilir. Bu sistem, əsasən arxaik dövrdən başlayaraq, Şimali İtaliyada, Şimali Afrika sahillərində yerləşən Küenada və Siciliya adasında yayılmışdı. Qeyd etmək lazımdır ki, da geniş zərb edilən-üzərində nın başı və bayquş obrazı olan gümüş nominallar daha çox yunan pul sistemində kiçik bölgülərə ayrılırdı: o cümlədən, burada qızıldan zərb edilən 2 və 1 draxma pul vahidi, pul vahidinin 21, 31, 61 hissələri elmə didraxma adı ilə məlumdur.

Gümüşdən zərb edilən 10, 4, 2 və 1 draxma, həmçinin 5, 4, 3, 2, 2 11, 4 11, 21, 83, 41, 84 obolları da zərb edilmişdi. Bu pul sistemini Makedoniya imperiyasında ilk dəfə tətbiq edin II Filipp (m.ö.359-336) olmuşdur. Lakin onun tərəfindən edilən bu yenilik öz hakimiyyəti illərində yalnız qızıl pullara, oğlu İsgəndər tərəfindən isə gümüş pullara da şamil edilmişdi. Bununla da Attika pul sistemi Şərqi Aralıq dənizi ölkələrində geniş yayılmağa başlamışdı.

**3. Evbey pul sistemi** - Solonun islahatlarından sonra Attikada və da m.ö.VI əsrdən başlayaraq 17,44 qr. çəkisində olan tetradraxma, 4,36 qr. çəkisində olan draxmalar dövriyyəyə buraxılır. Bu cür pulların üz qatında

İoniy dəbilqəsi olan Afinanın baş hissəsi, əks tərəfdə bayquş obrazı bütövlükdə zərb edilmişdi. M.ö.336-cı ildən etibarən Makedoniyalı İsgəndərin gümüş pulları dövriyəyə buraxılır. İlk dövrlərdə bu pulların aversində qədim yunan əsatiri Herakl pələng dərisində, əks tərəfində isə baş tanrı Zevs taxtda əyləşmiş formada yüksək ustalıqla göstərilmişdi.

**4. Korinf pul sisteminə** aid edilən pullar m.ö.VII əsrdən başlayaraq zərb edilməyə başlamışdır. Nominal olaraq bu pullar 8,72 qr. staterlər və 2,91 qr. çəkisində olan draxmalar hesab edilirdi. Pulların üzərində zərb edilən əsas təsvir və əsas əlamət onun başındakı Korinf dəbilqəsidir.



**III. Misə əsaslanan pul sistemi.** Bu pul sisteminə əsaslanan sikkələr ən çox Romaya aid edilir. Qeyd etmək lazımdır ki, orta İtaliyada misdən pul vahidi kimi istifadə etmək adəti çox qədimlərdən mövcud olmuşdu. İbtidai icma dövrünün sonlarına doğru ölənlərin qəbir abidələrində ölən adamın əlinin yanında emal edilmiş mis kütlələri aşkar edilmişdi. Elmdə belə mis parçaları **"aed rude"** adlanır. Müəyyən dövr keçdikdən sonra dövriyyədə yeni əmtəə kimi tunc məmulatı və yaxud kütlə formasında meydana gəlir.

**Numizmatika elminin əsas mənbələri**

Numizmatikanın bir elm kimi öyrənilməsinin özünəməxsus mənbələri mövcuddur. Bu mənbələrin elmdə qəbul edilməsi və sistemləşdirilməsinin tarixi 200 ilə yaxın bir dövrü əhatə edir. Mənbələr xarakter etibarilə aşağıdakı qruplara bölünür:



1.Ayrı-ayrı sikkə nümunələri və onların çoxsaylı tipləri.

Bu sikkə tiplərinin tərkibinə fövqaladə hallarda zərb etdirilən və yaxud bəzi şəxsiyyətlərin müvəqqəti xarakterli pulları da daxildir.

Ümumiyyətlə, sikkə materialı həm maddi-mədəniyyət, həm də yazılı mənbələr kateqoriyasına daxil edilir. Belə ki, zərb texnikası, forması, metalın tərkibi, çəkisi, digər vacib və yalnız sikkələrə aid olan elementlər, əslində tarix elminə hökmdarların adlarının, titullarnı, şəhərlərin dəqiq adlarının,

zərb tarixinin, dövlətdə qəbul edilən və hamı tərəfindən tanınan əlifbanın, dilin öyrənilməsi üçün çox vacibdir.

Orta əsrlərdə zərb edilən sikkələr digər maddi-mədəniyyət nümunələrindən fərqli olaraq çox vaxt "böyük tirajlarla" zərb edilərək dövriyyəyə buraxılırdı. Sənətkarlıq məmulatları içərisində, hətta satış üçün hazırlanan bir çox əmtəələrin sayı heç vaxt belə sayda hazırlanmırdı. Bu isə o deməkdir ki, torpağın altında və yaxud mədəni təbəqədə kütləvi olaraq qırılmş fraqmentlər şəklində tapılan digər maddi-mədəniyyət qalıqlarının bütün növlərindən fərqli olaraq, sikkə nümunələrinin ən azı 1/10-i tez və ya gec tədqiqatçılara çatır. Digər tərəfdən sikkələrin metaldan hazırlanması onları başqa maddi-mədəniyyət qalıqlarından fərqli olaraq "uzunömürlü" edir. Bu səbəbdən də XXI əsrin əvvəllərində dünya muzeylərinin sikkəşünaslıq fondlarında milyonlarla eksponantlar saxlanılır.

**2.Sikkə zərbi işi üçün lazım olan materiallar və əmək alətləri.**

Bu qrupa aid olan mənbələr sikkələrin özü ilə müqayisədə kəmiyyətcə azlıq təşkil edirlər.Yaşadığımız zamanda sikkə zərbi işinin ən vacib hissəsi olan "ştempellərin" - möhürlərin ən zəngin kolleksiyası Vyanada yerləşən "Zərbxana muzeyi"ndə saxlanılır. Muzeyin 1901-ci ildə çap etdirdiyi kataloqda 666 adda möhür nümunələri nümayiş etdirilmişdi. Berlinin eyni adlı muzeyində 9 min, Drezdendə 2 min ədəd möhür qorunub saxlanılır. Bu o demək deyildir ki, Avstriya, Almaniya ərazisində çox qədimlərdən xeyli sayda zərbxana olmuş və arxeoloqlar onların iş prosesi üçün vacib olan möhürlər (ştempellər) tapıb muzeylərə təhvil vermişlər. Əksinə, burada saxlanılan zərbetmə məmulatları, XVII əsrdən başlayaraq dünyanın qədim svilizasiyalarının ərazilərində qazıntılar aparan alman və digər Avropa mənşəli arxeoloqlar və ya əntiq malların varlı "ovçuları" tərəfindən ya qeyri-qanuni yollarla əldə edilmiş, ya da satın alınıb öz ölkələrinə gətirilmişdi. Sikkə zərbinin texniki tarixini öyrənmək üçün XX əsrdə dünyanın bəzi ölkələrində qazıntılar zamanı aşkar edilən saxta sikkə zərbinin hazırlandığına lazım olan alətlərin böyük rolu vardır. Avrasiya məkanında belə əmək alətləri Çexiyada, Slovakiyada, Polşada, keçmiş SSRİ-də Özbəkistanda aşkar edilmişdir.

Zərbetmə işi üçün lazım olan digər vacib vasitələr sırasında çəki daşlarını göstərmək lazımdır. Belə çəki daşları, əsasən metaldan hazırlanan sikkələrin dəqiq çəkisinin təyin edilməsi üçün istifadə edilirdi. Bütün

zərbxanalar xüsusi tərəzi və çəki daşları ilə təmin edilirdi. Hər iki alətin forması yerli ənənələrə uyğun və sikkə zərbi işinin təşkili üçün yaradılan şəraitdən asılı olurdu. Maraqlıdır ki, qədim Yunanstanda, Romada, Bizansda çəki daşları düzbucaqlı və ya dairəvi. plastik formada, tuncdan, misdən, latundan, hətta şüşədən hazırlanırdı. Romada İmperator dövründə belə çəki daşları "eksiqiy" adlanırdı. Bu söz latın dilindən tərcümədə "çəkmək", "araşdırmaq", "qiymət qoymaq" kimi tərcümə olunur. Romada çəki daşlarının belə adlandırılması ədalət, bərabərçilik Tanrısı Ekvintasın adı ilə bağlıdır. Tarixdə bu Tanrının obrazı qadının əlində var-dövlət və hakimiyyət rəmzləri ilə göstərilmişdi. Nəzərə alsaq ki, "Moneta" adlı tanrının epitet obrazı da bu cür, amma əlində var-dövlət rəmzi olan tərəzi, ayağının altında çoxlu pul kütləsi kimi göstərilirdi, aydın olur ki, sikkə və sikkə zərbi işi ümumiyyətlə, yaranan zamandan dövlətin əsas vəzifələrindən biri olaraq çox qədim tarixə malikdir.



Ərəb xilafəti dövründə zərb işinə lazım olan çəki daşları şüşədən hazırlanır və onun adı bu dildə hərfi tərcüməsi "1 dinarın dürüst çəkisi" kimi başa düşülürdü. Avropada zərb işi üçün lazım olan çəki daşları və tərəzilər XIV əsrin əvvəllərinə qədər adi metaldan-misdən, latundan hazırlanırdı. Belə daşların üzərində olan möhürlərdə xüsusi məna daşıyan yazılar və çəki dərəcələri çox dəqiqliklə göstərilirdi.

**3. Köməkçi mənbələrə** primitiv sikkələr və ya pulaqədərki əmtəə vasitələri, medallar, ayrı-ayrı döş nişanları, möhürlər aid edilir.

**4.Yazılı mənbələr** - sikkələrə, onların nominal dəyərinə və zərbxanalara aid olan sənədlər, müəyyən islahatlar haqqında olan qərarlar, iqamə, qaimə hesabları, vəsiyyətnamələr, alqı-satqı sənədləri, əlyazmalar və s. aiddir. Bəzən bədii əsərlərdə də belə məlumatlara rast gəlmək olar.

**Sikkələrin zərb tarixi haqqında**

İlk sikklər m.ö.XII əsrdə Çində, Hindistanda zərb edilmişdi. Aralıq dənizi hövzəsində belə sikkələr tam müstəqil olaraq m.ö.VII əsrdə Lidiyada və Egin adasında hazırlanmışdı. Bundan sonra bütün Elladada və onun kaloniyalarında, müasir İranda, İtaliyada sikkə zərb edilməyə başlamışdı. Dünyanın ilk sikkələri bizim tanıdığımız və qəbul etdiyimiz qızıl, gümüş və misdən deyildi. Çox ehtimal ki, əksər hallarda onlar perqamentdən, qiymətli

ağac növlərindən, farfordan hazırlanrdı. Numizmat-alimlərin ehtimalına görə metaldan sikkə zərbi işinə keçidin 3 əsas səbəbi ola bilərdi:
1. Həmin ölkələrdə metalların filiz şəklində aşkar edilməsi
2. Hərbi işlərdə müəyyən qalibiyyətli döyüşlərin nəticələri əsasında
3. İqtisadi inkişaf.

Metalın tərkibinə görə qədim dövrün sikkə və sikkə sistemlərini 3 əsas məkana bölmək olar:

1. Kiçik Asiyada - qızıldan
2. Yunanstanda-gümüşdən
3. Qədim Romada - misdən

Bu cür şərti bölgü adıçəkilən ərazilərdə bütün tarixi dönəmlərə aid deyildir. Belə ki, qızıl sikkələrin Yunanstan ərazisində zərbi Makedoniyalı İsgəndərin hakimiyyəti illərində mövcud olmuşdur. Qədim Romada "aureus" adlı qızıl sikkələr e.ə.IV əsrin əvvəllərində, gümüş nominallar isə m.ö.III əsrdən dövriyyəyə buraxılmışdı.

Adıçəkilən 3 metaldan başqa dünya tarixində Misirdə və Amerikanın erkən dövlətlərində platindən-ağ qızıldan sikkələr aşkar edilmişdi. Bundan başqa Misir mədəniyyətində ilk sikkə funksiyasını "mis çubuqlar" yerinə yetirmişdi.

Dünyada tökmə üsulu ilə zərb edilən ilk mis pullar m.ö.VI əsrdə Olviyada, həmçinin Romada hazırlanmışdı.

**4.Pul tapıntılarının təsnifatı**

Yuxarıda qeyd etdik ki, XXI əsrin əvvəllərinə təkcə Avropanın məşhur muzeylərində milyonlarla pul tapıntıları və minlərlə dəfinələr toplanmış və saxlanılır. Bu pulların öyrənilməsi üçün keçirilən beynəlxalq konfranslarda vaxtaşırı müxtəlif təkliflər irəli sürülür. 1953-cü ildə Parisdə keçirilən konfransda məşhur numizmat-alim F.Mateu-İlolis pulların təsnifatı üzrə aşağıdakı bölgünü irəli sürmüşdü:

1. Dəfinələr;
2. Dini xüsusiyyətli tapıntılar;
3. Torpağın üst təbəqəsindən aşkar edilmiş ayrı-ayrı pul nümunələri;
4. Arxeoloji qazıntılar zamanı mədəni təbəqələrdən tapılmış pullar və pul dəfinələri

İngilis alimi F.Qrirson "Numizmatika" adlı kitabında pulları 2 əsas kateqoriyaya - təsadüfi tapıntılar və arxeoloji qazıntılardan aşkar edilən

pullara bölmüşdür. Dəfinələri öz növbəsində 2 yerə ayırmışdı: təsadüfən itirilmiş dəfinələr, fövqəladə hallarda gizlədilmiş dəfinələr - belə hadisələr müharibələrin, şəhərlərin mühasirəsi zamanı ola bilərdi. Belə dəfinələr də öz növbəsində 3 qrupa bölünür:

- şəhərin, kilsələrin və ayrı-ayrı dövlətli adamların dəfinələri
- əmanət kimi gizlədilən dəfinələr
- geri qaytarılmaq ehtimalı olmayan dəfinələr-belə pullar ölən adamların qəbirlərinə, tikilən binaların təməlinə qoyulan pullardan ibarət dəfinələr.

Yuxarıda qeyd olunan təsnifatlar numizmatika elmində öz aktuallığını itirməmişdir.

**5.Sikkələrin tipləri**

Pulların üz tərəfində-aversində və əks tərəfində-reversində olan mərkəzi hissədəki yazılar, təsvirlər, xüsusi işarələr onun sahəsi adlanır. Pul nominallarının forma və ölçülərinə görə tiplərə ayrılmasında onların hər iki mərkəzi sahələrində olan elementlərin çox böyük əhəmiyyəti vardır. Numizmatika elmində "sikkə tipi" termininin dəqiq anlayışı yoxdur. Bununla belə numizmatika ilə ciddi məşğul olan hər bir şəxs topladığı təcrübə nəticəsində eyni dövrün sikkələrini araşdırarkən yuxarıda sadaladığımız əlamətləri-yazıları, təsvirləri, onların yerinə yetirilmə texnikasını və s. elementləri əsas götürülür. Əksər hallarda eyni dövrün sikkə materialları ilə məşğul olan numizmatlar üçün pulların üzərindəki əfsanələri-dini mətnləri, hökmdarların titulları və adlarını, zərb yeri və tarixini oxumaq çətinlik təşkil etmir. Belə hallarda əsasən yeni-cüzi elementlərin olması, təsvirlərin dəyişilməsi, yazıların ikonoqrafik qaydalarına xüsusi fikir verilir. Burada adi insanın görə bilməyəcəyi elementlərin-bir hərfin o birisindən bir qədər aralı və yaxud yaxın olması belə tipin yeni qrupu deməkdir. Pulun üzərində hər hansı bir elementin dəyişilməsi isə dövlətdə baş verən ciddi hadisələrin ən düzgün göstəricisidir. Bütöv təsvirin dəyişilməsinin numizmatikada öz qanunauyğunluqları vardır. Əksər hallarda bu, pulun zərb edilməsi üçün ayrılan metalın dəyişilməsi, yəni başqa metalla əvəz edilməsi, zərb texnikası və yaxud müəyyən siyasi-iqtisadi islahatların əsas göstəricisidir. İqtisadiyyatı stabil və güclü olan dövlətlərdə pul tiplərinin dəyişilməsi bəzən yüzillərlə baş vermir. Bundan başqa "bənzətmə pullar" kateqoriyası

da mövcuddur. Belə ki, “bənzətmə pullar” əsl sikkələrin bütün əsas elementlərini saxlasa da, onlar metalın keyfiyyətinə, onun tərkibindəki digər metal qarışıqlarının faiz nisbətinə, həmçinin ən vacib element kimi hökmdarın adının dəyişilməsinə görə seçilirdi. Xüsusi qeyd etmək lazımdır ki, “bənzətmə pullar” saxta sikkələrdən seçilir. Saxta pulların tarixi əsil pulların tarixi qədər qədimdir. Zəmanəmizə gəlib çatan ən məşhur saxta pullar İtaliyanın Padua şəhərində XVI əsrdə İonn Kavin və Aleksandr Bassian tərəfindən hazırlanmışdır. Numizmatika elmində bu pullar “paduan pulları” adı ilə tanınırlar. Bu pullar öz dəqiqliyi ilə əsil Roma pullarından demək olar ki, fərqlənmirlər. Saxta pullar üzrə məşhur mütəxəssislər arasında ən çox yaddaşlarda qalan Karl Vilhelm Bekker (1771-1830) olmuşdu. O, antik pulları tam saxtalaşdıraraq 662 ədəd sikkə nominalı zərb etmişdi. Bu pulların nümunələri zaman-zaman dünya muzeylərinin ekspozisiyalarında nümayiş etdirilir.

Saxta pullarla məşğul olan “işbazlar” həmişə, dünyanın bütün ölkələrində çox ciddi cəzalandırılırlar. Cəza tədbirlərindən orta əsrlərdə daha geniş yayılan qolların kəsilməsi, əmlakın müsadirəsi və digərləri idi. Buna baxmayaraq insanlar vaxtaşırı bu işlə məşğul olurdular. Görünür, pul və pul işinin həmişə çox cəlbedici və gəlirli olması faktı insanları bu işə vadar edir.

Beləliklə, saxta pulları əsil nominallardan seçməyin xüsusi əlamətləri vardır:

- Saxta pullardan tökmə üsulu ilə hazırlananları öz diametral ölçülərinə görə nisbətən kiçik olması ilə seçilirlər. Buna səbəb gil qabların dairəsinin əsil qaba uyğun olmaması, qurudulanda və bişirilmə zamanı bu dairənin daha da kiçilməsidir. Bu səbəbdən belə pulların çəkisi nisbətən yüngül olur. Bəzən çəki fərqi 1 qramdan artıq olur. Əsl mütəxəssis üçün hər milliqramın fərqi belə pulları ayırmağa imkan verir. Digər əlamət-pullar üzərindəki təsvirlər, yazılar tam səlis görünməsidir. Sonuncu vacib əlamət-pulların dairəvi en kəsiyi-yəni qurt ilə əlaqədardır. Əsil pullarda zərbxanaların adları qurtda vurulduqları ziqzaqa bənzər elementi təkrar etmək mümkün olmur. Bu pulların hər iki səthi əsil pullara nisbətən çox hamar olur. Bu isə saxta pulların hazırlandığı metalın mikrostrukturundan asılıdır. Sözsüz ki, antik dövrdə və orta əsrlərdə metalın tərkibini yoxlamaq üçün kimyəvi-labaratoriyalar yox idi. Amma empirik biliklərin

inkişaf etdiyi intibah dövründə adi üsulla bunu ayırd etmək mümkün idi.

Keyfiyyətli və dəyərli pulların əks xarakterli pulları bazardan sıxışdırıb çıxarmasının əsil iqtisadi qanunu XVI srdə Avropada Kopernik Qreşem tərəfindən kəşf edilmişdi. Qanunun əsas mahiyyəti aşağıdakı fikirlərdən ibarətdir:

a). Dövriyyədə eyni vaxtda hərəkət edən, eyni məzmunlu “yaxşı” və “keyfiyyətsiz” pulların daxili rəqabətində həmişə birincilər qələbə çalmışlar. Belə ki, keyfiyyətli və yüksək əyarlı pullar kortəbii olaraq daxili dövriyyədən (yəni zərb edildikləri ölkə ərazisində) çıxarılaraq, ya dəfinə şəklində torpağa əmanət kimi “qara günlərə” saxlanılır, ya da sülh, sakitlik, iqtisadi sabitlikdə əridilərək ayrı-ayrı dəyərli, tələbata uyğun əmtəəyə çevrilir, ölkə sərhədlərindən çıxarılaraq, daha baha qiymətə satıla biləcək yerlərə ixrac edilir.

b). Dövriyyədən sabit pulların çıxarılmasında dövlətin öz mövqeyi olur. Belə ki, dövlətin ən yüksək təbəqəsinin razılığı ilə pulların keyfiyyəti korlanır, yəni zərb zamanı metalın tərkibinə cürbəcür ucuz metal ərintilərin qatışığının faizi artırılır, yaxud pulların çəkisi az da olsa qəsdən azaldılır. Ən pis halda hər iki iş eyni vaxtda yerinə yetirilir. Bununla da bütün dövrlərdə çox baha başa gələn “pul islahatı” həyata keçirilir. Belə islahatlardan külli miqdarda qazanc götürən dövlət və eyni miqdarda itki verən əhali olurdu. Çünki, dəyəri itmiş pullar bazarlarda əmtəələrin qiymətinin qalxması deməkdir. Pul kütləsinin artması, onun emissiyasına gətirib çıxarır bu da son nəticədə siyasi sabitliyin pozulması, kütləvi narazılıq, aclıq, əmtəə çatışmazlığı ilə nəticələnirdi. Bəzən islahatlar gözlənilən nəticəni vermirdi. Şərq ölkələrində belə hadisələr Avropaya nisbətən daha tez-tez baş vermişdi. Hər iki üsulla pul dəyişməsi Avropada, orta əsrlərdə “zeyqerovka” adlanır. Burada “zeyqerovka” yuxarıdakı xüsusiyyətlərdən əlavə, həm də pulların qəsdən kəsilməsi idi. Kəsdikləri hissələri belə “işbazlar” yenidən əridir, onlardan xırda pullar hazırlayır, korladıqları kəsikləri də yenidən dövriyyəyə buraxırdılar.

Pullar arasında nəzərə çarpan çəki fərqi - “al-marco”nun zərbidir. Bu üsulla çəkidə olan fərqi aradan götürdükdən sonra, yenidən eyni adlı pulların zərbi başlayır. Qeyd etmək lazımdır ki, bütün zamanlarda pulların çəkisinin korlanması, dəyişilməsi və s. proseslərlə hakim dairələr məşğul olmuşlar. Bununla da bəzən saray xəzinələrinin çatışmazlıqları,

müharibələrin aparılması və s. yerinə yetirilirdi. Tarixdə belə işlərlə hakimiyyətdə olduğu bütün zamanda Fransız kralı IV Gözəl Filipp ciddi məsul olduğundan, onun ikinci adı "saxta pul düzəldən" olmuşdu.

Avropada pulların qəsdən korlanmasına qarşı çox vaxt ciddi mübarizə aparmışlar. XIII əsrin ortalarında xüsusi "pul ittifaqları" yaradılırdı. Onların əsas məqsədi pul işinə nəzarətin gücləndirilməsi idi. Tarixdə bu məqsədlə hazırlanan müqavilələr də mövcuddur - 1386-cı ildə Almaniyada Reyn torpaqları (Kurorurstğ) İttifaqı, 1387-ci ildə Fransada Elzas pul İttifaqı, 1392-ci ildə Lyublin İttifaqı yaradılmışdı.

**Pullar üzərində, yəni əsasən aversində olan yazılı mətnlər aşağıdakı əsas hissələrə bölünür:**

- ❖ Hökmdarın adı, dövlətin adı və ya zərb yeri. Adətən bu yazılar pulun orta sahəsinin kənarlarında saat əqrəbi istiqamətində və ya əksinə zərb edilirdi. Bəzən belə əhəmiyyətli məlumatlar daxili dairələrdə, çərçivələrdə vurulurdu.
- ❖ Hökmdarların titulları.
- ❖ Dövlətin yeritdiyi xarici və daxili siyasətin əsas devizi-müqəddəs dini kitabdan xüsusi hissələr.
- ❖ Zərb tarixi. Əsasən rəqəmlərlə vurulurdu. Bəzən tarixi göstərmək üçün ayrı-ayrı hərflərin birləşməsindən alınan xronoqramla pulun hansı ildə zərb olunduğu göstərilirdi.
- ❖ Pul zərbinə məsuliyyətli ustanın adı, familiyasının baş hərfləri aversdə ya reversdə göstərilməklə qədim Romada, Avropada, Rusiyada göstərilirdi.
- ❖ Zərbxananın adı-bu element də daha çox Romaya, Avropaya, Şərqə aiddir.
- ❖ Bəzən pulların reversində - əks tərəfində, pulun hazırlandığı metalın adı göstərilirdi.

### 6.Pul nominallarının adları haqqında

Bizə məlum olan pul nominallarının adları araşdırmalara görə, əslində onların pulaqədərki vasitələrinin funksiyalarını özündə saxlamaqdadır. Birinci variant kimi, bu qəbildən qədim Yunanıstanda istifadə edilən pul nominalı "obol" - hərfi tərcümədə "dəmir çubuq", draxma-bir ovuc, daha dəqiq 6 ədəd belə çubuq kimi tərcümə olunur.

Beləliklə, 1:6 nisbətində olan draxma-pul nominalı kimi qədim Yunanıstanda, Sasanilər dövlətində pul sisteminin əsasını təşkil etmişdi. Digər bir nümunə - kauri-balıqqulağı dünyanın bir çox ərazilərində

pulaqədərki əmtəə vasitəsi kimi istifadə edilmişdi. Əsasən Hind və Sakit okeandan gətirildiyi məlumdur. Bu səbəbdən də qədim Çində ilk pul nominallarının bəziləri bu cür balıqqulağı formasına oxşadılmışdı, yalnız xırda pul kimi kiçik ölçüdə zərb edilmişdi. Belə pul növündən 1971-ci ildən 1986-cı illədək Qvineya Respublikasında da istifadə edilirdi.

**İkinci variant.** Pulların nominal adlarının əsasında bəzən hazırlandığı metalın adı, çəkisi dururdu. Qədim Romada ilk mis pulları "aes rude", "aes qrave" (mis, gümüş pul), sonralar isə çəkisinə görə (1 funt), libral ass adlandırmışlar. Qızıl pullar aureus-adlandırılırdı. Qədim yunanlarda misdən hazırlanan pullar hərfi tərcüməsi "mis"-xalk adlanırdı. Qızıldan hazırlanan pullar bir çox xalqlarda metalın adı ilə eyni istifadə edilmişdi. Məs, alman dilində "qulden", türk xalqlarının dilində altun, tillə, qızıl, hind dilində-rupi (sanskritdən tərcümədə - "cilalanmış gümüş" deməkdir) və s.

**Üçüncü variant**. Bəzən pullar zərb edilən yerin adı ilə adlandırılırdı. Məs, Kolxidkalar - m.ö.IV-III əsrlərdə müasir Gürcüstanda zərb edilən yerli oxşatma sikkələr, moskovka - orta əsrlərdə Moskvada dövriyyədə olan xırda pullar, kizikinalar - Kiçik Asiyanın Kiziki şəhərində zərb olunan pullar bu qəbildəndir.

**Dördüncü variant**. Hökmdarların və ya dini adlarla bağlı adlanan pullar da tarixdə olmuşdu. Bu gün bizim pul vahidimiz "manat" - əslində Yunona allahının məşhur epitetlərindən biri olub, dünynın ən qədim pul nominallarının adlarında birini davam etdirir. Ərazimizə yaxın olan Rusiyada xırda pul vahidi - kopeyka monqol hökmdarı Kəbəki xanın adı ilə bağlıdır. Daha dəqiq desək, Kəbəki xanın islahatından sonra döriyyəyə buraxılan dinar - kebeki adı müəyyən dəyişikliklərə uğrayaraq, hələ də istifadə edilir. Denqa(tək halda)-denqi - əvvəlcə Qazan xan, sonra Əmir Teymurun pul islahatından sonra dövriyyəyə buraxdığı "təngə" - pul nominalının adıdır və əsasən ilkin variantda yalnız gümüş pullara şamil edilsə də, müasir dövrümüzdə denqi Rusiyada bütün pul vahidlərinin yarı semantik adıdır. Digər bir söz "pul" sözü Rusiyaya XVI-XVIII əsrlərdən məlumdur. Bu zaman "pul" sözü o qədər geniş yayılır ki, Rusiyada yeni doğulan oğlan uşaqlarına "Pulo" adı verirlər. Uzun illər türk dünyasının qızıl pul vahidinin adı altun - ruslarda türk dilindən keçmə 6 rəqəminin simvolu kimi həm qızıl, həm çəkisi 6 qrama yaxın, həm də 6 ədəd kiçik

qızıl pulun ifadəsi kimi istifadə olunmuşdu.

Orta əsrlərdə Şərq ölkələrində mis pulların üzərində bəzən "sikkə" - kəsilmiş pul sözü, yaxud "sim" - mis, metal sözləri zərb olunurdu. Orta Asiyanın bəzi ölkələrində XV-XVII əsrlərdə mis pulların üzərində "pul" sözü zərb edilirdi. Bu söz mis pulun dinar, dirhəmdən seçilməsi üçün, həm də belə pulların dövlət zərbi olduğunun əsas göstəricisi kimi işlədilirdi.

**Beşinci variant**. Arxeoloji qazıntılar zamanı əsasən qəbir abidələrindən-kurqanlardan və yaxud adi torpaq qəbirlərindən aşkar edilən pul nümunələri əksər hallarda axirət dünyasına inamın əsas əlamətlərindən biri hesab edilir. Bəzən qədim dünyada bu məqsədlə xüsusi pullar belə zərb edilirdi. Buna misal olaraq, qədim Spartada Likurq tərəfindən buraxılan dəmir pulları misal çəkmək olar. Bəzən fövqəladə hallarda-müharibələrdə pul qıtlığı yarananda onu əvəz edən dəri, kağız, qovluq formasında pulu müvəqqəti əvəz edə biləcək əmtəələrdən istifadə olunması faktları vardır. Azərbaycanın XIII əsr tarixində monqol hökmdarı Keyxatu xan pul çatışmazlığının qarşısını almaq üçün dövriyyəyə buraxdığı "çao" adlı kağız pullar bir qədər çox-yəni 3 ay saxlanıldığı üçün əhali tərəfindən kütləvi narazılığa səbəb olmuş və məcburi olaraq ləğv edilmişdi.

**Pulların dövriyyəsi haqqında**

Pul dövriyyəsi məfhumu pulların mübadilə vasitəsi kimi istifadəsi və alıcılıq qabiliyyətinin yaranması ilə birbaşa bağlı olaraq pulların meydana gəlməsi ilə eyni vaxtda yaranmışdı. Belə bir dövriyyə sisteminin özünəməxsusluqlarından biri pulların çox vaxt dəfinə şəklində saxlanılmasında əksini tapır. Dövriyyədə olan  pulların bir qisminin kapital və ya dəfinə kimi saxlanılma səbəbləri çoxdur. Məşhur rus numizmat-alimi P.S. Savelyevin sözləri ilə izah etsək: "müəyyən tarixi hadisələr zamanı-üsyanlar, hakimiyyət dəyişikliyi, müharibələr, işğallar, həmçinin sülh, sabitlik vaxtı pulların əmanət kassası" kimi torpaqda saxlanılmasına üstünlük verilməsi həmişə olmuşdur. lakin çox vaxt bir çox səbəblərdən torpağa basdırılan pul dəfinələri "ölü kapitala" çevrilirdi. Sülh zamanı bir çox insanlar qızıl və gümüş pulları lazım olduğu qədər toplayaraq, bəzək əşyaları hazırladırdılar; müharibələrdə  əksinə onlardan yenidən pul zərb etdirirdilər". Şərq ölkələrinin siyasi tarixində belə hadisələr zaman-zaman baş vermişdi.

**Aparılan araşdırmalara əsasən, pullar bədii tərtibatına görə bir-**

**neçə növə bölünür:**

1. **Monoepiqrafik pullar** - bu qrupa daxil edilən pulların üzərində yalnız eyni əlifba ilə eyni dildə yazılar olan möhür olur. Şərq ölkələrinin, o cümlədən Azərbaycanın yetkin orta əsrlərinə aid olan pulları bu qrupa aid edilir.

2. **Anepiqrafik pullar** - və yaxud lal pullar üzərində zərb edilən yazılar demək olar ki, oxunmur. Amma təsvirlər əsas yer tutur. Şərq ölkələrində belə pullar-əsasən misdən hazırlanırdı.

3. **Brakteat pullar** - nazik və əyilmiş şəkildə olur, yalnız bir tərəfində, mərkəzi hissədə hansısa bir zərb əlaməti görünür. Belə pullar əsasən hansısa bir şəhərin düşmənlər tərəfindən mühasirəsi zamanı, döyüşlər ərəfəsində əsgərlərin maaşlarını vermək üçün tələsik çöl-səhra şəraitində zərb edilirdi.

4. **Skefat pullar -** Bizansın orta əsrlərdə zərb etdirdiyi azacıq iç tərəfə bükülmüş şəkildə dövriyyəyə buraxdığı qızıl pullar numizmatika elmində belə adlanır.

5. **Kağız pullar** - əslində kağızdan hazırlanan pullar məcburi ödəniş vasitəsi xarakteri daşıyaraq, Çində ilk dəfə m.ö.III əsrdə, sonra IX yüzillikdə meydana gəlmişdi. Bu pullar Çinin həmin dövrdəki paytaxtı - Çanan şəhərinin tarixində əhəmiyyətli yer tutan tarixi-iqtisadi hadisələrdən biri hesab edilir. Əslində bu pullar dövlətin dövriyyəyə buraxdığı qiymətli kağız nominalı hesab edilərək "fey-çyan" - uçan pullar adlanaraq, dövlət tərəfindən verilirdi. Bu pullar mis dəzgahlarda hazırlanırdı. Dövlət orqanları çox tezliklə belə pulların nə qədər xeyirli olduğunu görüb, bu işə rəvac verdilər, yəni dövlət borclarını əmək haqlarının ödənilməsində onlardan hərtərəfli istifadə etməyə başladılar. XIII-XIV əsrlərdə Çində monqolların hakimiyyəti zamanı belə burada belə qiymətli kağız statuslu pullar qalmaqda idi. Zaman keçdikcə bu pullar qiymətdən düşdükdə, belə pulların emissiyası yarandı və əmtəələrin qiymətinin dəfələrlə qalxması əhalinin kütləvi narazılığına səbəb oldu. Avropada kağız pulların mövcudluğu haqqında XIII əsrdə səyahətçi Marko-Polonun əsərlərindən xəbər tutdular. Belə ki, Şərq ölkələrinə olan səyahətdən Venetsiyaya qayıdan Marko Polo Çində Xubilay xanın adından buraxılan kağız pulların orada tam sərbəst qızıla dəyişdirilməsi faktını qələmə almışdı.

6. **Suberat pullar**-belə pulların zərbi zamanı misdən, tuncdan,

bürüncdən, dəmirdən daha çox istifadə olunurdu. Belə “ucuz” metal əsasən pulların əsas çəkisini təşkil edir; onların üstü isə qiymətli metallarla örtülürdü. Belə pullar hələ antik dövrdən məlumdur.

İlk dəfə pullar üzərində öz portretini vurduran Makedoniyalı II Filipp (m.ö.383/382 - m.ö.336) olmuşdur. O, öz portretinə yalnız qələbə rəmzi hesab edilən dəfnə yarpağından çələng, silah nümunələri zərb etdirmişdi. Onun oğlu böyük İsgəndər özünün portretinə atasından fərqli olaraq baş bəzəyi olan diademasına Allah Ammonun rəmzi olan qoşa buynuz zərb etdirmişdi. Tarixdən məlumdur ki, Makedoniyalı İsgəndər ölənə qədər özünü Ammonlu Yupiterin oğlu hesab edirdi. Görünür “İsgəndər Zülqərneyn” yəni “buynuzlu İsgəndər” əfsanəsi də elə burdan yaranmışdır.

**7.Bilon pullar** - tərkibində əsas metalın yəni qızılın, gümüşün az olduğu pullar belə adlanır. Dünyada ilk bilon pullar m.ö.VI-V əsrin əvvəllərində Leblos adasında zərb edilmişdi. Bunların tərkibindlə gümüş 40%, mis 60% olmuşdu. Antik dövrdə və orta əsrlərdə belə pulların tərkibində dəmirin faizi o qədər çoxalmışdı ki, belə pullar daha çox daxili bazarın ehtiyacını ödəməkdən başqa heç bir şeyə yaramırdılar. Bilon pullar qədim Romada III əsrin II yarısından etibarən zərb edilməyə başlamışdı. Belə pullar Romada “dinariu” adlanırdı. Orta əsrlərdə metalın rənginə görə ağ pul-yəni yüksək əyarlı gümüş pullar- (argentium album) və qara pullar-aşağı əyarlı mis və digər metalların, qarışığından zərb edilmiş (argentum niqium) pullar əhali tərəfindən seçilirdi.

### Numizmatika elminin öyrənilməsində bəzi vacib məfhumların izahı

**Aureus**-qədim latın dilində aurus numius-bu adla numizmatika tarixində tanınan ilk pullar qızıldan zərb edilmiş və Romada Respublika dövründə (m.ö.510-27-ci illər) və Qərbi Roma imperiyasında I Konstantinin (309-324-cü illər) islahatları dövründə onun qızıl solidləri zərbinə qədər davam etmişdir. Kəmiyyətcə qızıl aureuslər Avqustun hakimiyyəti illərində (m.ö.27-14-illəri) və onun varislərinin zamanında dövriyyədə işlənmişlər. Qeyd etmək lazımdır ki, II əsrə qədər bu pulların əyarı çox dəqiqliklə saxlanılmışdı. Belə qızıl aureusların çəkisi Romada bu zaman çəki vahidi kimi işlənən funtun yəni 8,19 qr -ın $^1/_{40}$–nə bərabər olsa da, zaman keçdikcə

azaldılaraq funtun $\frac{1}{50}$, $\frac{1}{72}$ qədər azaldılmışdı. Bu cür aureusların nisbətən (1 neçə dəfə) ağır çəkili olanları Romada artıq pul kimi yox, medalyon kim istifadə edilirdi. Beləliklə I Avqustun hakimiyyəti illərində 1 aureus və 25 denoriy pulunu 100 sestersiyə bərabər tutub, eyni dəyərdə dəyişmək mümkün idi.

**Dinar** - latın dilində denarius-onluq deməkdir. Dünyada ilk dinar adlı pul vahidi VII əsrdə qədim yunan pul sisteminə əsaslanaraq çəkisi 4,25 qram olan sikkə kimi dövriyyəyə buraxılmışdı. Ərəb xilafətində qızıldan zərb edilən sikkələr də dinar adlanırdı. Dinarları üzərindəki təsvirələrə və çəkisinə görə fərqləndirmək mümkündür.

**Dirhəm**-Yunanların pul tarixindən elmə məlum olan draxma nominalı orta əsrlərdə, gümüşdən zərb edilmiş, ərəblərin pul sistemində 692-696-cı illərdən etibarən, məşhur Əbd-əl Məlik Mərvanın islahatlarından sonra dövriyyə buraxılmağa başlamışdı. İlk dövrlərdə dirhəmlərin çəkisi 3,9 qr olsa da sonralar 1 misqala, yəni təxminən 4, 25 qrama qədər artmışdı. Dirhəmin hər iki tərəfində yalnız yazılar zərb edilirdi; daxili dairənin ətrafında zərb tarixi və yeri göstərilirdi. Dirhəmlərin pul vahidi şəklində daha çox yayıldığı illər 800 və 1012-ci illər hesab edilir. Belə ki, ərəb tacirləri dirhəmləri pul vahidi kimi deyil, əmtəə kimi Şərqi, Şimali Avropaya, İngiltərəyə daşıyırdılar. Bu isə Şərq ölkələrində, daha dəqiq, xilafətin tərkibində olan ölkələrdə "gümüş böhranı"na gətirib çıxarımışdı. XIV əsrdən etibarən dirhəm pul vahidi, ümumiyyətlə, dövriyyədən yoxa çıxır və 1881-ci ildə Mərakeşin hökmdarı Həsənin dövründə yenidən zərb edilməyə başlayır.

**Avers -** pulların üz tərəfi.Hər bir pulun üz tərəfində onların zərb olunduğu il, həmçinin dinin əsasları lakonik şəkildə öz əksini tapır. Bu səbəbdən ilk pulların aversində pulların zərb olunduğu şəhərin əhalisinin əsas inanc Allahları, onun emblemi (məsələn: əvvəlki səhifələrdə qeyd etdiyimiz Egin adasının simvolu olan tısbağa, Korinfin emblemi - Tanrı Peqas, Efesinki arı və s.) zərb olunurdu. Ellin dövründə pulların bu hissəsində artıq hökmdarların portretləri nəfis bir şəkildə göstərilməyə başlanıldı.Orta əsrlərdə pulların aversində hüquqi hökmdarın adı, titulları, zərb yeri, tarixi və s. kimi mühüm məsələlər öz əksini tapırdı.

**Revers** - Burada ilk dövrlərdə ayrı-ayrı təsvirlər, zaman keçdikcə dini mətnlər zərb edilməyə başlanmışdı.

**Liqatura** - pul zərbi işində vacib amillərdən olan metalların qarışığı elmdə bu sözlə ifadə olunur. Hərfi tərcüməsi-liqara-birləşdirmək deməkdir. Bu prosesdə pullara lazımi möhkəmlik və davamlılıq, bəzən də onun əyarının aşağı salınması üçün istifadə edilirdi.

**Pul reqaliyası** - latın dilində "reqalis" sözü **"krala mənsub olan"-** mənasın da tərcümə olunur. Bu söz birləşməsi ilə dövlətdə pul zərbinin kimə aid olduğu ifadə olunur. Əslində pul reqaliyası hökmdarın, müstəqil olan dövlətin vacib atributunun yerinə yetirə bilməsinin əsas göstəricisinin ifadəsidir.

**Remedium** - latın dilində hər hansı bir işə qarşı vasitə kimi işlənən "remedius" sözündən tərcümə olunur. Remedium ifadəsi ilə dövrün qəbul etdiyi sikkələrdə faktiki çəki həddinin keçildiyini göstərmək üçün elmdə istifadə olunur.

**Sikkə tipi** - Hər bir pulun xarici görünüşü, yəni onun aversi və reversinin təsvirinə görə sikkə tipləri ayırd edilir. Eyni bir dövlətdə və eyni hökmdar tərəfindən zərb edilən bir liqaturalı pulların arasında fərqə görə onlar tiplərə bölünür. Çox vaxt pul tiplərinə görə siyasi həyatda baş verən çox mühüm tarixi hadisələri, islahatları, böhranları öyrənmək mümkün olur.

**Sikkələrin metrologiyası** - sikkə işinin metrologiyası son 150 ildə artıq numizmatikanın çox vacib və mürəkkəb sahələrindən birinə çevrilmişdir. Belə ki, bu məhfumun əsas mənası, dövriyyədə olan pulların dəyərinin, onların bir-birinə olan nisbətinin və alıcılıq qabiliyyətinin dəqiqləşdirilməsi ilə əlqədar problemlərdən ibarətdir. Yaxın 100 illikdə (məs, keçən əsrdə mövcud olan SSRİ-nin pul nominalları) dövriyyədə olan pullarının dəyərinin nisbətinin aydınlaşdırılması hər bir dünya ölkəsi üçün çətinlik təşkil etmir. Lakin numizmatika elmində metroloji məsələlər daha qədimlərlə məşğul olduqda ən azı yazılı mənbələrin olması vacibdir. Belə yazılı mənbələr azlıq təşkil etdikdə və yaxud mövcud əlyazmalarda məlumat qıtlığı olduqda, dövrün siyasi-iqtisadi problemlərinin araşdırılması yalnız sırf numizmatik materialların metroloji analizlərindən asılı olur. Burada numizmatın işi "zərgər" işindən də dəqiq olmalıdır. Belə ki, zərgər öz səhvini düzəldə bilər. Amma sikkəşünas pulların çəkisinin və diametrinin ölçülməsində 0,025 mlqrama qədər səhv etsə, bu tarixin müəyyən səhifəsinin yazılmasında çox böyük səhvlərlə nəticələnə bilər. Əksinə, əgər dəqiq çəki

tətbiq edilərsə, minimum remedium təyin edilərsə, nadir pulların belə alıcılıq qabiliyyətini, dəyərini təyin etmək mümkündür.

**İkonoqrafiya** - əslində ikonoqrafiya tarixin köməkçi qollarından biri olaraq rəsm əsərlərində, memarlıqda və digər incəsənət sahələrində, həmçinin pul zərbində portretlərin, təsvirlərin öyrənilməsi ilə məşğuldur. Pulların üzərindəki təsvirlərin, portretlərin və yazıların, bəzəklərin öyrənilməsi numizmatikanın ikonoqrafiyasına aiddir.

**Kartuş** - Fransız dilində çartouche-buket, dairə sözü kimi tərcümə olunur. Təsviri sənətdə bu məhfum yazıların, möhürlərin və s. vacib bəzək elementlərinin xüsusi dairə forması olduğu kimi, pulların üzərindəki əsas məlumat xarakterli elementlər əsasən kartuş adlanırdı. Kartuşda edilən dəyişiklik artıq yeni pulların zərb edilməsi demək idi.

**Qurt-sikkənin çevrəsi**. Adətən, müxtəlif çərtmələr və ya yazılarla fərqləndirilir. Qurt elementinin əsas vəzifəsi sikkələrin saxtalaşdırılmasını şərtləndirmək idi.

**Legenda (əfsanə tipli yazılar) -** sikkə üzərində olan yazılar numizmatikada legenda adlanır. Dairəvi üfüqi vəziyyətdə yerləşərək bir və ya bir neçə sətirdən ibarət olur. Bəzən şaquli həkk olunmuş nümunələrə də təsadüf olunur. Bu yazılarda sikkənin adı, dini rəmzi, zərb edildiyi şəhərin və ya dövlətin adı və ili göstərilirdi.

**Emitet**-öz adından sikkə zərb etdirmək hüququna malik olmaq numizmatikada bu terminlə izah olunur. Bu yalnız ayrı-ayrı hökmdarlara və dövlətlərə məxsus ola bilər.

**Nominal** - sikkənin ümumi kütləsinə nisbəti deməkdir.

**Sikkənin keyfiyyətsizləşdirilməsi** - əvvəlki nominalı saxlamaqla sikkələrin tərkibindəki metalın kütləsini azaldaraq, onun çəkisini və əyarını aşağı salmaq nəzərdə tutulur.

**Numizmatikanın öyrənilmə metodları haqqında**

Numizmatika elminin özünəməxsus öyrənilmə metodları vardır. Bu tədqiqat üsullarından:

**1. İkonoqrafik üsul-yəni pulların üzərində olan şəkil obrazlarına görə**

**2. Epiqrafik üsul-pulların üzərində olan yazı nümunələrinə görə**

**3. Metroloji üsul-çəki, ölçü nisbətlərinin müqayisəsi**

**4. Ştempellərin qarşılıqlı-müqayisəli tədqiqi üsulunu göstərmək olar.**

Hər hansı pul və dəfinə yalnız o zaman elmə daxil ola bilər ki, onun tapılma yeri, vaxtı və bütün əlaqəli şəraitlər dəqiqliyi ilə məlum olsun. Bu şərtlər həm təsadüfü tapıntılara, həm yerüstü material kimi olan nominallara, həm də dəfinələrə aiddir. Burada əsas meyar məlumat çoxluğudur. Sikkələrin ən vacib vəzifələrindən olan arxeologiya elmi ilə əlaqədar olması həm də abidələrin dəqiq xronologiyasının tərtib edilməsində təkzibedilməz fakt olaraq qalmaqdadır. Bu baxımdan qazıntılar zamanı mədəni təbəqədən aşkar edilmiş hər hansı sikkə, yaxud dəfinə daha qiymətli artefakt hesab olunur. Bəşəriyyətin yazıyaqədərki tarixinin araşdırlmasının əsas mənbəyi arxeoloji qazıntılardan aşkar edilən maddi mədəniyyət nümunələridir. Aşkar edilən pul və ya dəfinənin tapıldığı yer son millimetrinə qədər üst təbəqədən hesablanaraq qeyd olunmalıdır. Əgər yerüstü kəşfiyyat işləri zamanı yaxınlıqda hər hansı bir arxeolji abidə varsa, oradan olan istiqamətlər cəhətlərlə, ölçülərlə göstərilməlidir. Əgər pul hər hansı bir əşyanın yanında, içində və ya qəbir abidəsinin yaxınlığında tapılmışsa da, onu qeyd etmək vacibdir. Əgər mütəxəssis deyil, hansısa bir insan təsərrüfat işləri zamanı təsadüfən sikkə tapılmışsa, yenə də ayın tarixi, il və tapan şəxsin ad və soyadı göstərilməklə hər hansı bir muzey tərəfindən qəbul edilir.

**İkinci mərhələdə** material xüsusi üsullarla, yəni əsasən kimyəvi maddələrin köməyi ilə təmizlənir. Bu proses çox diqqətlə və yalnız mütəxəssislər tərəfindən yerinə yetirilməlidir. Numizmatın əsl elmi işi yalnız bundan sonra başlanır. Pulun dəqiq təyin edilməsi üçün numizmat bütün bilik və təcrübəsindən istifadə edir. Əgər hər hansı bir şübhə varsa, elmi ədəbiyyatda olan müvafiq katoloqlardan istifadə etmək lazım gəlir. Bu zaman yalnız geniş numizmatik şərhi olan əsərlər köməyə gəlir. Təyin edildikdən sonra onu müvafiq yerdə düzgün yerləşdirmək lazımdır. Belə ki, bütün dünya muzeylərinin numizmatika fondlarında lazımi temperatur, işıq rejiminə riayət olunur və pullar hər biri ayrılıqda xüsusi çəkməciklərdə metalın tərkibinə görə, xronologiyaya və zərb yerinə uyğun olaraq yerləşdirilir.

**Üçüncü mərhələ** numizmatlar tərəfindən "kabinet çalışmaları" adlanır. Belə ki, yeni materiallar həm muzeylərin əsas inventar kitabında, həm də fondda öz yerini tutduqdan sonra, pasportlaşma işi başlanılır. Bu prosesdə

pul haqqında kabinet işinə qədər həyata keçirilən bütün işlər öz əksini əvvəlcədən tərtib edilmiş xüsusi bölmələrdən ibarət olan pasport qeydiyyatında tapır. Nəhayət, numizmat birbaşa elmi işinə başlayır. Pulların elmi təsvirinə uyğun olaraq, onun analoqlarının araşdırılması, metroloji, ikonoqrafik, epiqrafik məlumatlara uyğun olaraq maksimum elmi məlumatların əldə edilməsi ilə ictimaiyyətə-məqalələr, katoloqlar, kitablar şəklində çatdırılması hər bir mütəxəssisin borcudur.

Müasir dövrümüzdə-bilgisayarların müəyyən proqramlarının köməyi ilə dünya muzeylərində artıq dəqiq araşdırılmış numizmatik materiallar İnternetə daxil edilir. Bununla da hər bir kəs numizmatika elmində baş verən bütün yenilikləri öyrənə bilir.

Yeni metodlar əsasən pulun zərb edildiyi metalın dəqiq əyarının öyrənilməsi, kimyəvi, spektoqrafik, rentqenoqrafik üsullar, həmçinin hər bir ölkədə olmayan NAA-neytron aktivizasion analizindən - (yəni neytron kütləsi içərisində yerləşdirilən pul) ibarətdir. Bunlardan başqa, numizmatik materiallar mikroskopların köməyi, makro və mikroşəkil çəkilməsi ilə, riyazi üsulla, statistika elminin metodları vasitəsilə öyrənilir.

# KİÇİK ASİYANIN SİKKƏLƏRİ. QƏDİM YUNAN PULLARININ İKONOQRAFİYASI



Dünyada ilk sikkələr m.ö.XII əsrdə tamamilə bir-birindən xəbərsiz qədim Hindistan və Çində hazırlanması haqqında məlumatlar və arxeoloji tapıntılar var. Çin və Hindistanda hazırlanan sikkələr öz ərazilərindən kənarda tapılmadığından onlar dəyər vahidi kimi elmdə ilk pullar kateqoriyasına daxil deyildir. Amma dünya ekvivalenti kimi pulların insanlar tərəfindən kəşf edilməsi və dövriyyəyə buraxılması tarixi m.ö.VII əsrdə Kiçik Asiyada yerləşən **qədim Lidiya dövləti ilə əlaqələndirilir.** Belə ki, burada dövriyyəyə buraxılan, elektradan tökmə üsulu ilə hazırlanan sikkələr artıq köhnə dünyada yayılmağa başlanmışdı.

Elektra təbii qızılın gümüşlə qarışığından alınan çox dəyərli bir metaldır. Hazırki dövrdə bu qarışımdan alınan dəyərli metal ağ qızıl adlanır. Amma müasir ağ qızılın tərkibində qızıldan daha çox yüksək əyarlı gümüş olduğundan bu metaldan hazırlanan məmulatların ən azı 2500 il tarixi ola biləcəyi şübhə altındadır. İlk belə sikkələr Lidiya hökmdarı, dünyanın ən zəngin kralı adlandırılan Krez tərəfindən dövriyyəyə buraxılması barədə Herodotun "Tarix" əsərində məlumatlar var. Azərbaycanda rəsmi elmi qaynaqlarda belə bir sikkənin tapılması barədə məlumatlar yoxdur. Amma bizim ərazimizə yaxın olan Qara dəniz sahillərində vaxtilə mövcud olan Pantikapey, Olviya və digər Yunan şəhər- dövlətlərinin qazıntılarında belə sikkələr tapılmış və bu sikkələr ilk dəfə tapıldığı yerə görə "Kizikinalar" adlanır (Kizik şəhəri Qara dənizin cənub - qərbində yerləşirdi).

**Kizik sikkələrinin** averisində: şir başı obrazı, reveresində barmaq izi kimi basılma və ya çökək vardır. Bu pulların ilk sikkələr kimi qəbul edilməsinin əsas səbəbi, onların qısa müddətdə Avrasiya məkanında ticarət münasibətlərində tamhüquqlu tədavül vasitəsi kimi cürbəcür xalqlar tərəfindən qəbul edilməsi ilə bağlıdır.

**Ümumiyyətlə, Asiyanın və Avropanın sikkə sisteminin dövrləri aşağıdakı kimi elməd qəbul edilir:**

**1.Arxaik dövr** - m.ö.VII-IV əsrlər

**2.Klassik dövr** - m.ö.IV əsrin ortaları-III əsrlər

**3.Ellin dövrü** - m.ö.III əsrin sonu-II əsrlər

**4.Roma dövrü**- m.ö.II –eramızın IV əsri

**5.Bizans dövrü**- m.ö.IV-X əsrlər

**6.Orta əsrlər dövrü**- X-XVIII əsrlər

**7.Yeni dövr** - XIX-XX əsrlərin ortaları

**8.Müasir dövr** - XX əsrin ortalarından günümüzədək

Qədim Yunanıstan sikkələrinin hazırlanması və istifadəsi ümumilikdə, onun tarixinin əsas dövrlərinə uyğun dörd dövr izlənilir:

Arxaik dövr - m.ö.VII əsrdə sikkələrin istifadə dövrünün əvvəlindən-Yunan-Fars müharibələrinin sonuna qədər -m.ö.500 - 449 illər.

Klassik dövr - demokratiyasının qələbəsindən Makedoniyalı İskəndərin hakimiyyətinin yaranmasınaqədərki zaman (e.ə.334-323 ).

Ellin dövrü - demokratiyasının məğlubiyyətindən yunanların romalılar tərəfindən fəth edilməsindən (m.ö.IV - II əsrlər), Roma hakimiyyəti - müstəqilliyin itirilməsindən Şərqi Roma İmperiyasının yaranmasına qədər (IV əsr ).

Qeyd etmək lazımdır ki, erkən yunan pulları barədə bizə gəlib çatmış **"Paros salnaməsi"ndə** kral Fidonun sikkə ixtirası, ölçü və çəki sisteminin tətbiqi və sadələşdirilməsi ilə əlaqəli müəyyən maraqlı fikirlər var.

Yunan numizmatikasının öyrənilməsinin ən dəqiq üsullarından biri ikonoqrafiyadır. Pullardakı emblemlərin əsil mahiyyəti bizlərə yunanların göstərilən tarixdən pul zərbinin yaranması və inkişafı, dini dünyagörüşü problemlərini və s. mühüm məsələləri həll etməyə imkan verən maraqlı atributika hesab oluna bilər.

**Qədim Yunanıstanın sikkə möhürləri-emblematikası.** Sikkələrə müxtəlif işarələr və simvollar qoymaq adəti qədim zamanlarda yaranmışdı. Qədim tarixin hər dövrü üçün ən xarakterik görünüşləri ayırd edərək, yunan xalqının inanclarını, həmçinin şəhər simvollarını, gerblərini dəqiqləşdirmək mümkündür. Beləliklə:

Arxaik Yunanıstan sikkələrində təsvir çox vaxt yalnız bir tərəfə uyğun gəlir. Bu dövrdəki sikkələrin obrazlarının fərqli bir xüsusiyyəti - heyvanlar, bitkilər, tanrılar və ibadət yerləri; insan fiqurunun baş və aşağı gövdəsi profil şəklində verilməsi; sinə hissəsinin ön tərəfdə yerləşməsidir.

Klassik dövrdə obrazlar artıq daha təbii, detallı və mürəkkəb olmuşdur. Bu emissiyalarda sikkələrinin bəzəyi daha az və ya dayanıqlığı ilə seçilir. Klassik dövrə aid sikkələrdə Yunan şəhərlərinin simvolları bir növ gerb rolunu oynayır. Belə sikkələr adları şəhərlərin adları ilə üst-üstə düşən, müəyyən cisimlərin, heyvanların və bitkilərin göstərilməsi ilə seçilir. Məsələn, Fokeydə möhür, Egində keçi, Selinuntede kərəviz yarpağı, Rodos adasındakı güllərin təsvirləri olan sikkələri və s. nümunə göstərmək olar.



Şəkil№ 1



Şəkil№ 2



Şəkil№ 3



Şəkil№ 4



Şəkil№ 5



Şəkil№ 6

Beləliklə, sikkədəki görüntüləri öyrənərək, yunan sikkələrinin ən qədim dövrdən harada zərb edildiyi yeri və tarixi müəyyənləşdirmək olar.Bunlardan daha geniş yayılanlar aşağıdakılardır:

**AMFORA -** müxtəlif formalı antik bir keramika-saxsı qab forması olaraq, üzərində əksər hallarda metal əşya və ya bir gəmi şəkilləri, şaquli tutacaqları olan, dar və ya uclu bir bazaya malik qablar elmdə bu cür adlanır. Yunan şəhərlərinin bəzi dövr sikkələrində amfora qab obrazlarına aydın şəkildə rast gəlinir.



Şəkil№ 4



Şəkil№ 5



Şəkil№ 6



Şəkil№ 7



Şəkil№ 8



Şəkil№ 9

**1.** Bu sikkələrdən Boeotiyanın əsas şəhəri olan Tebesin sikkələrinin arxasındakı əsas görüntü kimi bir amfora, ön tərəfdəki Boeotiya qalxanı ilə birlikdə;

**2.** Attika bölgəsinin əsas şəhəri olan Afinanın zərbi olan sikkələrdə bayquşun qarmaqlarındakı bir amfora obrazı vardır;

**3.** Qrannon, Fessaliya bölgəsi - sikkələrin reversində bir amfora, aversdə atlı təsviri ilə birlikdə hazırlanmışdı;

**4.** Fasos adası - sikkələrin reversində əsas görüntü amfora, ön tərəfdəki tanrı Satir ilə birlikdə izlənilir.

**APOLLO** - qədim yunan mifologiyasında - Zevsin oğlu və Titanides Leto (Latona), ən çoxşaxəli qədim tanrılardan biri olan Artemisin əkiz qardaşı hesab edilərək, təmizlik və işıq tanrısı (Foebe - Apollon), falçı (Delfik Apollon), şəfa tanrısı və Musesin lideri (Apollon - Musaget), kənd təsərrüfatının və maldarlığın himayədarı və s. əsas kultları Delfi, Delos və Spartada idi. Onun atributları kifara- liraya bənzər simli musiqi aləti, yay və tripoddur.



ŞəkilNo 10



ŞəkilNo 11



ŞəkilNo 12



ŞəkilNo 13



ŞəkilNo 14



ŞəkilNo 15

Apollonun müqəddəs bitkisi dəfnə idi. Qədim sənət əsərlərində Apollo gözəl çılpaq bir gənc və ya uzun paltarlarda rəqs vəziyyətində təsvir edilmişdir. Sikkələrdə həm Apollonun baş hissəsi və ya onun bütöv formada obrazına rast gəlinir.

**ARES** - Yunan mifologiyasında Zevs və Heranın oğlu, mifologiyada döyüş tanrısı kimi tanınır; Roma dini inanc sistemində müharibə tanrısı Mars (lat. - "Martius") ilə bərabər tutulur. Bir çox qədim sikkələrdə Aresin başı dəbilqə geyinmiş, qalxan, nizə və qısa qılıncla silahlanmış şəkildə döyüşçü kimi zərb edilmişdi. Bu cür sikkələrdən Apennin yarımadasının cənubunda aşkar edilmişdi. Sikkələrdə Aresin saqqallı başı sola tərəf baxır; Fessaliy bölgəsindəki aşkar edilən Falanna şəhər yerindən tapılan bəzi sikkələrin aversində önə tərəf baxan Aresin baş nahiyəsi təyin edilmişdi.



Şəkil№ 1



Şəkil№ 2



Şəkil№ 3



Şəkil№ 4



Şəkil№ 5



Şəkil№ 6

**ARETUSA** - Yunan mifologiyasında Elis və Siciliyadakı eyni adlı mənbənin mələyi; tez-tez bu yerlərin qədim sikkələrində, məsələn, Sirakuzadan tapılmış tetradraxmada Aretusanın başı boyunbağı və dörd əyilmiş, suda üzən delfinlə əhatə olunmuş sırğalarla göstərilir.Bu cür sikkələrdən draxmalar da eyni məkandan tapılmışdı.

**ARTEMİS** - qədim yunan mifologiyasının ən çox tanıdığı ilahə Zevsun qızı və Apollonun əkiz bacısı Titanides Leto; Roma mifologiyasındakı Dianaya bərabər hesab olunur. Ovçuluq ilahəsi, heyvanların qoruyucusu, məhsuldarlıq ilahəsi, ay və digər göy cisimlərinə sitayiş obrazıdır. Çox vaxt antik sikkələrdə, adətən yay və ox ilə qısa paltarda və maral və mələklərin müşayiəti ilə təsvir olunur:

**ASKLEPIY** - Yunan-Roma mifologiyasında, sağlamlıq tanrısı olan Asklepinin himayədarlıq etdiyi Epidaurus, Perqam və Kosda hesab olunur. Romada Asklepiuy (Aesculapius) inancı eramızdan əvvəl 293-cü ildən mövcud olmuşdur. Yunan sikkələrində Asklepiy, ilan bükülmüş bir dəstəyə - Askulepiyin dəyənəyinə söykənən və ya uzun paltarda oturan, bəzən qızı, sağlamlıq ilahəsi Higiea-Gigiena (Romada Salut) və yoldaşı Telesfort ilə birlikdə dayanan, saqqallı bir adam kimi təsvir edilmişdir. Asklepiyə həsr olunmuş məbədlərin təsviri olan sikkələr də var.

**AFİNA PALLADA** - qədim yunan mifologiyasında Zevsun qızı, bakirəlik tanrıçasıdır. Şəhərin himayədarı, Parfenon məbədinin sahibi hesab olunur. Sonralar qədim Romada Minerva tanrısı ilə bərabər tutulan müharibə, qanun, sənət, hikmət, kənd təsərrüfatı və s. sahələrin tanrılısı olaraq qəbul edilmişdi. Onun atributlarına dəbilqə, nizə, qalxan, meduza başı daxildir. Yunan və Roma sikkələrində çox tez-tez rast gəlinir.

**AFRODİTA** - sevgi və gözəlliyin Tanrısı olaraq yunan-roma mifologiyasının əsas qəhrəman-tanrılarındandır; Zevs və Dionun qızı Afrodita Roma panteonunda – Venera adı ilə qəbul edilir. Afroditanın əsas himayədarlıq etdiyi Kipr və Yunanıstanın cənubundakı Kape Maleya ilə üzbəüz yerləşən Kifera adasında və Siciliyada (Ericks dağında) idi. Yunan və Roma sikkələrində Afrodita, yaxud Veneranın başı və ya büstü, həmçinin oturmuş şəkildə, ayaq üstdə dayanmış, kvadriqa adlı dörd atın qoşuldugu araba üzərində təsvir edilmiş şəkillərdə sikkələrdə mövcud olmuşdu.

**BEOTİAN ŞELD** - hər iki tərəfdə yarımdairəvi kəsikli böyük bir oval metaldan qoruyucu obrazı Boeotiya qalxanı adlanır. Bu cür sikkələr qədim Yunan bölgəsi olan Boeotiya sikkələrində daha çox tapılmışdır. Buradan başqa Akraifia və Tebes şəhərlərinin staterlərinin ön tərəfində aşkar edilmiş mühüm obraz hesab olunur.

**BIGA** - bir cüt atın çəkdiyi iki təkərli antik müharibə arabası belə adlanır. Klassik dövrdə bıga yunanlar və romalılar tərəfindən yarışlarda və

zəfər mərasimlərində istifadə olunurdu. Bundan əlavə, iri ölçülü sikkələrdə bəzən atların qoşulmadığı, tanrı üçün müqəddəs olan digər heyvanların təsvir olunduğu tanrıların bir döyüş arabası kimi rast gəlinir: bunlardan Artemisdən olan marallar, Junonun keçiləri, aydan olan öküzlər, Poseydondan gələnlər və digər maraqlı mifoloji süjet obrazlarını sikkələrdə görmək mümkündür. Bıganın görüntüsü, xüsusən, Sicilya adasındakı Yunanistanın Messana (Messina) sikkələrinin ön tərəfində, əks tərəfdə bir dovşan təsviri ilə birlikdə tapılmışdır.

**Güləşçilər** - əlləri ilə bir-birinə yapışan iki paltarsız idmançının obrazı Pamfiliyanın Aspend şəhərinin pullarının əsas üz tərəfi, sağ tərəfdəki bir döyüşçü obrazı ilə birlikdə, arxa tərəfindəki üç ayaqdan ibarət svastika olan sikkələrdə aşkar edilmişdi.



Şəkil№ 1



Şəkil№ 2



Şəkil№ 3



Şəkil№ 4



Şəkil№ 5



Şəkil№ 6

**BULL** - tez-tez müxtəlif qədim sikkələrdə tapılan bir möhürəbənzər görüntü belə adlanır. Belə sikkələrdən Böyük Yunanıstanın Kampani bölgəsinin Giria şəhərindən tapılmışdı. Bu sikkələrin arxa tərəfində sağa gedən öküz obrazı vardır; Başqa bir eynitipli sikkə nominalı Neapoldan tapılmışdı.Bu sikkənin aversində insan üzü və sağa doğru gedən bir öküz bəzən qələbə ilahəsi Nikanın üstündə uçan, ona dəfnə çələngiylə tac qoyan formada zərb edilmişdi. Kiçik Asiyanın Kilikiya bölgəsinin Tarsus adlı yerindən aşkar edilən bəzi sikkələrin reversində öküz və aslan arasındakı döyüş təsviri; Magneziya və Kiçik Asiyadakı İoniya bölgəsindən tapılan bəzi sikkələrin reversində sola hücum edən öküz, avesində sağ tərəfdə cırtdan atda çırpınan paltarlı bir atlı təsviri vardır;




Şəkil № 1



Şəkil № 2



Şəkil № 3



Şəkil № 4



Şəkil № 5




Şəkil № 6

**Grafes** - qədim sikkələrdə müstəqil bir obraz olaraq üzüm, üzüm salxımı və ya şərabçılıq tanrısı Dionisin fiquru ilə zərb edilmidi.Belə sikkələrdən Kilikiya bölgəsində Nagidosda - Dionisin əlində bir dəstə üzüm; Trakyada yerləşən Maroneada adlı bir şəhər zərbi olan sikkənin reversində kvadrat çərçivədə bir və ya dörd dəstə üzüm salxım; avesdə sağa tərəf yönələn cırtdan at obrazı vardır.

**Öküz** - antik dövrün bir çox dövlətlərinin sikkələrində bu obraza rast gəlinir. Bunlardan Kampini vilayətinin sikkələrində sağa tərəf hərəkət edən öküz obrazları əsasən reversdə zərb edilirdi. Neapol şəhərinin antik dövr sikkələrində sağa tərəf hərəkət edən öküz obrazının üz quruluşu insan sifəti olaraq, daha çox sfinksi xatırladır. Bəzən bu öküz obrazının başı üzərində yunanların qələbə ilahəsi Nikanın onun başına tac qoyduğunu görmək olur. Maqneziya şəhərinin antik dövr sikkələrində reversdə hücüm mövqeyində olan öküz sola tərəf yönəlmiş şəkildə, aversdə sağa tərəf atlı çapar vəziyyətində, əynində uzun döyüş geyimi olaraq zərb edilmişdir.



Şəkil № 1




Şəkil № 2



Şəkil № 3



Şəkil № 4



Şəkil № 5




Şəkil № 6

Vizantiy-Frakiyadakı bir şəhərin(indiki İstanbul sərhədlərinin bir hissəsi) eyni dövr sikkələrində sağa tərəf baxan öküz obrazının ayaqları altında delfin obrazı aydın seçilir. Posidoniyanın sikkələrində sola yönəlmiş şəkildə öküz reversdə,aversdə dəniz tanrısı Poseydon əlində üçdişli silahla göstərilmişdir.

**Gelios-**qədim yunan mifologiyasında Günəş Tanrısı hesab olunur.Eyni tanrı Roma mifologiyasında Sol adlanır. Bununla belə, Gelios eyni adla Romanın sikkələrində olduğu kimi ara sıra zərb edilirdi. Məsələn, Rodos adasının, Knid şəhərinin gerbi qıvrım saçları çiyinlərinə tökülmüş şəkildə olan tanrı obrazına kifayət qədər rast gəlmək mümkündür.Roma tarixinin bəzi zamanlarında və məkanlarında  sikkə tarixində Sol adlı Günəş tanrısı başında dişli tac olan, sağ əli yuxarı qalxmış, sol əlində yer kürəsinin obrazı olan bir formada pullar zərb edilmişdir.



Şəkil № 1



Şəkil № 2



Şəkil № 3



Şəkil № 4



Şəkil № 5



Şəkil № 6

**Atlı**-antik dövrün sikkələrində çox geniş yayılmış bir emblemdir. Bunlardan qədim Yunanıstana aid olan sikkələrdə aversdə atlı hərəkətdə çapar vəziyyətdə, reversdə delfin obrazı vardır. Maqneziya - sikkələrində aversində uzun paltarlı atlı çaparaq vəziyyətdə; reversdə öküz obrazı zərb edilmidşir. Farsal - Fessaliyanın şəhərlərindən birində zərb edilən sikkənin reversində atlı obrazı hərəkətdə, aversində Tanrısının başı dəbilqəli zərb edilmişdir.

**Gera** - Yunan-Roma mifologiyasında Zevsin - Yupiterin həyat yoldaşı olan bu Tanrı bütün nigahların və qadınların qoruyucusu kimi qəbul edilmişdir. Geranın məbədi Olimpiya dağında və Samos adasında yerləşmişdir. Romada Kapititoli dağında Yunona Monetanın məbədi də eyni funksiuanı daşımışdır. Sikkələr üzərində hündür, gözəl bir qadın obrazı, başında hakimiyyət rəmzi diadema olaraq zərb edilirdi. Üzərində Geranın obrazı olan yunan sikkələrində aşağıdakı variantlar da zərb edilmişdi:



Şəkil № 1



Şəkil № 2



Şəkil № 3



Şəkil № 4





Şəkil№ 5 Şəkil № 6

- ❖ Samos adasının sikkələrdə Geranın baş nahiyəsi
- ❖ Bruttiyda-Appenin yarımadasında Gera əlində qalxan
- ❖ Xalkida-Evbey adasında Geranın başı sikkələrin üz tərəfində: reversdə dimdiyində ilan tutan qartal obrazı olan sikkələr elmə məlumdur.

**Qədim Yunanstanda bank-kredit məsələləri.** Qədim Yunanıstanda sələmin- yüksək faizli kredit verilməsi ilə həm imkanlı insanlar, həm şəhərlərin vətəndaşları, həm də dəyişən dükan -trapez sahibləri məşğul olurdular.



Şəkil № 1



Şəkil № 2



Şəkil № 3



Şəkil № 4



Şəkil № 5



Şəkil № 6



Şəkil № 7



Şəkil № 8

Onlar arasında sahiblərinin nümayəndəsi rolunda çıxış edən qullar da var idi. Trapezlərin əsasında borc bazarında kredit və digər xidmətlər inkişaf etməyə başlamışdır. Yeri gəlmişkən, orta əsr İtaliyasının mübadilə şöbələrindən yaranmış müasir banklar, eyni inkişaf yolu keçmişdirlər, yunan dilində olan "trapeza" sözü "bank" kimi tərcümə olunur.

Ellin trapezlərinin fəaliyyəti və ümumiyyətlə, trapezlərin meydana gəlməsi, m.ö.VII əsrdə Kiçik Asiya ərazisində yerləşən Lidiya dövlətində standart qızıl və gümüş pullarının yaranması ilə mümkün olmuşdur. Bu "yenilik" digər yunan ticarət-şəhərləri tərəfindən mənimsənilərək, gələcəkdə beynəlxalq pul dövriyyəsinin yaranmasına səbəb olmuşdur. Yunanların yaratdıqları banklar (əgər onları belə adlandırmaq mümkündürsə), pul dövriyyəsi nəticəsində inkişaf ediblər. Qədim yunanların borc münasibətlərinin qanunvericiliyinin əsaslarını Şərqdən öyrənməsi təəccüblü deyil, xüsusilə bu ölkələr arasında Babilistanın böyük rolu var



Şəkil № 9



Şəkil № 10



Şəkil № 11



Şəkil № 12

Qədim Yunan bank-trapezlərinin fəaliyyəti m.ö.V-IV əsrin əvvəllərində aktiv inkişaf etməyə başlamışdı. Bu trapezlərin əsas iqtisadi funksiyası pul mübadiləsinin həyata keçirilməsindən ibarət olmuşdur; çünki hər bir şəhər-dövlətin öz sikkələri var idi. Mübadiləyə görə çox vaxt 5-6% komissiya haqqı tutulurdu, bəzən bu rəqəmin 10-25% qədər çatdığı hallara da rast gəlindiyi ehtimal edilir. Pul mübadiləsini həyata keçirən insanlar tədricən bankirlərə çevrilməyə başlayıblar.

Nəticədə, iri trapezlər-banklar kredit əməliyyatların mərkəzinə çevrilirdi. Bəzən yatırımlar faizsiz olurdu (məsələn, mülkiyyətin vergi tutmalarından qorumaq məqsədi ilə edilmiş yatırımlar). Nəzəri olaraq, trapezdə hər zaman müəyyən ehtiyat fondları olurdu.

Miladdan öncə V əsrin sonundan başlayaraq, depozitlərin qəbulu və onların kredit əsasında verilməsi, yunan banklarının əsas iqtisadi funksiyalarının birinə çevrildi. Depozitlər 10% altında qəbul edilirdi, ssudalar - sələmlə verilən borclar daha yüksək-10-33% ilə verilirdi. Ssudalar zamin, əmlakın girovu və bəzi hallarda torpaq girovu ilə də təmin olunurdu.

Pulların saxlanılması və mübadiləsi əsasında, bir yatırımçının hesabından digərinin hesabına pul köçürmə əməliyyatları meydana gəlmişdir. Xüsusilə digər dənizsahili ölkələrdə dəniz ssudası gediş yayılmağa başlamışdır. Bu ssuda, gəminin və ya əmtəənin girovu əsasında dəniz ticarət ekspedisiyaların keçirilməsi məqsədi ilə pulların verilməsini nəzərdə tutur. Göstərilən maliyyə əməliyyatı kifayət qədər təhlükəli olduğuna görə, kreditorlar qarşılığında yüksək faizlər tələb edirdilər. Bəzən bu rəqəm müharibə dövrü üçün 30%, sülh dövrü üçün isə 22,5% təşkil edirdi.

Dəniz ssudaları-pul borcları yalnız peşəkar sələmçilərə deyil, da əcnəbi kimi yaşayan insanlara da verilirdi. Tədricən kreditin verilməsi ilə ticarətçilər, iki və daha artıq nəfərdən ibarət olan birliklər də məşğul olmağa başlayırlar. Bəzən borclular razılaşmanın şərtlərindən yayınaraq, sələmçiləri aldadırdılar. Bu prosesin sonunda digər yunan şəhərlərində məhkəmə proseslərinin başlanmasına səbəb olurdu. Götünür bu səbəbdən burada bank işi sahəsində məhkəmə sistemi çox yaxşı inkişaf etmişdir. Çox vaxt məhkəməyə müraciət etmiş tərəf trapezlər olurdu, bununla onlar borcları faiz ilə qaytarmağa çalışırdılar.Belə mülki məcəllə xarakterli məlumatlara yunanlara aid edilən kitabələrdə rast gəlmək mümkündür. Kitabələrin məlumatlarına əsaslanaraq qeyd etmək olar ki, məhz borc, kredit ödəmələri, girovlar və s. haqqında olan məhkəmə və istintaqlar ölkədə mövcud olan qanunlarla həyata keçirilirdi. Məhkəmələrdə həm geniş şəkildə dəniz ssudaları, həm də depozitlərin qaytarılması barədə istintaqlar aparılırdı. Məhkəmə qərarları, adətən, 30 gün ərzinə verilirdi. Qərarların bu qədər tez bir zamanda verilməsi, kreditorların maraqlarının qorunması ilə bağlıdır.Maraqlıdır ki, o dövrlərdə razılaşmaların məzmunu ilə bağlı heç bir problemlərə rast gəlinmirdi. Ola bilər ki, buna əsas səbəb kimi razılaşmanın şahidlərin, müasir leksikologiyada ifadə etsək zaminlərin iştirakı ilə bağlanmasını göstərmək olar. Razılaşmanın

bir nüsxəsi notariat rolunda çıxış edən bankir-trapezitdə saxlanılırdı. Borc əvvəlcədən müəyyən olunmuş vaxtda trapezitlərin iştirakı ilə ödənilirdi.

## Makedoniyalı İskəndərin Şərq yürüşü və Əhəməni monarxiyasının çökməsi. Polis təsərrüfatının canlanması.



Ellinizm, yaxud Hellinist **- yunan Ἑλληνισμός; lat. Hellēnismós -** Aralıq dənizinin şərq sahili ölkələri tarixində mərhələ olaraq, Makedoniyalı İsgəndərin m.ö.334-323-cü illərdə hərbi səfərlərindən tutmuş, həmin ölkələrin Roma imperiyası tərəfindən işğalına qədər olan tarixi dövrü əhatə edir.

"Ellin" yaxud "hellin" ifadəsi tarixşünaslığa alman tarixçisi İohan Qustav Droyzen tərəfindən daxil edilmişdi. Tarixçilər ellinizm terminini müxtəlif şəkildə şərh edirlər; bir çoxları yunan və yerli, xüsusən də şərq mədəniyyətlərinin qarşılıqlı təsirini ön plana çəkir; bəzən ellinizm anlayışının xronoloji sərhədlərinin orta əsrin başlanğıcına qədər gətirib çıxardırlar. Digərləri başlıca diqqəti sosial-siyasi strukturların qarşılıqlı təsiri məsələsinə yönəldir, yunan-makedoniyalıların aparıcı rolunu qeyd edirlər.

Ellinizmin tarixi - bir qayda olaraq ellin dövlətlərin yaranmasına, İsgəndərin sərkərdələri-diadoxların mübarizələrinə, ellinizmin çiçəklənməsinə, ellin dövlətlərin tənəzzülü və Roma tabeliyinə keçməsi dövrlərinə bölünür.

Antik dövrdə yunanlar və onların mədəniyyətinin təsiri altında olan dövlətlər tərəfindən zərb edilmiş sikkə yığımı **yunan sikkələri - kimi tanınır.** Yunan dövlətçiliyi çoxsaylı şəhər-polisi, şəhər birliyi, həmçinin bir neçə bölgələr şəklində inkişaf edirdi. Onlar müxtəlif zamanlarda müstəqil siyasət yeritdikləri üçün sikkə zərb etməyk hüquqları var idi. Bu səbəbdən Yunanıstanda zərb olunan sikkələr dünya muzeylərinin fondlarında çöxluq təşkil edir. Hazırda numizmatik materiallara əsaslanaraq antik dövrdə

Yunanıstanda (İspaniya və Qalliyadan başlayaraq, Kiçik Asiya və Misir kaloniyalarında) yerləşən 2000-dən artıq (Ellin dövlətlərinin zərbxanalarıda bura daxildir) zərbxanaların mövcudluğu haqqında mühakimə yürütmək olar. Bu qədər zərbxananın fəaliyyətinin qalıqlarından misal kimi, Almaniya muzeylərinin münskabinetlərində sayı 100000-dən çox olan yunan sikkə nümunələrinin mövcudluğunu qeyd etmək olar.

Yuxarıda qeyd edildiyi kimi, ilk dəyər vahidi statusu daşıyan sikkələr Lidiyada başlayaraq, demək olar ki, eyni yüzillikdə həm də Yunanıstanın bəzi şəhərlərində elektradan, yəni qızıl və gümüşün qarışığından düzgün formada olmayaraq tökmə üsulu ilə hazırlanmışdı. Dünya tarixində ilk ən zəngin, var - dövlətə malik edildiyi ehtimal edilən və ilk dəfə elektradan sikkələr zərb etdirən Lidiya şahı Krez (yunan Κροίσος; 595-546 m. ö.) həm də ilk dəfə qızılı və gümüşü sikkə metalı sırasına daxil etmişdir.










Lidiyanı fəth edən Əhəməni şahları bu bimetallizm xarakterli pul sistemini qoruyub saxlamışdılar. Onların 8,4 q. çəkisinə malik olan qızıl sikkələri hakimiyyətləri dövrdə külli miqdarda zərb olunurdu və uzun müddət bütün qədim dünyanın əsas dünya valyutası, həm də həmin dövrün xalqları və hakimiyyətləri tərəfindən qeyd şərtsiz qəbul edilən **ticarət sikkəsi** kimi çıxış edirdi. Sikkənin üz tərəfində şahın ox atışını əks etdirdiyi üçün I Daranın adı ilə bağlı bu sikkələr oxçu-silahlı döyüşçü və yaxud dariklər adlanırdı. Yuxarıda qeyd etdiyimiz kimi, "darik" sözünün etimologiyası qədim dünyanın ən geniş yayılmış pulaqədərki əmtəə mübadilə vasitəsi olan dəri sözündən götürülməsi də ehtimal olunur. Əksinə, Əhəməni gümüş sikkələri **stater - 11,2 q., sikl-5.6 q.** bu şəkildə olmasına baxmayaraq, qədim dünyada görünür az tanınırdılar. Bu gümüş nominallar ehtimal ki, daha çox imperiya daxilində ticari əlaqələrdə o

qədər də əhəmiyyətli olmayan, yerli bazarlararası alqı-satqıda istifadə edilirdi. Qısa zaman keçdikdən sonra sikkələrin zərb edilməsi ticarətin inkişafına yaxşı təsir göstərdiyi üçün Kiçik Asiyanın Aralıq dənizi sahilində yerləşən böyük yunan koloniyalarında bu iş həyata keçirilməyə başladı. Bunlardan Efes. Milet, Xios, lampsakos, Evbey və digər yerləri göstərmək olar. M.ö.VII əsrdə oradan bütün Aralıq dənizi boyu sikkə zərb edilməsi sürətlə yayılmağa başladı.

## Əmtəə pul münasibətlərinin inkişafı. Ellin mədəni mühiti və ellin periferiyasında sikkə zərbi



Yunanıstanın özündə şəhər-polislər arasında ilk sikkə zərb edən Egin olmuşdu; burada avers-üz tərəfində rəmzi tısbağa əks etdirən gümüş didraxmalar zərb olunurdu (buradan onların tısbağa adı yaranmışdır). Miladdan öncə 630-620 illərə yaxın və Korinfdə sikkə istehsal edilməyə başlandı. Sonralar m.ö.VI yüzillikdə bu tipli sikkələr Sitsiliyada və cənubi İtaliyada, Makedoniyada və həmçinin, Qara dəniz sahilində yerləşən yunan kaloniyalarında zərb olundu.

Miladdan öncə V-IV əsrlərdə Peloponesdə, Fokeydə, Beotidə və digər məşhur ticarət məskənləri olan şəhərlərdə yerləşən çoxlu sayda kiçik şəhər-polislər sikkə zərb etməyə başladılar. Nəhəng ellin dövlətlərinin yaranması nəticəsində yunan zərbxanalarının nisbətən sayı azaldı. Makedoniya və yunan polislərinin Roma tərəfindən işğalından sonra (m.ö. 148-ci ildə Makedoniya Roma vilayətinə çevrildi, m.ö. 146-cı ildə azad yunan şəhər-polisi Korinf məhv olundu) sikkə zərbi dayandırıldı və Roma imperatoru inqilabçı–islahatçı kimi tanınan Dioklitianın (m.ö.244-311) dövründə ümumiyyətlə, ləğv edildi. Onun göstərişi ilə Kiçik Asiya ərazisində yerləşən bir neçə yunan şəhərlərində nisbətən ucuz dəyərə malik olan bürünc sikkələrin zərb edilməsi dayandırıldı.

Əgər ellin dünyasının m.ö. VII-V əsrlər tarixində Egin sikkə sistemi üstünlük təşkil edirdisə, sonralar onun yerini numizmatika elmində şərti olaraq yer adı ilə əlaqəli adlandırılan Attika sikkə sistemi tutdu. Attik talantı kifayət qədər ağır olaraq, 26,196 kq çəkisində olaraq, 60 minaya, 1 mina 436,6 q = 100 draxma, 1 draxma 4,366 = 6 obol, 1 obol 0,72 q = 8 xalk adlı pul vahidlərinə bölünürdü. Bütün yunan sikkə sistemi böyük rəqəm

fraksiyası sisteminə aid idi; sadalanan pul vahidlərindən başqa ***10,42 və 1/2 draxma, həmçinin 5, 4, 1, 1/2, 3/4, 1/2, 3/8 və 1/4 obol*** sikkəsidə zərb edilirdi. Digər yunan dövlətlərinin öz bölmə variantı, həmçinin qismən fərqli ad nominalı var idi. Yunan sikkəsi öz inkişafında həmin dövrün başqa sənət növləri kimi yüksək incəsənət əsərlərindən hesab edilirdi.

Yunan sikkəsi üç əsas tipdə olmaqla dövrlərə bölünür:

- arxaik (m.ö.640 - 490/490 illərə yaxın),
- klassik (m.ö.490/480 - 323/300 illərə yaxın),
- ellin (m.ö.323/300 - 27 illərə yaxın).

Bu dövrün mərhələləri böyük tarixi siyasi hadisələrlə bağlı təyin edilmişdir: Yunan - İran müharibəsində qələbəsi, Makedoniyalı İskəndərin vəfatı və Diadox-Selevkilər dövlətinin yaranması, həmçinin Yunanıstanda imperator Avqustun dönəmində sosial - siyasi çevriliş.

Arxaik dövrün sikkələrinin üzərində əks olunan müxtəlif heyvan, bitki, qablar və məişət əşyaları, həmçinin tanrıların şəkilləri öz sadələşdirilmiş və realizm üslubu ilə əvvəlkilərdən fərqlənirdi. Sikkələrdə baş və insan bədəninin aşağı nahiyəsi profil şəklində əks olunurdu; bədənin yuxarı nahiyəsi izləyiciyə kəskin şəkildə, yaxud da fasdan dönmüş kimi göstərilirdi. Görünür, bu obrazları yaradan rəssam-nəqqaş xüsusi zərgərlik üsulları ilə abstrakt şəkillərdən deyil, öz müşahidəsindən ilhamlanmışdır. İnsan hərəkəti və duruşları sikkələrdə çox təbiidir. Nnümunə kimi m.ö.460 ildə yaxın Siciliya Sirakuzasında zərb edilən tetradraxmanın üzərində əks olunan Satir şərab qədəhi ilə; m.ö.500 ilə yaxın Eritreyadan tapılan tetradraxmanın üzərindəki dana obrazı və sairələri göstərmək olar.

Ellin dünyasında Makedoniyalı İskəndərin ölümündən sonra (m.ö.323-cü il) hökmdarların portreti sikkələr üzərində əks olunması böyük məna kəsb edirdi, məs. Makedoniyalı İskəndərin başı Frakiya şahı Lisimaxın tetradraxmasında, I Antiox Satirin başı kimi şəxsi sikkələrində və s. Sikkə zərbetməsi işinin yüksək inkişafı Yunanıstanda m.ö.V əsrə təsadüf edir. Yunan sikkə zərbinin tarixndə demək olar ki, hər bir dönəm ayrı bir araşdırma mövzusu hesab edilsə də bəzi alim-numizmatların fikrincə bu maddi-mədəniyyət nümunələrinin "şah əsəri" üzərində qələbəyə həsr edilmiş 10 draxmalıq sikkədir:

Avers - tullanan delfinlərin əhatəsində Aretuzun başında nimfa;

Revers - zəfər çalan üçün əlində çələnglə uçan Nikanın qarşısına atlarla çapan kvadriqa.

Beləliklə, Avropanın ilk və ən qədim mədəniyyət mərkəzi olan Yunanıstanın numizmatikası yalnız dəyərli nadir sikkələrin zərb edildiyi insan məskəni deyil, həm də iqtisadiyyatın mühüm sahəsi olan banklar və bank işinin vətəni olduğunu sübut edən maraqlı maddi mədəniiyət nümunələrini özündə ehtiva edir.

## ROMA İMPERİYASININ SİKKƏLƏRİ. AVROPADA SİKKƏ ZƏRBİ VƏ PUL DÖVRİYYƏSİ




**Roma Respublikasının pul sistemi**. Roma Respublikasının pul sistemi bütövlükdə qədim Romanın pul sistemi tarixindən, yaxud da siyasi və iqtisadi inkişafından bəhs edir. Bütövlükdə Roma Respublikasının pul sistemi aşağıdakı dövrlərə bölünür:

- ❖praktik olaraq xam bürünc külçə (Aes rude - Aes kobud ) və tökmə bürünc külçə (Aes signatum) - m.ö.312-ci ilə qədər;
- ❖tökmə tunc sikkələr (Aes signatum) - m.ö. 312 - 268-ci illər;
- ❖bürünc və gümüş sikkələr - m.ö. 268-e. 89-cu illəri.

Rəvayətə görə, ilk Roma sikkələri islahatçı hökmdar Servius Tullius (m.ö.578-535) tərəfindən zərb edilmişdir. Amma bu mülahizə Roma Respublika pul sistemi araşdırılandan sonra təsdiqini tapmadı. "Roma sikkələri" kitabının müəllifi Harold Mattinglyə görə, Romadakı ilk sikkələr miladdan öncə **289-cu ildən bir qədər əvvəl** zərb edilmişdir.

Antik Romada mübadilənin ilkin ekvivalenti **mal-qara - pecus – pecunia** olmuşdur. Tədqiqatlar bir daha təsdiq edir ki, Roma Respublikasında Samnit müharibələri dövründə IV əsrin ikinci yarısında Yunanıstan şəhər polisinin sikkələrindən istifadə edilmişdir.

İlk Roma "metal pulları", təxminən ass sisteminə uyğun tökülmüş və 270 qram ağırlığında mis külçələr olmuşdur. Bu külçə fraksiyalara-kiçik dəyər vahidlərinə ayrılırdı. Tədqiqatçılar tökmə üsulu ilə hazırlanan ən kiçik hissənin təxminən 8 qram ağırlığında “mis tökmə parçası” adlandırırlar.

III əsrin əvvəllərində romalılar dövlət pul sikkə sisteminə keçirlər. Qeyd olunan sikkələr **aes signatum** (yəni "magistrat işarələri olan mis") adlandırılmağa başlanır. Bu, müxtəlif işarəli (qartal, qılınc, sünbül, lövbər və s.), 1,5 kq ağırlığında və nominalında olan mis külçə **5 ass** olmuşdur. Əslində, **ass (aes grave)** - ilk Roma funtu ağırlığında olan mis sikkə (həmçinin tökmə) idi.

Trayan. m.ö.98-117 illər. Æ Sestertium (26,60 q,). Roma zərbxanasında 116-117-ci illərdə kəsilmişdir.

Aes signatum, tunc külçə, Roma, eramızdan əvvəl IV əsrin sonu - III əsrin əvvəlləri. - uzunluğu təxminən 15 sm - çəkisi 1,4 kq. Sente Genevyèv Kitabxanasının Medallar kabineti, Paris.



**Aes signatum, tunc külçə, Roma, eramızdan əvvəl IV əsrin sonu - III əsrin əvvəlləri.**



**Aes Signatum, Roma Respublikası. e. ə. 450; bürünc; mm. 185,00x90,00; gr. 1616,62; Vatikan Kitabxanası, Roma**



**Anonim (Roma). Eramızdan əvvəl (240-225). Æ Aes Grave As (259,53 g).**




**Trayan. 98-117-ci illər**
**Æ Sestersium (26,60 q,). Romada zərbxanası. 116-117-ci illər.**

Revers: Laureatın büstü, himayəsində REX PARTIS DATVS, Trayan sol tərəfdəki hündür kürsüdə oturmuş, sağda diz çökmüş Parfiyanın Partamaspatını təmsilçisi; Trayanın arxasında solda prefekt dayanır.

**Assların dəyərləri:** tress (tressis), dupondium (müvafiq olaraq 3 və 2 ass), semiss, trense, quadranse, sextanse, unsiya müvafiq olaraq aktivin bir hissəsi). Asslar yalnız çəkiləri ilə fərqlənmir, üzərində müxtəlif tanrıların təsvirləri əks olunursu. Bununla belə, tress və dupondium nominalı - müvafiq olaraq III və II işarələrin göstəricisi olmuşdur.

Kapuanın fəthindən sonra romalılar gümüş didraxmalar zərb edirlər. Roma Respublikasının sikkə zərbində Yunan şəhər polislərinin sikkələrinin avers və reverslərində olan rəsmlər olduğu kimi təkrarlanır. Məsələn: Ares (Mars) - atın başı ROMANO əfsanəsi və s..




**Titus. Karisius. (m.ö.46) Denariyus. Avers: Yunona Monetanın, Revers.:zərbxanada istifadə olunan alətlərin təsvirləri.**




**Septimius Severus, (193-211). Aureus Aureus (7,23 qm).**

Septimius Severus imperator elan ediləndən sonra legionun şərəfinə 193-cü ildə zərb edilmişdir. IMP CAE L SEP SE-V PERT AVG, laureat baş sağ LEG XIIII GEM M V, TR P COS in exergue, legioner qartal iki standart arasında.

Müasir alimlər Roma sikkələrini m.ö.280-225 illərlə əlaqələndirirlər. Göründüyü kimi, Kapualılar Roma üçün Yunan litrlərin bərabər, həm də onun fraksiyalarına uyğun - ikiqat və yarım litrə bərabər olan mis sikkələr zərb etdirmişlər.

**225-ci ildə** Roma Respublikasında pul islahatı həyata keçirilir. İslahatdan sonra gümüş sikkələrin əsas tipi **kvadriqat,** çəkisinə görə **didraxmaya** bərabər olmaqla, Romada zərb olunmağa başlanır. **Kvadriqatların** zərbi prosesində

**averslərdə** Janusun təsviri, **reversində** - kvadriqada Yupiter və Romanın əfsanəsi əks olunurdu. İslahat mis sikkələrin tiplərində dəyişikliklərə səbəb olmuşdu. İslahatdan sonra romalılar mis sikkələrin reversində müxtəlif Tanrıların və qaler adlı gəmi obrazının burun hissəsinin şəklini təsvir etməklə yanaşı, çəkilərində və ikonoqrafiyasında aşağıdakı dəyişikliklərə başlamışdılar:

Asslarda-Janus, semissdə - Saturn, triens - Minervanın, kvadransda - Herkulesin, sextansda - Merkurinin, unsiyada - Romanın şəkli zərb olunmuşdu.

İkinci Pun Müharibəsi dövründə semunçiya və kvadrusiya -1 ⁄ 24 və 1 ⁄ 48 assa bərabər sikkələr zərb olunurdu.

Onu da qeyd etmək lazımdır ki, III əsrdə II Pun müharibəsi dövründə "aes grave"nin çəkisi azalaraq, təqribən 132 q olmuşdur. Miladdan öncə 211-ci ildə, Romada Hannibal müharibəsi zamanı ikinci pul islahatı keçirilir. İslahatdan sonra assın çəkisi 44 qrama qədər, sonralar daha da azalır. Bununla bərabər, fraksiyalarının çəkisində azalma baş verir. Belə ki, 10 mis ass yeni bir pul vahidi - 4.55 qr çəkisi olan gümüş denariyə bərabər olur. Üzərində X rəqəmi qeyd olunan denarilərin (yəni 10 ass), gümüş fraksiyaları - kvinariyalar (V işarəli 5 ass) və sistersiya (IIS - yəni 2,5 ass) dövriyyədə istifadə olunmağa başlanır.

II Pun Müharibəsində makedoniyalılarla toqquşduqdan sonra, romalılar yeni gümüş sikkə nominalı, Fessaliya və İlliriya liqası sikkələrinin çəkisinə bərabər olan **- viktoriat adlı sikkələrin** zərbinə başlayırlar.

II Pun müharibəsi dövründə gümüşün çatışmazlığı və böyük xərclərə ehtiyac (silah və legionlara pul ödəmək məcburiyyətindən) romalıları sikkə zərbində qızıldan istifadəyə etməyə başlayırlar. Qızıl sikkələr əvvəlcə çəkisinə görə, yunan şəhər polislərinin **staterlərinə** (təxminən 6,5 q) bərabər olan, sonra isə (denariusun tətbiqi ilə eyni vaxtda) - 60 ass, 40 ass və 20 ass dəyərində dövriyyəyə buraxılırdı.

Beləliklə, İkinci Pun Müharibəsinin sonunda romalılar aşağıdakı pul sisteminə sahib idilər:

| | |
|---|---|
| **Qızıl:** | |
| 60 ass | təqribən. 3,4 qram |
| 40 ass | təqribən. 2,25 qram |
| 20 ass | təqribən. 1.15 qram |
| **Gümüş:** | |
| denarius (10 ass) | 4,55 qram |
| viktoriat (7.5 ass) | 3,4 qram |

| | |
|---|---|
| kvinariy (5 ass) | 2,25 qram |
| sistersiy (2.5 ass) | 1.15 qram |
| **Mis:** | |
| dupondium (2 ass) | 72 qram |
| Ass | 36 qram |
| semiss ( $^1/_2$ ass) | 18 qram |
| trience ( $^1/_3$ Assa) | 12 qram |
| kvadrans ( $^1/_4$ ass) | 9 qram |
| sekstans ( $^1/_6$ ass) | 6 qram |
| unsiya ( $^1/_{12}$ ass) | 3 qram |
| semuntsiya ( $^1/_{24}$ assa) | 1,5 qram |

İkinci Pun Müharibəsi başa çatdıqdan sonra 100 ildən çox Roma pul sistemində qızıl sikkə zərbinə ehtiyac olmadı. Yalnız göstərilən yüzilliyin 80-ci illərin sonlarında hökmdar Sullanın (m.ö.138-78) əmri ilə qızıl sikkə dövriyyəyə yenidən daxil edildi. Buna səbəb Sullanın Parfiya hökmdarı Mitridatla (m.ö.135-63) müharibənin sonlarında gümüşün çatışmamazlığı, qızılın artıq olması və marianlılara qarşı müharibənin maliyyələşdirilməsi olmuşdur. Bu sikkələr Aureus (aureus - sözün əsl mənasında " qızıl" ) adlanırdı və çəkisi 10,5 qram (1 ⁄ 32 libra) idi. Qeyd olunan dövrün sikkə zərbinə Sertorian müharibələrində zəfərlərindən birinin (Afrika və ya İspaniya) şərəfinə Pompey Maqnanın (m.ö.106-48) adına kəsilmiş aureusi xüsusi qeyd etmək lazımdır. Sonra aureusları Sezarın dövrünə qədər yenidən Roma pul sistemində istifadədən çıxardılır.

Gümüş pul sistemində olan dəyişiklik təqribən 141-cı ildə, denarinin çəkisinin 10 assdan - 16 assa dəyişməsi ilə əlaqədar olmuşdur. Bəhs olunan sikkələrdə bu dəyişiklik X rəqəminin * işarəsi ilə əvəz edilməsində (və ya, ortada kəsilmiş X işarəsi) əks olunurdu. Buna görə, kvinariya-8 assa, sistersiya - 4 assa bərabər olmağa başladı. Ancaq onların dövriyyədə fəaliyyəti tədricən azalmışdır. Respublikanın son gümüş sistersiya 90-cı ildə, kvinariya on il sonra Roma Respublikasının pul dövriyyəsində fəaliyyətini dayandırır.

Mis sikkə nominalları praktik olaraq, daima çəkisini itirməsinə baxmayaraq, I əsrin əvvəlinə qədər mövcud olmuşdur. Digər mis nominallar bir-birinin ardınca dövriyyədə mövqeyini itirməsinə baxmayaraq, son unsiyanın 105, sikstansın - 96-cı, semissin, triensin və qvadransın sonuncu dəfə 86-cı ildə, asslar isə yalnız 82-ci ildə yalnız bir dəfə - Sulla (m.ö.138-

78) tərəfindən zərb etdirilir. Onu da əlavə etmək lazımdır ki, III - II əsrlərdə (211-dən sonra) digər mis nominallar da zərb edilmişdir; lakin onların Roma Pespublikasının pul dövriyyəsində iştirakı qısa olmuşdur. Bunlar 211-208-ci illərdə istehsal olunan dekstanlar (10 unsiya və ya 10 ⁄ 12 ass), pul magistrlərindən məşhur M.Cecilius Metellus və G.Cassius tərəfindən 127-126-cı illərdə istehsal edilmiş dodrans (9 unsiya və ya 3 ⁄ 4 as) və beş unsiya (və ya 2 ⁄ 3 ass) 126-cı ildə adıçəkilən G. Cassius (m.ö.87-42) tərəfindən zərb etdirilmişdir.

I əsrin ortalarında Roma pul sistemi minimuma qədər sadələşdirildi. Roma Pespublikasının pul sisteminin əsasını hesablama vahidi sistersiy olmaqla, denariy təşkil edirdi. Ancaq bu zaman Aralıq dənizi hövzəsində imperiyaya çevrilən Romanın maliyyə ehtiyaclarının əhəmiyyətli bir hissəsi əyalətlərin yerli zərbi qarşılayırdı: məsələn, Makedoniya və ya Suriyanın tetradraxmaları, Kiçik Asiyanın kistoforaları, Siciliya və İspaniyanın müxtəlif mis nominalları, Romanın digər əyalətlərinin, habelə “kvazi-pul”ların müxtəlif formaları, borc qəbzlərindən veksellərə və aktiv inkişaf edən bank sisteminin kredit öhdəliklərinə qədər istifadə olunurdu.



## ORTA ƏSRLƏRDƏ AVROPANIN BƏZİ DÖVLƏTLƏRİNİN PUL SİSTEMLƏRİ



1. **Bizans İmperiyasının sikkə zərbi tarixi.** Orta əsrlərin sonlarında, Avropanın şərqində Roma İmperiyası süqut edir. 395-ci ildə imperator **I Feodosiusun (379-395)** ölümündən sonra Roma İmperiyası iki yerə bölünür və onun şərq hissəsində adı paytaxtın ilkin adı **"Bizans"** olan **Bizans İmperiyası** yaranır.

330-cu ildən 1453-cü ilə qədər **"Yeni Roma" (Νέα Ῥώμη),** sonradan Konstantinopolius adı ilə qurulan Bizans İmperiyasının paytaxtı təkcə Şərqi Roma İmperatorlarının iqamətgahı deyil, həm də orta əsrlərdə Bosfor boğazı üzərində yerləşdiyinə görə, Şərq ilə Qərb mədəniyyətləri arasında körpü rolunu oynamışdır. 1054-cü ildə xristian kilsəsinin parçalanmasından sonra Konstantinopolius, həm də pravoslavlığın mərkəzinə çevrilir. Erkən Bizans sikkələrinin bəzi təsvirləri aşağıdakı kimidir:

Avers: solid, çəkisi 4,53 qr., diametri 19 mm. Zərb vaxtı: 616-625. Zərb olunduğu yer: Konstantinopol. Uzun mantiyalarda Heraklius və oğlu Heraklius Konstantinin büstləri; hər birinin başı üstündə xaç olan tac var.

Revers: CONOB-un altındakı üç pilləli platformada duran Kalvari tipli xaç.



**Bizans İmperiyası, Heraklius, (610-641), solid.**



**Bizans İmperiyası, Anastasius I, (491-518), solid.**

Avers solid, çəkisi 4,48 qr., diametri 21 mm. Zərb vaxtı: 507-518. Zərb olunduğu yer: Konstantinopol.

Avers: DN ANASTASIVS PP AVG, imperatorun dəbilqədə büstlü, diademlə taclanmış və zirehlə örtülmüş, dörddə üçü sağa çevrilmiş, əlində qalxan və nizə.

Revers: VICTORIA AVGGGΓ, Viktoriya dayanır, sola dönür, əlində uzun xaç tutur, CONOB-un kənarında. Bizans İmperiyasının sikkəçilik tarixi təxminən 500-cü illərdə imperator

**I Anastasiusun (491-518)** həyata keçirdiyi pul islahatından başlayır. I Yustinian (527-565) hakimiyyət illərində sikkə zərb işinin inkişafından sonra Bizans dövlətinin zərbetmə ənənəsi VIII əsrə qədər qorunub saxlanılmışdır. **Bizans sikkələri üç növ metaldan zərb edilirdi**:

- **qızıl üç nominalda - solidus, semis və triens**,
- **gümüş sikkələr iki nominalda- miliaris və siliqua,**
- **mis sikkələr beş nominalda - 1 nummi, 5, 10, 20 və 40 nummi zərb edilirdi.**



**Bizans İmperiyası, I Yustinian (527-565), siliqua – Karfagen.**

Avers: Siliqua. Sağda diademli İmperator Yustinianın büstü.

Revers: Halqanın içərisində monoqram.

VII əsrdə Bizans sikkələrinin istehsalında tənəzzül baş verir, zərbxanaların sayı azalır. Bu dövrdə sikkələr təkcə Konstantinopolda deyil, Roma, Ravenna, Karfagen və Sirakuza şəhərlərində, lanqobardda ərəb fəthlərinə qədər zərb olunmuşdur.



Bizans İmperiyası, I Yustinian (527-565). Nummi - Antakya, il 21.



Konstantin V, solid. Bizans İmperiyası, (741-775).

AE solid, çəkisi 4,45 qr., diametri 22 mm. Zərb vaxtı: 773-775. Zərb olunduğu yer: Konstantinopol.

Avers: CONSTANTINOS S LEON O NES Konstantin V və IV Leo-nun tam üzlü büstləri, üzərində xaçla örtülmüş taclar.

Revers: sağ əlində xaç tutan, ön tərəfdən III Leo-nun EOn PA MYL büstü.

1092-ci ildə imperator **I Aleksey Komninin (1081-1118)** hakimiyyəti dövründə Bizans pul sistemində köklü islahat keçirilmişdir. Həmin dövrdən Bizansda qabarıq (oval) şəkilli dörd nominalda skefat sikkələr istehsal edilir. Bunlar:

- **qızıldan - hiperperon;**
- **elektradan - traxeya;**
- **gümüşdən - histamenon**;
- **mis ərintidən - tetarteron** adlanırdı.



Bizans İmperiyası, III Roma, (1028-1034), histamenon.



Bizans İmperiyası, IX Konstantin Monomax, 1042 - 1055, histamenon.



Bizans İmperiyası, I Aleksey Komninin (1081-1118) Hiperperon – Saloniki 1081-1092-ci il, qızıl.



I Aleksey Komnin (1081-1118), Aspron - Konstantinopol, 1092-1118-ci il, billon.

AE histamen, çəkisi 4,36 q, diametri 25 mm. Zərb vaxtı: 1028-1034. Zərb olunduğu yer: Konstantinopol.

Avers: IhS XIS REX REGNANTInm, İsa Məsih tam üzü, əlində müqəddəs kitab İncillə taxtda oturur.

Revers: Məryəm ana xeyir-dua verərək sağ əlini imperatorun başı üzərində tutumuş şəkildədir.

I Aleksey Komninin (1081-1118) 1092-ci ildə saf gümüşdən və xalis qızıldan istifadə edərək dövriyyəyə buraxdığı islahat sikkələri böyük uğur qazanmırlar. Ehtimala görə, islahatın keçirilməsində Basilevsin-hökmdarın əsas məqsədi köhnə Bizans sikkələrinin tanınmasını, ayırd edilməsini asanlaşdırmalı idi.

AE histamenon, çəkisi 4,37 q, diametri 25 mm. Zərb vaxtı: 1042-1055. Zərb olunduğu yer: Konstantinopol.

Avers: İsa Məsih Pantokratorun tam üz büstü.

Revers: tac və mantiyada imperatorun sinə büstü, tam üzü çevrilmiş, labarum və hakimiyyət simvolu- kürə əlindədir.

Aspron, 1092-1118, billon, 3,5 q.

Avers: - İsa Məsih, IC-XC

Revers: - Aleksey I, Konstantinopol.

1204-cü ildə IV Səlib yürüşü zamanı səlibçilər Konstantinopolu fəth etdikdən sonra Latın İmperiyası (1204-1261) yaradıldı. Bizans imperatorları bu dövrdə Nikaya getməyə məcbur olurlar. XIII əsrin sonlarından 29 may 1453-cü ildə Sultan II Mehmedin (1444-1446 və 1451-1481) başçılığı ilə Konstantinopolun Osmanlılar tərəfindən fəthinə qədər, yalnız Avropada "qruşları"nın oxşarı olan Bizans gümüş sikkələri "bazilika və ya stavraton" istehsal olunurdu. Bəhs olunan dövrdə Avropada qızıl sikkə zərbi çiçəklənməyə başlayanda, Bizansda dayandırılmışdı. Buna baxmayaraq XI əsrə qədər, üzərində Bizans hökmdarlarının və İsa Məsihin portretləri əks olunan qızıl sikkələri **"orta əsrlərin dünya pul vahidi - ticarət sikkələri"** rolunu oynamışlar. Sonralar **"dünya pulu"** rolunu İtalya sikkələri ələ keçirdir.



**I Aleksey Komninin (1081-1118) Tetarteron - Saloniki 1092-1118-ci il, bürünc.**

Tetarteron, 1092-1118, bürünc 3,63 qr.
Avers: - İsa Məsih, IC-XC,
Revers:- Aleksey I, + ALXI DECP (Saloniki).

**Erkən orta əsrlərdə Avropada sikkə zərbi**

476-cı ildə sonuncu Roma imperatoru Romul Avqustul hakimiyyəti alman skir tayfasının başçısı Odoakruya vermək məcburiyyətində qaldı. Keçmiş Qərbi Roma imperiyasında bir neçə varvar krallıqlar yarandı. Romanın yaratmış olduğu sivilizasiya iflas etsə də, onun mirası məhv olmamışdı. Eləcə də sikkə sistemi yeni yaradılmış varvar dövlətlərində sikkə zərbi işini dayandırmamışdı. Bununla belə, bu sikkələr aşağı əyarlı olaraq, çox kobud formada zərb edilirdi. Bu sikkələr əsasən ya misdən, ya da tərkibində az miqdarda gümüş olan misdən zərb edilirdi. Qızıldan pulları franklar intensiv olaraq, dövlət yaratdıqdan sonra zərb etməyə başlamışdılar.



VI əsrin əvvəlində alman-franklar **Merovinqlərdən Xlodviqin (481-511)** başçılığı altında Romaya aid olan Qalliyanı işğal etdi. Xlodviq Merovinqlərin davamçıları olaraq, yaratdığı dövləti **Merovinqlər (481-715)** adı ilə adlandırdı. Merovinqlərin hakimiyyəti zamanında dövlətdə **franklar**, **qızıl solidlər** və **solidlərin üçdə bir hissəsi olan trienslər** zərb etdirdilər. Bu sikkələrin üz tərəfində Roma imperatorlarının portretlərindən fərqli olaraq, yeni dövlətin krallarının portretləri zərb edilirdi. Merovinqlərdə gümüş sikkələr zərb edilmirdi. Bunun səbəbi ticarətin minimuma qədər enməsi, iqtisadiyyatın tənəzzülü olmuşdur. Gümüşdən zərb edilən sikkələrin dövriyyəyə buraxılmamsının digər obyektiv səbəbi Romadan qalma gümüş denariylərin sayının az olması idi. Qızıl sikkələr xüsusi olaraq, yığım üçün zərb edilirdi.

Merovinqlərin sonuncu hökmdarları Avropanın tarixində "tənbəl krallar" adlanırdı. Bunun səbəbi ondan ibarət idi ki, krallar bu zaman sikkə zərbi hüququnu tamamilə itirmişdilər. Krallar sikkə zərbi işini tanınmış zənginlərə icarəyə verdilər. Bu illərdə ölkədə 900-dən artıq şəxsi zərbxanalar işləyirdi. Merovinqlərin devrilməsindən sonra hakimiyyətə Karl Martell tərəfindən yaradılan Karolinqlər gəldilər. Sülalənin ən tanınmış hökmdarı Böyük Karl hesab edilir. Onun zamanında Fransa, Almaniya, İtaliya birləşdirilərək, Romada tacqoyma mərasimi keçirilmiş və Qərbi Roma

İmperiyasını bərpa etdiklərini elan etmişdilər. Onun islahatları sırasında ən uğurlusu pul islahatı olmuşdu. Belə ki, sikkə zərbi işi yenidən hakimiyyətin səlahiyyətinə qaytarıldı. Gümüş denariylərinin zərbi bərpa edildi və dövriyyə xeyli sayda keyfiyyətli gümüş pullar buraxıldı. Bu sikkələrin cəkisi klassik Romanın eyni adlı sikkələrinin çəkisindən iki dəfə az olsa da, bazarlarda gümüş pul çatışmazlığı aradan qaldırıldı. Sikkələrin aversində latın dilində: **"Dominus noster Karlus imperator Augustus rex Franciae et Langobardorum" (Bizim kralımız imperator Avqust frankların və lanqobardların kralı).**

Sikkələrin əks tərəfində: **"Dei gracia rex"** (Allahın sevimlisi kral). Ayrıca monoqram **DG** zərb edilirdi. Bu tip sikkə tipləri möhür elementləri ilə birgə 864-cü ildə Böyük Karlın oğlu Keçəl Karl tərəfindən rəsmiləşdirildi. Tarixdə "Karolinqlərin pul nizamnaməsi" adlanan sənəddə imperiya ərazisində yalnız 8 şəhərdə sikkə zərbinə icazə verildiyi barədə məlumat vardır. Bu prosesdə köhnə pullar məcburi olaraq xəzinəyə təhvil verilib, müvafiq kəmiyyətdə yeni pullar əldə edilməliydi. Karolinqlərin yeni denariyləri bütün Avropada bir neçə yüzillik dövriyyə olmuşdu. Fransız dilində bu nominalın adı qısaldılaraq, denye, Almaniyada pfeninq, ya da penninq, İngiltərədə penni adlandırıldı. Fransız kralı IV Gözəl Filipp renominasiya həyata keçirərək, yeni sikkələrin zərb edilməsi işinə başlamışdı. Yeni pullar çəkidə çox yüngül idi. Bununla belə, belə sikkələrin zərbi və tədavülə buraxılması 5 dəfə dəyişdirildi və 12 milyon denariy bu işə sərf edildi. Bu səbəbdən bu kralın ikinci ləqəbi xalq içərisində və ümüuyyətlə Avropada **"Saxtakar"** idi.

Saxtakar Filippdən daha çox bu işdə dələduzluq edən onun davamçısı olan Ədalətli II İoann olmuşdu. Yüzillik müharibə zamanı hakimiyyətdə olan bu kralın yalnız yarımillik hakimiyyətində 8 dəfə pul islahatı keçirmişdi. Məsələn, əgər IV Filippin zamanında eyni çəkidə olan gümüşdən 12 denariy zərb edirdilərsə, İoannın vaxtında 102 ədəd sikkə zərb edilirdi. Bunun əss səbəbi "gümüş böhranı" adlı fenomenal hadisə səbəb olmuşdu. Bu zaman feodalizm ictimai-iqtisadi quruluşunda yaşayan Avropa Şərq ölkələri ilə çox güclü ticarətə başlamış, oradan ədviyyat, ipək, və digər dəyərli, unikal əşyalar əldə etsələrdə, özləri Şərq ölkələrinə heç bir əmtəə aparmırdılar. Bununla da, Avropanın qızıl və gümüşü geri dönmədən Şərqə göndərilirdi.

Nəticədə şərq ölkələri ilə birgə, həm də Avropada gümüş sikkələrin çatışmazlığı yarandı. Bu zaman Avropanın adıçəkilən ölkələrində Şərq ölkələrində olduğu kimi, bilon sikkələr dövriyyəyə buraxıldı. Məsələn, Almaniyada "qara pfeninqlər" zərb edilməyə başladı. Bundan narahat olan bəzi ölkələrdə, o cümlədən Britaniyada yeni penni kimi sterlinqlər dövriyyəyə buraxıldı. Bu pullar böyük ticarət əməliyyatlarında çəkisinə görə deyil, say hesabına görə qəbul edilirdi. Eynilə, kontinental Avropada Romanın funtu-libr dövriyyəyə buraxıldı. Bu söz fransız dilində livr adlandırıldı. Livrlər Fransada XVIII əsrə qədər dövriyyədə qalmışdı. Almaniyada funt marka adlanırdı. Ayrıca qeyd etmək lazımdır ki, Avropanı dəhşətli kasıblıq bürüdüyünə görə, dillərində say hesabı min rəqəmindən artıq deyildi. Milyon sözü ilk dəfə Marko Polo tərəfindən monqol hökmdarı Xubilayın var-dövlətini göstərmək üçün avropalıların leksikologiyasına gətilrildi. Milyard və trilyon sözləri ilk dəfə XV əsrdə fransız fiziki Nikol Şuke tərəfindən elmə daxil edildi. Avropanın pul və pul işində özünü göstərən bu dəhşətli kasıblıq, pul çatışmazlığı tezliklə Xaç yürüşlərinin başlanmasının əsas obyektiv səbəblərindən birinə çevrildi. Hətta IV xaş yürüşü zamanı səlibçilər qərəzli və məqsədli olaraq, Konstantinopolu işğal edərək oranın talanması ilə nə az, nə çox -54 il məşğul oldular. Əsas məqsədləri pul açlığının qarşısını almaq olmağına baxmayaraq, guya ki, xristianlığa xəyanət edərək pravoslav təriqətinin mərkəzi olan şərqin ən zəngin dövlətlərindən olan Bizansdan qisas alırdılar.

İkinci Şərqi Roma imperiyasının ərazisində yaranan Bizansda əksinə, sələfləri tərəfindən yaradılan sikkə sistemini qoruyub saxlamışdılar. Bizansın sikkə sisteminin əsasında qızıl monometalizmi durmuşdu. Belə ki, əsas nominal qızıl solid olaraq, *nomisma* (tərcümədə qanun) adlanırdı. Solidin ümumi çəkisi 4 qramdan bir qədər artıq olaraq, Avropanın və Şərqin demək olar ki, bütün dövlətlərdə qəbul edilirdi. Hətta fransızların və almanların yoxsullaşmış ailələri keçmiş həyatlarından yadigar nümunə kimi "bizantin" adlandırdıqları qızıl nominalları evlərində nadir bəzək əşyalar kimi qoruyurdular. Şərqi Avropada, o cümlədən Rusiyada qızıl pulların ümumiləşdirilmiş adı, ümumiyyətlə qızılın adı **solid** sözündən götürülərək **zoloto** adlandırılır. Bizansın xırda pulları follis və ya nummiy adlanırdı. Nadir hallarda Bizansda **milliaris** adlı sikkələr buraxılırdı. Bu nominallar Karolinqlərin denariylərinin oxşarı idi. Gümüşdən olan davamlı sikkə zərbi işi Bizansda XIII əsrdə başlandı. Xaç yürüşlərinin gücləndiyi bir zamanda

**aspra-ağ pul** adlanan kiçik formada olan gümüş sikkələr buraxmağa başladılar. Çəkisi 1 qramdan bir qədər artıq olan bu aspralar numizmatik material kimi xüsusi əhəmiyyətə malik olan sənət əsəri hesab etmək olmaz. Qeyd etmək lazımdır ki, "xaç yürüşləri" hərbi baxımdan nə qədər uğursuz olsalar da, əmtəə-pul sistemi, sikkə zərbi və pul işinin Avropada mükəmməlləşməsi və davamlı olmasında mühüm əhəmiyyət kəsb etmişdi. İlk dəfə Şərqin gümüş böhranı zamanı oranın hərtərfli ticarət münasibətlərini, zənginliyini, ümumiyyətlə sikkə sistemini şahidi olan avropalılar əslində aclıqdan, kasıblıqdan və din bayrağı altında başladıqları bu işi pul işlərini sistemləşdirməklə bitirdilər. Şərq onların buraxdıqları keyfiyyətsiz, zəif əyarlı Avropa pullarını öz bazarlarında qəbul etmədiklərindən, burada keyfiyyətli, klassik formatlı, yüksək əyarlı gümüş və qızıl sikkələr dövriyyəyə buraxmaq məcburiyyətində qaldılar. İlk olaraq 1266-cı ildə Fransada IX Müqəddəs Lyudovik tərəfindən **qro turnua, yaxud gros tournois** adlı gümüş nominallar dövriyyəyə buraxıldı. Hərfi tərcümədə bu ifadə **"Tur şəhərinin böyük pulu"** deməkdir. Bu illərdə kralın sarayı bu şəhərdə yerləşdiyinə görə pul da görünür belə adlandırılmışdı. Solidin oxşarı olan qro 12 denariyə, yaxud da denyeyə dəyişdirilirdi. Tezliklə bu nominal bütün Avropada geniş yayıldı. Məsələn, Almaniyada bu nominal qroşen, Çexiyada qroş adlandırılaraq yayılmağa başlandı.

Şərq ölkələri ilə daha çox ticarət əlaqələrində olan Florensiyada XIII əsrin ortalarında yeni "**florin**" adlı qızıl sikkələr buraxılmağa başladı. Belə pulların üz tərəfində nilufər çiçəyinin-Florensiyanın embleminin obrazı zərb edilridi, 20 qroşa və ya 240 denariyə dəyişdirilirdi. 3,5 qram çəkidə olan florinlərin əyarı kifayət qədər yüksək olmasına görə, tezliklə nəinki Şəqr ölkələrində, həm də Avropada geniş yayılmağa başladı. **Florinlər Macarıstanda forint, Polşada sadəcə zlotin, Almaniyada yenə də metala görə qulden adlandırılaraq dövriyyəyə daxil edildi. Eyni qızıl sikkələr İngitərədə şillinq adlanaraq, XIX-XX əsrin əvvəllərinədək dövriyyədə olmuşdur.** Şərqlə güclü ticari əlaqələri olan ikinci şəhər- dövlət olan Venesiyada XIII əsrin sonlarından qızıl **dukat, yaxud da tsexin** adlı qızıl sikkələr buraxılmağa başlanıldı. Florinlə eyni çəkidə olan dukatlar demək olar ki, eyni dəyər vahidi olaraq Avropada və Asiyada geniş yayılırdı.

**Yetkin orta əsrlərin pul və maliyyə məsələləri.** Orta əsrlərdə Avropanın pul dövriyyəsinin tarixi zaman -zaman təkrarlanma xüsusiyyətinə

malikdir. Belə ki, yetkin orta əsrlərə doğru iri çəkili, dəyərli pul vahidləri saxta pul istehsalı ilə məşğul olanların işləri ilə bağlı tamamilə qiymətdən düşdü, yaxud da dəyərsizləşdirildi. Yenidən zərb edilən pul nominallarının taleyi demək olar ki, eyni vəziyyətdə oldu; yəni, məqsədli şəkildə dəyərsizləşdirildi. Belə bir acı taleyi Karolinqlərin denariyləri yaşadı.

XVI əsrdə eyni taleyi **"qroş"** nominalı yaşadı. Hətta sözün özü belə indiyə qədər bir çox Avropa xalqlarının dillərində, xüsusilə slavyan xalqlarının leksikologiyasında "heç bir dəyəri olmayan pul" anlamında yaşamaqdadır.

Avropanın Asiya ölkələri ilə mövcud olan ticarət və maliyə əlaqələri yeni, iri və çox dəyərli sikkələr tələb edirdi. Bu obyektiv bir tələb idi. Ona görə beynəlxalq hesab vasitəsinin yaradılması gündəmə gətirildi. Fransadan sonra prosesə ilk öncə Çexiyada, Ruda dağlarında, Saksoniya ilə sərhədlərdə göstərilən yüzillikdə Kiçik Yaximov şəhərində başlandı. Həmin zaman bu şəhəri və onun ətraf yerlərini qraf Stefan Şlik adlı bir zəngin insan idarə edirdi. Adıçəkilən dağlarda xeyli miqdarda gümüş yataqları mövcud idi. Həmin gümüş yataqlarının bir hissəsi bu şəhərin yaxınlığında yerləşirdi. Bu insan gümüşdən sikkə zərb etməyə başladı. Gümüşdən zərb etdirdiyi bu sikkələr 1518-1519-cu ildə Yaximova şəhərinin mərkəzindən bir qədər yaxınlığında zərb edilməyə başladı. Bu sikkələrin çəkisi klassik formadam ağır olaraq, 29 qrama bərabər idi. Yeni sikkələrin aversində şəhərin adı ilə əlaqəli olduğu ehtimal edilən Müqədəəs İoxim, əks tərəfdə arxa ayaqları üstündə dik duran şir obrazı adıçəkilən şəhərin daxil olduğu Boqemiyanın qədim gerbi idi. Bu sikkələrin qızıla nisbəti 1:10 olaraq, qızıl florin-quldenlə eyni dəyərdə tutulurdu. Bu zaman Mərkəzi Avropada qızıl sikkələr demək olar ki, yox dərəcəsindəydi. Ona görə qızıla bərabər tutulan gümüş sikkələrin zərb edilməsi bir çox iqtisadi problemləri həll edirdi.

Bu gümüş sikkələr o qədərAvropa xalqları tərəfindən məmnuniyyətlə qəbul edildi ki, 1524-cü ildə bütün Müqəddəs Roma İmperiyasında tam dəyər vahidi kimi qəbul edilməsi barədə xüsusi qərar qəbul edildi. Yaximov şəhəri alman dilində İoximstal adlanırdı. Ona görə bu sikkələr **"ioximstaller"** adlandırıldı. Bu cür uzun söz tezliklə qısaldıldı və məsələn Rusiyada bu pulları **"yefimka"** adlandırmağa başladılar. Bir çox digər dövlətlərdə bu pulları "**taler**" adlandırmağa başladılar. Bu talerlərin

taleyində mühüm hadisə sikkələrin 1566-cı ildə bütün Almaniyanın rəsmi dəyər vahidi kimi qəbul edilməsi olmuşdu.

Həmin illərin rəsmi yazılı hesabatlarında Yaximov zərbxanasında 100 il ərzində 12 milyon taler zərb edilməsi barədə məlumatlar vardır. Çox qısa bir zamanda bu talerlər nəinki bütün Avropada, həmçinin Skandinaviya ölkələrində daler və ya riqsdaler adı ilə, 1578-ci ildə Şotlandiyada kral IV Yakov (sonralar bu insan İngiltərənin I Yakov adı ilə kralı olmuşdu) hakmiyyəti zamanında daler adı ilə zərb edilərək tanınmağa başlamışdı. Bu fakt öz növbəsində gələcəkdə Amerikanın dollar adlı pul nominalının əsasını qoydu. Ümumiyyətlə, taler adlı pul vahidinin zərbi XX əsrin ikinci yarısına qədər bir çox Avropa ölkələrində uğurla davam etdi.

İqtisadiyyat tarixi üzrə mütəxəssislərin təxmini hesablamalarına görə,təkcə taler adlı nominalı ilk zərb tarixindən 1900-cü ilə qədər 10 milyon ədəd zərb edilib və istifadə edilmişdi. Əslində davamlı təkrarlanmalara görə talerlərin taleyi eyni sistemlə olmalıydı, yəni dəyərsizləşdirilib, dövriyyədən çıxarılmalı və yeni sikkələr buraxılmalı idi. Amma bu zaman "müstəsna hadisələr" oldu, yəni Böyük coğrafi kəşflərin nəticəsində baş verən yeniliklərədn ən önəmlisi Amerikanın kəşfi olmuşdu. "Yeni dünyanın" işğalçıları olan ispanlar işğal etdikləri materikdə xeyli miqdarda qızıl və gümüş tapdılar. Beləcə, XIX əsrin əvvələrində Amerikadan Avropaya 160 ton gümüş və üç mindan bir qədər az çəkidə qızıl daşınmışdı. Hər ay Meksikadan, Perudan, yeni Kartaxenadan (indiki Kolumbiyadan), Panamadan gümüşlə dolu karvanlar Avropaya göndərilirdi. Belə gəmi karvanlarının bir hissəsi piratlar-dəniz quldurları tərəfindən tutulurdusa, bir hissəsi də təbii hadisələr nəticəsində okean sularında batır və bununla da, bu dəyərli metallar yox olurdu. Buna baxmayaraq, əsas yüklər İspaniyanın özünə gedib çatırdı. Bu qədər dəyərli metalların axının nəticəsində gümüş dəyərdən düşdü. Artıq gümüşün qızıla nisbəti 1:15 bərabər oldu. Buna baxmayaraq. ucuzlaşan talerlər və onların zərbi yenə də gəlirli bir sahə olaraq qalırdı. Bu zaman yeni bir gəlir yeri ispanlar tərəfindən tapıldı. Gümüşü əridilmiş külçələr kimi deyil, Amerikanın özündə sikkə zərbi şəklində Avropaya daşımağa başladılar. Amerikada bu zaman zərb edilən sikkələr peso (ispan dlində çəki deməkdir) əslində işğalçıların taleri, yaxud sonrakı dollar demək idi. Peso 12 gümüş riala bölünürdü. Riyal sözü ispan dilində "krallara məxsus" deməkdir. Yeni peso və riallar çox keyfiyyətli

pullar idi. Ona görə də onları dünyanın hər yerində qəbul edirdilər. Məsələn, Səudiyyə Ərəbistanında, Qətərda və bəzi digər ərəb ölkələrində rəsmi pul nominalı hələ də rial adlanır. Ehtimal ki, cənub- şərqi Asiyada istifadə edilən rial da həmin dövrün yadigarıdır. Amerikada zərb edilən sikkələr Rusiya ərazisinə daxil olmaqdaydı. Moskvada, İpatyev döngəsində bu yaxınlarda aşkar edilən dəfinənin tərkibində məhz XVI əsrdə zərb edilmiş ispan gümüş rialları və pesoları olan sikkələr aşkar edilmişdi. Dəfinənin ümumi çəkisi 74 kq. olaraq, 3500 ədəd sikkədən ibarətdir.

Amerikadan Avropaya daşınan külli miqdarda gümüş sikkələrin daxil olması tezliklə tarixdə "**qiymətlər inqilabı**" adlanan hadisənin başlanmasına gətirib çıxardı. Belə ki, Avropada ümumi dəyər vahidlərinin, yəni pul nominallarının sayının artması, bunun müqabilində əmtəələrin istehsalı və xidmətlərin sayı geri qaldığı üçün inflyasiyanın yaranması, nəticədə malların qiymətinin məqsədli şəkildə qaldırılmasına gətirib çıxardı. Baş verən qiymətlər inqilabının nəticəsindən daha çox İspaniya əziyyət çəkməyə başladı. Təxmini statistikaya görə, təkcə XVI yüzillikdə İspaniyanın özündə qiymətlər 400% qaldırıldı. Nəticədə, İspaniya qısa bir müddətdə müflisləşdi və zəngin ölkə "qullar və aclar ölkəsinə" çevrildi. Bunun əksinə, İngiltərə və Hollandiya iqtisadiyyatı yüksəlişə doğru yönəlməyə başladı.

Bununla da, "Qiymətlərin inqilabı" orta əsrlərin sonunu gətirib çıxardı. Bu hadisə dünyanın siyasi səhnəsini dəyişdi. Baş verən dəyişiklərin içərisində ən önəmlisi beynəlxalq maliyyə mexanizminin yeni forması oldu. Bu formanın təzahürlərindən biri hələ antik dövrdən mövcud olan sələmçilər-trapezitlərlə bağlı oldu. Belə ki, erkən orta əsrlərdə xristianlığın yaranması və yayılması ilə sələmçilik günah hesab edilirdi. Buna baxmayaraq, xüsusilə Avropanın xristan kilsələri özləri brbaşa ən zəngin sələmçilər idi. Kilsə sələmçilikdən rəsmi qərarlarla imtina edirdi. Məsələn, Hollandiyada kilsənin sələmçiliklə məşğul olmasını qəti olaraq qəbul etməyən qanun 1658-ci ilə qədər qüvvədə qalmışdı. Amma pul və pul işində göstərilən yüzilliklərdə baş verən hadisələr "sələmçilərsiz həyatın davamına" imkan vermirdi, çünki kilsənin zəngin sələmçilərinə əsasən Avropanın kralları müraciət edirdilər. Tezliklə bu "qadağalara" görə sələmçiliklə məşğul olanlar iudaizm dininə inanan yəhudilərə keçdi. Amma xristian kilsəsi bu asan gəlirdən birdən-birə əl çəkmədi. Hətta bu işlə məqsədli şəkildə məşğul olan xüsusi "tamplierlər ordeni" yaratdılar. Bu ordenin

üzvlərindən olan rahiblər sələmçi kilsə xadimləri idi. Onlar bütün Avropada o qədər geniş yayıldılar ki, özlərinə xüsusi qalalar belə alırdılar, yaxud tikdirdilər. Ordenin üzvləri zəngin insanların, o cümlədən kilsə xadimlərinin böyük pullarını saxlamağa boyun olaraq, əslində həm də bu pulların materiklər və dövlətlər arasında daşınmasını və çatdırılmasını təmin etməyə zəmanət verirdilər. Göstərdikləri xidmətlərə görə tamplierlər zənginlərdən böyük faizlər-sələmlər alırdılar.

Nəticədə tamplierlər qısa müddətdə zənginləşdilər. Elə bu zənginlik-artan pul kütləsi onların məhvini sürətləndirdi. Fransanın kralı IV Filipp (Saxtapul ustası ləqəbli) 1310-1314-cü illərdə tamplierlərə qarşı qiyabi məhkəmə prosesi başlatdı. Bu insanları dini günahlarla bərabər, həm də iblisə sitayişdə günahlandırdılar. Onların çoxu məhv edildi və hətta tamplierlərin o zamankı rəhbəri Jak de Moley yandırıldı. Ordenə məxsus olan böyük varidat krala çatdı. Amma hadisələr Avropada sələmçiliyin qarşısını ala bilmədi. XIV-XV əsrlərdə sələmçiliyin mərkəzi İtaliyanın ticarət şəhər dövlətləri oldu: Venesiya, Genuya, Florensiya, Lombardiya. Bu şəhərlərin sələmçiləri girov kimi daşınmaz əmlak və saysız hesabsız mal-dövlət əldə edirdilər. Sələmçilərin əksəriyyəi Lombardiyada məskunlaşmışdılar. Hətta bu zaman sələmçilər yaratdıqları və rəsmi fəaliyyət göstərdikləri xüsusi idarələri lombardlar adlandırmışdılar və sələmə verilən pulları məhz bu yerlərdə sənədləşdirməyə başladılar. Orta əsr sələmçiləri-trapezitləri insanların toplandığı yerlərdə uzun oturacaqlar qoyurdular. Belə oturacaqları "banko" adlandırıdılar. Bu sözdən, yəni uzun oturacaqların toplandığı yerlər "banklar" ifadəsi yarandı. Bu dövrdən başlayaraq, memarlar tərəfindən banklara binalar tikiləndə, içəridəki böyük zalda uzun oturacaqlar yerinə xüsusi məkan ayrılırdı. Bəzən bu banklar müflis olurdu və iflasa uğrayan sələmçilər oturacaqlarını qırırdılar. Belə vəziyyət banko rotta-qırılmış oturacaq, birbaşa tərcümədə bankrot adlanırdı. Müflis olmuş bank işçiləri tezliklə İtaliyanın şəhər respublikalarında bankirlər sülaləsi yaratdılar. Bunların ən tanınmışlarından Florensiyadakı Mediçi ailəsini göstərmək olar.Mediçi ailəsi qısa bir müddətdə Florensiyanın hersoqları səviyyəsinə qədər çatdılar. Hətta bir ara bu nəsildən Roma papası belə seçilmişdi. Yaranan vəziyyətdə orta əsrin tanınmış maliyyə işçiləri pulların istifadəsi üçün yeni metodlar həyata keçirməyə başladılar. Hələ erkən orta əsrlərdən şərq ölkələrində qiymətli kağız kimi istifadə edilən dəyəri əvəz

edən pulları veksel adlandıraraq, əslində borc kağızlarını işə saldılar. Öncə Avropanın bankirləri ayrı- ayrı dövlətlərdə və şəhərlərdə öz nümayəndəliklərini, yaxud da kontorlarını yaratmağa başladılar. Veksellər əsasən bu şəhərlərdə nəğdləşdirilməli idi. Məsələn, Florensiyanın qiymətli kağızı olan veksel həm Fransada, həm də məsələn, Amsterdamda tanınırdı, qəbul edilirdi və lazım gəldiyi qədər pula adekvat olaraq, dəyişdirilirdi.

Veksellər pul dövriyyəsinin əhatəsini daha da genişləndirdi. Pul dövriyyəsinin artması istehsal sahələri ilə birgə həm də elmin, xüsusilə pul və pul dövriyyəsi ilə əlaqəli hesab, riyaziyyat elmlərinin geniş inkişafına gətirib çıxardı. Hələ 1202–ci ildə italiyalı Leonardo Pizano riyaziyyat üzrə ilk ciddi elmi əsər yazaraq, ilk dəfə ərəb rəqəmlərini Avropada müvafiq sahələrə dövriyyəyə gətirmişdi. 200 il bu rəqəmləri Avropanın ziyalı sinfi, o cümlədən universitetlər qəbul etmirdilər. Amma məhz pul dövriyyəsində latın rəqəmləri mürəkkəb olduğuna görə, maliyyəçilərin tələbi və təzyiqi ilə günümüzədək ərəb rəqəmləri qəbul edilərək, istifadə edilməkdədir.

Bu zaman ikinci bir yenilik – pul zərbi ilə əlaqəli baş verən texniki yenilikləri qeyd etmək lazımdır. “Pul istehsalı” kimi yeni və gəlirli bir sahə yarandı. Bu istehsal sahəsində insan əməyindən az yararlanaraq, yeni cihazlar kəşf edildi. Bu zaman çəkici hidravlika, yaxud da vintlərlə işləyən dəzgahlar işə salındı. Dünya şöhrətli rəssam, heykəltaraş və ixtiraçı Leonardo da Vinçi dairəvi pulların hazırlanması üçün xüsusi dəzgah kəşf etdi. Belə ki, bu pulların zərb işində əgər əvvəllər al-marko-yəni dəqiq çəkili metaldan əvvəlcədən hesablanmış qədər sikkə zərb edilirdisə, leonarda da Vinçinin çox mütərəqqi dəzgahına görə al-peso sisteminə keçdi: yəni əvvəlcə metaldan dairələr hazırlanırdı, sonra bu dairələri pul şəklinə salmağa başladılar. Möhürlərin zərbi üçün yeni, poladdan hazırlanan çox ağır çəkili çəkiclər düzəldildi. Bu çəkici bir dəfəyə bir neçə nəfər işçi işə salırdı. Yalnız bundan sonra dəzgah hərəkətə gətirilir və möhürlər tez-tez vurulurdu.

Pul istehsalı işində digər mühüm yenilik bu işdə xüsusi əhəmiyyət kəsb edən və əsasən zərgərlər tərəfindən hazırlanan möhür işi idi. Bu zaman zərb edilən talerlərin çəkisi 2, 7-2, 9 qr olaraq, kartuş dairəsində yazılar, obrazlar üçün kifayət qədər yer lazım idi. Bu sikkə möhürlərinin hazırlanmasında Avropanın İntibah dövrünün məşhur rəssamlarından Benvenuto Çellini, Albrext Dyurer iştirak edirdilər. Bu zaman sikkələr üzərində olan obrazlar və onların lakonik və dərin mənalı mətnləri həm də

tezliklə medal və ordenlərin hazırlamnasında birbaşa istifadə edilirdi. Bu cür pullar numizmatika elmində xüsusi donativ (latın dilindən dono-hədiyyə edirəm)termin ilə adlandırılırdı.

Maraqlıdr ki, bəzi alimlər, ümumiyyətlə Avropanın Renesans dövrü yaranmasının əsas səbəbləri sırasında sikkələr və sikkə işini xüsusi qeyd edirlər. Buradakı sadə məntiq belədir:pulların geniş şəkildə istifadə edilməsi ayrı-ayrı insanların kəskin zənginləşməsi ilə nəticələndi.Bu insanlar öz pullarından həm də rəssamların, heykəltəraşların, şair və yazıçıların, o cümlədən alimlərin xidmətindən ödənişli olaraq yararlanmağa başlayırlar. Nəticədə, müəyyən qədər maliyyələşən istedadlı insanlar mükəmməl əsərlər yaratmağa başladılar. Şərq İntibaından 600 il sonra Avropanın intibahı yarandı və hər iki regionda bu nadir prosesin öyrənilməsi üçün həmin yüzilliklərdə pul və pul işini mütləq bilmək lazımdır. Pullara olan yeni münasibət tezliklə hətta bu metal dairələrə sitayiş yaratdı və bununla da insanların dünyagörüşü və psixologiyası kəskin olaraq dəyişdi. Bu dəyişiklikdə ən aşağı dəyərə insan həyatı düşdü. Hətta dövlətə sədaqət, Allaha inam, insanlar qarşısında borc kimi mühüm dəyərlər yoxa çıxmağa başladı. Yeni dövr pulları  heç bir dəyər kəsb etmədən zənginlər üçün komfort, cah-cəlal yaratmağa şərait yaradırdı.

**Beləliklə, Avropada Karolinqlərin islahatı** nəticəsində qızıl solid gümüşün 1\20 funtuna bərabər olan gümüş solidlə əvəz olundu. Qızıl solid xaricilərdən cərimələrin alınması üçün istifadə olunurdu. **Böyük Karlın islahatı** yalnız əsas sikkənin (dinarinin) çəkisinin artmasına gətirib çıxardı. O, nə pul kəsmənin mərkəzləşməsinə, nə də dövlət sikkələrinin sərbəst hərəkətinə nail ola bilmədi. Böyük Kralın ölümündən 50 il sonra imperiya normanların hücumuna məruz qalaraq dağıldı. Lakin Böyük Karl islahatının bir tərəfi öz əhəmiyyətini uzun müddət saxladı; yəni, funt pul vahidi kimi işlənməyə başladı. Ancaq o dövrdə vahid zərbxananın olması mümkün deyildi, çünki texnikanın o vaxtkı səviyyəsi ilə bütün dövlətin pul təminatını mərkəzləşdirilmiş şəkildə həyata keçirmək mümkün deyildi. Bu zaman Fransa Karolinqlərin pul vahidlərinə varis çıxdı. Belə ki, Fransada göstərilən zaman  böyük məbləğlərdə olan pulların hesabı **livr (funt), su (solid), denye (dinariy)** ilə aparılırdı. Pul sisteminin əsasını denye təşkil edirdi. **Bir livr 20 suya, bir su 12 denyeyə** bərabər idi. Roma kralları kimi Frank kralları da pulların istehsalını mərkəzləşdirməyə çalışırdılar. Hətta kiçik əyalətlərdə

“pərakəndəlik dövrü”ndə sikkələrin kəsilməsi mərkəzləşdirilmiş şəkildə müəyyənləşdirən qaydalar əsasında aparılırdı. Sonralar kral sikkəxanası iflasa uğradı və əyalət krallarının hər biri öz sikkələrini zərb etməyə başladı. **“Dinari”** pul vahidinin adı **denye** kimi uzun müddət ərzində saxlanıldı. **Livr, solid (su) və frank** əsas pul vahidləri olandan sonra, denye xırda pul şəklində işlənirdi. Sonralar denyenin stabilliyinin və kursunun növbəli şəkildə dayanmadan gah pisləşməsi, gah da yaxşılaşması nəticəsində orta əsrlərdə qiymətlərin miqyas funksiyasını gümüşdən zərb edilən markalar yerinə yetirirdi.

IX Lyüdovikin hakimiyyəti illərindən (1226-1270) sonra sikkələrin korlanması elə səviyyəyə çatmışdır ki,bəzi mənbələrdə həmin vaxtı “stabillik dövrü” kimi xatırlayırdılar. Denye qiymətdən düşdüyünə görə, IX Lüdovik 12 denyelik iriləşmiş gümüş pul tətbiq etdi. İriləşdirilmiş gümüş pul təmiz gümüşün yox, kral gümüş markasının 1\58 hissəsini təşkil edirdi. Yeni sikkə **qro** adlandırıldı. Qronun əmələ gəlməsi inkişaf etmiş pul sisteminin əsasını qoydu: “birpullu” monometallizm dövriyyəsi əvəzinə “ikipullu” bimetallizm dövriyyəsi yarandı.

IV Filipp (1268-1314) feodalların sikkə zərbi işi ilə mübarizədə böyük nailiyyətlər qazandı. Lakin onun ölümündən sonra feodalların pulkəsmə-zərb işi yenidən bərpa edildi və X Lyüdovik bir çox feodalların sikkə hazırlama hüququnu tanımağa və qanunvericiliklə rəsmiləşdirməyə məcbur oldu. Qanun yalnız keyfiyyətli pullara şamil olunurdu. Əvvəlcə iriləşdirilmiş gümüş pulların (qro), sonra isə qızıl pulların kəsilməsi kralın imtiyazı elan olundu. Lakin bəzi əyalətlər öz pullarını kəsməkdə davam edirdilər. 1337-ci ildə başlamış Yüzillik müharibə Fransanın firavanlığına son qoydu. Livrə bərabərləşdirilmiş və Ədalətli İoannın əsirlikdən qurtulması üçün nəzərdə tutulmuş **qızıl frankın** dövriyyəyə daxil olması müharibənin əvvəlinə təsadüf etdi. **Frank adlı pullar ilk dəfə 1360-cı ildə** yaranmış və qısa müddət ərzində zərb edilərək dövriyyəyə buraxılmışdı.

Fransada Birinci Respublika dövründə 28 termidor qanunu (1795-ci ilin 15 avqust) ilə frank milli pul vahidi elan edilmişdir. Lakin məhz bu dövrdə Fransanı bürümüş böyük inflyasiya real gəlirlərin 2-4 dəfə azalmasına gətirib çıxardı. 17 jerminalda (7 aprel) I Napoleon ölkənin rəsmi pul vahidi kimi frankın tətbiq edilməsi barədə qanun qəbul etdi. Aprelin 14-də Fransa Bankı onun emissiya hüququnu aldı. 1780-ci illərin axırlarında

XVI Lyüdovikin hakimiyyəti maliyyə ilə bağlı çıxılmaz vəziyyətə düşdü. 1787-ci ildə faizlərin ödənilməsi və qısamüddətli dövlət borcunun ödənilməsi ilə bağlı büdcə xərcləri bütün xərclərin 49%-ni, hərbi xərclər 26%, kral sarayının saxlanması - 6% təşkil edirdi. Xərclərin ödənilməsi üçün kağız pullar-assiqnasiyalar buraxılmışdır. Assiqnasiyalar 1790-cı ildə qiymətdən düşmüş və 1796-cı ildə digər kağız pullarla - ərazi mandatları ilə əvəz olunmuşdur. Artıq 1798-ci ildə buraxılan bütün kağız pullar tamamilə qiymətdən düşmüş və möhkəm valyutaya keçid qanunvericiliklə təsbit edilmişdir.

1865-ci ildə III Napoleonun təşəbbüsü ilə Fransanın, Belçikanın, İsveçrənin və İtaliyanın pul sistemlərini birləşdirən Paris konvensiyası imzalanmışdır. Bu birləşmə **"Latın ittifaqı"** adını almış və 1868-cı ildə həmin ittifaqa Vatikan və Yunanıstan, 1877-ci ildə isə Finlandiya da qatılmışlar. İttifaq fransız frankının dəyər etalonu qismində tanınmasına və bimetallizmdən, qızılla gümüşün Fransada qəbul edilmiş 1:15,5-ə nisbətindən çıxış edərək, iştirakçı ölkələr tərəfindən eyni nominala və çəkiyə malik olan gümüş pulların istehsalına əsaslanırdı. Latın ittifaqı ölkələrinin pul vahidləri və onların tərkiblərində 0,29 q təmiz qızıl, 4,5 q təmiz gümüş olmalı idi. İştirakçı ölkələrin qızıl və gümüş pulları ittifaqa daxil olan hər bir dövlətin ərazisində qanuni ödəniş vasitəsi qismində sərbəst şəkildə dövr edə bilirdi. Başqa sözlə, dövlətlərin pul vahidləri öz adlarını saxlayır, lakin bərabər paritetə malik olurdular: yəni **5 fransız frankı 5 Belçika frankına, 5 Isveçrə frankına** və s. bərabər idi. Lakin Latın ittifaqının mövcudluğunun əvvəlindən onun pul sistemi Italiyadakı və Fransadakı kağız pulların ifrat emissiyası səbəbindən yanlışlıqlara uğradı. Gümüşün bazar dəyərinin kəskin düşməsindən sonra iştirakçı ölkələr ucuzlaşmış gümüş pulların məcburi mübadiləsində qızılın itkiləri ilə qarşılaşdılar. Gümüş pulların istehsalı əvvəlcə məhdudlaşdırılmış, sonra isə dayandırılmışdır. Bu öz növbəsində **qızıl monometallizminə** (1873-cü ildən) keçid demək idi. Latın ittifaqının iştirakçı ölkələrinin hökumətləri Fransadan gümüş pulların qızıl tərkibinin əvəzini tələb etmiş, lakin rədd cavabı alaraq, demək olar ki, ittifaqdan çıxmışlar. Hərçənd, formal olaraq, ittifaq 1926-cı ilə qədər mövcud idi. Latın ittifaqının dağılmasının son səbəbi Birinci dünya müharibəsi dövründə və müharibədən sonrakı dövrdə iştirakçı ölkələrin pul-kredit siyasətlərindəki

fərqlər və bu fərqlərin ciddi xarici və daxili "şok"lar fonunda milli iqtisadi maraqların ziddiyyətləri ilə kəskinləşməsi olmuşdur.

**Böyük Britaniyanın funt sterlinq adlı** pul vahidinin Britaniya adalarında meydana gəlməsi mərkəzləşmiş dövlətin yaranmasından çox-çox əvvəl baş vermişdir. Hələ norman işğalından (1066-cı il) əvvəl yerli əhali gümüş penslərdən, yaxud sterlinqlərdən istifadə edirdi. Gümüşün **bir funtundan 240 pens** hazırlanırdı. "Funt sterlinq" adı da məhz buradan yaranmışdır. **Funt bu zaman öz növbəsində 20 şilinqə** bölünürdü. **Hər bir şillinq uyğun olaraq 12 pensə** bərabər idi.

XIII əsrdə şillinqlər ilk dəfə pul şəklində zərb edilsə də də, artıq XIV əsrdə dövriyyədə qızıl funtlar istifadə olunmuşdu. Pulların korlanması dövri olaraq pul dövriyyəsinin pozulmasına gətirib çıxarırdı. Məsələ bundadır ki, tam çəkili pullar ayrı - ayrı şəxslər tərəfindən dövriyyədən çıxarılır və **sərvət şəklində toplanırdı**, **yəni tezavrasiya** olunurdu. Pulların qiymətdən düşməsinə qarşı əhalinin təbii reaksiyası, sonralar "Qreşem qanunu" adını almışdır. Qreşem kraliça Yelizaveta dövründə hökumətin pul məsələləri üzrə məsləhətçisi idi. 1717-ci ildə sikkəxananın müdiri dahi fizik I.Nyuton funtun qızıl tərkibini müəyyənləşdirdi -7,3222382 q. Funtun bu tərkibi 1931-ci ilə kimi dəyişməz qaldı. Qızıl standartın rəsmi deklarasiyasına-bəyanatına qədər Böyük Britaniya dünya birliyində dominant mövqe tuturdu. Müstəmləkə regionların iqtisadiyatının bəzi sahələrinə yatırılan kapital sayəsində və hazır məhsulların ixracatçısı, xammalın idxalatçısı kimi müstəsna vəziyyətinə görə Böyük Britaniya bu mövqeyini saxlaya bilirdi. Bir çox ölkələr öz rəsmi ehtiyatlarını monetar qızıl formasında və ya London bankının depozitlərində saxlayırdılar. O dövrdə Londonda depozitlərdəki funt strelinqlər monetar qızıla bərabər tutulurdu. Faktiki olaraq, müxtəlif ölkələrin valyuta kurslarının ingilis funtuna nəzərən sərt fiksasiyası mövcud idi. Əksər dövlətlərin monetar siyasəti Britaniyanın pul siyasətindən asılı vəziyyətdə idi. Faiz dərəcələrinin Londondakı hər bir dəyişikliyi Bombeyin, Sinqapurun, Yoxannesburqun və Nyu-Yokun valyuta və fond bazarlarında dəyişikliklər törədirdi. Böyük Britaniyanın valyuta bazarında üstünlüyü qızıl və gümüş istifadəsinin paralel şəkildə zəifləməsi və gümüşün qızıl tərəfindən sıxışdırılması ilə müşayiət olunurdu. Dörd əsr ərzində mövcud olan bimetal pul sistemi 1816-cı ilin "qızıl standart qanunu" ilə ləğv edildi. Lakin yeni sistemin fəaliyyətinin təmin edilməsi üçün metalın çatışmazlığı səbəbindən

banknotların qızıla mübadiləsi və qızıl pulların kəsilməsi yalnız 1821-ci ildə həyata keçirilməyə başladı. 1821-ci ildən-1914-cü ilə kimi Ingiltərədə qızıl standartı qızıl sikkə pul sistemi formasında fəaliyyət göstərirdi. Banknotların emissiyası 1844-cü ildən başlayaraq, demək olar ki, 100% qızılla təmin olunurdu. Fidusiar, yəni təmin edilməmiş və etibara əsaslanmış emissiya həmin dövrdə illik 14 milyon funt sterlinqi aşmamalı idi. **Qızıl soveren, yaxud 20 şillinqlik sikkə olan su 7,98805 qram ağırlığında olaraq, 0,9162/3 əyarına malik idi.**

Italiyada bank işi Romada meydana gəlmiş və yunan bank işinə bənzər şəkildə təşkil olunmuşdur. Artıq miladdan öncə III əsrdə pul əmanətlərinin qəbulu, pul vəsaitlərinin köçürülməsi, sadə və ipoteka kimi borclarının verilməsi, hərracların təşkili və həyata keçirilməsi kimi əməliyyatlar aparan argentarilər və ya menzarilər yaranmışdır. Bu zaman Makedoniyadan Herkules sütunlarına qədər ərazidə əməliyyat aparan Opiye və İqnasiye evləri daha məşhur idi.

Bank işinin daha böyük inkişafı orta əsrlərin sonunda və Intibah dövründə Venesiyada və Florensiyada baş vermişdir. Venesiyada və Florensiyada kommersiya banklarından başqa ictimai banklar (1156-1171-ci illər) fəaliyyət göstərirdi. Vəsaitlərin hesablardan köçürülməsi ilə məşğul olan bu banklar "jirobank" adını almışlar. Ilk belə bank Venesiya bankı Monte Nuovo adlı şəxs tərəfindən yaradılmışdı. Başqa belə bir bankın əsasını müflisləşmiş zənginlərə borc verən Mediçi ailəsi qoymuşdur. Həmin dövrdə banklar vergiləri qəbul edən və bəzi bank əməliyyatlarını həyata keçirən ictimai müəssisələr idi. Bu banklar sələmçiliklə mübarizə aparmaq üçün təsis edilmiş və kilsənin himayəsi altında olan "dağlara" (Montes pietatis) və "kübar dağlara" (Montes provant) bölünmüşlər. Qeyd etmək lazımdır ki, məhz bu dövrdə, 1156-cı ildə İtaliyada beynəlxalq valyuta mübadiləsi barədə birinci müqavilə bağlanmış və XIII əsrdə müqavilə Avropada daha çox məşhurlaşmışdır. Nümunə kimi, sənədlərin birində göstərilən məlumatı göstərmək olar: "bir neçə tacir bankdan 115 Genuya sikkəsi məbləğində borcu o şərtlə götürmüşlər ki, Konstantinopolda bank nümayəndəsinə 460 Bizans sikkəsi (vinzantinlər) qaytarsınlar".

Bankların inkişafı nəticəsində İtaliya dövləti onların fəaliyyətində iştirak etməyə başladı. 1401-ci ildə bir çox yoldaşlıq cəmiyyətlərinin - hökumətin kreditorlarının qovuşması yolu ilə Genuyada məşhur bank -

müqəd-dəs Georgiy bankı yaradıldı. Bank Respublikanın kreditoruna çevrildi. Banka kapital qismində gömrük və digər dövlət gəlirləri güzəşt edilmişdir. Bunlardan başqa hökümətin razılığı ilə banklar böyük imtiyazlardan istifadə etməyə başladılar. Hətta bir çox iri ticarət şəhərlərində, o cümlədən dəqiq yazılı məlumatlara görə, genuyalı doj (mer) vəzifəyə gələrkən and içməli idi ki, bankın müstəqilliyini qorumaq və onun çiçəklənməsinə kömək etmək öhdəliyini öz üzərinə götürür. 1463-cü ildən - 1505-ci ilə qədərki dövrdə Roma papası tərəfindən banklara qərəzli borcluları kilsədən qovmaq hüququ verilmişdir. 1675-ci ildən bu tip banklar jirobank statusunu qazanmağa nail olmuşdular.

Italiyadakı kredit münasibətlərinin məntiqli və davamlı inkişafı kilsənin ciddi nəzarəti altında baş verirdi. Xristian ənənəsinə görə, İtaliyada da sələmçilik qadağan olunurdu. Italiyanın bankları yalnız 1403-cü ildə faizlə borc pul verməyə başladılar və bu proses ilk dəfə rəsmi olaraq Florensiyada qanuniləşdirilmişdir. Artıq 1473-cü ildə ölkədə ilk lombardlar peyda oldu. Bu lombardlar şəxsi adamlara girovla borc verirdi. Bu cür bank və şəxslər arasında olan münasibətlər tezliklə alimlər tərəfindən öyrənilməyə başlandı və təlimat xarakterli əsərlər yazılmağa başlandı. Sübut kimi 1494-cü ildə Italiyada ilk dəfə maliyyə mühasibatı üzrə nəşr olunan əsəri göstərmək olar. Kitabda ikili yazı üsulu təsvir olunurdu. Maliyyə hesabatının bu üsulunu italyanlar Summa de Arifmetika, Geometrika, Proportioniet Proportionalita (müəllifi Friar Luka Paçioli) kitabının yaranmasından hələ 100 il əvvəl istifadə etməyə başlamışlar. 1587-ci ildə Venesiyada “Banko di Rielto” dövlət jirobankı açılmışdır. Sonralar bank sisteminin inkişafı yeni jirobankların və depozit kommersiya banklarının yaranmasının, əmanət kassalarının, ipoteka və işçi banklarının yaranması, kredit maliyyə müəssisələri şəbəkəsinin meydana gəlməsi hesabına baş verirdi. İtaliyanın kredit sistemi kimi pul sistemi də özünün çoxəsrlik tarixində bir neçə mərhələdən keçmişdir. Həm ölkə çərçivəsində, həm də “Latın ittifaqı” çərçivəsində fəaliyyət göstərən bimetallizm dövrü və monometallizm (1895-ci ildən başlayaraq qızıl pul standartı) dövrü İtaliyaya xas idi.

**Almaniyanın vahid pul-sikkə sistemi** 1870-ci illərdə təşəkkül tapmışdır. Həmin dövrdə imperiyanın elan edilməsindən sonra pul vahidi - qızıl tərkibli 0,358423 q olan **reyxs-mark** tətbiq olunmuşdur. Bu isə qızıl monometallizminin başlanğıcı demək idi. Bu vaxta qədər dövlətin ərazisində

yeddi monetar sistem mövcud olmuşdu: Şimali (taler) və Cənubi (qulden) Almaniyada gümüş monometallizm, Bremendə qızıl taler, gümüşə nəzərən mübadilə kursu ilə dövr edən qızıl pullar - fridrixsdorlar, luidorlar, pistol və dukatlar. Bundan başqa, banknotlar və kağız pullar da işləyirdi. **İlk kağız pulları Saksoniya buraxmışdı. 1772-ci ildə burada 1 talerdən 100 talerə** qədər ümumi məbləği 1,5 milyon olan xəzinə biletləri dövriyyəyə buraxılmışdır. Artıq 1856-cı ildə Prussiya çoxrəngli çap işinin istifadəsi ilə kağız pulların buraxılışına başladı.

1973-cü il 9 iyul qanununa əsasən Almaniyada qızıl-pul standartı tətbiq olundu.Bundan əvvəl 1871-ci il qanununa görə qızıl reyxsmarkdan başqa, dövriyyəyə imperiyanın gümüş pulları və misdən, nikeldən düzəldilmiş xırda sikkələr buraxılmışdı. Imperiyanın gümüş pulları artıq həmin dövrdə xırda pul rolunu oynayırdı. Onların ödəniş məbləği 20 marka ilə məhdudlaşırdı. Dövriyyədə həmçinin, qanuni ödəniş qüvvəsinə malik olan, lakin tədricən dövriyyədən çıxarılan köhnə qızıl və gümüş pullar da işləyirdi. Sikkələrlə yanaşı, kredit pulları - 100 və daha artıq markada olan banknotlar-banklar tərəfindən təsdiqlənən qiymətli kağızlar dövriyyədə işləyirdi. 1875-ci ildə Mərkəzi emissiya bankı - Reyxsbank (Reichsbank) fəaliyyətə başladı. Bu bank pulların buraxılması ilə bağlı nisbi monopoliyanı almağa, Birinci dünya müharibəsindən sonra, 1935-ci ildə mütləq monopoliyanı yaratmağa müvəffəq oldu. Reyxsbank Prussiya bankı əsasında yaranmışdır. Prussiya bankı öz başlanğıcını 1765-ci ildə yaradılmış Kral jirobankından (Konigliche Jiro und Lehpbank) götürürdü. Müharibəyə qədərki aralıqlarda Reyxsbankla yanaşı daha bir neçə emissiya bankı da fəaliyyət göstərirdi. 1875-ci il aprelin 1-nə qədər onların sayı 32 idi. Sonradan onların 14-ü emissiya bankı kimi artıq fəaliyyət göstərmədi. Birinci Dünya müharibəsindən sonra yalnız dörd şəxsi emissiya bankı qalmış, onlar da 1935-ci ildə banknotların emissiya hüququndan məhrum olmuşlar. Birinci dünya müharibəsi dərin maliyyə böhranına və Almaniya tarixində inflyasiyanın ən yüksək səviyyəsinə gətirib çıxardı. Ölkə rəhbərliyi qızıl pul standartından imtina etməyə məcbur oldu. Buna səbəb hərbi kampaniyaların keçirilməsi üçün daimi emissiyaların tələb olunması idi. Qızıl tədricən dövriyyədən çıxarıldı.

## Rusiyanin pul-sikkə sistemi



Ümumiyyətlə, pul tarixi dövlətlərin tarixi ilə sıx bağlıdır, demək olar ki, istənilən siyasi hadisələr əvvəlcə özünü pul dövriyyəsinə baş verən dəyişikliklərdə göstərir. Bir çox ölkələrdən fərqli olaraq, Rusiyada sikkələr parəkəndəlik dövrünü keçirən slavyan tayfalarının bir knyazın hakimiyyəti altında birləşməsindən çox əvvəl meydana çıxmışdır. Həmin dövrlərin pul tarixini öyrənilməsi mənbələri yalnız tək-tək tapılan sikkələrə və sikkə dəfinələrinə, daha sonra salnamələrə və sənədlərə əsaslanır.

Monqollardan əvvəlki dövrlərdə indiki Rusiya ərazisində pul mübadiləsi adətən natura şəklində, yəni əmtəə mübadiləsi vasitəsilə həyata keçirilirdi. Lakin ticarətin ən inkişaf etdiyi bölgələrdə tacirlər xarici gümüş sikkələrdən, eləcə də müxtəlif əmtəə-pullardan (xəzlərdən, heyvan dərilərindən və s.) istifadə edirdilər. Şərq və qərblə ticarət zamanı sabit mübadilə forması olan kiçik heyvanların xəzləri idi. Sonralar Rusiyada pul vahidlərinin adlarının (kuna, legata, vekşa) yaranması bununla əlaqələndirilir.



Kauri qabıqları



Ərəb dirhəmləri



Srebrenik - ilk rus sikkəsi

VIII-X əsrlərə qədər Rusiyaya ərəb gümüş sikkələrinin -dirhəmlərin sabit axını digər hesablama vasitələrinə son qoyur. Ermitajın fondlarında qorunan ərəb dirhəmlərinin çəkisi təxminən 3,5 q, möhürlərdəki yazılar ərəb dilində və əlifbasındadır. Bu ödəniş vasitələrinə **kufi sikkələri** deyilir. O dövrə aid bəzi dəfinələrdə Xilafət tarixinin müxtəlif dövrlərinə aid minlərlə sikkələr "гривна"larla (gümüş qadın boyunbağısı) birgə qeydə alınmışdır.

X əsrin sonlarında knyaz Vladimirin hakimiyyət illərində Rusiya Bizansla yaxın əlaqələr qurur. Knyaz Bizansın pul dövriyyəsi ilə tanış olduqdan sonra Kiyevdə çox az sayda Bizans solidlərinə oxşar "srebrenniklər"lər (gümüş sikkələr) və "zlatnik"lər (qızıl sikkələr) zərb

etdirirdi. “Srebrennik” və “златник” adlı sikkələrinin zərbi knyaz Svyatopolkun (979-1019) və Yaroslavl Mudrının (978-1054) hakimiyyət illərinə qədər davam etmişdi.



XI əsrdə Ərəb xilafətində “gümüş böhranı”na görə (gümüş pulların yoxa çıxması ilə əlaqədar) kufi dirhəmlərinin Rusiyaya axını azalır və sonra tamamilə dayanır. Ölkədə baş verən gümüş çatışmazlığını ödəmək üçün daha ağır çəkili Qərbi Avropa denariləri Rusiyanın qərb və şimal-qərb bölgələrinə daşınmağa başlanınır. Bu dövrə aid **“ногата”** adlı sikkələrin üzərində Qotika dövrünün ruhunda xaç təsvirləri həkk edilir.

XI əsrdə Rusiyanın pul dövriyyəsində “noqata” 2,5 “kuna” bərabər tutulurdu. “Qrivna”ların çəkisi sonralar dəyişikliklərə məruz qalır. Cənubda (müasir Ukrayna ərazisində), qrivnaların çəkisi 160 qrama, şimalda (Novqorodda) - təxminən 200 qrama, qərbdə (müasir Belarus, Baltikyanı ölkələrin bir hissəsində) - təqribən 103 qrama bərabər olmuşdur. Yaroslavl Mudrının “Русская правда” adlı məşhur qanunlar külliyatında cəzalar siyahısında **qrivnalarla** cərimələnən müxtəlif cinayətlər növlərinə rast gəlmək mümkündür. Dövrün sikkə dəfinələrində **denarilərlə** yanaşı Saksoniyanın-**brakteatlarına** da təsadüf edilir.



**Novqorod Qrivnası. külçə (Moskva Kreml Muzeyi)**

**Nağdsız dövr.** XI əsrdə Rusiya feodal pərakəndəliyi dövrünü keçirirdi. Mərkəzləşmiş dövlətin dağılması ticarətin zəifləməsinə səbəb olur. Bu dövrə aid sikkə dəfinələrinin aşkarlanmaması Rusiya sikkəçiliyində “nağdsız sikkələr dövrü” və ya “sikkəsizlik dövrü” adlanır. Bu proses monqolların işğılına qədər davam edir və ticarətdə varlı tacirlər digər knyazlıqlarda qəbul edilən, əridilmiş **“gümüş külçələrdən”** istifadə edilirdi. Bəzən gümüş külçələrin çəkisi əridildiyi bölgənin təxmin edilən qrivnalarına bərabər hesab edilirdi.

Rusiyanın cənub knyazlığlarında XI əsrdən başlayaraq, XIII əsrə qədər Litva Knyazlığına birləşdiriləndək, təxminən 160 qram ağırlığında altıbucaqlı formalı külçələr istehsal olunurdu. Şimalda, denarinin istifadəsi səbəbindən "sikkəsizlik" dönəmində XII əsrə qədər çubuq şəkilli 200 qramlıq; qərbdə XIII əsrədək 96-107 qramlıq tökmə külçələrdən istifadə olunurdu. Əlavə olaraq altıbucaqlı "чернигов" tipli külçələrdə digər knyazlıqlarda qəbul edilirdi.

Şimalda geniş bir ərazini işğal edən Novqorod Respublikası demokratik bir quruluşun bütün əlamətlərini özündə ehtiva edirdi. Novqorod knyazlığında Monqol təsiri zəif olduğundan, knyazlıqda XIII əsrin sonlarında daha aşağı əyarlı yeni bir **qrivna** adlı - tökmə külçə meydana gəlmişdir. Külçələrin saxtalaşdırılmasının qarşısını almaq üçün onların üzərinə aid olduqları knyazlığın xüsusi işarəli möhürləri vurulurdu. Saf gümüşün çəkisini dəqiq alınması üçün külçədə metalın itmiş hissəsinə gümüş əlavə edilirdi. Bu səbəbdən külçələrin üzərində kiçik çıxıntılar yaranırdı. Knyazlıqlarda tıcarət zamanı xırda ödənişlər üçün külçələr kiçik hissələrə bölünürdü. Bu kəsilmə - doğrama - rus dilində rubit sözü ilə ifadə olunduğundan sonralar Rusiyanın pul dövriyyəsində "qrivna" sözünü "rubl" sözü ilə əvəz olunmasına səbəb oldu.

**Pərakəndəlik dövrünün pulları.** XIV əsrin ikinci yarısında Rusiyada monqolların zülmü zəifləyir. 1380-ci ildə baş verən Kulikovo döyüşündə qazanılan qələbə Rus knyazlıqlarının xarici işğalçılara qarşı birləşmə prosesini sürətləndirir. Birləşmə Rusiyada ticarətin inkişaf, daha konkret **Moskva**, **Suzdal, Nijni Novqorod, Novqorod, Ryazan, Pskov knyazlığında** sikkə zərbinin inkişafına səbəb oldu. XIV əsrin sonlarında kiçik knyazlıqlarda -**"azad şəhərlərdə" (məsələn, Torjok) belə sikkə zərb edilməyə başlanılır**.



**Novqorod sikkələri (Ermitajın ekspozisiyasından)**

İlk sikkələr xəzinədəki gümüş ehtiyatlarından deyil, tacirlər tərəfindən öz hesablarına zərb olunurdu. Sikkə zərb edən tacirləri knyaz özü təyin

etməklə tacirlərə ticarətdə böyük üstünlüklər verirdi. Bu da ticarətin vüsət almasına səbəb olurdu. Tacirlər sikkə zərb etdirmək üçün zərbxanalar tikdirir; zərbxanalara işçiləri muzdla işə götürür, sikkələrin üzərində öz möhürlərini vurdururdular. Onlar zərbxanada sikkələrin çəkisinə, əyarına ciddi nəzarət edirdilər. Buna baxmayaraq, bir knyazlığın sikkələri digərlərinin müəyyən elementlərinə görə seçilirdi.

İstehsal prosesi I Pyotr dövrünə qədər demək olar ki, dəyişmədi,yəni 300 ildən çox bir vaxt kəsiyində gümüş məftillərdən pullar hazırlanırdı. Məftil parçaları hamarlandırılırdı, sonra onlara rəsmlər və yazılar vurulurdu. Bu dövrün sikkələri çox kiçik olduğundan, daha çox **balıq pulcuqlarına** bənzədiklərinə görə, müasir kolleksiyaçılar tərəfindən **"çeşuykalar"** adlandırılır. Sikkə zərbi zamanı müxtəlif səbəblərdən yazılar, rəsmlər, işarələr sikkə üzərinə düzgün həkk olunmurdu və onların bütövlüyü pozulurdu, keyfiyyətsizləşirdi. Üstəlik, hər bir sikkənin çəkisi fərqli idi. Müəyyən sayda sikkələr çəki normalarına uyğun gəlirdi. Məsələn, Novqorodun sikkələrinin çəkiləri 0.6 qramdandan 0.9 qrama qədər ağırlığında dəyişirdi. Sikkələrin hər iki tərəfində olan obrazlar (xüsusən Novqorod və Pskov) zərbxana işçilərinin ümumi dünyagörüşlərindən, bacarıqlarından, təcrübələrindən, təsəvvürlərindən asılı olaraq dəyişirdi.



Rusiyanın sikkə zərbi tarixinin ilkin dönəmində bütün sikkələr eyni adla - "denqa" adlanırdı. Qeyd etmək lazımdır ki, bu söz türk dilində tənəkə- sözündən götürülmüş, nazik metal parçası mənası daşıyır və ilk dəfə rəsmi olaraq, Hülakü hökmdarı Qazan xan tərəfindən təngə adlı nominalın bir varintı olaraq slavyanlarda istifadə olunanda ümumişlək anlamı daşıyırdı. Novqorod qrivnasına-rubluna əvvələr 216 "**denqa**" hesablanır və ya bərabər tutulurdu. Sonralar **denqaya** diametrinə görə yaxın ,dəyərinə görə aşağı olan **"poluşka"** (yarımçıqlar, yarı pullar) və bəzi şəhərlərdə "**çertvertak**" - "**dörddə bir**" zərb edilirdi. Novqorodda, Tverdə və Ryazanda xırda pullar mis sikkələr - "**pul**"geniş yayılmışdı. Təsdiq olunmamlş yazılı məlumatlara görə, d**enqi 60 pul** dəyərində olmuşdur.

Əvvəlcə gümüş külçələr sikkələr ilə birlikdə dövriyyədə iştirak edə bilərdi, lakin XV əsrdə onlar digər hesablama vasitələri kimi tamamilə dövriyyədən sıxışdırılaraq, sikkə ilə əvəz olundu. Bu zaman zərb edilən bəzi mis və gümüş pullar üzərində pul və ya pulo sözünü kiril əlifbasında oxumaq mümkündür.

Vasiliy Tyomnının (1415-1462) hakimiyyət illərində Moskvada çoxlu sikkə tipləri mövcud idi. Ən ağır çəkili sikkə Qızıl Orda ilə həmsərhəd olan və ondan asılı olan Ryazan knyazlığında zərb olunurdu. Əvvəllər monqollar dövründən qalma sikkələrə xüsusi bir işarə - "tamga", yaxud da kontrmarka vururaq, təkrar zərb prosesi həyata keçirilməyə başlanıldı. Hakimiyyətdə gücləndikdən sonra knyaz öz sikkəsini zərb etməyə başlamışdı. Bu sikkələr standart ölçüdə, dairə şəklində, iri və nazik şəkildə hazırlanırdı.

III İvanın (1440-1505) hakimiyyət illərində qızıl sikkələr zərb olunmağa başlaymışdı. Lakin bu sikkələr dövriyyə üçün deyil, mükafat olaraq görkəmli şəxsiyyətlərin mükafatlandırılması, yaxud istisna hallarda hədiyyə məqsədi üçün nəzərdə tutulurdu. Məsələn, Macarıstan dukatı ölçüsündə olan bu sikkələrlə Moskva Kremlinin inşa edən italyalı memarlar mükafatlandırılmişdi. Mükafatlanma üçün nəzərdə tutulmuş qızıl sikkələr I Pyotorun hakimiyyət illərinə qədər zərb olunmuşdu. Sonralar bu qızıl sikkələr Rusiyanın pul dövriyyəsinin bir hissəsinə çevrilmişdi. Belə sikkələr mükəmməl formada, diametri böyük, qurtu-qalınlıq dairəsi nazik olurdu. Onların üzərində knyazların portreti, titulları həkk edilmiş və adları dəqiq göstərilmişdir. Sikkələrin dəyəri 1:10 və ya 1:12 nisbətində gümüşlə bərabər nəzərdə tutulmuşdu. Eyni zamanda Moskva rublu-200 denqaya dəyişdirilirdi.

**Novoqord kopeykası. 1534 -cü ilin pul islahatı və "mis üsyanı".**

III Vasilinin hərbi xərcləri, aktiv xarici siyasəti çoxlu maliyyə vəsaiti tələb etdiyi üçün, sikkələrin çəkisinin azaldılasına gizli surətdə qərar verildi. Sonralar xəzinənin vəziyyəti gümüşün dəyərini yenidən azaldmasını tələb etdi. Sikkə islahatı ərəfəsində III Vasilinin vaxtsız ölümü nəticəsində bu iş Yelena Qlinskaya tərəfindən həyata keçirildi. Həmin vaxt xanımın 30–a yaxın yaşı olmasına baxmayaraq, "Böyük knyaqinya" titulu daşıyan Qlinskaya bu işin öhtəsindən məharətlə gəlmişdi.

Beləliklə, Rusiyada **ilk pul islahatı** Moskvada İvan Qroznının (1530-1584) anası Yelena Qlinskayanın hakimiyyəti illərində həyata keçirilmişdir. Onun oğlu III Vasiliy (1479-1533) və III İvanın (1440-1505) rus

torpaqlarının birləşməsi siyasətini davam etdirərək, Pskov (1510), Voloskiy (1513), Ryazan (1521) və Şimali Novqorod (1522) əyalətlərini mərkəzləşdirilmiş Rus dövlətinə daxil etməyi bacarmışdılar. Bütün bu əyalətlərin birləşmə ərəfəsində göstərilən yerlərin özlərinə məxsus çəki və pul sistemi var idi. Birləşmədən sonra pul vahidinin unifikasiyası qərb-şərq ticarətinin inkişafına səbəb oldu.

**Bununla da, 1535 - ci ilin fevralında** Moskvada köhnə sikkələrin dəyişməsi haqqında fərman təsdiq edildi. Bu dövrdən başlayaraq, Moskva dövlət zərbxanasında **qrivnanın çəkisi 520 qramdan 600 qrama** qaldırılmışdı. Bundan başqa, zərbxanalarda **0,34 qramlıq denqa,** xırda (daxili) ticarət üçün nəzərdə tutulmuş **denqanın yarısına bərabər olan poluşka** zərb edilmişdi. III İvana aid edilən bu sikkə islahatı xarici ticarətdə tez bir zamanda təsirini göstərir. Novqorod knyazlığının Rusiyaya birləşdirilməsindən sonra Moskva sikkələrinin çəkisi 0,4 qr. qədər azaldılaraq, Novqorod sikkələrinin yarısına bərabər hesablanmağa başladı.

Novqorod sikkəsinin çəkisi **1535-**ci il sikkə islahatına əsasən 0,68 qrama bərabər idi. Bu sikkələrin aversində nizə ilə silahlanmış atlı obrazı əks olunmuş və ticarət zamanı "kopeyka" adlanmağa başlanılır. Belə ki, monqol hökmdarı Kəbəki xanın pul islahatı (1321-ci ildə) zamanı dövriyyəyə gətirdiyi və öz adına uyğunlaşdırdığı kəbəki sikkələrini tanıyan, zamanında ticarətdə qəbul edən rus hakim qüvvələri sikkələr üzərindəki atlı obrazını həmin sikkələrə oxşatmış və bu cür-kopeyka adlandırmışlar. Novqorodda bu sikkə islahatına daha həssas yanaşılaraq, göstərilən "kopeyka" adlı sikkələri Moskvaya nisbətən daha tez zərb etməyə başladılar. Çarın sikkə islahatından 4 ay sonra Moskvada sikkənin aversində qılıncla silahlanmış atlı əks olunan sikkələr zərb olunur. Beləcə daxili və xarici pul dövriyyəsində metalın və sikkələrin çəkisinin eyniliyinə baxmayaraq, sikkə zərbi iki ayrı-ayrı sistemə bölünürdü. İslahat zamanı daxili ticarətdə istifadə olunan **denqa**, **kopeyka** adları yalnız nominal kimi istifadə olunurdu, yəni **0,17 poluşka**, **0,34 denqanın** yarısı olduğuna görə belə adlandırılırdı. İslahat nəticəsində rus sikkə dövriyyəsinin əsasını təşkil edən ənənəvi bölünməyə son qoyuldu. Buna baxmayaraq, sənədlərdə XVII əsrin sonlarına qədər Rusiya pul sistemində bu bölmələr -nominal adları kimi qorunub saxlanılırdı.

**1535-ci ildə** sikkə islahatından sonra Rusiya sikkə sistemində **novqorodka** sikkə adı kopeyka ilə əvəz olundu. Sikkələri daha ağır olan

Novqorodun pul sistemində **kopeyka** xarici ticarət üçün nəzərdə tutulmuşdur. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, hər iki termin, yəni denqa və kopeyka günümüzə qədər Rusiyada pul sistemində istifadə edilməkdədir. Denqa və ya denqi ümumişlək söz olaraq, bütün pul nominallarının simvolik ifadəsi, kopeyka sözü isə kiçik dəyərli, xırda pul vahidləri üçün istifadə edilməkdədir.

**Beləliklə, islahatdan sonra 100 novqorodka-1 rubla**, **1 rubl 2 poltinnikə (və ya 10 qrivnaya) bərabər idi**. Yelena Qlinskayanın pul- sikkə islahatı Rus çarlığının siyasi və iqtisadi inkişafına səbəb oldu. İslahat nəticəsində Rusiya pul-sikkə sisteminin unifikasiyaya doğru addım atıldı. 1535-ci il sikkə islahatı Rusiya sikkə sistemində texniki və iqtisadi cəhətdən yeni mərhələyə qədəm qoydu. Bu islahatdan sonra Rusiya dövlətinin xarici ticarəti, xüsusən Avropa dövlətləri ilə inkişaf mərhələsinə keçid aldı.

**Aleksey Mixailoviç Romanovun (1645-1676) pul sikkə islahatı.**

**1654-cü ildə** çar **Aleksey Mixailoviç Romanov (1645-1676)** ilk dəfə olaraq gümüş sikkələr - **yefimkalar** zərb etdirməyə başladı. Yefimka gümüşdən zərb edilərək, xarici görünüşünə görə, qərbi alman talerlərinə bənzəyirdi. Bu gümüş sikkələrin avesində ikibaşlı qartal, arxa tərəfində isə atlı çar-hökmdar həkk olunmuşdu. İlk dəfə üstündə rubl sözü həkk olunan bu sikkənin tərkibində gümüş azlıq təşkil edirdi.Yefimka gümüş sikkələri 64 kopeykaya bərabər idi. Aleksey Mixailoviç yefimkaların nümunəsində mis sikkələr də zərb etdirmişdir. Bu mis yefimkalar xalqın narazılığına səbəb olduğuna görə 1655-ci ildə onların zərbi dayandırılmışdır. Sonradan bu sikkələri möhürlü talerlər əvəz etmişdi. 1654-cü ildə çar A.Mixailoviç xəzinədən yığılmış talerlərdən, yenidən rublların zərb edilməsi barədə fərman vermişdi. Bu rublların üz tərəfində kvadrat şəkilli möhürün - kartuş daxilində qartal və zərb ili rəqəmlərlə həkk olunmuşdu. Sikkənin digər üzündə "knyaz çar A.Mixailoviç Boyük və Kiçik Rusiyanın çarı" sözləri həkk olunmuşdu. Bu rubllar kiçik remediumla 45 qr. çəkiyə malik olmuşdu. 1654-cü ilin fərmanına əsasən, Rusiyada poltinnik, polu poltinnik, qrivna, altın və qroşevik nominalında sikkələr zərb olunurdu. Qeyd etmək lazımdır ki, bu nominalların adları içərisində altın sözü türk dilindən qəbul edilərək, bir qədər fərqli mənada istifadə edilmişdi. Belə ki, türk dilində altun qızıl metal mənasını daşıyır. Türk xalqlarının sikkə tarixində altun və ya altın sözünün yaranma tarixində digər bir nəzəriyyəyə görə, qızılın gümüşə olan

ən erkən nisbəti 1:6 olma səbəbindən, bu söz həm də bu xalqın leksikologiyasına 6 gümüş axçaya -ağ pula, yəni gümüş pula dəyişdirilən 1 qızıl pul mənasını daşımışdı.

**I Pyotrun pul sikkə islahatı.** 1700-1721-ci illərdə I Pyotrun sikkə islahatının əsas səbəbi Şimal müharibəsinə hazırlıq **-** dəniz donanmasının yaradılması ilə bağlı olmuşdur. Bu islahat tədricən 15 il ərzində həyata keçirilmişdir. İslahat nəticəsində ilk dəfə olaraq, **3,4 qramlıq qızıl sikkələr çervoneçlər -** 3,4 qr. qərbi Avropa, daha dəqiq Hollandiyanın qızıl dukatına bərabər tutularaq, **4 qramlıq rubl** zərb olunmuşdur. Ehtimal etmək olar ki, çervoneç və ya daha çox həm də xalqımızın leksikologiyasında bu yaxınlara qədər iştirak edən "çervon" sözü, şirvanşah qızılı sözündən götürülmüş və nisbətən dəyişdirilmiş şəkildə, yəni çervon sözü kimi dövriyyədə adlandırılmışdı. İlk dəfə göstərilən adda qızıl sikkə 1701-ci ildə zərb edilmiş və dövriyyəyə buraxılmışdı. Bu pulların üz tərəfində Rusiya dövlətinin gerbi, əks tərəfdə müqəddəs Andrey Pervozdannının portreti zərb edilmişdi. **1704-cü ildə** Rusiyada Avropada ilk dəfə olaraq "**desyatiçnıye"-onluq sikkə sistemi** yaradılmışdır.

**1769-cu ildə** II Yekaterinanın (1729-1796) hakimiyyət illərində pul dövriyyəsinə **kağız pullar** buraxılmışdı. Bu dövrdə zərb olunan **mis kopeykalar gümüş rublun yüzdə birinə** bərabər hesablanırdı.

**1839-1843-cü illərdə** I Nikolayın (1796-1855) sikkə islahatının nəticəsində Rusiyada **gümüş monometalizm** həyata keçirilmişdi. **1849-cu ildə** imperatorun hakimiyyət illərində kağız pullar qiymətdən düşmüşdü. Bu səbəbdən banklarda kağız pulların gümüş və qızıl sikkələrə dəyişməsinə son qoyulmuşdu. **1897-ci ildə** II Nikolayın hakimiyyət illərində ilk dəfə Rusiyanın dövlətçilik və iqtisadiyyat tarixində **qızıl monometalizminin** əsası qoyulmuşdur.

# ŞƏRQ ÖLKƏLƏRİNDƏ ANTİK VƏ ORTA ƏSRLƏRDƏ PUL VƏ PUL İŞİ. ÇİNİN NUMİZMATİKASI

**Parfiyanın numizmatikası.** Antik və orta əsrlərdə Şərq ölkələrində pul zərbi işində daha çox yunan və Roma pul sistemini davam etdirirdilər. Bunun da əsas səbəbi şərqin əsas dövlətlərinin Makedoniyalı İsgəndərin yaratdığı imperiyanın tərkibində olması və "Böyük fateh"in ölümündən sonra yeni yaranan Selevkilər və Parfiyanın pul zərbi işində yunan zərb işinin sistemlərini davam etdirirməsi olmuşdu. Digər bir səbəb kimi, ellin dövründə avropalıların işğal etdikləri bəzi şərq ölkələrində məqsədli şəkildə əvvəlcə etnik dayaq, sərhədləri qoruya biləcək hərbçilərin, o cümlədən sənətkarların bu ölkələrdə yerləşdirilməsi olmuşdu. Görünür göstərilən fakta görə, sasanların hakimiyyətə gəlişinə qədər şərqin əksər ərazilərinin sahibi olan Parfiya dövriyyəyə buraxdıqları pulların hər iki tərəfində yunan dili və əlifbasından istifadə etməklə bərabər, həm də qədim parn-part runi türk əlifbasından da yararlandıqlarından, sasanilər də eyinilə hakimiyyətlərinin ilk zamanında eyni ərazilərdə bu sistemi davam etdirmişlər. Şərqin antik dövr tarixində İsgəndərin ölümündən sonra yaranan güclü dövlətlərdən biri Parfiya, yaxud da elmdə Arşakilər adlanan dövlət olmuşdu.

Pul işinin ayrı-ayrı dövlətlərdə üstünlük təşkil edib- etməməsiinin digər vacib cəhəti sikkələrin orta çəki göstəricisi-yəni metroloji analizinin nəticələridir. Makedoniyalı İsgəndərin dövründən imperiyanın tərkibinə daxil edilən ərazilərdə Attika pul sistemi hökmranlıq etmişdi. Bu pul sisteminin remediumu 0,1-0,3 qr olaraq, 4,3 qrama bərabər olmuş, yüksək əyarlı gümüşdən zərb üsulu ilə hazırlanaraq, gümüş draxmaya əsaslanan əmtəə-pul münasibətləri təşkil etmişdi. Selevkilər hakimiyyətə gəldikdə eyni çəki-pul sistemini dəyişdirilmədən davam etdirmişlər. Bu səbəbdən Parfiya yaranana qədər imperiyanın ərazisində aşkar edilən və araşdırılan dəfinələrin tərkibində Makedoniyalı İsgəndərin sikkə nominalları da vardır. Deməк, Selevkilər sələflərinin nəfis pul nominallarını olduğu kimi dövriyyədə saxlamışlar. Dünya numizmatika elminin tarixşünaslığında belə bir maraqlı müddəa vardır: "Selevkilərdə draxmanın çəkisi 4, 3 qr. olaraq, zərb edildiyi yerdən asılı olmayaraq, imperiyanın hər tərəfində qəbul edilirdi. Bu fkirləri təsdiq edən sübutlar sırasında Azərbaycan Albaniyasında zərb edilən gümüş draxmalar ən azından qonşu ərazilərdə tam statusla qəbul edilə bilər. Bunu sübut etmək üçün

xarici ədəbiyyatda müraciət etdikdə bəzi təsdiqləyici materialları tapmaq mümkündür. Bu qəbildən keçən əsrdə Mərkəzi Asiyada aşkar edilən Amudərya dəfinəsindəki , hələ də təyin edilməyən gümüş draxmaları misal çəkmək mümküdür.

Nəticədə, aparılan araşdırmalara görə, təsdiq etmək olar ki, m.ö.III-III əsrlərdə, yəni Selevki-Roma, Parfiya zamanında rəsmi konvensiya-razılaşma sənədi olmadan Attika çəki sisteminə əsaslanan gümüş draxmalar və onların gümüş oxşatmaları dövlətlərarası əmtəə-pul münasibətlərində qəbul edilən dəyər vahidləri olaraq, bütöv Ön, Orta və Kiçik Asiya və Yunanıstan-Roma arasında pul ittifaqına daxil olmuşlar. Bu pul - ticari ittifaqların tarixində ilk belə bir mühüm iqtisadi qurum idi. Əsas pul vahidləri draxma və tetrad-raxmalar olaraq gümüşə əsaslanan sikkələr idi.

Sasanlar eynilə parn-part əlifbasının bəzi hərflərini dəyişərək, sikkələrdə zərb işində geniş istifadə etməyə başladılar. XIX əsrdə ingilis, fransız, alman, sonra da rus mənşəli bəzi alimlər bu əlifbanı düzgün olmayaraq, amma məqsədli şəkildə “orta fars və ya pəhləvi əlifbası” adlandırırlar.

Beləliklə, özlərini əhəmənilərin davamçısı hesab edən sasanlar əsas dövlətçilik atributu olan sikkə işində Yunan-Romanın eradan əvvəlki pul sistemini davam etdirirdilər. Əsas yenilik atəşpərəstliklə əlaqəli dini obraz-ların sikkə işinə daxil edilməsi olmuşdu. Müasir İran ərazisində yaradılan sasanlar dövlətində pul işi gümüşün monometalizminə əsaslanmışdı. Sasanların pul zərbi işində mühafizəkarlıq çox az elementlərlə özünü sona qədər qoruyub saxlamışdı. Milyonlarla sikkələrin əsas kütləsi bəzi səbəblər-dən bu günkü İran muzeylərindən daha çox Rusiyanın muzeylərində saxlanılır. Görünür, bunun əsas səbəbləri sırasında ərəblərin yaratmış olduğu Xilafət adlı yeni və çox böyük ərazilərə malik olan dini, islam imperiyasında ilk pul islahatından sonra sasanların pulları xüsusi qərarlarla toplanaraq, yenidən tamamilə başqa tipdə zərb edilib, dövriyyəyə buraxılması olmuşdu. Buna görə sasanların pulları əsasən Xilafətə daxil olamayan ərazilərdə, o cümlədən Avropada daha çox qalmışdır. Ərəb xilafəti imperiyasının pul zərbi işi bütün dövrlərdə mövcud olan dövlət və imperiyaların pul sistemlərindən hərtərəfli və kəskin fərqlənirdi. Bu pullar adlarını, yəni yunan pullarının adlarından olan denariy-qızıl, draxma-gümüş, follis-fulus, fels adlanan misdən, azacıq bir dəyişikliyə uğradılaraq, monoepiqrafik pullar

silsiləsinə aid olub dinar, dirhəm, fulus adları ilə dünyanın yeni sikkələri statusunu qazandılar. Xilafətin ilk yüzillikyində yeni sikkələr yalnız dəyər vahidi deyil, həm də əsil dini rəmzlər olaraq, mərkəzləşmiş şəkildə dövlətin birbaşa nəzarəti altında seçilmiş zərbxanalarda kütləvi şəkildə istehsal edilərək, dövlətin bütün ərazilərinə göndərilirdi. Sikkəsi olan erkən dövlət və imperiyalarda olduğu kimi, ərəblərdə də monometalizm gümüşə əsaslanırdı. Onların dövriyyəyə daxil etdikləri nəfis gümüş dirhəmlər, həm də xarici ölkələrdə qəbul edilirdi. Avropada, o cümlədən indiki Rusiyanın ərazisində ticarət münasibətlərində bu pullar qəbul edilməsi, buralardan son 100 ildə aşkar edilən dəfinələr və ayrı-ayrı sikkələr sübut edir. Bu pullar Avropanın bəzi yerlərində hətta Əməvilərin və Abbasilərin hakimiyyətinin sonundan sonra bir neçə yüz il dövriyyədə dəyərli pul vahidi kimi istifadə edilirdi.

X əsrin ikinci yarısından başlayaraq, Şərq ölkələrində "gümüş böhranı" başlandı. Böhranın vətəni Mərkəzi Asiya olsa da, həmin zamanın ən zəngin dövlətlərində böhranın ilkin rüşeymləri özünü gümüş pulların bazar münasibətlərində çatışmazlığı şəklində göstərməyə başlamışdı. Bu zaman Qərbi Avropada eyni proses baş vermişdi. Gümüş böhranı yalnız gümüşdən hazırlanan sikkələrə aiddir. Bu onu sübut edirdi ki, pul kütləsinin artması, inflyasiyanın yaranması, öz növbəsində pul emissiyasına gətirib çıxarmışdı. Bu zaman pulların hərəkətini izlədikdə, iki istiqaməti daha aydın şəkildə izlənilir; yəni Şərqdən Qərbi Avropaya və əksinə. Bu artıq yeni bir tarixi hadisə idi. Xüsusilə müsəlman dövlətləri üçün görünməmiş münasibətlər müstəvisi yaranmışdı. İslam numizmatikası tarixində bu yüzilliklərdə-yəni gümüş böhranı zamanı - X əsrin ikinci yarısından -XIII əsrin ilk yarısına qədər islam öz gücünü heç bir sahədə zəiflətməmişdi. Bununla belə, müsəlam ölkələrində xristian pulları ilk dəfə ticarət əlaqələrinə daxil olmağa başladı. Əksinə, eynilə islamı və Məhəmməd Peyğəmbəri (s.ə.s.) qəbul etməyən avropalılar, nəinki bu pulları məmnuyyətlə qəbul edir, hətta onları kütləvi şəkildə yığmağa başlayırlar. Bu fakt özlüyündə ən azından "köhnə qitə"də pul dəyişməsinə ehtiyac qalmadığını və zəngin sinfin nümayəndələri-hakim sinif və onların yaxınlarnını pul istehsalında olmayan yeniliklərə əl atmasını göstərir. Avropa haqqında bu dövrün numizmatik təsvirini yuxarıda izah etdiyimiz kimi, həm də Şərqə baxmalıyıq. Şərqdə bu zaman ilk dəfə görünməyən kəskin

islahatlar baş verir.Əslində rəsmi islahat haqqında heç bir yazılı mənbə yoxdur. Əsas mənbə elə sikkələrin özüdür.

Beləliklə, Şərqin "mühafizəkar" irsi-ailə hökmdarlarının razılığı ilə heç bir ümumi formaya uyğun olamayan, çəkisi belə standart olmayan, bilon - yəni üzəri gümüş qatı ilə çox zərif şəkildə örtülən, tərkibində ucuz metallar olan, hətta bəzən möhürü düzgün formada tam olaraq vurulmayan sikkələr tələsik və həddən artıq sayda dövriyyəyə buraxılır. Bu pullar "al-peso" sistemində buraxılırdı, yəni "al marko" izlənilmirdi. Bu o deməkdir ki, bu sikkələr ticarətdə sayla-ədədlə qəbul edilir və çəkiylə ölçülürdü. Bu görünməmiş bir iqtisadi hadisə idi. Kredit-müvəqqəti borc pul xarakteri daşıyan bu sikkələr hakimiyyətlər tərəfindən əhaliyə görünür, məcburi təqdim olunurdu. Hətta bəzən belə pulların üzərində dirhəm, zər, sim - yəni gümüş sözü zərb edilirdi. Bu o demək idi ki, Şərqin mükəmməl sənət əsərləri olan, yüksək əyarlı qızıl, gümüş pullarının satışına, mübadiləsinə önəm verərək, xəzinələrin doldurulması üçün bu yoldan istifadə edilməyə başlandı. Bu proses açıq aydın "pul bazarının" tam formalaşması demək idi.

Nəticədə, xaç yürüşləri başladı. İslam mədəniyyətinə, iqtisadiyyatına və idarəetməçiliyinə böyük zərər dəydi. Avropanın müflis hakim sinfi ilk dəfə Şərqə yürüşlərdə əsil pulun nə olduğunu və nəyə qadir olduğunu gördülər. Əlbəttə, geriyə ödəniləcək pulları şərqlə müqayisə edilməyə heç bir uyğunluq təşkil etməsə də, şərqdə gümüş pul çatışmazlığının qarşısını almaq üçün din yaddan çıxdı. Şərq bazarlarında hətta üzərində İsa peyğəmbərin və Bizans hökmdarlarının obrazı olan pullar dəyər qazandı, qəbul edildi, alınıb satılmağa başladı.

"Şərqin intibahının" yaradıcısı olan pul və pul işi tezliklə yeni imperiyaların yaradılmasına gətirib çıxardı. Bu imperiyaların ən möhtəşəmi olan Monqol imperiyasının qısa müddətdə tutduğu ərazilərin ümumi sərhədlərinin ölçüsü Çingiz xana qədər heç bir hökmdar tərəfindən işğal edilməmişdişdi. Bu imperiya bütün ərazilərində ilk dəfə türk pul sistemini yaratdı və yaydı. Çingiz xanın ölümündən sonra onun vəsiyyətinə görə yaradılan dövlətlərdən olan Cucilər, yaxud da Qızıl Orda Orta və Aşağı Volqa ətrafından Qərbi Sibir və Mərkəzi Asiyanı əhatə edirdi. Regionun iqtisadi cəhətdən ən çox inkişaf edən ərazisi müasir Özbəkistanın sərhədlərində yerləşən Xarəzm idi. Məhz bu səbəbdən bu dövlətdə əsas qanuni pul Xarəzmin pul vahidi olaraq, som, sum qəbul edilmişdi.1 sum 2 qram çəkidə olaraq, onluq

sistemə daxil idi. Ayrıca qeyd etmək lazımdır ki, bu zaman monqol ordu sistemi də onluqla ifadə olunurdu. Gümüş pullar tanqa, yaxud təngə adlanırdı. Qara, mis sikkələr pul adlanırdı. Dövlətin mövcud olduğu 300 il ərzində pul sitemində dəyişilən yalnız hökmdar adları və titulları olmuşdu. Amma yaradılan gündən sikkələrin üz tərəfində ərəb əlifbasında xanın adı olduğu kimi türk dilində titulları ilə birgə, əks tərəfdə yenə də türk dilində ərəb əlifbasında zərb yeri və tarixi rəqəmlərlə göstərilirdi. Mis pul adlandırılan xırda nominalların bəzədilməsində islam qanunlarından kənara çıxaraq, cürbəcür heyvan və bitki obrazları zərb edilirdi. Məsələn, Canıbəyin adından zərb edilən mis pulların üz tərəfində ikibaşlı qartal aydın şəkildə göstərilirdi. Bu cür qartal obrazı sonralar Rusiya dövlətinin hakimiyyət rəmzi-gerb kimi həm bayraqlarında, həm də pullarında Romanovların sonuna qədər zərb edilməyə davam etmişdi.

## Çinin numizmatikası



Uzaq Şərqin pul işinin yaranmasına və inkişafına Çinin sikkə zərbinin böyük təsiri olmuşdu. Çində ilk sikkələr m.ö.XII yüzillikdə meydana gəlsə də, intensiv olaraq arxaik dünyada öz pulları ilə m.ö.VII əsrdən tanınmağa başlamışdı. Uzun yüzillər burada sikkələrlə bərabər cürbəcür əmtəələrdən mübadilədə yararlanmışlar. Bu əmtəələr arasında kauri balıqqulaqları daha "uzun ömrə" malik olmasını sübut edən ən vacib sübut ondan ibarətdir ki, Çin heroqlifləri arasında hələ də almaq və satmaq mənasını göstərən işarə eynilə bu növ balıqqulağı şəklindədir. Bundan başqa bıçaq, balta tipli pullar da eynilə mübadilədə geniş istifadə edilirdi. Bu faktlar Çində pulaqədərki mübadilə vasitələrindən balta, bıçaq kimi əmək alətlərindən geniş istifadə edildiyini və insanların şüuraltı yaddaşına uyğun olaraq, erkən sikkələri də eyni formalarda, amma kiçik ölçü və çəkidə hazırlaması və istifadə edilməsini sübut edir.





Tam olaraq bütün növ ticari münasibətlərdə puldan istifadəyə m.ö.III əsrdən başlanmışdı. Bu yüzillikdən Çində ilk dəfə bütün torpaqlar birləşdirilmiş və hakimiyyətdə Tsin Şixuandi olaraq, bir çox mütərəqqi yeniliklər həyata keçirilmişdi. Bunlardan pul zərbi işinin həyata keçirilməsi ilə bərabər, Çin səddinin tikilməsini, böyük şəhərlərin, sarayların inşasını, yəni ümumi yüksəlişi göstərmək olar. Onun hakimiyyəti illərində iri, dairəvi, orta hissəsində kvadrat şəkilli xüsusi kəndirə keçirmək üçün yer saxlanılan sikkələr hazırlanıb dövriyyəyə buraxıldı. Pulların çəkisi əsas göstərci kimi qəbul edilərək, **“lyan”** adlandırıldı. Bu sikkələr tuncdan tökmə üsuslu ilə hazırlanırdı. Sikkələr üzərində heç bir obrazlar yox idi.



Qin krallığı. (m.ö. 475-222). Uzaq solda: sikkə Liang Zi (burada Liang çəki vahidini ifadə etmir, lakin əsas mənasında “cüt, iki” kimi görünür və Zi 6 zhuya, təxminən 4 qrama uyğun gələn çəki ölçüsüdür)

Yalnız yazılar-heroqliflər aversdə göstərilməklə dövriyyəyə ağır çəkili pullar buraxılmışdı. Mühafizəkar Çin cəmiyyəti min il ərzində bu cür pul sistemini dəyişməmişdi. Tsin Şi Xuandı varisləri zamanı hakimiyyət uğrunda ara müharibələri başlayır və bu hadisələr özünü müəyyən qədər pul işində göstərirdi. Pulların çəkisi azaldıldı. Pul istehsalı ayrı-ayrı şəxslərə icarəyə verildi. Xan sülaləsi zamanı imperator U-di (e.ə.II əsr) yeni çəki sistemi olan–**şu** qəbul edildi.



Tan sülaləsi (618-907), Qian Yuan Zhong Bao (758-760) sikkələri, 10



Qing sülaləsi. (1644-1911), Dao Guang Tong Baonun (1821-50)

qian nominalında. “saray sikkəsi”, Gəlir Şurasının Qərb şöbəsi, Pekin, 1 ven.

100 ildən sonra Van Min adlı imperatorun hakimiyyəti zamanı yenidən pul islahatı keçirildi. Bu zaman çəkidə fərqli, formada eyni olan 10, 20, 30, 50, 55 şu adlkı pullar dövriyyəyə buraxıldı. Beynəlxalq ticarət üçün 500 və 5000 şu adlı iri nominallar belə hazırlanıb bazarlara təqdim edildi. Bu iri nominallar bıçaq formasında tökmə üsulu ilə hazırlanırdı. Amma tacirlər real dəyəri çox böyük olan bu pulları qəbul etmədilər və bazar münasibətlərində xaos yarandı. Bu narazılıqların qarşısını almaq üçün Van Man kauri və tısbağa belindən hazırlanan kiçik mübadilə vasitələrindən dəyər vahidi kimi istifadəyə icazə vermək məcburiyyətində qaldı.

VII əsrdə Çində şu adlı pullar dəmirdən buraxılmağa başladı. Yeni **“tsyan”** adlı pulların dövriyyəyə buraxılması başladı. Bu pullar klassik formada olub, XVII əsrə qədər dövriyyədə qaldılar. Bu zaman Çinlə ilk dəfə tanış olan ruslar belə pulları “çox” adlandırdılar. Ayrıca qeyd etmək lazımdır ki, IX əsrdə həm də Çində “**fey tsyan**”-uçan pullar adlı kağız nominallar buraxılmışdı.X əsrdə bütün köhnə qitədə olduğu kimi, Çində də “pul çatışmazlığı”, yaxud da “pul aclığı” başladı. Bu zaman Çini Syun sülaləsi idarə edirdi. Digər ölkələrdən fərqli olaraq, Çində mis pullarının çatışmazlığı baş vermişdi. Bu sülalənin hakimiyyəti zamanı XIII əsrin əvvəllərində monqollar tərəfindən işğal edildi. Bu zaman Xubilay xan kağız pullar çap etdirməyə başlamışdı. İlk belə kağız pullar haqqında məlumatı dünyaya Marko Polo vermişdi.



Han sülaləsi (m.ö. 206 - m.ö.220), Qing dövrünə (1644-1911) qədər müxtəlif dövrlərə aid Çin ənənəvi sikkələri. Sikkələrin aversində müxtəlif növ əfsanələrdən istifadə edilmişdir.

XVIII əsrin əvvəllərindən Çində pullar latundan hazırlanmağa başlandı. XVI-XVIII əsrlərdə Çinə Amerikadan xeyli miqdarda gümüş külçələri gətirildi. İri ticarət müqavilələrində elə bu külçələrdən Çində istifadə edilməyə başlandı. Qeyd etmək lazımdır ki, gümüşdən zərb edilən sikkələr Çində XIX əsrdən dövriyyəyə gətirilmişdi 1889–cu ildən Çinin pul sistemi tam olaraq avropalaşdırılır və ***"Yuan"*** adlı pullar dövriyyəyə daxil edilimişdi. Bu pullar Meksikanının dollarının oxşarı idi.

## QAFQAZ NUMİZMATİKASI: AZƏRBAYCANIN MONETAR PUL DÖVRİYYƏSİ VƏ SİKKƏ ZƏRBİ

**İlkin əmtəə pullar.** VIII-VII minilliklərin neolit inqilabı, onun ardınca gələn eneolit dövrü (VI-V minilliklər) və ilk metal olan mislə tanışlıq bəsit mubadilənin, məhsul dəyərinin ölculməsi meyarlarına malik ictimai prosesə cevrilməsini surətləndirdi. Azərbaycan ərazisində bu donəmdə tayfalararası natural mubadilənin əsasını həm təbiət məhsulları (balıq, ov əti, dəri, meyvə, qoz və s.), həm də insanın yaratdığı əmək alətləri, silah, maldarlıq və əkincilik məhsulları təşkil edirdi. Xarici əmtəə mubadiləsi predmetləri, yəqin ki, natural və emal edilmiş şəkildə daş xammal (obsidian və caxmaq daşı) ola bilərdi. Qədim Azərbaycan tayfalarının tuncla tanışlığı mubadilə sahəsinin və ceşidinin genişlənməsinə yeni təkan verdi. Bu, istehsal quvvələrinin inkişafını surətləndirdi. Əmtəə mubadiləsinin xarici əlaqələri və sərhədləri xeyli genişləndi və bunlar m.ö.I minilliklərin ayrıcında ayrı-ayrı əşyaların, yaxud məhsulların umumi ekvivalent – pul rolunu oynamağa başladığı əsil ticarətə cevrildi. Cox guman ki, Azərbaycanda, bir cox maldar tayfalarda olduğu kimi, dəyərin erkən ölcusu, yəni pul qismində mal-qara olmuşdur.

Azərbaycanda əmtəə-pul mubadiləsində digər ibtidai pul novu Hind okeanındakı Maldiv adalarında əldə olunan dəniz balıqqulaqcıqları ***kauri - cupraea*** moneta (hind dilində ***cauri,*** ingiliscə - ***cowre***) ola bilərdi. Onlar butun Asiyada, Avropada və Afrikada yayılmışdı. Azərbaycanda kaurilər tək-tək və butov dəst şəklində m.ö.II minilliyə aid torpaq qəbirlərdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmişdir. Belə ki, Qarabağdakı kurqanların birində həmin balıqqulağı ilə doldurulmuş qab tapılmışdır. Azərbaycanca ***qarnıyarıq*** adlanan bu balıqqulaqcıqlarının hazırda gozmuncuğu, uzərlik kimi bədnəzərdən qorunma vasitəsi rolunu oynaması diqqət cəkir.

Metalların meydana gəlməsindən sonra iqtisadi cəhətdən inkişaf etmiş olkələrdə pulun rolu umumi ekvivalent funksiyasını yerinə yetirmək ucun fiziki cəhətdən daha yararlı olan metallara kecir. Azərbaycanda, m.ö.II minilliyin sonu- I minilliyin əvvəlinə aid bəzi qəbir abidələrində rast gəlinən tunc bilərziklərin ilk metal pul qismində işləməsini ehtimal etmək olar. Belə ki, məsələn, Mingəcevirdə qəbirlərdən birində skelet uzərində 70-dən artıq tunc bilərzik aşkar edilmişdir. Azərbaycanda pul qismində tuncdan hazırlanmış bu kimi məmulatın meydana gəlməsi daha bir metalın – ***dəmirin*** dövru ilə ust-ustə duşur. Sırf bəzək ucun nəzərdə tutulmuş və adətən bədii detalları olan qızıl, gumuş, mis, şuşə bilərziklərdən fərqli olaraq, tuncdan tökmə üsulu ilə hazırlanan qolbaqlar mübadilə vasitəsi üçün hazırlandıqda hamar olaraq, hər hansı dekorativ elementlər olmadan, tökmə üsulu ilə hazırlanırdı. Ən başlıca əlamət bu növ bilərziklərin muəyyən cəki standartlarına uyğun hazırlanması idi.

XIX yuzildə Cənubi Qafqazda işləmiş və ilk dəfə olaraq Qərbi Gurcustan məzarlıqlarında aşkar edilmiş tunc bilərzikləri tədqiq edən arxeoloq J.de Morqan bu cür bilərziklərin orta cəkisini 8,2 qram muəyyənləşdirməklə, **"Qafqaz siqli"** adlandırmışdır. Y.A.Paxomov bu hamar metal bilərziklərin pul qismində istifadə olunması haqda J.de Morqanın fərziyyəsini dəstəkləmişdir. AMTM-nin arxeologiya fondunda saxlanan oxşar bilərziklərin metroloji tədqiqatına əsasən onlar 10, 20, 40, 80 q cəkiyə malik 4 qrupdan ibarət olması dəqiqləşdirilmişdi. Onların hazırlanmasında istifadə olunan çəki sistemi oz dəqiqliyi ilə böyuk elmi maraq kəsb edir. Bu bilərziklərdən başqa muvafiq dovrə aid hər hansı bir cəki standartları və oxşar sistemə əsasən hazırlanmış digər maddi mədəniyyəti artefaktları elmə məlum deyil.

Bununla belə, 10 qramlıq ilkin cəki norması assur-babil cəki sisteminin ən yungul vahidi olan siqlə -**şekelə** cəkisi 10-11 q olmaqla identikdir və cox ehtimal ki, bu cəki sistemi olkənin On Asiyanın yuksək inkişaf etmiş sivilizasiyaları və dövlətləri, o cümlədən Babilistan və Assuriya ilə ticarət əlaqələrinin təsiri nəticəsində yaranmışdır. Bu bilərziklərdən pul qismində istifadə muddəti və arealı haqqında dəqiq bir söz demək cətindir. Lakin qeyd etdiymiz kimi, onlara eramızın əvvəllərinə aid edilən bəzi qəbirlərdə rast gəlinir. Azərbaycan ərazisində sikkələr meydana gələn zaman tunc bilərziklərin sikkələrlə paralel istifadə olunması istisna edilmir.

Dəmir, xalqların təsərrufat, sosial-iqtisadi və siyasi həyatında muhum dönuş edərək, tuncu ikinci plana sıxışdırmışdı. "İnqilabçı metal" olan dəmirin kəşfi ilə artıq tuncdan əmək alətləri və silah istehsalından daha cox məişət, bəzək əşyaları duzəltmək ucun istifadə olunmağa başlanır. Dəmir dovrundə tuncun belə "məişət funksiya"larından biri də, gorunur, ondan "pul" kimi istifadə edilməsi idi. Belə ki, dəmirin meydana gəlməsi və onunla bağlı ictimai təkamulun surətlənməsi sənətkarlığın, ticarətin inkiş və əmtəə-pul mubadiləsinin canlanmasına təkan vermişdir. Bu öz novbəsində pulun funksiyalarının genişlənməsinə və qiymətli metalların - qızılın və gumuşun pul ekvivalenti kimi fəallaşmasına komək etmişdir. Son nəticədə məhz bu iki metal-qızıl və gümüş butun Qədim Şərq sivilizasiyasında pul funksiyasının daşıyıcıları oldu. Tunc dovrunun sonu və dəmir dovrunun başlanğıcına (m.ö.XI-IX əsrlər) aid arxeoloji qazıntılar zamanı aşkar edilmiş coxlu sayda muxtəlif qızıl və gumuş bəzək, mərasim və məişət əşyaları tapıntılarına əsaslanaraq, qızıl və gumuşun nəcib metal olaraq, qədim Azərbaycanda kifayət qədər tanındığı haqda mulahizə yürüdə bilərik. Bu faktı hələ m.ö.V əsr yunan Herodot da təsdiq edir. O, yazırdı ki, Əhəmənilər dovlətinə qatılmış Midiya (demək olar ki, butunlukdə Cənubi Azərbaycanın və qismən indiki Azərbaycan Respublikasının ərazisini əhatə edən dövlət) hər il mərkəzi xəzinəyə bac şəklində 650 talant (20 tona yaxın) gumuş verirdi. Gumuşdən burada, yəqin ki, həm də iri ticarət maliyyə əməliyyatlarında ödəniş vasitəsi kimi istifadə edilirdi.

Gümüş sikkələrin Azərbaycana, eləcə də bəzi Şərq olkələrinə nufuz etməsi Makedoniyalı İsgəndərin Şərqə yuruşləri və onun işğal etdikləri ərazilərdə yunan-Makedoniya, sonralar isə ellinist dovlətlərin yaranması ilə bağlıdır. Azərbaycanın Ellinizm dovrunun (m.ö.III - m.ö. I əsrlər) iqtisadiyyatına qoşulması elə o zaman baş vermiş və bununla da olkədə sikkə meydana gəlmişdir.

Bizim üçün maraqlı olan məsələlərdən biri sikkə materialları müstəvisində Parfiya və qədim Azərbaycan dövlətləri arasında olan münasibətlərdir.

Məşhur dilçi alim İ.Oranskiy əsərlərinin birində qeyd edir ki, "xalqlar və tayfalar ayrı-ayrı dillərdə danışsalar da, eyni mədəniyyətə malik ola bilərlər; eynilə, eyni dilli, yaxud dil yaxınlığı olan tayfalar çox vaxt bir-birindən maddi mədəniyyətlərinə görə kəskin fərqlənə bilərlər".

Bu baxışla Parfiya ilə eyni dövrdə mövcud olmuş Azərbaycan Albaniyasının, Atropatenanın xeyli oxşar cəhətləri- dil eyniliyi, mədəni kökləri, insanların antropoloji quruluşu dünya alimlərinin hələ də müzakirəsi üçün açıq olaraq qalmaqdadır.

Keçən yüzillikdən başlayaraq, Makedoniyalı İskəndərin ölümündən sonra Avrasiya məkanında baş verən siyasi hadisələr bir çox hallarda numizmatik materiallara əsasən öyrənilməkdədir. Belə ki, m.ö.III-I əsrlərə aid olan və günümüzə bir neçə dildən tərcümə edilən əsərlərdə əsas fikir imperiyanın çox gərgin münaqişələr və müharibələrdən sonra əvvəlcə Selevkilərin, sonra isə şərq torpaqlarında Parfiyanın yaranmasını sübut edilir. Amma hər iki coğrafi məkanların arasında “körpü” rolunu oynayan Qafqaz və onun yerli əhalisinin yaratdığı dövlətlər olmuşdu. Rusiya və Sovet tarixşünaslığında son 30 ilə qədər bu məsələnin həllində alimlərin mövqeyi eyni olmuşdu: yəni Qafqaz, əsasən Selevkilərin, sonra isə məlum tarixi hadisələrdən sonra Romanın təsiri altında olmuşdu, Parfiyanın buralarla yalnız ticari əlaqələri mövcud olmuşdu. Eyni dövrdə alimlər tərəfindən həyata keçirilən numizmatik araşdırmalar da bu ideoloji “xəttə” tam olaraq, süni şəkildə uyğunlaşdırılmışdı.Təəsüflə qeyd etmək lazımdır ki, XX əsrdə antik dövrün numizmatik tapıntıların araşdırması ilə məşğul olan bəzi Azərbaycan alimləri də heç nəyi dəyişmədən bu cərəyanın təsdiqinə “xidmət” etmişlər.

Halbuki antik dövr mədəniyyətinin arxeoloji abidələrinin qazıntıları zamanı aşkar edilən maddi-mədəniyyət qalıqları, o cümlədən çoxsaylı sikkə və dəfinələr bu fikri təkzib edir. Antik dövrdə Yunan-Roma mədəniyyətinin təsiri Qafqaz dağlarının ətəklərində daha çox Qara dəniz sahillərində-müasir Gürcüstanın qərb hissəsində müəyyən qədər vardır. Bu qəbildən Gürcüstanda aşkar edilən və uzun illər arxeoloji cəhətdən öyrənilən Vani şəhərinin, qaya şəhəri-Uplistsixinin qalıqları, yaxud da yunan tacirlərinin məskunlaşdığı koloniyaların-şəhər-dövlətlərinin arxeoloji araşdırmalarının nəticələrini göstərmək olar. Belə şəhər-dövlətlərin ərazilərinin arxeoloji araşdırmaları əcnəbi tacirlərin yerli tayfalarla assimilyasını və tam mədəni təsirini sübut edir. Eynilə, müasir şimali Azərbaycanda son 70 ildə aparılan arxeoloji araşdırmalar Selevki-Roma təsirinin demək olar ki, olmamasını sübut edir. Daha konkret ifadə edilsə, Qəbələnin uzun illər aparılan arxeoloji qazıntılarının nəticələri, Şirvanda Nyudi, Uzunboylar, Xınıslı və digər abidələrin tapıntıları, Bakı-Abşeron, Şamaxı, Dərbəndin maddi-mədəniyyət nümunələri m.ö.III əsr-eranın III əsrə qədərki

uzun zaman Selevki, Roma mədəni təsirini  ən azından bir əsrini belə özündə tam olaraq əks etdirmir. Əksinə,  buranın  Parfiyanın nəinki təsir dairəsinə, tam olaraq imperiyanın ərazilərinə daxil olduğunu sübut edən araşdırmalar mövcuddur. “Antik dövrün bəzi tarixi ədəbiyyatında parfiyalıları daha çox “midiyalılar” kimi təqdim edirlər. Bunun əsas səbəbi ondan ibarətdir ki, Parfiya şərqdə Midiya dövlətinin ərazisində yaranmışıdı”-fikrinin müəllifi olan görkəmli sovet-rus arxeoloq alimi V.M.Masson əsərlərində dəfələrlə əsaslandırmışdı. Digər bir dünya şöhrətli avropalı alim E.Bikerman Strabonun əsərinə istinadən yazır ki, “Girkaniya Parfiya ilə birləşdirilmişdi”. Parfiyalıların hakimiyyətə gəlməsində yerli türk tayfalarının xüsusi rolu olmuşdur. Bunlardan skif-sak-kimmer-massagetləri xüsusi olaraq qeyd etmək lazımdır. Məhz bu xalqların şərəfinə görünür, hakimiyyətə ilk gətirilən hökmdarın əsas titulu aid olduğu xalqın adına uyğunlaşdırılmış və bu səbəbdən son Parfiya hökmdarları da daxil olmaqla Ərsak-Arşak kimi sikkələrdə öz yerini tapmışdı. Bu səbəbdən də m.ö.247-ci il yeni Ərşakilər təqvimi kimi tarixə daxil olmuşdu. Bununla da, yeni dövlətin aparıcı qüvvəsi olan sak-skiflərin bir qolu hesab edilən parn-part taryfalarının şərəfinə dövlət  Parfiya; yaxud hakimiyyətə ilk gətirilən Ərsakın şərəfinə Arşakilər-Ərsakların dövləti (m.ö.250 – eramızın 227) adlandırılmışıdı.

Avropa tarixşünaslığında günümüzədək hər iki eponim və etnonimdən istifadə edilməkdədir. Tarixi Midiya ərazisində hakimiyyətə gələn sak-parn və digər adları dəqiqləşdirilməyən  türk tayfaların yeni sülaləsinin idarəsi sasanilərin hakimiyyətə gəlişinə qədər davam etmişdir. Bu hakimiyyəti idarə edən və yaradanların ərazisində yaşayanların əsasən türkdilli olmasını sübut edən vacib faktorlardan qeyd etdiyimiz kimi, numizmatik materialları göstərmək gərəkdir. Xüsusi olaraq, qeyd etmək lazımdır ki, sak-skif mədəniyyətinin əsas “kəşflərindən” olan ox və kaman obrazı sikkələr üzərində yenilik deyildi. Belə ki, hələ son Əhəmənilər dövründə, imperiyanın əsas məkanı olan Midiyanın ərazisində dövriyyəyə buraxılan tunc və misdən zərb edilən dəyər vahidlərində də, eynilə əlində ox və kamanı əlində dik tutan döyüşçü - hücum mövqeyində durmuş kişi-insan–hökmdar, yaxud döyüşçü - tanrı obrazları vardır. Parfiyalıların hakimiyyəti zamanı eynilə qədim Əhəmənilərin dövründə olduğu kimi, bu obrazı sikkələrdə-amma hökmdarların adından zərb edilən gümüş və qızıllarda-draxma və tetradraxmalarda zərb etməyə davam etmişlər. Bu hakimiyyətin sikkələrinin mühüm özəllik lərindən biri  Ərsak-Arşakın oturduğu taxt obrazıdır. Bu cür sadə, heç bir bəzək

nümunələri olmayan taxt obrazlarının türk xalqlarının bəzi hökmdarlarının sikkələrində XIX əsrin sonuna qədər izləmək mümkündür. Belə taxt obrazlarına Səlahəddin Eyyubinin və son təsviri Azərbaycan türk hökmdarlarından Nadir şahın, Qacarların zamanında istifadəyə buraxılmış bəzi  sikkələrdə görmək mümkündür.

Beləliklə, sak ərlərinin, parn tayfalarının Midiya ərazisində hakimiyyətə gəlişindən təxminən eyni vaxtda müstəqil idarəetməçilik, yaxud nominal asılılıq vəziyyətində olan Atropatena, Albaniya dövlətləri mövcud olmuşdu. Hər iki dövlətin sərhədləri zaman-zaman dəyişikliyə uğramış-kiçilmiş, yaxud genişlənmişdir. Buna baxmayaraq, aşkar edilən sikkə və sikkə dəfinələri onların paytaxtlarının əsas şəhərlərinin yerini təsbit etməyə imkan vermişdi. Miladdan öncə III əsrdən etibarən Azərbaycan Albaniyasi ərazisində yerli gümüş draxmalar dövriyyəyə buraxılmışdır. Bu sikkələrin son zərb tarixi keçən əsrin elmi araşdırmalarının nəticələrinə görə m.ö.I əsrin ortalarına qədər davam etmişdi . Keçən sərin 70-80-ci illərində müasir şimali Azərbaycanda aşkar edilən iki böyük sikkə dəfinəsinin araşdırmalarına görə, bu pullar dünya numizmatika elmində qəbul edilən etalon konsepsiyaya görə “varvar” oxşatma, “bənzətmə” sikkələr kateqoriyasına daxil edilmiş və yerli pul zərbinin ilk tarixi kimi Azərbaycan tarixşünaslığına qəbul edilmişdi. Burada ilk sual bu sikkələrin “varvar oxşatmaların” klassik tiplərinə aid olub olub- olmaması barədədir.

1. Əvvəla, “varvar” (barbar, təqlidi, oxşar) oxşatmalar termini dünya numizmat alimləri tərəfindən şərq ölkələrinin ərazisində zərb edilən sikkələrə hələ Makedoniyalı İsgəndərin hakimiyyətinin zamanında zərb edilən nominallara aid edilən xüsusi ifadədir. Eyni zamanda, Avropanın qərbində, indiki Gürcüstan, Mərkəzi Asiyanın bəzi yerlərində demək olar ki, eyni yüzilliklərdə yerli hökmdarlar tərəfindən zərb edilən sikkələri “varvar,oxşatma sikkələr” adlandırırlar. Əvvəla qeyd etmək lazımdır ki, yunanlar,  romalılar onların dillərində danışmayan və əsasən döyüşçü tayfa və xalqları barbar adlandırdıqlarına görə, ilk belə sikkələri də alimlər təxminən 150 il bundan öncə bu cür adlandırmışdılar. Bu qəbildən Atropatena və Albaniya, həmçinin Parfiyanın yerli əhalisinin əsas kütləsinin yunan, latın dilini və əlifbasını bilmədikləri, yazmadıqları və danışmadıqları üçün sözsüz ki, onları - yerli xalqalrı varvar, barbar kimi qəbul etmişdilər. Sonralar sovetlər zamanı çap olunan elmi əsərlərdə eyni termini “yaşamaq” statusu saxlanılaraq, bəzi mədəniyyət-

tarixi abidələrə, o cümlədən Azərbaycan Albaniyası ərazisindən tapılan sikkələrə də şamil edilmişdi.

2. Makedoniyalı İsgəndərin, həm də onun varisi seçilən yunan selevkilərin hakimiyyəti zamanı sikkə zərbi hüququ hökmdarlara aid olmuşdu. Tarixi hadisələrin bəzi sonluqlarında müəyyən qədər suverenlik almış vilayətlərdə, şəhərlərdə yerli hakim sinfə öz sikkələrini zərb etmək hüququ verilirdi. Məsələn, yazılı məlumatlara əsasən, selevki hökmdarı VII Antiox (m.ö.160-m.ö.129) m.ö.139-cu ildə Yerusəlimin baş kahini Simona yazmış olduğu məktubda yazırdı: “Mən selevkilərin qərb ərazilərində yalnız Perqamlı Filatorun hakimiyyəti zamanı I Antioxdan (təx. m.ö. 324-m.ö. 261) rəsmi sənəddə icazə alaraq, öz adımdan gümüş draxmalar buraxmışam”.



Tetradraxma Selevki I Antiox Soter (təx. m.ö. 324-m.ö. 261) -



Didraxma. VII Antiox (m.ö.160-m.ö.129)

Bununla belə o, öz asılılığını sikkələrin üz tərəfində hakimiyyətdə olan Antioxun rəsmi titulu - Selevk Nikatorun obrazını zərb etməklə, süzeren hüququnu göstərmişdi. Belə gümüş sikkələrin “oxşatma” statuslularının imperiyanın şərq əyalətlərində zərb edilməsi faktını hələ Qəbələ və Xınıslı dəfinələri aşkar edilməmişdən öncə avropalı alimlərdən G.F.Hill qeyd edərək yazırdı ki, bu zaman yüksək ehtimalla Persiya hakimiyyət nümayəndələri özlərinə aid (Albaniya və Atropatena da bu dövlətlərə aiddir-müəlliflər) gümüş pullar zərb etdirirdilər.

Yuxarıda qeyd edildiyi kimi, gümüş sikkələri yalnız imperiyanı idarə edən hökmdarlar öz adından zərb etdirib, dövriyyəyə buraxa bilərdilər. Bu məsələni araşdıran bəzi Avropa alimləri qeyd edirlər ki, “əgər munisipal, yəni protektoratlarda zərbxanalarda bu zaman gümüş pullar buraxılırdısa, bunlar hökmdar nominallarıdır”.

Beləliklə, Atropatena və Azərbaycan Albaniyasının gümüş draxmaları, xüsusilə Selevkilərin hakimiyyəti zamanı hökmdar sikkələri olaraq, yerli hakimlər tərəfindən nəinki daxili bazarlar üçün, bəlkə də bəzi qonşu ölkələrdə dövriyyəyə daxil olmaq üşün buraxılmışdı. Deməк, bu sikkələr təxminən m.ö.III əsrin sonu-I əsrin ortalarına qədər hər iki dövlətin nisbi müstəqil-nominal asılı olmasını sübut edən vacib faktordur.

3. Makedoniyalı İsgəndər sikkə zərbi işi hüququnu onun imperiya çərçivəsində mühüm ticarət yollarında yerləşən, tam formalaşan bəzi şəhərlərə vermişdi. Dünya alimlərinin keçən yüzillikdə apardıqları araşdırmalara görə, yerli zərbxanalara bu icazə xüsusi etalon möhürlərdə - Makedoniyalı İsgəndərin öz adından zərb edilən eyni, identik elementlər, yazılar saxlanılaraq təqdim edilirdi. Amma bu hüququ kiçik dəyərli xırda pullar buraxılmasına şamil edilirdi. Selevkilərin hakimiyyətinin sonuna qədər Makedoniyalı İsgəndərin belə pul siyasəti davam etdirilmişdi.
4. Pul siyasətinin məntiqi davamı bütün zamanlarda dövlətlərin həyata keçirdikləri vergi işi olmuşdu Numizmatik materialların əsas istifadə sahəsi olan vergi və vergi sistemi göstərilən zaman mühüm əhəmiyyət kəsb edirdi. Xalqımızın arxaik və antik dövr tarixinin araşdırılmasında vergi məsələsinin həlli, yazılı mənbələrlə yanaşı numizmatik materiallardan da müəyyən qədər istifadə oluna bilər. Belə ki, hələ Əhəmənilərin hakimiyyəti zamanı Herodotun məlumatlarına görə, Qafqazdan 20 min ton gümüş külçə ildə bir dəfə vergi kimi mərkəzə göndərilirdi. Natura və az miqdarda pulla ödənilən vergi növü "foros" adlanırdı. Foros əsas vergi növü olaraq, hələ I Daranın vaxtından imperiyanın ərazilərinə tətbiq edilməyə başlanmışdı. Selevkilərin hakimiyyəti zamanı vergi sistemində bəzi dəyişikliklər-islahatlar həyata keçirilmişdi. Forosla əlaqəli bu vergini ayrı-ayrı şəxslər deyil, şəhərlər, əksər hallarda imperiyanın tərkibində olan xalqlardan toplayaraq, ödəyirdilər. Forosun miqdarı dövlətin maliyyə hesabatlarında mütləq dəqiqliklə göstərilirdi. Foros vergisi xarakter etibarilə həm də hərbi təzminat olaraq, qələbəyə və ya məğlubiyyətə görə ödənilirdi. Beləliklə, bu vergi ümumilikdə, şəhərlərdən və satraplıqlardan toplanılırdı. Azərbaycan Albaniyasının və Atropatenanın daxil olduğu qədim

Midiyadan - Selevkilərin XI satraplığından foros vergisi kimi Selevki ordusuna atlar alınırdı. Maraqlı bir fakta görə, selevki III Antiox (m.ö. 241 - 187) vaxtı ilə selevkilərin hüdudları daxilində olmuş Kiçik və Ön Asiya şəhərlərindən və vilayətlərindən müstəqillik əldə etdikdən sonra da bu vergini tam olaraq, toplayıb göndərməyi tələb etmişdir. Onun sonuncu sələflərindən olan VII Antiox (m.ö.138-129) Parfiya hakimiyyətini forosu ödəmələri müqabilində rəsmi olaraq, tanıyacağını bəyan etmişdi.

5. “Dünyanın yaranması ilə çar Vologezin dövrünə Böyük Qafqaz dağları arasında hansı xalq yurd salıb bu haqda oxucularımıza heç bir məlumat verə bilmərik. Vologez öz hakimiyyətini şimal tayfaları üzərində bərqərar edəndə o, yanına şimal düzənliklərində və Qafqaz dağları ətəklərində, dağlardan cənubdakı dərələrdə, çöllərdə və düzənlik başlanan yerlərdə yaşayan vəhşi qəbilələrin başçılarını çağırıb onlara qarətlərdən əl çəkib, çarın vergilərinin itaətlə ödəməsini əmr etdi. Çar qəbilələr üzərində hakim və canişinlər təyin edir və onun əmrilə Yafəs nəslindən və Sisakan (Sünik) soyundan olan Aran onlara hakim təyin olunmuşdu” fikrinin müəllifi Musa Kalankatlıdır. **Parfiya hökmdarı Arşaki sülaləsindən** (ΟΛΑΓΑΣΗΣ) **Vologezi (Balaş) (51-78)** Albaniyaya canişin təyin edir. Həmin dövrdə Azərbaycan Albaniyasının bəzi əraziləri Arranşahlıq adlanırdl. Əgər Azərbaycan Albaniyası Parfiyanın tərkibində olmasaydı sözsüz ki, bura canişin göndərmək hüququ da bu dövlətə aid ola bilməzdi.





Arşaki Vologez (51-78)        Arşaki II Pakor (78-105)

I Vologez, ondan sonra hakimiyyəti idarə edən Arşaki sulaləsindən **II Pakor (78 - 105)** və **II Vologez (128-147)** Parfiyanın rəsmi hökmdarları olaraq, Ktesifonda hakimiyyəti idarə etmişlər. Adı çəkilən I Vologez də eynilə etnik Azərbaycanın qədim torpaqları daxil olan Parfiya-Ərsak-Arşak

dövlətinin hökmdarı olmuşdu. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Selevkilərin erkən hakimiyyəti zamanı Midiya XI, Parfiya XII satraplıq kimi göstərilirdi.Ərməniyyə-Armeniya ən kiçik ərazi inzibati vahid olaraq, strateqlər sırasında ən axırıncı sıralarda adı göstərilirdi. Demək, Parfiya iri satraplıq olaraq, Midiya ilə eyni vaxtda Selevki imperiyasının ərazisinin tərkibində olmuş, sonralar mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində hər iki satraplıq birləşərək, Ərsaklar dövləti Parfiya adlandırılmışdı .

Beləliklə, Azərbaycan Albaniyası və Atropatena İsgəndərin ölümündən sonra yaranan selevkilərin hakimiyyətindən çox tezliklə azad olmuşdular. Bu müstəqilliklərini ən azı Azərbaycan Albaniyası ərazisində yerli hökmdar “gümüş” sikkələrin zərbi ilə dövrün pul siyasətinə uyğun həyata keçirmiş, hətta selevkilərlə foros adlı vacib vergini bir neçə il ödəmişlər. Miladdan öncə 247-ci ildə sak-parn tayfalarının yaratdığı Parfiya, keçmiş Midiya dövlətinin yeni sülaləsi Ərsakilar öz sikkələrini zərb edərək, yeni tip möhürlərdə atlı-döyüşçü obrazlarından istifadə etməkdə davam etmişlər.

Şimali Azərbaycanda aşkar edilən m.ö.III-e.ə.I əsrə aid edilən sikkələri və sikkə dəfinələrinin tərkibini araşdıran alimlərin statistik analizinin nəticələrinə görə, m.ö.III əsrin sonu-II əsrin əvvəllərində artıq yerli ticarət münasibətlərində gümüş draxmalar üstünlük təşkil edirdilər. Bu faktları araşdırıb dəqiqləşdirən bəzi Azərbaycan alimləri belə bir sualı-elmi ehtimal tezisi kimi irəli sürmüşlər.



Dinar. Bəhram II (275-292)
(22 mm, 7,42 q).
"HWPY/HRPY" (Herat?).



Dirhəm. II Qotarz (39/41-51)

M.ö.I əsrin II yarısından sonra yerli sikkə zərbiniin dayandırılması Pompeyin 65-ci ildə Albaniyaya yürüşü və guya ki, bununla da Romanın təsiri altına düşməsi ilə nəticələnmişdi. Halbuki yuxarıda qeyd etdiyimiz bəzi antik dövr alimlərinin əsərlərində bu yürüşlərin qələbə ilə nəticələnməməsi; əksinə Parfiyanın tam olaraq qalib gəlməsini, həm də aşkar edilən sikkə dəfinələrinin tərkibinin zərb yerinə və statistik analizinin nəticəsinə görə

Parfiya sikkələri tarixi Azərbaycan torpaqlarında geniş yayılması ilə yerli zərbə artıq ehtiyac qalmadığını sübuta yetirmək mümkündür. Parfiya sikkələrinin Albaniya və Atropatena ərazisində hələ sasanilərin pul islahatlarına qədər belə dövriyyədə qalmasını keçən əsrdə aşkar edilən bəzi dəfinələrin tərkibi sübut edir. Bu faktı 1964-cü il Qəbələ dəfinəsində

**II Varahranın (Bəhram) (275-292)** gümüş draxmaları ilə birgə Parfiyanın hökmdarı olan II **Qotarzın (39/41-51)** adından 200 il öncə dövriyyədə olan sikkələrin birgə yerləşdirməsi bariz şəkildə sübut edir.

Azərbaycan Albaniyasının və Atropatenanın aydın zərb yeri monoqramlı sikkələri də eynilə sasanilərin hakimiyyətinin ilk pul islahatlarına qədər bütün Avrasiya məkanında rəsmi tədavül vasitələri olmuşlar. Parfiya dövlətinin yaradıcıları türk mənşəli tayfalar olduğundan və qədim Midiya ərazisində yarandığından bizlər bu dövlətin varislərindən olduğumuzu həm də ərazimizdə tapılan sikkələr və dəfinələrlə bir daha təsdiq edə bilərik. Biz bu dövlətin əsas ərazilərindən olmasaydıq, ən azından Ekbatan, indiki Həmədan Parfiyanın ən uzunömürlü paytaxtı seçilməzdi. Azərbaycan Albaniyasının yerli sikkə zərbi işi m.ö.II əsrdə sona çatır. Bu zamandan eranın III əsrinin əvvəllərinə qədər, yəni sasanların dövlətinin yaranmasına qədər burada hansı pullardan istifadə edilib? Albaniya tarixinin ilk müəlliflərindən olan Musa Kalankatlının əsərindən açıq aydın olaraq draxma adı çəkilir. Bu pul vahidinin adı konkret olaraq keşişlərin maaşı haqqında olan bölmədə yazılıb. Yeni dövlətin tərkibində olan Albaniya Parfiyada buraxılan gümüş və qızıl pullardan istifadə edir. Mərkəzləşmiş dövlət olan Parfiyada pul sistemi gümüşə əsaslanırdı. Bununla belə bizim ərazimizdə nadir də olsa mis sikkələr də aşkar edilib. Mis sikkələrin zərb hüququ böyük və güclü dövlətlərdə həm də əyalətlərə icarəyə verilirdi. Ehtimal etmək olar ki, mis sikkələri-obolları elə Albaniyanın özündə zərb edirdilər. Beləliklə, Atropatena əraziləri birbaşa Parfiya dövlətinin mərkəzlərinə daxil olaraq, pul zərbinin əsas həyata keçirildiyi məkan olaraq, Azərbaycan Albaniyası bu iri dəyər nominallarının qəbul edildiyi, həmçinin lazım olduqda kiçik pul vahidlərini özü zərb edən böyük türk imperiyasının mühüm, starateji ərazilərindən hesab etməyə əsas verir.

**Azərbaycan ellin mədəniyyəti dairəsində.** Azərbaycanın dövlətçilik tarixi hələ antik dövrdən başlayır. Antik Azərbaycan dövlətçiliyini sübut edən amillərdən biri onun ərazisində mövcud olmuş Albaniya (Qafqaz,

yaxud Azərbaycan Albaniyası) və Atropatena dövlətlərində zərb edilən yerli sikkələrin aşkar edilməsidir. Azərbaycan ərazisində tapılan ilk pullar Makedoniyalı İsgəndərin (Aleksandrın) dövrünə aiddir. Artıq eramızdan əvvəl III əsrin ikinci yarısından beynəlxalq ticarətə qoşulmuş albanlar və atropatenalılar daxili bazarın ehtiyaclarını ödəmək məqsədilə İsgəndərin gətirilmə sikkələrinə bənzər pullar zərb etməyə başladılar. Bu və sonrakı dövrlərə aid "AT" və "ATR" monoqramlı (numizmatlar bunu Atropat və ya Atropatena kimi oxuyurlar) gümüş dirhəmlər (draxmalar) olaraq, indiki Azərbaycan, Gürcüstan və Dağıstan ərazilərində geniş aşkar edilmişdir. Alimlər həmin sikkələrin Qəbələdə, Ərdəbildə və başqa yerlərdə olan zərbxanalarda hazırlandığını güman edirlər. Eyni zamanda Albaniyada Selevkilərin gümüş sikkələrinə bənzədilən pulların tədavülü eramızdan əvvəl II-I əsrlərə təsadüf edir.

Azərbaycanda sikkə zərbinin yaranması üçün əlverişli münbit iqtisadi, siyasi şərait m.ö.III əsrdən etibarən yaranmışdı. Belə ki, ellin dövrü adlandırılan bu zamanda daxili və ölkələrarası ticarət əlaqələri dünya ticarət səviyyəsinə çatmışdı. Əhəmənilər imperiyasının dağılması ilə qədim Azərbaycan torpaqlarında 2 dövlət yaranmışdı - Atropatena və Albaniya.

Beləliklə, numizmat alimlərin araşdırmaları və əsasən, qazıntılardan aşkar edilən sikkələr m.ö.III əsrin sonlarından ərazimizdə pul zərbinin mövcudluğunu sübut edir. Belə ki, bu zaman Albaniya ərazisində həm "gətirilmə pullar", həm də daxili bazarı təmin edə biləcək qüvvəyə malik Makedoniyalı İsgəndərin pul sisteminə əsaslanan gümüş draxmalar dövriyyədə olmuşdu. Sikkəşünaslıq materiallarına əsaslanaraq Albaniyanın göstərilən dövr pullarını iki mərhələyə ayırmaq olar:

I mərhələ - ellinizm dövrünü əhatə edərək, m.ö.IV əsrin sonlarından - .m.ö.I əsrin ortalarına qədərki dövrü;

II mərhələ - m.ö.I əsrin ortalarından-eramızın III əsrinə qədərki zamanı əhatə edir.

I mərhələnin numizmatik xüsusiyyətini keçən əsrdə Bərdədən, Qəbələdən, Şamaxıdan aşakar edilən sikkələr və pul dəfinələri təyin edir. Belə ki, XX əsrin sonuna olan elmi araşdırmalara əsasən Azərbaycandan ən qədim pul nümunəsi Babildə m.ö.IV əsrin sonlarında zərb edilən iki ədəd tetradraxma hesab edilirdi. Bu sikkələr Şamaxıdan 1820-ci ildə tapılmışdı. Amma keçən yüzilliyin 90-cı illərində Bakıda İçəri Şəhərdə Məhəmməd

məscidi yanında aparılan arxeoloji qazıntılar zamanı mədəni təbəqədən aşkar edilən Əhəmənilər İmperiyasının hökmdarı I Haşayar (e.ə.486-464), yaxud dünya tarixində I Kserks kimi tanınan hökmdar tərəfindən zərb edilən kiçik mis xalk əslində ərazimizdə sikkələrlə tanışlığın hələ 100 il əvvəl, m.ö.V əsrdən mövcud olduğu sübuta yetirilmişdi. Bərdədən aşkar edilən dəfinənin tərkibində Selevkilərə aid olan, Kiçik Asiyanın Kim şəhərində (m.ö.II əsrdə) zərb edilən tetradraxma vardır. Qəbələdən tapılan dəfinədə artıq 7 ədəd Makedoniyalı İsgəndərin adından zərb edilən sikkələr vardır. Onlardan 4 ədədi m.ö.IV əsrin sonlarında Kolofon şəhərindəki zərbxanaya, qalanı Meandrada yerləşən Maqnesi şəhərinin zərbinə aiddir. Digər 5 ədəd draxma Kiçik Asiyanın pul zərbinə aid olub İsgəndərin ölümündən sonrakı illərdə zərb edilmişdir. Bu tapıntılara əsasən Azərbaycan numizmatikasında ilk pul nominallarının tarixi m.ö.V əsrin ikinci yarısına aid edilir. Ayrıca qeyd etmək lazımdır ki, ərazimizdən tapılan və “Böyük fateh” Makedoniyalı İsgəndərin adından zərb edilmiş pullar əsasən draxma pul vahidi olaraq, Kiçik Asiyanın qərb vilayətlərindən, tetradraxmalar əsasən Babildən gətirilmişdi.

Albaniyada dövlətin özünün pul zərbinə başlaması qeyd etdiyimiz kimi, m.ö.III əsrdən başlanmışdı, yəni Makedoniyalı İsgəndərin adından zərb edilən pullar onun ölümündən sonra da imperiyanın ərazilərində dövriyyədə qalmasına baxmayaraq, xırda nominallara ehtiyac yarandığı üçün draxmalar-elmdə “varvar oxşatma”lar adlandırılan, əslində mükəmməl çəki, ölçü sisteminə riayət olunan, maraqlı ikonoqrafiyası olan sikkələr daxili bazarları təmin etmək üçün burada zərb içinin başlanmasının ilk nümunələri dövriyyəyə daxil edilir. Bu səbəbdən Albaniyanın iqtisadi potensialının inkişafında bu pullar mühüm yer tuturdu. Qeyd etdiyimiz kimi, bu draxmalar yalnız daxili bazarı tam təmin etmək üçün zərb edilən Albaniyanın öz pulları idi. Bu cür pullar numizmatikada “oxşar” və ya “bənzətmə”, varvar pullar adlanır. M.ö.II əsrin 80-ci illərindən 20-ci illərinə qədər baş verən siyasi hadisələr ilk növbədə pul zərbində özünü göstərmişdi. Belə ki, IV Selevikin (187-179-cu il) hakimiyyəti zamanı Albaniyada Selevkilərin pulları hakim mövqe tuturlar. Buna səbəb Selevkilərlə Roma arasında bağlanan Anamey sülh müqaviləsi olmuşdu. Müqavilənin şərtlərinə görə, Selevkilər Kiçik Asiyadakı bütün torpaqlarını itirmişlər. Bu səbəbdən də onlara yeni “bazarlar” lazım olduqda Albaniya ilə sıx iqtisadi əlaqələr

yaratmışlar. Selevkilər Albaniya ilə ticarət əlaqələrində əsasən tetradraxma pul vahidlərindən istifadə etmişlər. Buna səbəb Albaniyada iri pullara daha çox ehtiyac olması ilə izah olunur. Belə ki, kiçik dəyəri olan draxma - xırda pullar yerli zərbxanalarda hazırlanır və müəyyən qədər əhalinin ehtiyacını ödəyirdi. Bu faktların əsas göstəricisi **Qəbələ və Xınışlı dəfinələridir.** Selevkilərin tetradraxmaları ilə eyni zamanda bura Kiçik Asiyadan da pullar daxil olurdu. Belə pullar Bərdə dəfinəsində aşkar edilmiş və tetradraxma nominalı olaraq olub, zərb tarixi isə m.ö.II əsrə aiddir. Xınışlı dəfinəsində Lisimaxın (m.ö 285-281) adından Bizansda zərb edilən pullar aşkar edilmişdi. Bu zamandan Albaniya ərazisində Yunan-Baktriya tetradraxmaları və Parfiya draxmaları da tapılır. Bu pul tapıntıları dünya çapında baş verən mühüm hadisənin - Selevkilərin hakimiyyətinin zəifləməsi və parfiyalıların yeni dövlət yaratması ilə əlaqədardır. Bu zamandan başlayaraq Albaniyanın Mesopatamiya və Midiya əraziləri ilə əlaqələri güclənir. Bu günə Azərbaycanda tapılan rəsmi qeydiyyatdan keçən erkən Parfiya pullarından 8 ədəd, m.ö.II əsrdən - m.ö.I əsrin 60-cı illərinə qədərki dövrdə ayrı-ayrı zərbxanalarda hazırlanıb, Albaniyada dövriyyədə olan 161 ədəd nominal vardır. Burada istifadə olunan pullar əsasən Midiyada - konkret olaraq Ekbatanda zərb edilmişdir. İkinci mühüm fakt kimi Albaniyada bu zaman zərb edilən oxşatma, bənzətmə pulların sayının azalması, onun yerinə Parfiya pullarından geniş istifadə olunmasıdır. Faiz nisbətinə görə, əgər Qəbələdən tapılan pul dəfinəsində 593 ədəd sikkədən 440-sı yerli oxşatma pullardırsa (yəni 83%), Xınışlı dəfinəsindən 273 ədəd puldan yalnız 72-si yerli zərbin məhsuludur (yəni 26%). M.ö.I - eramız I əsrin ortalarından Albaniyada Roma pullarından qismən istifadə olunmuşdu. Bununla da, Albaniyanın yerli sikkə zərbi tamamilə işini dayandırır. Sonuncu dövr - Sasanilərə qədərki dövrdür: m.ö.I əsrin ortalarından - eramızın III əsrinə qədər.

Beləliklə, Albaniyanın yerli, oxşatma pulları, əsasən İsgəndərin pullarına bənzədilmişdir. Qəbələ dəfinəsində bu pulların təsviri belədir:

**I tip**

Avers. Heraklın başının təsviri şir dərisində. Nöqtəli dairə sağ tərəfdən.

Revers - taxtda oturmuş, sağ əlində qartal, sol əli ilə hakimiyyət simvolu olan Skinetrə - dəyənəyə söykənmiş Zevs obrazı; obrazın sağında oxşatma hərflərlə oxunmayan söz imitasiya edillmiş hərflər şəklində nəzərə çarpır. Dairə nöqtəlidir.

Bu cür pulların çəkisi 15,28; 15,62; 13,25; 16,59 qr olaraq, tetradraxmalar.

**II tip** oxşatma pullar - draxmalardır. Bu pulların fərqli cəhəti çəkilərindədir - yəni orta çəki nisbətində 3,4 qr. (yəni 3,91-dən 1,18 qr. qədər). Bu cür draxmalar m.ö.I əsrdən dövriyyədə olmuşlar.

**III tip.** Selevkilərin tetradraxmalarına oxşatma pullardır. Onlardan 3-ü Qəbələ dəfinəsində təyin edilmişdi.

Aversdə: hökmdar başında diadema olan hökmdar obrazı;

Reversdə: əlində ox tutmuş, ikinci əli ilə nizəyə söykənmiş yunan tanrısı Appolonun təsviri vardır.

Yunan əlifbası ilə yazıların imitasiya forması vardır.

**IV tip.** Parfiya hökmdarı II Mitridatın pullarına oxşatmalardır. Belə sikkələr yalnız Xınışlı dəfinəsində tapılmışdı (çəkiləri 3,84; 3,99; 4; 3,2 qr.).

Aversdə: Kobud şəkildə hökmdarın başı seçilir.

Reversdə. Yazılar, xətlər vasitəsilə imitasiyalar oxunmur.

Bu pulların Parfiya hökmdarına aid edilməsinin əsas səbəbləri aşağıdakı faktlardır:

a) hökmdarın baş hissəsi diadema ilə birgə göstərilib;

b) Reversdə Arşak taxtda əyləşən vəziyyətdə;

c) pulların üzərindəki oxşatma sözlər 6 sözdən ibarətdir;

Bu cür pulların sayı 110 ədəddir və m.ö.I əsrin ortalarından dövriyyədən tam çıxmışdı.

Demək, Albaniyada m.ö.III əsrdən yerli pul zərbinin olması faktı burada dövlətin yaradılması, onun iqtisadi inkişafı, siyasi xəritədə özünün yerinin olması kimi çox vacib faktların göstəricisidir.

Miladdan öncə I əsrdən Albaniyanın Roma ilə toqquşmalarının başlanması tarixdə məlumdur. İlk dəfə albanlarla döyüşlər haqqında Plutarx məlumat vermişdi. Əslində müharibə Roma ilə Parfiya arasında gedirdi. Sonda Roma qələbə çaldı. Qafqazda Albaniyadan başqa, Kaxetiya və İberiya, yəni müasir Gürcüstan ərazisi romalılar tərəfindən işğal edildi. Albaniya öz müstəqilliyini saxlaya bildi. Burada hələ ki, Parfiyanın siyasi, iqtisadi təsiri qalmaqda idi. Buna baxmayaraq, Parfiyaya sonuncu zərbəni yeni yaranan Sasanilər sülaləsi vurdu. Albaniyada bu zaman dövriyyədə aparıcı yer tutan pul nominalları Parfiya pulları idi. Əsasən II Mitridatın adından zərb edilən belə pullar Azərbaycan ərazisində - Naxçıvanda -

Xaraba Gilanda, Lənkərandan, Cəlilabaddan, Bərdədən (Şatırlıdan), İsmayıllıdan (Nyüdidən), Şamaxıdan (Çuxur-Yurddan), Fizulidən (Horadiz) tapılan dəfinələrdə təyin edilmişdi. Bu pulların arasında hətta "oxşatma" növləri də vardır. Qeyd etmək lazımdır ki, Parfiya dövlətinə daxil olan digər yerlərdə belə "oxşatma" pullar tapılmamışdı. Yalnız Azərbaycanda olan bu fakt, belə pulların geniş yayılmasından və əhali tərəfindən qəbul edilməsindən, həmçinin onlara olan geniş tələbatdan irəli gəlir. Digər tərəfdən, Azərbaycan numizmatika tarixində ilk dəfə saxta pullar məhz Mitridatın adından zərb edilmişdi. Belə saxta Parfiya pulu Çuxur-Yurddan tapılan pul nominalıdır. Saxtalığı - pulun üzərinin mis qatla örtülməsidir. Görünür bu "örtüyün" səbəbi standart çəkidən az, yəni 2,48qr. olmasıdır. II Mitridatdan sonra II, III, IV Fraatın adından buraxılan sikkələr Azərbaycanda üstünlük təşkil etmişdi. Belə pullar Mingəçevirdən, Qubadan, Lənkərandan, Bərdədən, Biləsuvardan aşkar edilmişdi. Belə numizmatik materialların tapılma topoqrafiyasına uyğun analiz edib, Cənubi Qafqaz miqyasında xəritələşdirsək, bu pullar əsasən Şimal, Şimal-Şərqi ərazilərdə daha geniş yayılmasını təsdiqləmək mümkündür. Bizim eranın I əsrində Azərbaycanda, bütövlükdə Qafqazda Qotarzin sikkələri geniş yayılır. Belə pul nominalları Şamaxıda Çuxur Yurddan, Küdrüdən, Xınışlıdan, Çalovdan; İsmayıllıda - Kalağada, Qəbələdə, Mingəçevirdə qəbir abidələrindən, Gəncə şəhər yerindən, Qazaxda-Torpaq qaladan, Biləsuvardan, Şirvandan (Əli-Bayramlıdan) və digər yerlərdən aşkar edilmişdi.



Andraqor (m.ö 255-248)



I Antiox (m.ö.281- 261)

Azərbaycan tarixində Albaniya və Atropatenanın III əsrin ortalarından etibarən Sasanilər imperiyasının tərkibinə daxil olmasının dəqiq tarixləri elmdə qəbul edilmişdir, yəni 227, 262-ci illər. Lakin nəzərə almaq lazımdır ki, m.ö.323-cü ildə İskəndərin ölümündən sonra imperiya bölüşdürülərkən onun bir hissəsi yəni Suriya, Mesopatomiya və digər ərazilər Selevkilər

dövləti adlandırılaraq, 200 il mövcud olmuş və Roma tərəfindən işğal edilmişdi.

İkinci dövlət Şərqin yunan canişini Diadot tərəfindən yaradılmışdı. Rəsmi olaraq, bu dövlət 40 il sonra III Antiox (223-183-cü il) tərəfindən istila edildi. Azərbaycanın Sasanilərə qədərki pul sistemində bu dövlətin sikkələri mühüm yer tutmuşdu. Bununla da, Cənubi Qafqazda Gürcüstanda - Romanın təsiri, Azərbaycanda isə Parfiya dövləti ilə sıx iqtisadi və siyasi təmas məhz sikkələr və sikkə zərbi ilə sübuta yetirilir. Belə ki, hal-hazırda Parfiya sikkələrinə aid Azərbaycan ərazisində 30 nadir tapıntı və 7 dəfinə qeydə alınıb. Bu tapıntılardan ikisi - **Şamaxı (Xınıslı)** və **Şirvan (Əli Bayramlı)** dəfinələri özünəməxsus yer tutur. Birinci dəfinədə 162 arşaki sikkəsi, ikincidə - 110 ədəd Parfiya şahlarının sikkələrinə təsadüf olunmuşdu. Bu fakt öz-özlüyündə bir daha sübut edir ki, Azərbaycan ərazisi Arşakilərin iqtisadi və siyasi planlarında mühüm rol oynayırdı. Parfiya dövlətinin sikkə sistemi gümüş üzərində qurulmuşdu. Qızıl sikkələr çox az zərb edilirdi. Yalnız m.ö. III əsrin 40-30-cu illərinə aid olan Andraqor (m.ö. 255-248), yaxud "Vaxşuvar"ın staterləri - qızıl sikkələri elmə məlumdur. O, I Antioxun (m.ö. 281-261?) dövründə Parfiyanın Qirkaniyada satrapı idi və m.ö. 247-ci ildə Selevkilərdən ayrılaraq, müstəqil siyasət yeritmişdi. Ayrıca qızıl sikkələr zərb etməklə o, Parfiyadan tam müstəqilliyə can atdığını göstərmək istəmişdir.

Qeyd etdiyimiz kimi, Azərbaycanın iqtisadiyyatında Parfiya pul vahidləri ümumi sikkə sistemi önəmli rol oynamışdı. Parfiyanın gümüş draxmaları 3,4 qramdan - 4,0 qram çəki ilə 750 əyarla zərb edilirdi. Bu dövrdə iki çəki standartı: antik - 4,25 qr. və "parfiya" - 3,7 qr. mövcud olmuşdur. M.ö. I əsrin sonlarından başlayaraq, burada sikkələr klassik Parfiya çəki standartları ilə zərb edilməyə başlamışdı. İlk Parfiya sikkələri incəsənət baxımından böyük ustalıq nümunələri, zəngin məna daşıyan elementləri ilə fərqlənirlər. Alimlərin ehtimalına görə, sikkələr üçün ştempelleri-möhürləri yunan ustaları və ya yunan məktəbi keçmiş yerli ustalar düzəldirdilər.

Beləliklə, Qəbələ, Bərdə, Xınıslı, Lənkəran (Divəlona və Tütəpeştə) dəfinələrindəki sikkələrin analizi göstərir ki, əgər m.ö. II əsrdə Selevki sikkələri Cənubi Qafqazın pul dövriyyəsindən mühüm rol oynayırdısa, m.ö. II əsrin sonlarından Parfiya draxmaları Selevki sikkələrini pul

dövriyyəsindən sıxışdırmağa başlamış və m.ö. I əsrdə Parfiya – Selevki rəqabəti göstəril ərazidə parfiyalıların xeyrinə öz həllini tapmışdı. Bu qəbildən I Mitridatın (m.ö. 171-138) adından zərb edilən sikkələrin numizmatik təsvirinə baxsaq, aversdə şahın üzü sağa tərəf, sinəyə qədər, saqqalsız, başında baş örtüyü ilə zərb edilmiş şəkildə; reversdə - taxta oturmuş, sağ əlində yay tutmuş Ərsakın portretinin ətrafında yunan dilində və əlifbasında epitetlərini görmək mümkünlüyü artıq bu qələbənin simvolu idi. Bu cür draxmalar Ekbatan-Həmədan zərbxanasında zərb edilmişdi. M.ö.II əsrin 60-cı illərində I Mitridat tərəfindən Midiyanın işğalından sonra Selevkilər dövlətinin zərbxanalarını bütünlüklə təchiz edən buranın gümüş karxanaları Parfiyanın əlinə keçmiş oldu. Bu dövrdən başlayaraq, Ekbatan zərbxanaları antik pul-çəki sisteminə uyğun Parfiya sikkələri zərb etməyə başladı. Bu zərbxanalar daxili və xarici bazarların sikkəyə olan tələbatlarını ödəyirdilər. Pafiya sikkələri - draxmaları yüksək əyarlı gümüşdən zərb edilirdi. Lakin m.ö.140-cı ilədək draxmaların gümüş tərkibi 90% təşkil edirdisə, m.ö.120-ci ildə azalaraq, 70%-ni təşkil edirdi.




I Mitridat (m.ö.171-138) II Mitridat (m.ö.124/123-88/87)

Beləliklə, yerli bənzətmə draxmalardan daha yüksək əyarlı arşakilərin gümüş nominalları birinciləri tədavüldən sıxışdırıb çıxardı. Məhz bu səbəbdən arxeoloji tədqiqatlar zamanı yerli zərbxanaların məhsullarına demək olar ki, rast gəlinmir. I Mitridatın (m.ö.171-138) dövründən başlayaraq, Parfiya sikkələrinin Qafqazda yayılması, onun varisləri II Fraat, I Ərdəvan dövründə azalır; bu vəziyyət II Mitridatın hakimiyyəti dövrünə qədər müşahidə olunur. Sikkələrin azalması Parfiyada daxili vəziyyətin gərginləşməsi və bu ərazilərin müvəqqəti olaraq Parfiyanın zəifliyindən istifadə edərək müstəqil daxili və xarici siyasət yürütməsi ilə izah oluna bilər. II Mitridatın (m.ö.124/123-88/87) hakimiyyətindən başlayaraq, Parfiya dövlətinin “şanlı dövrü” başladı. Onun dövründə Parfiya ərazisi xeyli

genişlənmişdir. Bu zamandan başlayaraq, Ərsak şahları Cənubi Qafqazı iqtisadi cəhətdən özlərinə tabe edə bilmişlər. Məhz bu zaman zərb olunan draxmalarda ilk dəfə "Şahlar şahı" titulu yunan dilində və əlifbasında bazilevs-hökmdar sözü ilə əvəz edilmişdir. II Mitridatın sikkələri Cənubi Qafqaz ərazisində aşkar edilmiş dəfinələr arasında statistik baxımdan birinci yeri tutur. Onu da qeyd etmək lazımdır ki, dəfinələrdən başqa, tək- tək tapılan Parfiya sikkələri dövrün digər dövlətlərinin sikkələrinə nisbətən daha çox təsadüf edilir.

**Azərbaycanda monetar pul dövriyyəsi və sikkə zərbi**. Tarixi Azərbaycanın – antik Atropatena və Albaniyanın - ərazisindən mühüm beynəlxalq tranzit ticarəti magistralları -ədviyyat, şahlar və ipək yolu keçirdi. Bu dövlətlər təbii sərvətləri, su kommunikasiyaları (Kür, Araz, Xəzər dənizi və s.) və ellin mədəniyyəti dairəsiylə sıx əlaqələri sayəsində əcnəbi tacirləri hər zaman cəlb etmişdi. Həyata keçirilən iqtisadi, siyasi və mədəni əlaqələr nəticəsində bu yerlərdə saysız -hesabsız sikkələr və bəzən çox iri sikkə dəfinələri aşkar edilməkdədir. Belə pul dəfinələri-xəzinələr hal-hazırda əsasən Azərbaycanın Qəbələ, Şamaxı, Naxçıvan və digər erkən antik dövrdən sənətkarlıq-ticarət, mədəniyyət mərkəzləri kimi tanınan insan məskənlərində, yaxud onların yaxınlığında aşkar edilir. Bu "dəfn edilmiş xəzinələr"in tərkibi antik dünyanın demək olar ki, bütün dövlətlərinin - Selevki, Kappadokiya, Vifiniya, yunan şəhərləri, Pont, Baktriya, Parfiya, Roma Respublikasının və digər ölkələrinin gümüş və nadir hallarda qızıl, mis sikkələrindən ibarətdir. Belə dəfinələrin tərkibində böyük miqdarda aşkar edilmiş Makedoniyalı İsgəndərin və başqa ellin dövlətlərin gümüş sikkələrinə – draxma və tetradraxmalarına təqlidən kəsilmiş gümüş alban sikkələri araşdırılan dövrdə antik Azərbaycan ərazisində daxili əmtəə mübadiləsi, ticarət və əmtəə–pul münasibətlərinin inkiş, şübhəsiz, tutarlı bir sübutdur. Bütün göstərilən faktlar Azərbaycan ərazisində, xüsusilə Albaniyada, dövlət sikkəsinin zərbini şərtləndirən amillərdir. Ehtimal etmək olar ki, bu anonim gümüş "varvar" bənzətmə sikkələr Albaniyanın paytaxtı Kabalaka (indiki Qəbələ) şəhərində zərb edilmiş və lokal dövriyyədə işlədilirdi.

Antik Atropatenaya gəlincə, burada ilk atropatilərin dönəmində sikkə zərbi işində mövcud durum barədə bizim məlumatımız azdır: sonuncu atropatilərdən biri Daranın I yüzilin 50-ci illərində Roma sərkərdəsi Qney

Pompeylə görüşdə Parfiyanın eğidası altında olan Atropatenanın müstəqilliyinə nail olaraq, öz adından gümüş draxmalar kəsdirməsini və yazılı qaynaqlara görə, digər Atropatena çarı Artabazın (m.ö. 20–1) şərəfinə Roma imperatoru Oktavian Avqustun (m.ö. 17-m.ö. 14) gümüş denariy zərb etdirməsini qeyd edə bilərik. Bununla belə, burada daha bir antik sikkə qrupunu ö Makedoniyalı İsgəndərin fəth etdiyi Gündoğan əyalətlərinin satrapı Andraqor (m.ö. ? - 248) tərəfindən buraxılmış qızıl staterləri və gümüş draxmaları yada salmaq lazımdır. Bu emissiya e.ə. III yüzilin ortalarında Atropatenanın baş şəhərlərindən biri olan Ekbatanda (indiki Həmədan) - ellin mədəniyyətinin Günbatan və Gündoğan dünyaları arasındakı tranzit ticarətin əsas mərkəzində - həyata keçirilmişdir. Bu sikkələrin üzərində üç yunan -**ATR** hərfinin birləşməsindən ibarət monoqramla "**Atropaten**" sözünün həkk olunması özü-özlüyündə ölkə olaraq, xoronimin maddi mədəniyyət abidələrində-sikkələrin üzərində ən erkən qeydi kimi xüsusi diqqətə layiqdir. Andraqor üzərində qələbədən sonra (m.ö.248) hakimiyyətə gələn Parfiya çarları Ərsakilərdən,yaxud da Arşakilərdən ana xətti ilə Atropatilərdən olan III Artaban (10–38) və digər hökmdarların sikkələri də Həmədan zərbxanasında "**R**" - hərfi olmadan, eyni monoqramla **Atropaten** kimi – zərb edilirdi.

**Sasani-Azərbaycan zərbxanaları.** Ərsakilərin-sak ərlərinin yaratmış olduqları Parfiya dövləti faktiki olaraq bir çox yarımmüstəqil və müstəqil çarlıqlardan, əyalətlərdən ibarət idi. Ona görə daxili çəkişmələr və qərbdə qüdrətli Roma ilə uzun sürən müharibələr nəticəsində zəifləmiş bu dövlət üsyan etmiş Parsın yaratdığı yeni imperiya – Sasani İmperiyasının (224-651-ci illər) qarşısında tab gətirə bilmədi. Parfiya özündən sonra çoxlu sayda sikkə və ata-baba paytaxtı Nisanın qonşuluğunda yerləşən Əşk-abad (Aşqabad) şəhərini qoyaraq süqut etdi. Yeni imperiyanın meydana gəlməsi ilə erkən orta əsr Azərbaycanında Parfiya sikkələrinin 500 illik dövriyyəsi sasani gümüşünün eynilə uzun sürən hökmranlığı ilə əvəzləndi.



Sasani şahənşahlarının pul-çəki sistemi əvvəlki Parfiya sistemindən az fərqlənirdi. Lakin tipoloji baxımdan onlar öz üslublarını yaratdılar. Zərdüşt panteonunun ali tanrısı Ahura Məzdanın, yaxud şahənşahın özünün ikonoqrafiyası "qanuniləşdirildi". Dövlətin və sülalənin əsasını qoyan I

Ərdəşir (227-242) və onun xələfləri özlərini sikkələrdə "Məzdaya səcdə edən, allahlar nəslindən olan Şahlar şahı, Pars şahı" adlandırırdılar. Çəki baxımından sasanilərin pul sisteminin əsasında klassik attik tipli draxmanın (4,36 q) zəifləmiş çəkisi dururdu. Sasanilərin əsas sikkə vahidi olan gümüş draxmanın çəkisi orta hesabla 4,3 q-a yaxın idi.

Draxmanın 1/2, 1/6 hissələri, eləcə də qızıl və mis sikkələr də zərb edilirdi, lakin qızıl zərbi daha çox donativ (hədiyyə) xarakteri daşıyırdı. Sasani sikkə tipologiyasına sabitlik xasdır. Sikkələrin;

üz tərəfində - şahənşahın sinəyə qədər portreti, ətrafında onun adı, sonralar bir ada qədər ixtisar edilən ləqəbləri və xeyirxah ifadələr:

Əks tərəfində müqəddəs odun şölələnən atəşdanı ətrafında qoruyucular qismində şahənşahın, müxtəlif tanrıların və məbəd başçılarının (mobedan mobed – "ali kahin"), personofikasiya olunmuş -şəxsləşdirilmiş fiqurları, həmçinin şahənşahın sikkə zərbinə uyğun hakimiyyət ili yerləşdirilirdi.




Vaxtın hesablanması ənənəyə görə, şahənşahın tacqoyma günündən başlayırdı. Bu zaman mərasimin keçirildiyi zalda yerləşdirilmiş xüsusi oyuqda müqəddəs od yandırılırdı.

Sasani sikkələrinin çəkisi və sikkə tipologiyası ciddi dəyişiklik olmadan imperiyanın sonunadək qalmışdı. Sasani draxmaları imperiyanın öz ömründən daha çox yaşayaraq, bir müddət yeni və qüdrətli -Xilafətin (632-1258-ci illər) pul təsərrüfatının mühüm komponentinə çevrildi.

Azərbaycanda çoxlu sayda sasani sikkə tapıntıları qeydə alınmışdır. Lakin demək olar ki, onların hamısı 1963-cü ildə Qəbələ bölgəsinin Çuxur Qəbələ kəndində III əsrin sonuna aid, əsasən II Varahranın (276-293) sikkələrindən ibarət dəfinə istisna olmaqla, daha sonrakı dövrə, yəni V-VII əsrlərə aiddir. Bu fakt erkən orta əsrlər dövrünün bütün postellinist dünyasının sosial-iqtisadi vəziyyəti və ticarət-pul münasibətləri üçün səciyyəvi olan təsərrüfat böhranının əlamətlərini nəzəri cəhətdən bərpa etməyə imkan verir. Misal kimi, III-IV əsrin əvvəllərində Roma imperatoru Diokletian (284-313) hətta tutmuş olduğu yerlərdə pullu mədaxili natura ilə əvəz etməsini göstərmək olar.

Şimaldan Dərbənd vasitəsilə türk massagetlərin, barsillərin, hunların, bulqarların, sabirlərin, xəzərlərin kütləvi müdaxiləsi Azərbaycanın pul təsərrüfatına məhvedici təsir göstərmişdi. Bu dövrə aid sikkə dəfinələrinin olmaması göstərir ki, Azərbaycanın pul təsərrüfatının zəifləməsi prosesi Parfiya zamanında- II əsrin sonu III əsrin əvvəllərində, Parfiya üçün ağır olan Roma ilə müharibə dövründə başlamışdı. Buna baxmayaraq, elə həmin Parfiya və Romanın, sonradan sasani və Bizans sikkələrinin tək-tək tapıntılarına əsasən demək olar ki, pullu, yəni pulla ödənişi həyata keçirilən ticarət qismən də olsa, davam edirdi. Lakin, görünür, mübadilə ticarəti bu zaman sonuncu yeri tutmurdu. Belə ki, ümumilikdə mübadilə nəinki tezliklə tarixin səhnəsindəndən gedir, hətta sikkə ilə paralel uzun müddət yaşamaqda davam edir. Klassik olaraq, belə hallarda pullar dəyər ölçüsü kimi görünməz qalır; yəni onların tədavül vasitəsi kimi əmtəə-pul münasibətlərində əhəmiyyəti cüzi olur. Məsələn, adı çəkilən Çuxur Qəbələ dəfinəsi II Varahranın təzə zərb olunmuş eynitipli, bir çox variantda olan gümüş draxmalarından ibarətdir. Lakin bu dəfinəni əmtəə mübadiləsi prosesində toplanmış xəzinə, yaxud müasir Azərbaycanın pul dövriyyəsinin real hissəsi kimi deyil, qəflətən əldə edilmiş, yaxud qarət edilmiş sərvət kimi nəzərdən keçirmək lazımdır. Üstəlik, bu sikkələr sasanilərin tarixində "qarışıqlıq dövründə" - II Varahranın daxili siyasi böhran keçirdiyi hakimiyyət illərində torpağa basdırılmışdır. Azərbaycanın pul tədavülündə dönüş xeyli sonra, V–VI əsrlərin ayrıcında baş vermişdir. Bu sasanilər imperiyasının Qafqaz kustaklığında – əyalətində təsirinin güclənməsi ardınca baş vermiş siyasi-iqtisadi dəyişikliklərlə sıx bağlı idi. Pul tədavülünün canlanması zərbxanaların intensiv şəkildə artması ilə müşaiyət olunurdu: belə ki, VI

əsrin əvvəllərində Sasani dövlətində onların sayı 100-ə çatmışdı. Zərbxanaların bir hissəsi Azərbaycanın mühüm iqtisadi, hərbi-siyasi, yaxud dini-mədəni mərkəzləri olan şəhərlərində – Dərbənd, Bərdə, Naxçıvanda, eləcə də dini mərkəzlərdən hesab edilən şəhərlərdə – Şiz, Qazaka, Bakıda yerləşirdi.




II Varahranın hakimiyyəti dövründə sikkələrin reversində təsvir edilən və zərbxananın yerləşdiyi şəhərin, yaxud əyalətin adını bildirən sikkə nişanı-

monoqramların identifikasiyasında numizmatika elmində müəyyən çətinliklər qalmaqdadır.

Dəfinələrin topoqrafik özəllikləri və tərkibinin-yerli zərbxana məhsullarının sayca üstünlüyünün nəzərə alınması vaxtilə Y.Paxomova Azərbaycan tapıntılarında tez-tez rast gəlinən NAXÇ monoqramının Naxçıvana – Azərbaycanın ən qədim şəhərlərindən birinə məxsus olduğunu müəyyənləşdirməyə imkan vermişdi. Burada I Xosrov Ənuşirvanın (531-579), demək olar bütün xələfləri - IV Hörmüzd (579-590), II Xosrov Pərviz (591-628), III Ərdəşir (628-630), Buran (630-631), Azərmduxt (631-632), V Hörmüzd (631632), V Xosrov (632-637), III Yezdəgirdə (632-651) aid olan sikkələr zərb etdirmişlər. Azərbaycanda IV Hörmüzdün (579-590) dövründə zərbxananın digər geniş yayılmış pul işarəsinin çoxlu variantı olan monoqramlarına rast gəlinmişdi. Bəzi tədqiqatçılar belə zərbxanalardan ZUZEN, QURQAN və DƏBİL adlarını oxuyurlar. Göstərilən monoqramlı sikkələr Abşeron yarımadasında və Azərbaycanın digər bölgələrində aşkar edilən dəfinələrin tərkibinin bəzən yarıdan çoxunu - 52,5-65%-ni təşkil edir. Bu baxımdan Bakının yaxınlığında tapılmış kiçik dəfinə xüsusi diqqət çəkir. Dəfinə IV Hörmüzdün hakimiyyətinin altıncı ilində (584-cü ildə) tamamilə müxtəlif möhürlərlə, lakin eyni sikkə işarəsi ilə zərb edilmiş gümüş draxmalardan ibarətdir. Onların topoqrafik təhlili zərbxananın dəfinənin tapıldığı bölgədəki şəhərdə olduğunu sübut edir. Bu şəhər Xəzərin sahilində yerləşən, əzəmətli od məbədi Qız Qalasının yerləşdiyi, yəni rəsmi zərdüştliyin ən mühüm dini mərkəzlərindən biri və atəşpərəstlərin ziyarətgahı olan Bakıdır. Doğrudur, bu sikkə nişanının Bakıya aid edilməsi, yəni monoqramın B`GW`N=BAQVAN kimi oxunması şəhərin adının təhrif edilməsi səbəbindən müəyyən çətinlik yaradır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ikinci dəfə Bakının adının sikkələrdə Baqvan kimi zərb edilməsi monqol Hülakilər zamanına təsadüf edir. Onu da qeyd etməliyik ki, IV Hörmüzdün bütün sikkə emissiyaları kobud istehsalı əlamətləri seçilir və onun xələfi II Xosrov Pərvizin (591-628) zərif və səliqəli sikkələri ilə müqayisəyə gəlmir. Sikkə işi texnikasında bu çür tənəzzülün, həmçinin Azərbaycanın qədim ərazilərində yeni zərbxananın meydana gəlməsinin Bəhram Çubinin üsyanı və bununla əlaqədar mərkəzi hakimiyyətdə təcili maliyyə ehtiyaclarının yaranması ilə bağlı olub- olmaması haqqında yalnız ehtimal etmək qalır. Lakin dəqiq məlumdur ki, yeni zərbxana fəaliyyətə

məhz IV Hörmüzdün dönəmində, 584-cü ildə başlamış və 590-cı ildə şahənşahın devrilməsi ilə öz fəaliyyətini dayandırmışdı. Sasani hökmdarlarının sonralar bu monoqramla sikkələr zərb etdirməsi məlum deyildir. Y.Paxomov GILAN-a aid və yalnız IV Hörmüzdün hakimiyyətinin səkkizinci ilində zərb edilmiş daha bir monoqram haqda yazmışdı. Sikkə tapıntılarının anoloji təhlilinə əsasən, Azərbaycanda fəaliyyət göstərən iki zərbxananın meydana gəlməsi yerləşdikləri şəhərlərin xüsusi önəm daşıması ilə bağlıdır.



Söhbət Albaniyanın ən iri ticarət-iqtisadi və hərbi-siyasi mərkəzləri olan Bərdə və Dərbənd şəhərlərinin adlarının baş hərfləri kimi identifikasiya oluna bilən P`R və D`R monoqramlarından gedir. P’R monoqramını bəzən Piruzabad və ya Partav adlı müasir Bərdə şəhəri ilə əlaqələndirilir. Bununla belə qeyd etmək lazımdır ki, bu adda bir neçə şəhər mövcud olub. İkincisi, ona görə ki, “Piruz” (pəhləvicə = PİRUÇ) sözü “yay”hərfinin forması ilə yazılır. Tarixi mənbələrdən məlumdur ki, Partav-Bərdə şəhəri V əsrdən etibarən geniş tarixi-coğrafi region olan Aranın siyasi mərkəzinə-paytaxta çevrilmişdi, Qafqaz Albaniyasının yeni paytaxtı bu şəhərə keçmişdi. Bundan başqa, burada sasani canişinləri - Aranşahların və Alban katolikosunun iqamətgahları yerləşirdi.

İkinci -D’R monoqramına gəldikdə, bəzi numizmatlar onu Darabjərd, yaxud Dərbənd şəhərinin adının baş hərfləri kimi açıqlayırlar. Azərbaycan Albaniyasının və ümumilikdə, Qafqazın ən qədim şəhərlərindən biri olmaqla, Dərbənd sasanilərin şimal müdafiə kompleksinin qüdrətli istehkamı olmuş və burada dövlət xəzinəsindən maliyyələşən hərbi qarnizon yerləşirdi.

Uyğun dönəmin Azərbaycan dəfinələrində AT və AIRAN monoqramlı sikkələrə də az rast gəlinmir. Birinci monoqram Aturpatakan (Cənubi Azərbaycan) vilayətinin paytaxt şəhəri Ərdəbildə yerləşən zərbxananı bildirir. İkinci monoqram Aran vilayətinin adı ilə eyniləşdirilə bilər. Aranın adı göstərilən sikkələr IV Hörmüzdün zamanında (579-590) dövriyyədə olmuşdu. Amma buranın adı daha əvvəl, I Yəzdəgirdin zamanında (399-421) Sasanilərin öz sikkələrini zərbxana adı ilə buraxmağa başladığı vaxt meydana gəlmişdi. Azərbaycanda sikkə istehsalının təşkili Sasani dövlətinin nüfuzunun yayılmasına və ucqar əyalətlərin iqtisadi istismarına yönəlmiş kütləvi işğal siyasətinin tərkib hissəsi olmuşdur. Bununla belə, bu vəziyyət həm də V-VII əsrlərdə Azərbaycanın pullu ticarətində tədavül vasitələrinə ehtiyacın artdığına dəlalət edir.

Sasanilərin Böyük Qafqaz sıra dağları boyunca müdafiə tikililəri kompleksinin inşasından sonra, Böyük İpək Yolunun üstündə yerləşən Azərbaycan zəngin təbii sərvətləri sayəsində V-VII əsrlərdə yüksək inkişaf dövrünü yaşayır, ən varlı ölkələrdən biri hesab edilirdi. Bunu onun ərazisində aşkar edilmiş çox sayda sasani sikkə dəfinələri sübut edir. Ötən yüz il ərzində Azərbaycan ərazisində sasani gümüş draxmalarından ibarət

30-dan çox böyük sikkə dəfinəsi və onlarla tək-tək tapıntılar aşkar edilmişdir. Burada tapılmış qarışıq sasani-Bizans sikkələri və Roma gümüş denariləri qərb xristian dünyası ilə xarici ticarət əlaqələrindən xəbər verir. 400 il ərzində imperiyanın daxili bazarında hökmranlıq edən sasani draxması sabit çəki və yüksək əyarı sayəsində beynəlxalq metal valyuta rolunu da oynayırdı. Biz bu valyutaya Sasanilərin süqutundan 100-150 il sonra Ərəb Xilafətinə aid sikkələrlə birlikdə basdırılmış dəfinələrin tərkibində rast gələcəyik.

Nəzərdən keçirilən dövrdə Azərbaycanın pul tədavülündə Bizans sikkələri də iştirak edirdi. Əvvəlcə bunlar Bizans imperatoru Konstantinin (306-337) qızıl solidləri idi. Onların istehsalına Roma imperiyasının pul təsərrüfatının süqutu nəticəsində pul sisteminin qızıl monometallizmə keçməsi ilə əlaqədar başlanmışdır. 4,55 q çəkisi olan qızıl solid paytaxtın Bizansa (sonradan Konstantinopol) köçürülməsindən sonra bütün imperiyada zərb edilir və ənənəvi olaraq, gümüşün dövr etdiyi sasani bazarlarına nüfuz edirdi.

Belə sikkələrə Azərbaycanda, əsasən qərb və cənub-qərb regionlarında tək-tək nüsxələrlə rast gəlinir. Çoxəsrlik Sasani-Bizans qarşıdurması və tez - tez əldən-ələ keçən sərhədyanı regionlarda hegemonluq uğrunda mübarizə artdıqca, Azərbaycana Bizans sikkələrinin axını ara-sıra ya dayandırılır, ya da güclənirdi. Bizans sikkələrinin Azərbaycana geniş miqyasda nüfuz etməsi imperator İraklinin (610-640) vaxtında baş vermişdir. Məsələ burasındadır ki, bir-birilə düşmənçilik edən iki imperiya arasında şahənşah II Xosrov Pərviz(590-628)və imperator Mavrikinin (582-602) vaxtında nəhayət ki, yaranmış dostluq ittifaqı sonuncunun Fokanın (602-610) əli ilə öldürülməsindən sonra pozuldu. II Xosrovun Bizans əyalətlərinə uğurlu müdaxiləsinə İrakli Sasani imperiyasının içərilərinə doğru ildırımsürətli yürüşü ilə cavab verdi. Bu yürüş 615-ci ildə qızıl monometallizmi üzərində qurulmuş Bizans pul sistemi üçün qeyri-adi olan gümüş zərbi ilə “dəstəkləndi”. Bunlar çəkisi 6,2 q-a yaxın iri gümüş sikkələr – yəni çəkisinə görə sasani draxmasından bir yarım dəfə artıq olan heksaqramlar idi. Qeyd etmək lazımdır ki, sasanilər draxmadan iri gümüş sikkələr buraxmırdılar. Azərbaycanda və ona birləşən Cənubi Qafqaz diyarlarında tapılan dəfinələrin sasani draxması ilə Bizans heksaqramlarından ibarət qarışıq tərkibinin təhlili bu regionda Sasani və Bizans imperiyalarının maraqlarının toqquşmasından

xəbər verir. Bizans üçün səciyyəvi olmayan gümüş sikkələrin imperator İrakli tərəfindən buraxılması ilk baxışdan iqtisadi məqsəd güdürdü. Lakin heksaqramların buraxılması ticari-merkantil amillərdən başqa, həm də sikkənin konfessional-siyasi, dini təbliğatçı mahiyyətindən yararlanmaq məqsədi daşıyırdı. Əks tərəfində xaç təsviri olan heksaqramlar pul bazarında zərdüşt doktrinasının rəmzi olan atəşdan təsvirli draxmadan istifadə edən yerli əhaliyə yönlənmiş Bizans İmperiyasının xristian-provaslavlıq təriqətinin dini siyasətinin "emissarı" rolunu oynamaq məqsədini güdürdü.

## Azərbaycan xilafətin pul dövriyyəsi sistemində. Xilafətdə monetar pul dövriyyəsinin özəllikləri.



VII əsrdə Xilafətin yaranması Ön və Mərkəzi Asiyada, eləcə də Şimali Afrika və Avropanın bəzi hissəsində əsrlər boyu oturuşmuş siyasi, sosial-iqtisadi institutların strukturunu kökündən dəyişdi. Bu ərazilər üç qitəyə yayılmış böyük müsəlman dövlətin-Xilafətin tərkibinə qatıldı.

Bu dövrdə Azərbaycanda əmtəə-pul münasibətlərinin inkişafı, ərəb işğalçılarının hərbi hücumlarının eskalasiyası ilə qırılmaz əlaqədə idi. Eyni vaxtda, yeni yaradılmış imperiyanın inzibati və sosial strukturlarının formalaşması və möhkəmlənməsi prosesi gedirdi. Sasanilərin məğlub olduğu Nəhavənd döyüşündən (642) sonra Azərbaycanın cənub hissəsi Xilafətin tərkibinə daxil edildi. Lakin ərəblər Cavanşirin (642-680) başçılıq etdiyi Böyük Alban knyazlığını on illərlə davam edən döyüşlərdən sonra işğal edə bildilər. Nəticədə, VII əsrin ikinci yarısından bütün Azərbaycan, Cənubi Qafqazın digər hissələri kimi Xilafətin tərkibinə daxil edildi. Azərbaycan tarixinin bu "qarışıq" dövrü ölkənin pul təsərrüfatı və əmtəə-pul münasibətləri böhran dövrünü yaşayırdı. Azərbaycan ərazisində yaşanan yüzillik ərəb-xəzər müharibəsi (VIII əsrin ikinci yarısı - IX əsrin birinci yarısı) böhranı daha da dərinləşdirdi: ölkə talan edilmiş və dağıdılmışdı, əhalisi qarət edilmiş, bir hissəsi əsir götürülmüş, yaxud qul kimi satılmışdı. Xilafətin yaranmasından sonra ərəblərin tabeçiliyində olan bütün digər ərazilərdə olduğu kimi, Azərbaycanın pul bazarında vəziyyət dəyişmişdi. Lakin yeni imperiyanın meydana gəlməsi işğal olunmuş ölkələrin əvvəllər mövcud olmuş sosial-iqtisadi dayaqlarını, o cümlədən pul-sikkə sistemini tamamilə sındırmamışdı. Xilafət hələlik "cihad"ı davam etdirirdi, dövlət

strukturunun, o sıradan yeni pul sisteminin yaradılması məsələsi hələ qarşıda idi. Ona görə də iqtisadiyyatda önəmli dəyişikliklər sonralar baş verdi. Belə ki, Xilafət uzun müddət özəl sikkə zərbinə başlamamışdı.Prosesin üç əsas səbəbini göstərmək olar. Birincisi, tədavüldə hələ də xeyli sikkə kütləsi – sasani gümüş draxmaları, Bizansın qızıl solidləri və digər sikkə qrupları qalmaqda idi. İkincisi, ərəblərin Qərblə Şərq arasında beynəlxalq tranzit-ticarət əməliyyatlarında sikkə ilə çoxəsrlik iş təcrübəsi olan böyük dövlətin yeni sahiblərinə pul dünyasının dəyişmiş reallıqlarına daha münasib uyğunlaşmanın yollarını göstərirdi. İşğal olunmuş ərazilərdə əsrlər boyu öz yerini tutmuş pul-sikkə sistemlərinin birdən-birə pozulması neqativ nəticələr verə bilərdi. Üçüncüsü, bu tədbirlər üçün həm müəyyən hazırlıq, həm də yeni dövlətin və onun əhalisinin dəyişmiş hərbi-siyasi, sosial-iqtisadi və dini şəraitə adaptasiyası-uyğunlaşması tələb olunurdu. Ona görə də yeni pul təsərrüfatının yaradılması və qaydaya salınması üçün obyektiv şərait sonralar, cihadın əsas vəzifəsi , yəni mümkün qədər çox "kafir ölkələri" işğal etmək planı yerinə yetirildikdən və çevik ərəb hərbi dəstələri Qərbdə Bordo divarları, Şərqdə Böyük Çin Səddinə çatdıqdan sonra yetişdi.

Yeni imperiyanın sosial-iqtisadi və dini-ideoloji həyatının "ərəbləşməsi" prosesi, hər şeydən əvvəl Xilafətin pul siyasətində özünü göstərdi. Əvvəlcə, "mömin" xəliflərdən ikincisinin – xəlifə Ömərin (634-644) vaxtında hələ də tədavüldə olan sasani, Bizans sikkələri tədricən yeni sosial-ideoloji və maliyyə-iqtisadi reallıqlara uyğunlaşdırıldı. Bunun üçün sikkələrin üzərində, boş yerlərdə islamın əsas ehkamlarını təbliğ edən Qurani-Kərimdən – Allahın adı ilə; Həmd olsun Allaha; Allah böyükdür; – Allahdan başqa Tanrı yoxdur, Məhəmməd Allahın elçisidir kimi ifadələr ərəb dilində və əlifbasında zərb edilərək yenidən dövriyyəyə daxil edildi.

Beləliklə, Xilafətdə özünəməxsus ərəb-pəhləvi, yaxud ərəb-sasani, ərəb-Bizans, Təbəristan və az əhəmiyyətli "hibrid" sikkə qrupları meydana gəldi. Sikkələrin buraxılışını, əsasən xəlifələrin yerlərdə canişinləri icra edirdilər. Az sayda bizə gəlib çatan bu tip sikkələrin emissiyaları elə də bol deyil. Bundan başqa, VII əsrin ikinci yarısında Azərbaycanın zəif əmtəə-pul tədavülü həm göstərilən sikkələrdən, həm də hələ dövriyyədə olan əvvəlki sasani və qismən Təbəristan pul vahidlərindən "qidalanmaqda" davam edirdi.

**Əbdül-Məlik Mərvanın pul-sikkə islahatı. Ərəb-Azərbaycan zərbxanaları.** VII əsrin sonunda Xilafətin yeni – özəl sikkə kəsiminə hazırlıq başa çatdı. Xilafət sikkəsinin ərəbləşməsi beşinci əməvi xəlifəsi Əbdül-Məlik Mərvanın (685-705) pul-sikkə islahatında özünü əyani şəkildə büruzə erdi.



Əbdül Məlik Mərvanın islahatdan öncə zərb etdirdiyi bir nadir əməvi dinarı fotosunda gördüyümüz bu sikkə islahataqədərki illərdə Əbdül Məlik Mərvan tərəfindən zərb edilmişdi. Bu sikkə Bizans solidlərinin mükəmməl oxşarıdır. Sikkədə yalnız dini yazılar ərəb dilindədir. İslahat hicrinin 76-cı ilində (695/6) həyata keçirildi və Xilafətin tərkibindəki ərazilərin islamlaşması sikkələrdə əyani olaraq təsdiq edildi. Hər üç sikkə metalından Ümumixilafət sikkələri zərb olundu. Qızıl dinar (Roma gümüş denarisinin adı ilə adlandırılmışdır) Xilafətin əsas çəki vahidi olan bir şəriət misqalı-misqal-e şəri ağırlığında (4,26 q) zərb edilirdi. Yeddi misqal gümüşdən hər birinin çəkisi 2,98 q olan 10 dirhəm (yunan gümüş draxmasının adından) zərb edilirdi. Dirhəm əsas sikkə vahidi idi. Xırda pul qismində hər birinin çəkisi 2-3 q olan mis felslər (yunan-Bizans follisinin adından) buraxılırdı. Əsas sikkə vahidi gümüş dirhəm üzərində qurulan Xilafətin pul-sikkə sistemi, ərəb inzibati qurumunda dövlətin pul təsərrüfatını canlandırmaq və maliyyə fiskal sistemini qaydaya salmaq məqsədilə həyata keçirdiyi inqilabi tədbirlər sistemində "aparıcı halqa" rolunu oynayırdı. Eyni zamanda bu islahat elə bir təməl daşı oldu ki, onun üzərində sonralar böyük müsəlman Şərqinin iqtisadi, siyasi, mədəni "binası"nın əsası özülü quruldu. Dövlətin mədaxil və məxaric sistemi, kiçik ödənişlərdən tutmuş milyonluq hesablaşmalaradək, bütün əməliyyatlar dirhəmlə aparılırdı; yəni yeni dini imperiyada monometalizm gümüş dirhəmlərə əsaslanırdı.



Əbdül Məlik Mərvan (685-705). Dinar, 694/695. Dəməşq. Qızıl; (2 sm); çəki: 4,5 q.

Yeni müsəlman sikkələri yüksək texniki işlənmə və zərif kalliqrafik yazıları ilə seçilirdi; sikkə tipologiyası əsaslı şəkildə islamlaşdırılmışdı. Bu sikkələrə görə bizlər tam haqlı olaraq, "müsəlman numizmatikası" terminindən istifadə edə bilərik və Azərbaycanın bu terminin tətbiq edildiyi mühüm coğrafiyaya daxil olduğunu yaza bilərik. Belə ki, erkən sikkələr anonim buraxılır və canlı varlıqların təsvirinə qoyulan qeyri-rəsmi riqorizmlə (qadağa) bağlı, islamaqədərki dövlətlərdən fərqli olaraq, ümumiyyətlə təsvirsiz, monoepiqrafik şəkildə zərb edilirdi. Bu qadağa bəzi hədislərə görə islamın banisi Məhəmməd (S.Ə.S.) peyğəmbərin adı ilə bağlıdır. Hədislərdən birində deyildiyinə görə, Peyğəmbər canlı varlıqların təsvirini qadağan edərkən, bunu belə əsaslandırmışdı ki, bütün canlıların yaradıcısı Allahdır, canlıları təsvir edənlər Qiyamət günündə onları dirildə bilməyəcək və cəhənnəmə vasil olacaqlar. Görünür ona görə təsvirlərin yerini yazılar tutdu. Bununla da dünya sikkə sistemində ilk dəfə görünməmiş hadisə baş verdi-monoepiqrafik sikkələr-təkcə bir yazıdan ibarət olan sikkələr dünya ticarətində iştirak etməyə başladı. Xilafətin islahat nəticəsində dövriyyəyə buraxdığı sikkələrinin üz tərəf tipi qismində erkən İslam etiqadının rəmzləri seçilmişdi- "Allahdan başqa Tanrı yoxdur. O, təkdir, Onun şəriki yoxdur". Ətrafında sikkənin zərb yeri və ili yazı ilə həkk edilirdi. Əks tərəfində Quranın 112-ci "İxlas" surəsi həkk edilirdi.

*"Allah təkdir. Allah əbədidir, doğmayıb, doğulmayıb və Ona bərabər heç kəs yoxdur".* Bunun ardınca dairəvi yazı gəlirdi:

*"Məhəmməd Allahın elçisidir, həqiqi din və hidayyət ilə göndərilib ki, müşriklərin (çoxallahlıların-müəlliflər) dirənişinə rəğmən onu bütün dinlərdən yüksəyə ucaltsın".*

Gümüş və mis sikkələr bir çox şəhərlərdə zərb edilirdi. Xilafətdə onların sayı 150-dən çox idi. Qızıl sikkə – dinarlar əvvəlcə ***Əməvilərin paytaxtı Dəməşqdə, sonra Xilafətin ucqar əyalətlərində – İfrikiyyədə, Misirdə, Aranda (Şimali Azərbaycanda)*** zərb edirdilər. Əməvilərin sikkələri anonim zərb edilirdi, qızıl dinarlar bəzən zərbxananın adı çəkilmədən buraxılırdı. Xilafətin inzibati idarəsinin möhkəmlənməsilə sikkə kəsimi imperiyanın ətraflarında, o sıradan, Azərbaycanda geniş yayılmışdı. Zərbxanalar ilk olaraq, Sasanilər dönəmində fəaliyyət göstərən şəhərlərdə **(Bərdə, Dərbənd-əl-Bab, Aran və s.)** təsis olunmuşdu. Bəzi zərbxanalar əl-Yəzidiyyə (Şamaxı), Cənzə (Gəncə), əl-Mütəvəkkiliyyə (Şəmkir) kimi

qədim, lakin bərpa olunmuş şəhərlərdə, eləcə də Bəlx-əl-Bəyzə, Ərz əl-Xəzər kimi yeni şəhərlərdə açılmışdı.

**Azərbaycanda Xilafət sikkələrinin zərb edilməsi.** Azərbaycan ərəblərin işğal etdikləri ölkələr arasında ilk məkanlardan biridir ki, burada işğalçılar öz sikkələrini zərb etmişlər. İslahatdan sonrakı az tapılan sikkələrin təhlili göstərir ki, onların üzərində zərbxananın yerləşdiyi şəhərin deyil, əyalətin adı göstərilirdi. Bu baxımdan "Aran" və "Azərbaycan" zərbxanaları xüsusi diqqət çəkir. Bizə məlum olan ilk "Aran" gümüş dirhəmi 707/8-ci ildə, "Azərbaycan" sikkəsi isə 723/4-cü ildə kəsilmişdir. Belə sikkələri ölkənin bir çox iri şəhərləri də zərb edə bilərdi, lakin bu rola daha çox müasir Cənubi Azərbaycanın əsas şəhərlərindən Ərdəbil və Şimali Azərbaycanda V əsrdən Paytakaran (Paytaxt-e-Aran - Aranın paytaxtı), Xilafət dönəmində Beyləqan adlanan, bir neçə dəfə dağıdılaraq, sonralar bərpa olunan, hazırda Mil düzündə öz adını Örənqala kimi saxlayan orta çağlar şəhəri – Aran uyğun gəlir.

Bununla, Xilafət dirhəmi öz tipoloji və metroloji (əyarı və vəzni) sabitliyi sayəsində üç qitə ərazisində **beynəlxalq ticarət sikkəsi – dünya valyutası** – rolunu icra etməyə başladı. İmperiyanın parçalanması və hakimiyyətin 750-ci ildə Abbasilər sülaləsinə keçməsi ilə sikkə tipologiyasındakı bəzi əlavələri nəzərə almasaq, dövlətin pul sikkə sistemində ciddi bir dəyişiklik baş verməmişdir. Sikkə zərbi əvvəlki kimi anonim icra olunurdu. Amma xəlifə əl-Mənsurun (754-775) dönəmində sikkələr üzərində vəliəhd və canişinlərin adları, xəlifə əl-Mehdinin (775-785) sikkələrində, bunlardan başqa xəlifənin öz adı həkk edilirdi. Bu baxımdan Abbasi canişinlərinin mis sikkələri xüsusi önəm kəsb edir. Qeyd edək ki, mis sikkə zərbi işinə Abbasilər gümüşdən bir neçə il öncə başlamışdılar. Xilafətdə mis fels istehsalının geniş vüsət tapması, ilk növbədə şəhərlərin və xırda pula ehtiyacı olan daxili şəhər bazarlarının inkişafından xəbər verir. Digər tərəfdən, mis felslər yazılı qaynaqlarda rast gəlinməyən bir sıra erkən Abbasi canişinlərinin fəaliyyətini öyrənmək üçün yeganə qaynaq rolunu oynamaqdadır. Mis felslərdən ibarət iki dəfinə bu baxımdan xüsusi önəm daşıyır. Dərbənddə (93 ədəd) və Bərdədə (51 ədəd) tapılmış bu dəfinələrin tərkibi demək olar ki, bütövlüklə erkən Məzyədilərin – Yəzid, Əsəd və Məhəmmədin - əl-Bab, əl-Yəzidiyyə və Aranda zərb edilmiş felslərindən ibarətdir.

**Cəfərilərin sikkələri.** Ərəb tarixçilərinə əsasən, hələ 644-cü ildə ərəblər tərəfindən işğal olunan və inzibati baxımdan Aran vilayəti tərkibinə daxil edilən Tiflis şəhəri bu vilayətin üç böyük şəhərindən biri sayılırdı. Şəhər və ətrafı Xilafət canişinləri tərəfindən idarə olunurdu. Burada 704/5-ci illərdə Əməvilərin sikkə zərbi, 150 illik fasilədən sonra (IX yüzilin II yarısından - X yüzilin II yarısınadək) Abbasilərin gümüş dirhəmləri zərb edilmişdir. X yüzilin II yarısında Xilafətin zəifləməsindən istifadə edən Cəfərilər Tiflis əmirliyində hakimiyyəti ələ aldılar və onu öz irsi mülkünə çevirdilər. 953-1028-ci illərdə Tiflis zərbxanasında Cəfəri hakimlərinin gümüş dirhəmləri zərb edilirdi. Tiflis əmirliyinə indiki Borçalı torpaqları da daxil idi. Şəhər 1122-ci ildə Qurucu David (1089-1122) tərəfindən alındıqdan sonra da öz etnik-mədəni durumu və ticarət-iqtisadi maraqları ilə bağlı müsəlman dünyası ilə sıx təmasda olmuşdur.

661-ci ildə dördüncü rəşidi xəlifi Əlinin (656-661) qətlindən sonra, Xilafətdə baş qaldıran dini separatizm yeni dinin müqəddəs ehkamlarından daha güclü oldu. Dini-siyasi qüvvələr ortodoksal islamın ilk yüz il ərzində nail olduğu ciddi uğurlara baxmayaraq, vahid Xilafətin süqutuna gətirib çıxardılar. VIII əsrin ortalarında o, iki hissəyə – Əməvilər (Əndəlus, 756-1031) və Abbasilər (Şərq, 749-1258) Xilafətlərinə parçalandı. Lakin bütün bunlar heç də xəlifin – “möminlərin hökmdarı”, “əmir əl möminin” ali ruhani və dünyəvi hakimiyyətinin zəifləməsi demək deyildi. VIII əsrin ikinci yarısından X əsrin birinci yarısına qədərki dövr – məşhur türk qızı Zübeydə xatun və onun əri Harun ər-Rəşidin “Min bir gecə” dövrü – Xilafətin çiçəklənməsi dövrüdür. Buna baxmayaraq, Məğribdə İdrisilərin və Fatimilərin, Məşriqdə Əlililər və Tahirilərin separatizmi Ərəb Xilafətində sikkə hüququna malik olan sülalələrin idarə etdiyi müstəqil və yarımmüstəqil dövlətlərin yaranması ilə nəticələndi.

**Azərbaycanin IX-XII əsrlərdə sikkə zərbi və pul dövriyyəsi.**

Yeni dövlətlərin yaranması prosesi Azərbaycandan yan keçmədi. Şirvanşahlar dövlətini XVI əsrin birinci yarısına qədər, daha dəqiq 1538-ci ilə qədər fasiləsiz idarə etmiş və sülalənin əsasını qoymuş Məzyədi canişinləri Xilafətdə ilk müstəqil canişinlərdən biri oldular. Dönəmin bir çox efemer dövlətlərindən fərqli olaraq, hələ VI əsrdə siyasi inzibati qurum kimi meydana gəlmiş Şirvanşahlar sülaləsi bir sıra qüdrətli qonşularının basqısından sovuşaraq, 1549-cu ilədək yaşayan minillik bir dövlət olmuşdur.

Məzyədilər müsəlman dünyası hakimlərinin ayrılmaz müstəsna imtiyazları olan xütbə (hakimin adının cümə ibadətinə daxil edilməsi) və sikkə hüquqlarına (öz sikkəsini zərb etmək hüququ) malik dövlət Şirvanşahlar dövlətini yaratmışdılar. Tarixi ənənəyə görə, Azərbaycanda bu dövlətin yaranması Yəzid ibn Məzyəd əş-Şeybaninin nəvəsi Heysəm ibn Xalidin adı ilə bağlıdır. Yəzid hələ Xəlifə əl-Hadinin (785-786) vaxtında Azərbaycanın canişini təyin edilmiş, Harun ər-Rəşid tərəfindən geri çağrılmışdı. Lakin 800-ci ildə o, yenidən həmin vəzifəyə qaytarılmışdı. Yəzidin adı həmin ildə "Aran" zərbxanasında zərb edilmiş gümüş dirhəmlərdə 801-ci ilə qədər, yəni ölümünə qədər sikkələrdə qalmışdı.



Yəzidin qardaşı Əhməd ibn Məzyəd və oğulları Əsəd, Məhəmməd və Xalid ardıcıl olaraq Aranda və Dəbildə öz sikkələrini -dirhəm və felslər zərb etdirmişlər. Birinci Məzyədilərin bizə gəlib çatan sikkələri orta əsrlər Azərbaycanında metal işinin gözəl nümunələridir. İşlənmə, kalliqrafik xüsusiyyətlərinə və əyarına görə bu sikkələr Xilafətin ən yaxşı nümunələrindən nəinki geri qalmır, hətta bəzi nominasiyalar üzrə onları üstəliyirlər. Xalid ibn Yəzid özündən sonra dörd övlad – Məhəmməd, Əli, Yəzid və Heysəm qoyub getmişdir. Sonuncu iki oğlu müvafiq olaraq, Ləyzənşah və Şirvanşah titullarını qəbul etmişdilər. Xalidin xələflərinin - bu sülalədən olan sonrakı şirvanşahların - təqribən 100 illik bir zaman kəsiyində sikkə kəsib-kəsmədikləri bəlli deyil. Belə sikkələr bu gün rəsmi elmi fondlarda məlum deyil. Bu dönəm Cənub-Şimal beynəlxalq ticarətinin intensiv inkişafı və cənub gümüşünün Xilafətdən kənara fəal axını dövrü idi. Sikkəsi məlum olan növbəti Şirvanşah II Yəzid ibn Əhmədir (991-1027). Onun aşağı əyarlı və ağır çəkili dirhəmləri tipoloji və işlənmə özəlliklərinə görə, özündən əvvəlkilərdən kəskin şəkildə fərqlənirdi; belə ki, X-XI əsrlərin ayrıcında kəsilən billon, yaxud kredit sikkələrin bariz nümunəsidir. Sonrakı şirvanşahların pul emissiyaları da kredit mahiyyətli olmuşdur. Belə sikkələrin dövriyyə arealı emitentin-hökmdarın ərazisi ilə məhdudlaşırdı.

XII əsr Şirvanşahları – II Mənüçehrin (1155-1161), I Axsitanın (1161-1170), Şahənşahın (1197-1204) adı ilə zərb edilmiş bütün aşağı əyarlı, yaxud billon sikkə dəfinələri paytaxt Şamaxının yaxınlığında – Şirvan ərazisində

tapılmışdır. Bu sikkələrdə zərb yerinin adına və tarixinə çox nadir hallarda rast gəlmək olur. Lakin İsmayıllı bölgəsində aşkar edilmiş dəfinədə bir neçə nüsxənin üzərində zərb yeri və tarix – "Şamaxı, 1158-ci il" göstərilmişdir. Bu dəfinəyə əsasən söyləmək olar ki, şirvanşahlar, digər hökmdarlar kimi "gümüş böhranı" dövründə sikkə işində yaranmış vəziyyətdən maksimum fayda götürmək istəmişlər. Dəfinə sikkələri 1151-1158-ci il lərdə zərb edilmişdir, lakin sikkə tiplərinin miqdarını və tipini müəyyən etmək üçün əsas elementlərdən biri olan kartuşlar - 5, variantlar isə daha çox – 12-dir. Bu, tez-tez bir-birini əvəz edən və hər biri gümüşün miqdarının azaldılması ilə icra olunan emissiyalara işarə edə bilər.

Azərbaycanda üz qatı nazik gümüş suyuna çəkilmiş billon sikkələr barədə ilk dəfə Y.A.Paxomov yazmışdır. Onun fikrincə, bu pullar "demək olar ki, yalnız gümüş izi olan mis sikkələr"dir. Şirvanşah I Axsitanın sikkələri eynilə göstərilən tərkibdə idi. Onları al-marco üsulu ilə zərb edirdilər və ona görə də bazarda müəyyən edilmiş məzənnəyə uyğun olaraq çəkilmə, yəni ağırlıq göstəriciləri vasitəsilə dövriyyəyə daxil edilirdilər. Bu sikkələrin gümüş örtüyü o qədər nazik idi ki, sikkələrin heç də hamısında qalmamışdır, qalanlarda isə çətinliklə seçilir. Şirvanşah I Axsitanın "gümüş izi daşıyan", demək olar ki, mis sikkələri də, görünür, elə həmin dövrdə meydana gəlmişdi.

Beləliklə, Şirvanşahların aşağı əyarlı dirhəmlərinin gümüş substantı tam şəkildə öz substitutu (qarşılıqlı əvəzolunan) ilə əvəz edilmişdi. Gümüş suyuna çəkilmiş mis sikkələri təkcə I Axsitan deyil, onun xələfi – şirvanşah Şahənşah hakimiyyətinin ilk çağlarında zərb etdirirdi. O, çox güman ki, gümüş suyuna çəkilmiş mis zərbini davam etdirən sonuncu şirvanşah olmuşdur. Onun sarı rəngli mis, üzərində heç bir gümüş izi olmayan sikkələri elmə məlumdur.

Hesab etmək olar ki, Şirvan dövlətində "gümüş böhranı"nın ən gərgin vəziyyəti Şahənşahın hakimiyyəti dövrünə təsadüf edir. Sonradan gələn bütün şirvanşahlar sikkələrini "gümüş böhranı"nın sonuna qədər və XIII əsrin əvvəlində dirhəmin gümüş tərkibinin bərpa olunmasınadək, xalis misdən zərb edirdilər. Belə sikkələrin çox sayda dəfinələri Şirvan dövlətində ticarət dövriyyəsinin və əmtəə-pul münasibətlərinin yenidən bərpasından və zamanla yüksəlişindən xəbər verir.

**Sacilərin sikkələri.** Saci sülaləsinin hakimiyyətini Azərbaycan dövlətində (889/890-992) əsasını qoyan Məhəmməd ibn Əbu-s-Sac Afşin (889-901) 889-cu ildə Xəlifə əl-Mötəmid Abbasi (870-892) tərəfindən Azərbaycanın canişini təyin edilmişdir. Saci hökmdarları onlara tabe olan əraziləri daha da genişləndirərək, nəinki Azərbaycanda, ümumiyyətlə Xilafətdə ilk türk sülaləsi olaraq, müstəqil idarəetməçilik sistemi yaradaraq, öz sikkələrini zərb etmiş və xütbə işini həyata keçirmişlər. Sacilərin Azərbaycanın tarixi və etnik ərazilərində hakimiyyəti dövrü erkən Məzyədi şirvanşahları kimi, zaman baxımından müsəlman Şərqinin iqtisadiyyatının ən yüksək inkişafı və şimal ölkələri ilə intensiv ticarəti dövrü ilə bir vaxta düşmüşdü. Buna görə Azərbaycanda onların sikkələrinə çox nadir hallarda rast gəlinir. Saci dirhəmi və dinarının MATM-nin NF-da saxlanılan bir neçə nüsxəsi, eləcə də Azərbaycandan kənarlarda aşkar edilmiş 30-a yaxın sikkələri, bu sülalənin mövcud sikkə "toplu"sunu təşkil edir. Sacilər sikkə zərbini təkcə Azərbaycan şəhərləri Ərdəbil, Marağa, Bərdədə deyil, həmçinin onlara tabe olan ərazilərin – Dəbil, əl-Məhəmmədiyyə (Rey) zərbxanalarında həyata keçirirdilər.

Qərmətilərin üsyanının yatırdılması zamanı Yusif ibn Əbu-s-Sacın ölümündən sonra Sacilərin hakimiyyəti Azərbaycan dövlətində tənəzzül etməyə başlayır. Buna baxmayaraq, bu dövlət X əsrin 50-ci illərinə qədər "de fakto" mövcud olmuşdur. Burada Sacilərin qulamı, 929-934-cü illərdə hakimlik etmiş sərkərdə Müflihin, eləcə də onun hakimiyyətini əlindən almış əmir Dəysəm ibn İbrahimin (934-954) hərbi-siyasi fəaliyyətini qeyd etmək gərəkdir. Sonuncunun Dəbil, Bərdə şəhərlərində və "Azərbaycan"da (Ərdəbil) zərb edilmiş bir neçə gümüş dirhəmi Masallı rayonunun Bambaşı kəndində tapılmış dəfinədə aşkar edilmişdir. Lakin tezliklə Azərbaycanda hakimiyyətə Salari əmirləri iddia etməyə başladılar.

**Salarilərin sikkələri.** Salarilərin Azərbaycanda hakimiyyəti idarə etməsi faktı dövrün numizmatik faktları ilə təsdiqlənir. Onlar barədə tarixi narrativ bilgilər sələflərinin – Saci əmirlərinin dövründəki məlumatlarından daha azdır. Lakin bu faktlar həmin sülalənin Azərbaycanda hakimiyyətdə olduqları zaman baş verən ayrı-ayrı hadisələrin xronologiyası barədə yazılı mənbələrdəki bir-birini təkrar edən, bəzən də ziddiyətli məlumatların dəqiqləşdirilməsində çox dəyərlidir. Tarixçilər tərəfindən salarilərin (941-981) Azərbaycanın hakimiyyətində əsasını qoyan Mərzban ibn Məhəmmədin

(941-957) dönəmi sülalənin ən yüksək pilləyə çatdığı zaman kimi dəyərləndirilir. Bu sülalənin hakimiyyəti zamanı ölkədə dövriyyəyə buraxılan qızıl və gümüş sikkələr üzərində zərb yeri Azərbaycan olaraq davam edirdi.

**Rəvvadilərin sikkələri.** Paytaxtı Təbriz olmaqla indiki Cənubi Azərbaycanı idarə edən Rəvvadilər sülaləsinin (981-1116/17) numizmatik irsi Salarilərin irsindən də azdır. Numizmatik materialların hərtəfli analizinə görə, əsas fərqin "gümüş böhranı" səbəbindən Rəvvadilərin sikkələrinin əyarının aşağı olmasını qeyd etmək olar. Bu sülalənin az sayda olan nümunələri, daha dəqiq hökmdar Əbul-Hicanın adından zərb edilmiş bir neçə sikkə keçən əsrin 70-ci illərində Quba rayonunda tapılmış sikkə dəfinəsində aşkar edilmişdir.

**Şəddadilərin sikkələri.** Şəddadi əmirləri paytaxtı Gəncə olan Aran dövlətini (971-1075) idarə edirdilər. Son vaxtlara qədər bu sülalənin çox az sikkəsi elmə məlum idi. MATM-nin NF-nın inventarında I Şavir şəddadinin (1049-1067) adı ilə ili və zərb yeri göstərilməyən aşağı əyarlı bir sikkə qeydə alınmışdı. XX əsrin 80-ci illərində Yuxarı Qarabağda aşkar edilmiş dəfinədən əmir I Şavir ibn Fəzlin adı ilə zərb edilmiş 7 ədəd aşağı əyarlı sikkə əldə edilmişdir. Bunun ardınca, Bərdədə, şəhərin mərkəzi hissəsində tikinti işləri aparılarkən tapılmış dəfinənin böyük bir hissəsi, təxminən 42 kq. çəkidə olan dəfinə MATM-nə daxil olmuşdu. Parçalanmış gümüş bəzək əşyası və gümüş külçə parçalarına, qüsurlu gümüş sikkələrə və çoxlu miqdarda doğranmış dirhəmlərə (7 kq-a yaxn) əsasən, dəfinənin sonradan əridilərək yeni sikkələr zərb etmək üçün yığılan pul materialı olduğunu ehtimal etmək olar. Dəfinənin əsas kütləsi əmir Fəzl ibn Məhəmməd Şəddadinin (971-1031) Gəncə və Bərdə zərbxanalarında zərb edilmiş aşağı əyarlı, eyni tip sikkələrindən ibarətdir.Son illərdə Şəmkir şəhər yerində bir neçə ədəd belə sikkələr tapılmış, təyin edilmiş və MATM-nın Numizmatika fonduna təhvil verilmişdir.

## Yaxın Şərq pul dövriyyəsində "Gümüş böhranı" və Şərq (müsəlman) intibahı zamanı Azərbaycan dölətinin pul tarixi




Yeni teokratik dünya imperiyası - Xilafətin birinci iki əsri eyni zamanda iki prosesin paralel getdiyi bir dövr idi; bir tərəfdən cihad davam edir; işğal hesabına imperiyanın hüdudları genişlənir, digər tərəfdən işğal edilmiş torpaqların infrastrukturu bərpa edilir, yeni dövlətin bütün ərazisində təsərrüfat həyatı canlanır, əyalətlər arasında iqtisadi-ticari və mənəvi-mədəni əlaqələr tənzimlənirdi. Yenicə yaranmış müsəlman dünyasının sosial-iqtisadi dirçəlişinin təməli şəhərlərin və sənətkarlığın, əmtəə istehsalı və beynəlxalq ticarətin genişlənməsi üzərində qurulurdu. Bu amillər öz növbəsində əmtəə-pul münasibətlərinin dinamikasını, sikkə istehsalının intensivliyini şərtləndirirdi. Kapital yığımının sonrakı dövrlərə xas olan daha münasib ödəmə vasitələri - qiymətli kağızlar, veksellər, çeklərlə həyata keçirilən bank əməliyyatları sistemi təkmilləşirdi. Xilafətin siyasi-iqtisadi və mədəni həyatının yüksək çiçəklənmə pilləsi olan VIII əsrin sonunda zərbxanaların sayı iki yüzə çatırdı və onlar bazara milyonlarla tamdəyərli gümüş dirhəm çıxarırdı. Bunlarla yanaşı, qızıl dinar və mis felslərin emissiyaları olduqca böyük idi. Xəlifə Harun ər-Rəşidin müasirinin yazdığına görə, təkcə 796-cı ildə əyalətlərdən toplanan xərac 338.910.000 dirhəm, xəzinənin ümumi gəliri 873 milyon dirhəm təşkil etmişdir. Bu, nəinki daxili əmtəə-pul dövriyyəsinin ehtiyaclarını təmin edirdi, həmçinin, dirhəmə beynəlxalq valyuta metalı olaraq, dünya pulu qismində Xilafətin hüdudlarından kənara çıxarmağa imkan verirdi.

Dirhəm tapıntılarının topoqrafiyasına görə, VIII-X əsrlərdə Xilafətlə yaxın və uzaq ölkələr arasında möhtəşəm ticarət gedirdi. Mühüm və qızğın beynəlxalq tranzit-ticarət marşrutları ilə ərəb tacirləri qiymətli mallar və xammal mənbələri ilə zəngin olan şimal ölkələrinə aparırdı.

Müsəlman imperiyası və xristian dünyası arasında ticarət münasibətləri tarixinin son dərəcə maraqlı və diqqəti cəlb edən dövründə, bu transmilli karvan ticarətinin müxtəlif aspektlərinin nəzərdən keçirilməsi özünün hərtərəfli tədqiqini gözləyir. Bununla bağlı qeyd etmək vacibdir ki, belə bir qlobal prosesdə Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan xüsusi rol oynamışdır. Cənub– Şimal istiqamətində sözügedən mühüm ticarət

magistrallarından biri Azərbaycanın ərazisindən keçirdi. Bu yolla Dərbənd qapıları vasitəsilə əsasən, metal sikkə-gümüş dirhəmlərlə yüklənmiş karvanlar Xəzər xaqanlığına, Volqa Bulqariyasına, Rus dövlətinə, Baltikyanı ərazilərə, Skandinaviyaya, Qərbi Avropaya gedirdi. Geri qayıdanda yükləri artıq başqa mallar – xəz dəri, yabanı kətan, kəhraba, qiymətli daşlar, qullar, taxıl olurdu. Bu ticarətdə Azərbaycan tacirləri öz gümüşləri ilə, VIII-X əsr Azərbaycanı idarə edən sülalələrdən Şirvanşahlar, Sacilər, Salarilərin dirhəmləri ilə iştirak edirdilər. Şübhəsiz, Azərbaycanda bu hakim sülalələrin sikkələrinin azlığının bir səbəbi də onların xüsusi və dəyərli bir əmtəə kimi ölkədən çıxarılmasıdır. "Kufə sikkələri" adlanan gümüş dirhəmlər bu gün də Rusiyada və digər şimal ölkələrində bəzən çox böyük ölçülərdə (1 kiloqramdan 1 pudadək) tapılan dəfinələrdə aşkar edilməkdədir. Bu cür dəfinələr hələ XIX əsrdə Rusiya alimlərini xüsusilə maraqlandırmışdır. Onlar dəfinələrin tərkibini öyrənir, topoqrafik məlumatları və öz tədqiqatlarının nəticələrini dərc etdirirdilər. Bunlardan numizmat P. Savelyev XIX əsrin sonlarında bu tip tapıntıların və Rusiya ilə müsəlman dünyası arasında əlaqələrin öyrənilməsinin zəruriliyindən xüsusilə tələb edirdi. Başqa bir məşhur alim A. Markov Baltik dənizində tranzit ticarəti mərkəzlərindən biri olan Qotland adasının ərazisində kufi dirhəmlərindən ibarət 293 dəfinədə göstərilən sikkələrin olduğunu qeydə almışdır.

Şərq tacirlərinin, "yeni dövr inhisarçıları" rolunda həyata keçirdikləri ticarətin ödəniş balansının birtərəfli və passiv xarakteri Xilafətin pul təsərrüfatında, sikkə işində özünü göstərməli idi. Digər tərəfdən, gümüşün intensiv olaraq Azərbaycanın, o cümlədən Xilafətin sərhədlərindən çıxarılması ilə yanaşı, dinamik şəkildə genişlənməkdə olan daxili pul bazarının tədavül vasitələrinə ehtiyacı proporsional-mütənasib olaraq artırdı. Ön və Mərkəzi Asiyanın pullu ticarətində məlum "gümüş böhranı"nın başlıca səbəblərini məhz bu disbalans müəyyən etmişdir. XI əsrdən etibarən, cənub-şimal marşrutu üzrə ticari-tranzit əməliyyatları dayandırıldı. Buna baxmayaraq, pul tədavülündə gümüş çatışmazlığı dirhəmin keyfiyyətinin pisləşməsinə gətirib çıxardı. Bununla da, aşağı əyarlı sikkələrin xaricə çıxışı bağlandı.

Hazırda "gümüş böhranı"nın əsas səbəbləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

a) böhran öncəsi dövrdə gümüş sikkə-dirhəmin emitentin hüdudlarından kənara, başlıca olaraq Şimala – Rusiya, Baltiya, Skandinaviya ölkələrinə, həmçinin Şərqi Avropaya intensiv axını;
b) bu prosesə proporsional olaraq, ixracatçılarda həmin metalın ehtiyatlarının azalması:nəticədə, ixrac olunan gümüş xaricdə "çökür", geri qayıtmırdı.
c) müvafiq olaraq, Şərqin daxili bazarında, şəhərlərin sürətli inkişafı, sənətkarlığın, əmtəə istehsalının və ticarət dövriyyəsinin genişlənməsi ilə bağlı tədavül vasitələrinə ehtiyacın artması.

İki yüz ildir alim-numizmatların və tarixçilərin diskussiya obyektinə çevrilən "gümüş böhranı" uzun müddət – XIII əsrin monqol işğallarına qədər davam etmişdi. Ümumilikdə, əslində gümüşdən hazırlanan dirhəmlərin çatızmalığından ibarət olan bu "fenomen" nəticəsində nominalların tərkibi hakim sinif tərəfindən qərəzli olaraq korlanaraq, təbii misdən zərb edilməsinə qədər bir neçə mərhələdən keçmişdir.

Gümüşdən hazırlanan sikkələrin çatışmazlığı heç də birdən-birə və hər yerdə eyni zamanda yaranmamışdı. Məsələn, Kiçik Asiyada, Səlcuqların Konya soltanlığında (1077-1307) zəngin gümüş yataqları olduğundan, gümüş böhranı gec başladı və tez başa çatdı. Bəzi qərb və şərq ölkələrininin zəngin gümüş yataqlarının varlığı səbəbindən bu cür sikkələrin istehsalı dayanmasa da, qonşu ölkələrdə, xüsusilə ticarət münasibətlərinin intensiv etdiyi ölkələrin təsiri ilə yüksək əyarlı sikkələr yenidən dövriyyəyə deyil, "oyundan kənar" qalaraq, pul daxıllarına çökməyə məhkum olurdu.

Beləliklə, "gümüş böhranı"nın səbəblərinə münasibətdə hazırda müəyyən consensus omnium-ümumi rəy bərqərar olsa belə, onun Azərbaycan üçün nəticələrinin izahı haqqında bunu demək mümkün deyil. Bəzi tədqiqatçılara görə, yoxa çıxmış gümüş sikkə tezliklə mislə əvəzlənmiş və zərb edildiyi yerdən çox kənarlarda tədavülə girməklə, az qala beynəlxalq pula çevrilmişdi.

"Gümüş böhranı"nın əhatə olunduğu digər ölkələrdə olduğu kimi, X əsrin ikinci yarısından hiss edilən gümüş dirhəmlərin çatışmazlığı Azərbaycanda gümüş dirhəmlərin hakim dairələr tərəfindən məqsədli şəkildə, daha çox pul qazanma yolu ilə korlanması – əyarının aşağı düşməsi (gümüşünün azalması) və çəkisinin artması (sikkədə liqaturanın - qeyri-nəcib metal qatqısının çoxalması) prosesi ilə müşayiət olunurdu. Dirhəmlər sanki çəki və görüntü arasındakı xroniki pozulmaya uğrayaraq, daxili əyarı

"arıqlayır", əvəzində xarici görkəmi "kökəlirdi". Son Məzyədi Şirvanşahlarının, Şəddadi və Rəvvadi əmirlərinin sikkələri belə idi. Qonşu vilayətlərdə eyni proses Buveyhilər, Qəznəvilər, Samanilər və Qaraxanilərdə müşahidə olunurdu. Hökmdarlar aşağı əyarlı dirhəmləri və mis felsləri daxili ticarət dövriyyəsinin ehtiyaclarını ödəmək üçün zərb edərək, metropoliyanın hüdudları daxilində təqdim edirdilər. Nəzərdən keçirilən dövrdə Azərbaycanı idarə edən Şirvan şahların (861-1538/39) və Azərbaycan Atabəylərinin (1136-1225) sikkələrindən ibarət dəfinələrin topoqrafiyasının analizinə görə, bu cür pulların Azərbaycanda dövriyyə zonaları haqqında aydın təsəvvür yaranır. Ölkəmizin daxilində hər iki sülalə arasındakı "sərhəd" rolunu Kür çayı oynayırdı.

Dirhəm demək olar ki, mis fuluslara çevrilərək, çox tez zamanda reduksiyaya uğradı. Aşağı əyarlı sikkəni buraxan dövlət onun zərb olunmasından maksimum dərəcədə birdəfəlik qazanc əldə etməyə çalışırdı. I Fəzl ibn Məhəmməd Şəddadinin aşağı əyarlı sikkələrdən ibarət Bərdə dəfinəsi bu cür " pul psixologiya"sının bariz nümunəsidir. Dəfinə, sikkələrlə yanaşı, böyük həcmdə gümüş qırıqlarından ibarətdir. Dəfinədəki min ədədə yaxın sikkənin metroloji araşdırması göstərdi ki, I Fəzlin sikkələri "al-marco" üsulu ilə zərb edilmişdir. Bu üsul yustir, yəni sikkələrin tərkibinin ölçülməsni tələb etmir, əksinə nominalın tərəzidə çəkilmə yolu ilə tədavülünü təyin edirdi. Bu cür dirhəmləri qısa zaman ərzində Şəddadilərin Gəncədə və Bərdədə yerləşən zərbxanalarında zərb edirdilər. Dirhəmlərin əyar daşında yoxlanması tərkiblərində 40%-ə yaxın gümüşün olduğunu göstərdi. Bir dəfinənin, yaxud xəzinənin tərkibində hökmdarın yaxşı saxlanmış, yəni dövriyyə izləri olmadan, aşağı əyarlı sikkələri ilə birlikdə, mahiyyətcə digər pul materialının olması ilk baxışda paradoksal görünən, lakin çox maraqlı bir ehtimal üçün əsas verir. Çox güman ki, dəfinənin tərkibi, o cümlədən təzə kəsilmiş sikkələr yenidən əridilərək, müvafiq liqaturanın əlavəsindən sonra daha aşağı əyarlı sikkələrin zərb edilməsi üçün nəzərdə tutulmuşdu. Dirhəmin gümüş tərkibinin bu cür "sürətlə" azalması – əyarın aşağı düşməsi və liqaturanın çoxalması yolu ilə sikkənin korlanması – onu görünüşcə arzuolunmaz edirdi – artıq dirhəm mis felsdən az fərqlənirdi. Məhz o zaman gümüş dirhəmin illyuzor, nisbi varlığını dəstəkləmək üçün köhnə, amma az effektli üsula – sikkələrin gümüş suyuna çəkilməsinə əl atdılar. Bu üsul Azərbaycanda Şirvanşahlar və Atabəylərin hakimiyyəti üçün

xarakterik idi. Şəddadilər və Rəvvadilər zamanında bu baş vermədi; belə ki, az sonra – XI əsrin 80-ci illərində Səlcuqların işğalı nəticəsində onlar sikkə hüququnu itirmişdilər. Gümüş "aclığı" davam edirdi, görünür, gümüş suyuna çəkmək üçün gümüş çatmır, yaxud bu cür "makiyaj" tez silinərək, lazımsız olurdu. İstənilən halda, aşağı əyarlı sikkələrin gümüş suyuna çəkilməsi az effektli olmaqla bərabər, həm də "ziyanlı" oldu. Misə çevrilmiş aşağı əyarlı sikkələri gümüş suyuna çəkməkdənsə, mis sikkəni gümüş suyuna çəkmək daha sərfəli idi. Odur ki, mis sikkələri gümüş suyuna çəkməkdən imtina edərək, misdən sikkə kəsiminə keçmək məcburiyyəti yarandı. Bu proses monqol işğalınadək davam etdi. Lakin mis, böyük ödəmələri qapamaq və xarici ticari-maliyyə əməliyyatları həyata keçirmək gücündə deyildi. Dinamik inkişaf edən əmtəə istehsalı istər dövlətin daxilində artan ticarət dövriyyəsi, istərsə də dövlətlərarası hesablaşmalar daha dayanıqlı tədavül və ödəniş vasitəsi tələb edirdi. Bu zaman qızılın varlığı yerinə düşdü.

**Qızılın rolunun fəallaşması**. İkinci və hər zaman əsas valyuta metalı olan qızılın rolunun pullu ticarətdə böyüməsi "gümüş böhranı"nın başlanğıcı ilə eyni zamana təsadüf etdi. Gümüş yoxa çıxan kimi, qızıl həmin andaca özünü xatırlatdı. "Gümüş böhranı"na qədər o, əsasən, tezavrasiya- kapital predmeti idi və yalnız iri ödənişlərdə, əsasən beynəlxalq ticarət əlaqələrində iştirak edirdi. Buna görə, qızıl, pul kisələrində yox, daha çox pul daxıllarında saxlanılırdı. Lakin indi o, əmtəə-pul münasibətləri prosesinə tamamilə yeni keyfiyyətdə – bütün pul funksiyalarının icraçısı qismində tədavülə daxil oldu.

## Böyük Səlcuqluların dinarları

Müsəlman Şərqinin yeni hakimləri – Səlcuqlular Azərbaycanın və bütün Ön Asiyanın sikkə işi və pul dövriyyəsində hökm sürən "gümüş böhranı" ilə qarşı-qarşıya gəldilər. Səlcuqlu imperiyasının (1038-1157) pul sistemi başlanğıcdan müsəlman Şərqinin pul bazarında son zamanlara qədər hökmranlıq edən qızıla əsaslanırdı. Bu dövlətin sərhədlərinə Mərkəzi və Kiçik Asiya, coğrafi İran, Cənubi Qafqaz və Mesopotamiya daxil idi. Qızılın zərb edilməsi hüququ yalnız böyük Səlcuqlu soltanlarına məxsus idi. Səlcuqlular "dinar-i rukni" adlandırılan qızıl dinarları çox sayda, çəki standartlarından xaric zərb edirdilər. Yaranan qızıl monometallizmi onlara

gümüş dirhəmləri də zərb etməyə mane olmurdu. Lakin monetary-pullu ticarətdə sikkə zərbi və pul tədavülünün təcrübəsi göstərir ki, iki nəcib metaldan birinə əsaslanan monometalizm pul sistemində digər metal mütləq konservasiya olunur, xırda pul qismində mis buraxılır. Bu yazılmamış qanunauyğunluqlara görə, səlcuqlu soltanları həm də mis sikkələr zərb edirdilər. Bu sikkələr müəyyən çəki və ölçü standartlarına malik dairəvi mis dirhəmlər olub, nominal dəyəri kredit-müvəqqəti, borc xarakteri daşıyırdı. Onların tədavül statusu və dəyəri sikkənin üzərində həkk olunmuş "dirhəm" sözü ilə təsdiqlənir, "kreditliyi", yaxud müvəqqəti, borc və azad dövriyyə xarakteri dövlətin siyasi-iqtisadi potensialına dayaqlanırdı. Şübhəsiz, Səlcuqlu imperiyası bu potensiala malik idi. Lakin XI əsrin sonlarında imperiyanın ayrı-ayrı soltanlıqlara bölünməsindən sonra ön plana qüdrətli Atabəylər çıxdılar. Onların arasında ən əhəmiyyətlisi və nüfuzlusu Azərbaycan Atabəyləri oldular. Onlar öz böyük dövlətlərini yaratmış və nominal süzerenləri – İraq Səlcuq soltanlarından mis sikkə hüququnu almışdılar. Azərbaycan Atabəyləri yalnız Azərbaycanda deyil, İraq Səlcuqlarına tabe olan bəzi vilayətlərdə mis sikkənin əsas "təminatçısı"na çevrildilər. Onların mis sikkələri iri dəfinələr şəklində bütün Cənubi Qafqazın ərazisi boyunca tapılmışdı. Bundan əlavə, öz torpaqlarında böyük Azərbaycan soltanlığı yaradan Atabəylər qızıl sikkə zərbinə başladılar ki, bu da əvvəllər yalnız Səlcuq soltanlarına məxsus olan hüquq idi.

## Bizans imperatorlarının qızıl nomismaları və Xilafətin qızıl dinarları Azərbaycan pul tədavülündə



Şərq ölkələrində, o cümlədən Azərbaycanda "gümüş böhranı" və qızılın rolunun artması ilə paralel olaraq, xarici ticarət əlaqələrinin istiqaməti də dəyişdi. Əvvəlki mühüm şimal-cənub ticari tranzit istiqaməti digər – Şərq-Qərb vektoru ilə, yəni - qızılla zəngin Bizans imperiyası və qərb ölkələri ilə əvəzləndi. Buna görə təsadüfi deyil ki, Azərbaycanın və Cənubi Qafqazın pul dövriyyəsində daha vacib komponent - Bizansın qızıl sikkələrindən nomismalar, yaxud solidlər yer aldı. Bu cür dəyərli dəyər vahidlərinə bu yaxınlara qədər Azərbaycanda tək-tək olaraq rast gəlinirdi. Amma "gümüş böhranı" ilə əlaqədar, X əsrdən etibarən müsəlman Şərqi kimi, ticarətin və mədəni həyatın hiss olunacaq dərəcədə

yüksəlişini yaşayan Bizansın qızılı yaranan pul boşluğuna sanki sürətlə axın etməyə başladı. Bizans İmperatorlarından XII Konstantin (1042-1056), XIII Konstantin (1059-1067), IV Roman (1068-1070), VII Mixail (1071-1078), III Nikifor (1078-1081), I Aleksey (1081-1118) və I İohanın (1118-1143) zamanında təqribən 4,4 q çəkiyə malik qabarıq və düzgün formalı, lakin çeşidli əyara malik qızıl sikkələrin kütləvi emissiyası ilk növbədə Şərqin nəhəng müsəlman bazarına istiqamətlənmişdi. Sinxron ərəbdilli və farsdilli mənbələrdə rast gəlinən dinar-i purpuri- par-par parıldayan, yüksək əyarlı dinarlar bazarlarda məmnuniyyətlə qəbul edilirdi.Bu adla tanınan solidlər xəlifə dinarlarından fərqləndirilərək, konkret olaraq, I Alekseyin və I İohanın sikkələrinə şamil edilirdi. Maraqlıdır ki, Azərbaycan ərazisində çoxlu sayda qraffitli - üzərində ərəb, gürcü hərfləri cızılmış Bizansın qızıl sikkələrindən ibarət iri dəfinələr aşkar edilmişdi. Bu zaman qızılı olmayan Azərbaycan, Şərqlə Qərb arasında əlverişli geosiyasi mövqeyinə, yüksək inkişaf etmiş şəhər təsərrüfatına və ən müxtəlif malların zənginliyinə görə, xarici, o cümlədən Bizans qızılını özünə çəkmiş və ticarətdə istifadə etməyə başladı. Xilafətin özündə göstərilən zaman çoxlu sayda qızıl sikkə - dinarlar zərb olunurdu. Belə ki, 914-cü ildə dövlətin büdcəsi qızıl ekvivalentində hesablanaraq, nəticədə 14.829.840 dinar təşkil etməsi barədə yazılı mənbələrdə məlumat vardı. Qızıl dinarları yalnız xəlifələr deyil, həm də bir çox Şərq dövlətlərinin müstəqil hökmdarları, o sıradan Azərbaycanın saci və salari əmirləri zərb edirdilər.Akademik Z. Bünyadov Azərbaycan Atabəyləri haqqında tədqiqatında bu dövlətdə sikkə zərbi və pul tədavülü haqda qısa şərh vermişdir. Lakin bu sahəni daha əhatəli nəzərdən keçirmək üçün onun təfərrüatına varmaq gərəkdir. Azərbaycan Atabəyləri Cənubi Qafqazda və qonşu ərazilərdə ən qüdrətli və nüfuzlu hökmdarlar olmuşlar. Qeyri-düzgün formalı mis felslər zərb edən qonşular – Şirvanşahlar, Dərbənd məlikləri və gürcü çarlarından fərqli olaraq, atabəylər felslərlə yanaşı, Səlcuq soltanları kimi iri, düzgün formalı mis sikkələr – dirhəmlər də buraxırdılar. Müxtəlif hazırlanma üsulları onların pul dövriyyəsində çeşidli praktiki işlənmə formalarını müəyyənləşdirirdi. Bu nominallar eyni dərəcədə dövriyyə vasitəsi funksiyasını yerinə yetirdiyi halda, məcburi kursa malik kredit dirhəmlər – ədədlə, digərləri isə çəki vasitəsilə bazarlarda qəbul edilirdi.

“Gümüş böhranı” dövrünün “dəyər nişanları”nın bütün növlərinin ümumi cəhəti mis zərbinin və dövriyyəsinin lokal xarakter daşıması idi.

Kürün cənubunda, xüsusilə Azərbaycanın Talış zonasında Azərbaycan Atabəyləri və onların vassallarinin sikkələrindən ibarət bir neçə kiloqramdan bir neçə pudadək çəkiyə malik mis sikkə dəfinələri aşkarlanmışdı. Maraqlıdır ki, düzgün və düzgün olmayan formaya malik mis sikkələrin fərqliliyi onların tezavrasiyasında, hətta torpağa ayrılıqda basdırılması ilə qorunub saxlanırdı. Qarışıq dəfinələr çox azdır və rast gəlinirsə də, onlar adətən kiçik həcmli olur və çox güman ki, əhalinin aztəminatlı hissəsinə məxsus olan dəfinələrdir. Azərbaycan Atabəyləri hakimiyyəti zamanı mis sikkələrin zərbinə digər önəmli xüsusiyyətini vurğulamaq lazımdır. Söhbət, bir tərəfdən pul bazarının xırda pula olan ehtiyacının daim artması, digər tərəfdən bu ehtiyacı ödəmək üçün zərbxanaların texniki imkanlarından gedir. Numizmatik materialların müəyyən qisminin araşdırması nəticəsində məlum olmuşdu ki, dövrün valyuta metalı – gümüşün yoxluğu nəticəsində yaranan istehsalın azalması şəraitində daxili bazarlarda xırda ödəmələri və böyük şəhərlərin pərakəndə ticarətini təmin etmək üçün "qeyri-nəcib" metaldan-misdən bir neçə dəfə çox, gümüşün misə- 1:30 nisbətinə uyğun sikkə zərb etmək məcburiyyəti yaranmışdı. Bu səbəbdən sikkələrin istehsalını sürətləndirmək üçün Azərbaycan Atabəyləri mis sikkə zərbi hüququnu öz vassallarına icarəyə vermişdilər. Onlardan bəziləri, hətta süzerenləri – Atabəylər kimi mis sikkənin hər iki növünü buraxırdılar. Belə bir partikulyarizm -süzerenin verdiyi müəyyən müstəqillik səbəbindən biz Azərbaycan Atabəyləri hakimiyyəti vaxtında pul təsərrüfatında XII–XIII əsrlərin az tanınan, naməlum Azərbaycan hökmdarları - Gəncə canişinləri Qarasunqurilər - Qarasunqur (?-1141), Alp-Qutluq (1143), Çavlı (1141-46), Xassbəy Rəvvadi (1135-1153), Marağa Ağsunquriləri – Arslan Aba (?-1175), Körpə Arslan (1175-1208), Bişkinilər - Bişkin ibn Məhəmməd (1175-1210), Mahmud ibn Bişkin (1210-1225), Dərbənd əmirləri - Müzəffər ibn Məhəmməd (1136-1160), Bekbars ibn Müzəffər (1170-1180), Əbdülməlik ibn Bekbars (1180-1225) və Zəncan məliki İlkafşutun (İlqıpçaq) nadir sikkələrini görürük. Bu, pul bazarındakı gərgin vəziyyətdən çıxış yolu olaraq seçilməklə sikkə partikulyarizmi Atabəylərin vassallarının və Misir məmlüklərinin separatizminin güclənməsində axırıncı rol oynamamışdı. XII–XIII əsrlərin ayrıcında Atabəylər sülaləsinin epiqonları-zəif və əhəmiyyətsiz nümayəndələri dövründə adıçəkilənlər gücləndilər, bu da son nəticədə

Azərbaycan Atabəylərlərinin zəifləməsi və 1225-ci ildə süqutunun başlıca səbəblərindən biri oldu.

Beləliklə Azərbaycan Atabəylər dövlətinin əsasını qoyan Şəmsəddin Eldəniz (1136-1175), yaxud da sikkələrdə adı Eldəgiz olan hökmdar bir neçə tipdə mis dirhəm və fels zərb etdirmişdi. Sikkələrin üzərində onun - "Böyük Atabəy" titulu ilə birlikdə adı, həm də xəliflərdən əl-Müstəncidin (1160-1170), əl-Müstədinin (1170-1180), həmçinin özünün tərbiyə verdiyi oğulluğu və nominal süzereni olan İraq soltanı səlcuq Arslan şahın (1161-1176) adları həkk edilirdi. Bizə gəlib çatmış sikkələrdən aydın olur ki, mis dirhəmlərin gümüş suyuna çəkilməsi prosesi Azərbaycan Atabəylərinin dönəmində davam etmişdir.

Şəmsəddin Eldəgizin oğlu və varisi – Böyük Atabəy Nüsrəddin Məhəmməd Cahan-Pəhləvanın (1175-1186) çoxlu sayda mis dirhəmləri gəlib bizə çatmışdı. Bu sikkələr daha səliqəli görünüşü, oxşar fakturaları ilə fərqlənir və beş tipə bölünür. Onların arasında hər iki tərəfində bu hökmdarın adı olub, abbasi xəlifəsinin və İraq Səlcuq sultanının adı göstərilməyən sikkələr xüsusi maraq doğurur. Bu, Cahan-Pəhləvanın real müstəqilliyinin şübhə və mübahisə doğurmayan sübutudur. Atası kimi o da müstəqil daxili və xarici siyasət yürütmüşdü. Mənbələrin birində bildirir: "Cahan-Pəhləvan tam qüdrət və möhtəşəmlik sahibi idi; Toğrul ibn Arslan-şah taxta oturanda onun adı yalnız sultan rütbəsinə görə idi; xütbədə xatırlanır və sikkələrdə zərb edilirdi. Həqiqi hökmdar isə **Atabəy Cahan Pəhləvan** idi". Buna görə də onun olduqca dəbdəbəli rəsmi titulaturası başa düşüləndir. Sikkələrdə- **İslam padşahı, ən böyük mömin, böyük atabəy, Əcəm xaqanı, cahanın və dinin günəşi, islamın və dindarların dayağı**" titulları mükəmməl ikonoqrafik baxımdan səlis, qrammatik baxımdan səhvsiz zərb edilmişdi. Onun qardaşı və varisi Müzəffərəddin Qızıl Arslan (1186-1191) İraq sultanı III Toğrulun (11761194) formal süzerenliyindən azad olmaq qərarına gəldi. Bir sıra döyüşlərdən sonra Atabəy 1190-cı ildə Həmədan yaxınlığında son qələbə qazandı. Məğlub olmuş sultan əsir alınmış və zindana salınmışdı. Qızıl Arslan təntənəli şəkildə Həmədana daxil oldu və bu şəhər onun dövlətinin paytaxtına çevrildi. Bu şəhərdə o, soltan elan olundu.


Azərbaycan Atabəyləri. Eldəniz (1136-1175). Dirhəm, mis.


Azərbaycan Atabəyləri. Əbu-Bəkr (1191–1210).1192, fels, mis

Bizə Qızıl-Arslanın III Toğrul üzərində qələbəsi münasibətilə buraxılmış mis sikkələri gəlib çatmışdır. Bunlar mis dirhəmlər və mis məftildən kəsilmiş 6 qramdan 8 qramadək çəkiyə malik, üz tərəfində - zəfər, əks tərəfində isə-fərəh (sevinc), yaxud fərəc (təskinlik) sözləri həkk olunmuş dördbucaqlı sikkələrdir. Həmədanda Qızıl-Arslana, soltanlıq dərəcəsinə yüksəldilməsi haqda xəlifə ən-Nasirin fərmanı təqdim olundu. Bağdadda onun adına xütbə oxunmuş, Həmədanda mühüm rəsmi mərasim keçirilmişdi. Orada xəlifənin səfiri Qızıl-Arslanı "soltan taxtına" oturtmuş və ona fəxri geyimlər geyindirmişdir. İndi yeni soltanlığın paytaxtı Həmədanda Qızıl Arslanın adına xütbə oxunur və həmin xütbədə o, soltan adlandırılırdı; onun sarayının qapısında hər gün beş dəfə novbat (davul çalmaq) "Zül-Qərneyn" vururdular. Eyni zamanda Qızıl-Arslan qızıl sikkəsini zərb etmək hüququnu alır. Qızıl-Arslanın dəbdəbəli – "əs soltan əl müəzzəm, şahənşah əl-əzəm" – "əzəmətli soltan, böyük şahənhaş" titulları ilə kəsilmiş üç ədəd dinarı (Amerika numizmatika cəmiyyətində saxlanılır) onun ölümündən sonra qardaşı oğlu, epiqon Əbubəkr (1191-1210) öz adından yenidən zərb etdirmişdir. Əbubəkrin eyni titulatura ilə kəsilmiş və gümüş suyuna salınmış mis dirhəmləri və 20-yə qədər tipdə olan mis felsləri elmə məlumdur. Sonuncu, zəif iradəli Atabəy Müzəffərəddin Özbəkdən (1211-1225) Atabəylərin baş iqamətgahı Naxçıvanda zərb olunmuş mis dirhəm və felslər qalmışdır.

**Azərbaycan Atabəylərinin vassallarının sikkələri**

Qaradağda (Cənubi Azərbaycan) Əhər məlikləri Bişkinilər və hətta uzaq Dərbənd əmirləri, qüdrətli və nüfuzlu Azərbaycan Atabəylərini öz süzerenləri hesab edirdilər. Bişkinilər sülaləsinin banisi – "məlik əl-üməra" titulu daşıyan Bişkin ibn Məhəmməd (1175-1210) xəlifə ən-Nasir və atabəy Əbubəkrin adları ilə mis dirhəmlər kəsirdi.



Mahmud ibn Bişkin (1210-1225) sikkələrində xəlifə ən-Nasir və Atabəy Özbəyin adlarını qeyd edirdi. Onun sikkələrində, həmçinin sonuncu xarəzmşah Cəlaləddinin (1220-1231) adı zərb olunmuşdu. Monqol hücumlarının təzyiqi altında Mərkəzi Asiyadan qaçmış bu nüfuzlu monarx müvəqqəti olaraq, Cənubi Qafqazı ələ keçirmişdi. Xarəzmşah Cəlaləddin 1225 və 1230-cu illər arasında, monqolların Cənubi Qafqaza ikinci hücumundan əvvəl burada düzgün olmayan formada mis sikkələr zərb etdirmişdi. Beləliklə, Azərbaycanın sikkə işinə, "gümüş böhranı" dövründə Azərbaycanda pul tədavülünün inkişaf dinamikası və özünəməxsusluğuna aid aşağıdakıları göstərmək olar:

**Birincisi**, tədavül sferasından gümüşün yox olması, əmtəə-pul münasibətlərinin maksimal inkişafı üçün əngəl olmadı,

**İkincisi**, şəhərlərin sürətli yüksəlişi, sənətkarlığın inkişafı davam edir, əmtəə istehsalı və ticarət genişlənirdi,

**Üçüncüsü,** bu səbəbdən ölkənin istehsal qüvvələri elə bir inkişaf səviyyəsinə çatmışdı ki, artıq XVI-XVII əsrlər Avropasının erkən kapitalist istehsal münasibətləri üçün xarakterik olan rüşeymlər formalaşmağa başlamışdı,

**Dördüncüsü**, Azərbaycanın iqtisadi inkişafı və mədəni çiçəklənməsi "gümüş böhranı"nı yaratmış, VIII-X əsrlərin daxili və daha çox xarici pullu ticarətin hesabına baş vermişdi,

**Beşincisi,** bu böhran Ön Asiyada, həmçinin Azərbaycanda sosial-iqtisadi və mədəni, mənəvi fenomenin möhkəm özülünü qoymuş yüksəlişin erkən və çox mühüm əlaməti idi.

## Azərbaycanın pul tədavülündə Kiçik Asiya Səlcuqlarının sikkələri (XIII əsrin ikinci yarısı)

XIII əsrin ikinci yarısında Azərbaycanın və bütün Cənubi Qafqazın pul dövriyyəsinin özəlliklərindən biri Kiçik Asiya Səlcuqlarının -Konya soltanlığının yüksək əyarlı gümüş dirhəmlərinin buraya axınıdır. Konya soltanlığı sahib olduqları zəngin gümüş yataqları hesabına, hələ XII əsrin sonunda, monqolların gəlişinə qədər "gümüş böhranı"nı adlamışdılar. Lakin onların sikkələrinin Azərbaycana axını yalnız XIII əsrin 30-cu illərindən

sonra, yəni "kaanik"lərin- xaqan pulu adlı sikkələrin istehsalı vaxtında başladı.

Ümumilikdə, Cənubi Qafqazda Kiçik Asiya Səlcuq soltanlarının, qismən də bəyliklərinin gümüş dirhəmlərindən ibarət 50-dən artıq dəfinə tapıntısı qeyd olunmuşdur. MATM NF-da Kiçik Asiya Səlcuqlarının iki yüzdən artıq qızıl, gümüş və mis sikkələri saxlanılır. Onların hamısı Azərbaycanda qeyd olunmuş tapıntılardandır və Cənubi Qafqazla Kiçik Asiya arasındakı intensiv ticari, iqtisadi və fəal mədəni əlaqələrə dəlalət edir. Təsadüfi deyil ki, Azərbaycanın dahi şairi-mütəfəkkiri Nizami Gəncəvi uzaq Kiçik Asiya bəyliyi, Mənqucilərdən olan Ərzincan hökmdarı Fəxrəddin Bəhram şahın (1162-1225) həyatını vəsf edərək, "Xəmsə"nin ilk poeması "Sirlər xəzinəsi"ni ona həsr etmişdir.

XIII əsrin 20-30-cu illərində monqol yürüşləri Azərbaycan intibahı dönəmində ölkədə müşahidə olunan sosial-iqtisadi sıçrayış və sürətli inkişafı nəinki dayandırdı, hətta onu çox-çox geriyə atdı. Monqollar ölkənin bütün təsərrüfat strukturlarını dağıtdılar, şəhərləri qarət edib yandırdılar, yerli əhalini qətlə yetirdilər, yaxud əsir götürdülər. Bu hücumlardan hələ yarım əsr sonra da Azərbaycan ərazisi dağılmış şəhərləri və boş qalmış kəndləri ilə yarımsəhra mənzərəsini xatırladırdı. Bu dövrün hər hansı əmtəə-pul mübadiləsi və sikkə zərbindən danışmaq, təbii, mümkün deyil: işğalçılar bütün zəruri malları pulsuz – silah gücünə əldə edirdilər. Lakin zaman keçdikcə şəhər həyatı, kənd təsərrüfatı, sənətkarlıq dirçəlməyə başladı. Monqolların özlərinin bu prosesdə müəyyən rolu olmuşdur. Onların qarşısında indi yeni hərbi-siyasi və iqtisadi-inzibati qurum-dövlət yaratmaq, eyni zamanda işğal edilmiş ölkələrin və xalqların uzunmüddətli istismarı məsələsi gündəmdə dururdu. Digər tərəfdən, işğalçılar öz siyasi nüfuzunu, işğal hüquqlarını həm də sikkə zərbi işi ilə bəyan etməli idilər.

## Azərbaycanin "işğal dövrü" sikkə zərbi və pul dövriyyəsi. Yerli türk sülalələrinin pul işinin özəllikləri (XIII-XVIII)

**Azərbaycanda monqolların "işğal" zərbi. Çingizilərin sikkələri.** Çingiz xanın xələfləri, görünür atalarının iradəsini yerinə yetirməkdə bacarıqlı sərkərdə olmaqla yanaşı, dövlətçilik ideyasından məhrum deyildilər. Bu məqsədləri həyata keçirməyin klassik üsulu suveren hakimiyyətin inkaredilməz müstəsna hüququ- sikkə hüququnu həyata keçirmək idi. Artıq XIII əsrin 30-cu illərində monqolların ilk "işğal" sikkələri dövriyyəyə



buraxıldı. Bunlar müsəlmanların dini rəmzi - şəhadət kəlməsi və "ədalətli kaan"-xaqan ifadəsi həkk olunan anonim gümüş dirhəmlər idi. "Kaanik" adlanan bu sikkələrin zərbi ilə eyni zamanda, gümüş dirhəmin statusu bərpa edildi və iki əsrlik "gümüş böhranı" dövrünə son qoyuldu. Gümüşdən olan sikkələrin zərbi üçün işğalçılarda qarət edilmiş yerlərdə kifayət qədər gümüş var idi.Erkən dövrdə kaaniklərin epizodik buraxılışı iqtisadi önəmdən daha çox siyasi-təbliğat xarakteri daşıyırdı. İşğal olunmuş ölkələrdə təsərrüfat həyatının, iqtisadi əlaqələrin qurulmasının, şəhərlərin və şəhər həyatının, daxili və xarici ticarət mübadiləsinin tam bərpasına hələ çox qalmışdı. Hələlik əmək məhsullarının əmtəəyə çevrilməsi qaydadan çox, istisna xarakteri daşıyırdı, alış-veriş obyekti qismində qarət olunmuş sərvət çıxış edirdi.

Daha bir anonim sikkə qrupunu - 1244/5-ci ildə Azərbaycanın paytaxt şəhərləri Gəncə, Naxçıvan, Təbrizdə, üst tərəfində şəhadət kəlməsi, əks tərəfində at tərkində oxçu (akınçı) təsviri olan gümüş dirhəmlərin epizodik emissiyasını qeyd etmək lazımdır. Bu sikkələrin əks tərəfində atlı təsvirinin ətrafında Azərbaycanın sikkə zərbi tarixində ilk dəfə türk dilində "Uluq Manqıl Ulus-bək" - "Böyük Monqol Ulus-bəyin [sikkəs]i" sözləri həkk edilmişdir. XIII əsrin 40-50-ci illərinin anonim "kaanik" dirhəmlərinin Təbriz emissiyaları daha müntəzəm idi. Onların çəkisi orta hesabla 2,67 q olsa da, mənbələrə əsasən rəsmi çəkisi 2,84 qrama bərabər olmuşdur.

**Elxanilərin-Hülakilərin sikkələri (1256-1358).** Gümüş dirhəmlərin anonim buraxılışı paytaxt şəhəri Təbriz, paytaxt vilayəti isə Azərbaycan olan monqol Elxanilər dövlətinin (1256-1357) yaranmasından sonra davam edirdi. Bu emissiyalar dövlətin banisi elxan Hülaku xanın (1256-1265-654/663) sikkə kəsimi ilə eyni zamanda həyata keçirilirdi. Elxanilər zamanında sikkə işində yenilik kimi ərəb qrafikası ilə yanaşı uyğur -türk qrafikasından və elxanların təqvimindən istifadə olunmasını, sikkə buraxılışlarının yalnız hicri (müsəlman təqvimi) illəri ilə deyil, həm də ayları ilə tarixə alınmasını göstərmək olar. Bu "yeniliklər" Hülaku sikkələrinin xarici görünüşünə - tipologiyasına aid idi. Onların "daxili" dəyərinə gəldikdə isə, yazılı mənbələrə inansaq, XIII əsrin sonunda gümüş dirhəmin

korlanması baş vermişdi və dövriyyədə onun aşağı əyarlı qəlp pullar işlədilirdi. Bunu istisna etməmək şərti ilə deyə bilərik ki, bizə qədər gəlib çatmış sikkələr bu fikri təsdiq etmir.

**Elxan Abaqa xanın (1265-1282)** hakimiyyətinin sonlarında mərkəzi dövlətin zəifləməsi, feodal ara çəkişmələrinin artması təsərrüfatın və iqtisadiyyatın inkişafına təsir etdi. XIII əsrin son rübündə Hülakulər dövlətində iqtisadi və siyasi böhran baş verdi. Vəziyyətdən istifadə edən köçəri feodallar vergiləri artırmaq, əlavə vergilər toplamaq vasitəsilə əhalini qarət etməyə başladılar. İkiqat istismara məruz qalmış, vergilərin ağrlığndan cana gəlmiş xalq kütlələrinin feodal sinfinə qarşı mübarizəsi artdı. Təsərrüfatda tənəzzül baş verdi, şəhər həyatında durğunluq yarandı, dövlət idarələrində satqınlıq, rüşvətxorluq çoxaldı, monqol əyanları arasında mərkəzdən qaçma qüvvələri artdı. Təsərrüfatdakı tənəzzül dövlət xəzinəsinin boşalmasına səbəb oldu. Monqolların iqtisadi siyasətinin səmərəsiz başa çatdığnı görən Keyxatu xan və monqol əmirləri qəti tədbirlərin həyata keçirilməsinin vacibliyini dərk etdilər.

XIII əsrin ikinci yarısının gümüş dirhəminin əyarı və çəkisi, bəzi önəmsiz istisnalarla, standartlara uyğun gəlir. Tədavüldə aşağı əyarlı qəlp sikkələrin meydana gəlmə və geniş yayılma səbəbləri çox güman ki, aşağıdakı mülahizə ilə bağlıdır:

Monetar pul tədavülünün qanunlarına görə, bazarda eyni zamanda "yaxşı" və "pis" sikkələr olarsa, Elxanilər birinciləri az sonra pul daxıllarına "göndərərək", dəfinələrə "gedir", "yaxşı zamanlara"dək tezavrasiya predmetinə çevrilir. Bizə gəlib çatmış dəfinələr torpağa basdırılmış bu cür sikkələrdən ibarətdir. Buna baxmayaraq, dövlətin iflic vəziyyətinə düşmüş təsərrüfat həyatı çətinliklə sağalırdı və xəzinə həmişə boş olurdu. Elxan Keyxatu zamanında "çao" adlanan kağız pulların buraxılması prosesə kömək etmədi. Onun pul islahatı iflasa uğradı: dükanlar bağlandı, ticarət dayandı**.**

**Keyxatu Elxanın (1291-1295) kağız pul siyasəti.** Dünya pul tarixində kağız pullar Çində e.ə.III əsrdə, ikinci dəfə Çanan şəhərində IX əsrdə istifadəyə daxil edilmişdi. Dövlət tərəfindən rəsmi dövriyyəyə buraxılan belə pullar istənilən vaxt metal pullara dəyişdirilirdi. Bu cür assiqnasiyalar "fyen çyan" - uçan pullar adlanırdı. Hazırlanması üçün az xərc tələb olunan belə pullar dövlətə xeyli gəlir gətirirdi.

Avropalılar kağız pullar haqqında ilk məlumatları Marko Polonun

əsərindən (XIII) almışlar. İqtisadiyyat üzrə mövcud olan elmi ədəbiyyatlarda kağız pulların XVII-XVIII əsrlərdə Avropada tədavülə buraxılması göstərilir. Qeyd olunur ki, birinci dəfə kağız pullar 1690-cı ildə Şimali Amerikanın Massaçusets ştatında tədavülə buraxılmışdır. Avropada kağız pulların ilk tədavülə buraxılması 1716-1720-ci illərdə Fransaya məxsus olmuşdur. Lakin son dövrlərdə nəşr olunmuş bir sıra ədəbiyyatlar XIII əsrdə Azərbaycanda kağız pulların tədavülə buraxılmasını deməyə əsas verir. Bu pul tədavülü tarixində görünməmiş, maraqlı hadisə olmuşdur.

Keyxatu xanın vəziri Sadrə-Cahan xəzinənin qızıl və gümüşlə təmin edilməsi və iqtisadiyyatda yaranmış çətinlikləri aradan qaldırmaq üçün kağız pulların tədavülə buraxılmasını təklif etdi. Keyxatu xan öz növbəsində bu təklifi bəyəndi və bu tədbirin həyata keçirilməsi üçün göstəriş verdi.

Bununla da, Çin istisna olmaqla Şərq ölkələrinin tarixində ilk dəfə 1291-1295-ci illərdə **ÇAV** adlanan kağz pul nişanları dövriyyəyə buraxıldı. Vassaf və Xandəmir bu kağız pulları belə təsvir edirdilər: Kağız pullar düzbucaqlı formasında, kvadrata daha yaxın, Çin heroqlifləri ilə çərçivəyə alınmış, hər iki tərəfin yuxarı hissəsində ərəb dilində: "Allahdan başqa allah yoxdur. Məhəmməd Allahın elçisidir" sözləri yazılmış və aşağı hissədə "İrincin-Turçi" (Keyxatu xanın adı) imzası dayanmışdı. Əskinasın orta hissəsində dairə təsvir olunmuş və içərisində fars dilində yarımdirhəmdən 10 dinara qədər pulun nominalı göstərilmişdir. Bundan əlavə kağız pullar "Dünyanın şahı 693-cü ildə ÇAV-a xeyir-dua verərək dövlətdə yaymış, onu dəyişdirən və saxtalaşdıran, arvadı və uşaqları ilə birlikdə cəzalandırılmalı və əmlakı divanın xeyrinə müsadirə edilməlidir" sözlərini özündə əks etdirirdi. Keyxatu xan zəngin torpaq mülkiyyətçiləri olan əmirləri təlimatlandıraraq **"çavxana"lar** təşkil etmək üçün əyalətlərə göndərdi. Tapşırığa əsasən alış-veriş zamanı yalnız kağız pullardan istifadə olunurdu. Qızıl və gümüş sikkələr **"çavxana"**larda kağız pullara dəyişdirilirdi.

Beləliklə, **“çavxana”**lar-pul dəyişən bank rolunda çıxış edirdilər. Mərkəzi **“çavxana”** Təbriz şəhərində yerləşirdi. Əyalətlərdə yerləşən **“çavxana”** onun filialları hesab olunurdu. Rəşid-əd Din yazırdı ki, 19 şəvval 693-cü ildə (12 sentyabr 1294-cü ildə) kağız pullar Təbrizdə tədavülə buraxıldı və hər kim onu qəbul etməsə yerindəcə cəzalandırılması barədə göstəriş verildi. Kağız pulların tətbiqi bazar qiymətlərinin artmasına, ticarət dövriyyəsinin azalmasına, həyat səviyyəsinin aşağı düşməsi ilə əlaqədar şəhər əhalisinin öz yerlərini tərk etməsinə gətirib çıxardı.




Nəticədə, ölkədə özbaşınalıq, çapqınçılıq, oğurluq çoxaldı, xalq kütlələrinin feodal sinfinə və monqol istilaçılarına qarşı mübarizəsi daha da gücləndi. Xalq kütləsinin qəzəbindən qorxan əmirlər bu barədə hökmdara məlumat verdilər. O, öz növbəsində kağız pulların tədavüldən çıxarılması və metal pullarla əvəz olunması əmrini verdi. Azərbaycanda qadağan olunmasına baxmayaraq bu cür kağız pul nişanları, Monqol işğalı altında olan Çində böyük müvəffəqiyyətlə dövr edirdi.

**Qazan xan Mahmudun pul-sikkə islahatı.** Elxanilər dövlətinin sosial-iqtisadi həyatında müsbət dəyişikliklər sonralar, Keyxatunun varisi - Elxan Qazan xan Mahmudun (1295-1305) zamanında baş verdi. O, görkəmli vəziri, məşhur “Cami ət-Təvarix” (“Salnamələr toplusu”) xronikasının müəllifi Rəşidəddinin məsləhəti ilə bir neçə uğurlu islahat həyata keçirdi. Belə ki, dini islahat nəticəsində islam Elxanilər dövlətinin rəsmi dini olaraq qəbul edildi və Elxanın özü müsəlman - Mahmud adını qəbul etdi. Pul islahatına

əsasən, çəkisi 2,13 qramlıq yeni, ümumdövlət gümüş dirhəmi zərb edildi. Rəsmi çəki kimi 2,98 qramlıq çəki dirhəmi götürüldü. 100 miskal gümüşdən 200 dirhəm (100x4,26)/200 = 2,13), yaxud 100 çəki dirhəmindən (100x2,98)/140 = 2,13) 140 dirhəm zərb edirdilər. Eyni zamanda dirhəmin fraksiyalarını – 1/2, ¼, 2 dirhəm, 3 dirhəm və 3 miskal, yaxud 6 dirhəmə (3x4.26 =12.78 q) bərabər olan gümüş dinar da zərb edirdilər. Beləliklə, yazılı qaynağa əsasən dirhəmin çəkisi 4 danqdan 3 danqadək (hind. çəki vahidi=1/6 misqal), yəni 2.84 q-dan 2.13 q-dək azaldılmışdı. Lakin buna baxmayaraq, Qazan xanın pul islahatı uğurlu alındı. Sikkə sisteminə əvvəllər olmayan, yeni xırda və böyük nominalların daxil edilməsi və sosial-iqtisadi sahədə islahatların keçirilməsi bu uğura təkan verən amillər idi. Bütünlükdə Qazan xanın islahatları dövlətin iqtisadi, siyasi və mədəni həyatında əhəmiyyətli canlanma doğurdu. Proses pul təsərrüfatında daha yaxşı müşahidə olunur. Bizə qədər gəlib çatmış numizmatik artefaktlara görə, XIV əsrin birinci yarısında ölkənin iqtisadi-təsərrüfat həyatının mərkəzləri olan şəhərlərdə 40-dan artıq zərbxana fəaliyyət göstərirdi. Burada gümüş dirhəmdən başqa mis felslər və qızıl dinarlar da zərb edirdilər.

O zamanlar mövcud olmuş, dövrümüzədək gəlib çatmayan bəzi Azərbaycan şəhərləri **-** *Alagöz, Alınca, Babi, Balıq, Biqord, Gəştasbi, Qaraağac, Qarqar, Qarabağ, Mahmudabad, Pol-e-Araz, Hunan, Şirvan* haqqında biz yalnız bu şəhərlərdə fəaliyyət göstərmiş zərbxanaların vasitəsilə bilgi əldə edə bilirik. Onların mövcudluğuna üzərində həmin şəhərlərin adları həkk olunmuş sikkələr dəlalət edir.

AMEA-nın müxbir üzvü, t.e.d., professor-numizmat Y.A. Paxomov (1885 - 1965) hələ ötən əsrdə Lənkəran rayonundan 12 km cənubda olan Bürcəli kəndində (1992-ci ilə qədər Alekseyevka adlanıb) yerli sakinlərin saxsı küp aşkarladığını qeyd etmişdir. Professorun qeydinə əsasən, 1902-ci ildə aşkarlanan və ümumi çəkisi 1 kiloqramdan ibarət gümüş sikkələrdən ibarət bu küpdə sikkə dəfinəsinin olduğu müəyyən edilmişdir.

Bu dəfinədəki sikkələrdən bəzilərinin üzü kağız üzərinə köçürülmüş və professor-numizmat Y.A.Paxomov məhz bu rəsmlərə istinadən təyinat vermişdir.

Elxanilərin (müasir tədqiqatlarda - Hülakülər – 1256-1357) yeddinci hökmdarı Qazan xan (1294 - 1303) və səkkizinci hökmdarı - Ulcaytu (1303 - 1316) dövründə Təbriz, Marağa, Ərzincan və digər şəhərlərdə (dəqiq qeyd

edilməyib) zərb edilmiş gümüş sikkələrdən ibarət bu sikkə dəfinəsi təəssüf ki, dağıdılmış və tarixi fakt olaraq günümüzədək qorunmamışdır.

Buna baxmayaraq, alimin əldə etdiyi numizmatik qənaətə, həmçinin müasir tədqiqatlara əsasən Elxanilər dövrünün şəhər-zərbxanaları və pul təsərrüfatı barədə imkan yaradan bu tapıntı dəyərli faktdır.

Monqol imperiyası dağıldıqdan sonra yaranan Elxanilər (Hülakülər) dövlətinin ərazisi Kəngər-Fars körfəzindən Dərbəndə və Ceyhun çayından Misirə qədər uzanırdı. Gürcüstan, Trabzon imperiyası, Konya sultanlığı, Kilikiya çarlığı, Kipr krallığı, Heratın müəyyən qismi Elxanilərdən vassal asılılığında olmuş, vergilər ödəmişlər. Dövlətin paytaxtı Marağa, Təbriz, Sultaniyyə, sonra isə yenidən Təbriz olmuşdur.

Bürcəli dəfinəsində gümüş sikkəsi aşkarlanan **Qazan xan Mahmudun** (694 - 703= 1294 - 1303) hakimiyyəti dövrü bir sıra siyasi və iqtisadi islahatlarla yadda qalmışdır. Dini adı "Mahmud" (həmd edən) olan bu hökmdarın hicri 696 - 700 = 1296 - 1301-ci illərdə olan sikkə islahatı nəticəsində ölkədə pul təsərrüfatı sabitləşmiş, iqtisadiyyatda yüksəlişə nail olunmuşdu .

Qazan xanın hakimiyyəti dövrü sikkələrini 2 qrupa ayırmaq mümkündür:

- islahata qədərki;
- islahatdan sonra.

Müasir numizmatik tədqiqatlara əsasən, bu hökmdarın hakimiyyəti dövründə iqtisadi islahatdan əvvəl Təbrizdən başqa Mardin, Astarabad, Tus, Bağdad, Cəzirə, Curcan, Kabucamə, Nişapur və digər zərbxanalarda (orta çəki - 2,5 q) gümüş dirhəmlər, yarım dirhəmlər (1,08 q) və ikili dirhəmlər (4,32 q) zərb edilmişdir. Müxtəlif tipli belə sikkələrin üst tərəfinə ərəbcə: **"Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın rəsuludur" sözləri, arxa tərəfinə isə ərəbcə və uyğurca sözlər həkk edilmişdir** .



Şəkil 1. Elxanilər. Qazan xan Mahmud (694 – 703 = 1294 - 1303). Tovuz, 700 = 1300 - 1301, 3,66 q



Şəkil 2. Elxanilər. Qazan xan Mahmud (694 - 703= 1294 - 1303). Gəncə, 700 = 1300-1301, 2,1 q



Şəkil 3. Elxanilər. Qazan xan Mahmud (694 - 703 = 1294 - 1303). Naxçıvan, 701 = 1301-1302, 2,1 q



Şəkil 4. Elxanilər. Qazan xan Mahmud (694 - 703= 1294 - 1303). Naxçıvan, mis fels, 0,9 q

Qazan xanın sikkə islahatı bir sıra müsbət nəticələr vermişdir:

- ❖ qəbul olunmuş sikkə sistemi nizamlanaraq, vahid əyar və çəkiyə malik qızıl və gümüş sikkələr zərb edilmişdir;
- ❖ yüksək sikkə əyarı alıcılıq qabiliyyətini artırmışdır;
- ❖ sikkə islahatı sayəsində daxili ticarət inkişaf edib genişlənmişdir.
- ❖ Sikkə islahatından əvvəl dövlət xəzinəsinin gəliri 1700 tümən idisə, islahatdan sonra 2100 tümənə yüksəlmişdir. Beynəlxalq ticarətdə istifadə edilən Qazan xan dövrünə aid yüksək əyarlı və dəyərli qızıl sikkələr dövlət xəzinəsinə böyük gəlirlər qazandırmışdır.

Ticarətin inkişafı istehsal təsərrüfatının və şəhərlərin artımına səbəb olmuşdur. Bütün bunlar sikkə zərbinə tələbatın daha da artmasına, yeni zərbxanaların təsis edilməsinə, əvvəlki zərbxanaların yenidən işləməsinə rəvac vermişdir. Bu dövrdə gümüş sikkələrdən əlavə qızıl dinarlar və mis felslər (Əbu İshaq, Ərciş, Dərcan, Dizmar, Ərzurum, Harran, İğdır, İsfəhan,



Şəkil 5. Elxanilər. Ulcaytu (703 – 716 = 1303 - 1316). Bazar, 709 = 1310-1311, 4,2 q

Mardin, Naxçıvan, Şəbestar, Şiraz, Siirt, Sinop, Sivas, Təbriz, Urmi şəhərlərində - 2,1 - 2,6 q çəkidə olaraq) zərb edilmişdir. Qazan Mahmud dövrünə aid bir sıra mis felslərin üz tərəfində şir ,bəzən quş və Günəş təsvirləri həkk edilmişdir .



Bu hökmdarın iqtisadi islahatından sonra - hicri 699 - 702 = 1299 - 1302-ci illərdə Vasit, Cəlalabad şəhərlərində altılıq gümüş dirhəmlər və ya 1 gümüş dinar, 12,96 q şəkidə zərb edilmişdir.

Dövrün nadir sikkələri - Gəncə, Tovuz və Naxçıvanda zərb olunmuşdur. Qazan xan dünyasını dəyişəndən sonra onun vəsiyyətinə əsasən qardaşı – **Ulcaytu (703 – 716= 1303 - 1316)** hakimiyyətə gəldi. Bu xanın dini adı - “Muhəmməd Xudabəndə” (Yaradanın bəndəsi Muhəmməd) idi.

Qazan xanın uğurlu siyasətini davam etdirməyə çalışsa da, hicri 704 – 716 = 1304 – 1316-cı illərə aid aşağı əyarlı qızıl sikkələr və gümüş dirhəmlər Ulcaytunun idarəçiliyinin o qədər də uğurlu olmadığını təsdiq edir.




Xarxavənd dəfinəsindən

Ulcaytu dövrünün sikkələrinə əvvəlcə 4 xəlifə, daha sonralar isə 12 imam adları zərb olunaraq, dövrün nadir sikkələri Bazar zərbxanasında zərb edilmişdir. Alazan (Qanıq) çayının sol sahilində, müasir Zaqatala rayonundan təxminən 25 km cənuba doğru Bazar kəndi yerləşir. Bu kənd Gürcüstanla həmsərhəddir. Zaqatala rayonunun Çobankol kəndində Bazar məhəlləsi vardır, həmçinin tarixi tədqiqatlara əsasən bu rayondakı Qımır kəndinin də tam adı - Qımır Bazar, Car kəndinin tam adı isə - Carbazar olmuşdur. XIX əsrin məlumatlarına əsasən, Zaqatala rayonunda Bazar Tala adlanan kənd mövcud idi.

Bunlardan başqa belə sikkələr əsasında Yuxarı Qarabağın Xaçın nahiyəsində Bazar kəndinin, Dəvəçi rayonunda “Yurd Bazar Anbarçı” adlı yaşayış yerinin olması təsdiqlənmişdir.

Beləliklə, yerli əhəmiyyətli Bazar zərbxanasının yerləşmə məkanı ilə əlaqədar müxtəlif fikirlər vardır, lakin belə sikkələrin tapılma məkanları onların yerli pul təsərrüfatında istifadə edildiyini təsdiq edir. Sikkələrin tipləri eynilə gümüş dirhəmlərdəki kimidir. Ortalama çəki nisbəti 2, 33-2, 5 qram, diametr 22-23 mm.dir. Sikkələrin birində üz tərəfdə günəş obrazı və onun 8 şüası aydın şəkildə aversdə: reversdə Qiyas-əd-din dünya Olcaytu sultan Məhəmməd, Allah onun hakimiyyətini daimi etsin. (Aşağıdakı fototavloda İrəvan yaxınlığında Xarxarvəng dəfinəsi əks olunmuşdur).

2014-cü ildə İrəvan şəhərinin 40 km aralıda Xarxarvəng ətarfında təsadüfi tapıntılar içərisində Olcaytu sultanın adından zərb edilən saxta mis sikkələr aşkar edilmişdi. Bu sikkələr üzərində şiəlik, imami elementləri, yəni Əlinin adı və 12 imamın adları sikkələrin üz tərəfində, əks tərəfində Olcaytu sultanın adı və titulları, zərb yeri İrəvan göstərilmişdi. Bu cür sikkə nümunələri elmi ədəbiyyata görə İrəvan yaxınlığından və Dmanisidən tapılmışdı. Ehtimal etmək olar ki, bu iki ərazidə mis sikkələrin zərbi işi ayrı-ayrı şəxslərə icarə verilmiş və fuluslar saxta olmağına baxmayaraq, daxili bazarlarda istifadəyə qəbul edilmişdi. Elxanilər dövründə Azərbaycanda Təbriz, Bərdə, Gülüstan (Şamaxı yaxınlığında qala), Varran (İsfəhan yaxınlığında), Gəncə, Marağa, Qarabağ (ərazi adı), Urmiya, Naxçıvan, Tovuz, Əlincə, Sarayi-Mansuriyyə (Muğan düzündə), Səlmas (Urmiya gölündən şimali-qərbdə), Beyləqan, Qazaniyyə (Arquniyyə də adlandırılır, Təbriz yaxınlığında məntəqə), Əcnan (Naxçıvanda mis mədənləri ilə zəngin məkan), Şəhristani-Raşidi (Təbriz şəhərindən cənub-qərbdə) və digər zərbxanalar fəaliyyət göstərmişdir. Adıçəkilən zərbxanalarda dövriyyəyə buraxılan Elxani sikkələrindən Yaxın və Orta Şərq, Avropa ilə ticarət əməliyyatlarında istifadə edilmişdi.

Göstərilənlərdən başqa Elxanilərin sikkələri Bakı, Füzuli, Ağdam, Beyləqan, Gəncə, Naxçıvan və digər məkanlarda aşkarlanmışdır.

Beləliklə, Lənkəran rayonunun Bürcəli kəndində aşkarlanmış sikkə dəfinəsi XIII əsrin sonu – XIV əsrin əvvəllərində Azərbaycanın pul təsərrüfatında istifadə edilən gümüş sikkələr barədə təsəvvür yaratmaqla yanaşı, müvafiq dövrün ticarəti haqqında məlumat verən dəyərli faktdır. Aşkar olunan numizmatik tapıntılara əsasən, Elxanilər imperiyasının gündəlik ticarətində əsasən - gümüş dirhəmlərdən (bəzən dinar kimi qeyd edilir), beynəlxalq ticarət əməliyyatlarında qızıl dinarlardan, xırda ticarətdə

mis felslərdən istifadə edilməsi sübut olunur. Bundan başqa, müasir numizmatik tədqiqatlar üçün həm metodoloji təyinat, həm də tarixi məlumatlar (topoqrafik qeydlər) baxımından bu dəfinə əhəmiyyət kəsb edir.Bu tip mis sikkələr haqqında məlumatlar S.Len-Poolun, Ç.M.Qveberidze və O.Dilerin kataloqlarında və gürcü dilli ədəbiyyatda vardır.

**Elxani Ənuşirvanın (1344-1356) Qarabağ sikkəsi.** XIII-XIV əsrlərə aid tapılmış sikkə dəfinələri və təksaylı tapıntılar içərisində Elxani Ənuşirvanın (1344-1356) dövründə 1349-cu ildə (hicri 750) Qarabağ zərbxanasında zərb edilən gümüş dirhəmin böyük əhəmiyyəti vardır. Qeyd olunan sikkə Milli Azərbaycan Tarixi Muzeyinin numizmatika fondunda saxlanılır.



Sikkənin üz tərəfində, yuxarı hissəsində elliptik kartuşda ərəb dilində “Sultan”, aşağıda uyğur hərfləri ilə “Ənuşirvan”, “hökmranlığın əbədi olsun” sözləri zərb olunmuşdur. Kartuşda ərəb dilində - “yeddi yüz əllinci ildə Qarabağda zərb edilmişdir”. Arxa tərəfində mərkəzdə dördbucaqlı kartuşun içərisində ərəb dilində üç cərgədə “La ilahə illəllah” və “Məhəmməd onun rəsuludur” yazısı, ətrafında “Əbubəkr, Ömər, Osman, Əli” rəşidi xəlifələrinin adları həkk olunmuşdur. Göründüyü kimi, sikkə Qarabağ zərb yerində istehsal olunduğu faktı tam olaraq aydın oxunur. Numizmatik materiallara əsasən, bəhs olunan dövrdə Qarabağ ərazisində Bərdə, həmçinin Beyləqan, Gəncə və Tovuz şəhərlərində zərbxanalar fəaliyyət göstərmişdir.

Numizmatik ədəbiyyatlara əsasən, Elxan Ənuşirvanın dövründə gümüş dirhəmlərin çəkisi ilkin olaraq 1,43 q-dan, hakimiyyətinin sonlarında xarici müharibələr və daxili çəkişmələr, dövlətin iqtisadi və siyasi tənəzzülü nəticəsində 0,87 q-a qədər azaldılmışdı. Bəhs olunan dövrdə beynəlxalq və topdansatış ticarət üçün çəkisi 5,4 q olan qızıl dinarlar da zərb olunmuşdur: Elxan Ənuşirvanın hakimiyyət illərində (1344–1356) 13 tipdə 1,1-1,2

qramlıq gümüş sikkələrlə bərabər daxili ticarət üçün çəkisi 1,3-1,4 q mis felslərdən istifadə edilmişdi.

Bu gümüş dirhəm **“E”** tipinə aid edilir. Bu qəbildən olan sikkələr həmin ildə 1,1-1,2 q çəkidə Bazar, Təbriz, Naxçıvan, Beylaqan, İrəvan, Marağa, Salmas, Alaqır (Alagöz), Urmiyə şəhərlərində zərb edilmişdir.

1356-cı ildən imperiyada Ənuşirvanın adından gümüş dirhəmlərin zərb edilməsi dayandırılır. 1357-ci ildə isə daxili çəkişmələrlə sarsılan Elxanilər imperiyasına Qızıl Orda xanı Canıbəy (1341-1357) basqın edir, az sonra Elxan Ənuşirvan dünyasını dəyişir.

Ənuşirvanın adından zərb edilmiş gümüş dirhəmlər digər elxanların sikkələri ilə birlikdə qazıntılar zamanı Bakıda Ramana kəndində, Şamaxı yaxınlığındakı Quşçu kəndində, həmçinin Cəlilabad, Beyləqan (Baylakan), Bərdə (Partav), Tovuz, Naxçıvan ərazilərində aşkar edilmişdir. Bəzi hallarda dəfinələrdə Elxani dirhəmləri Səlcuqlu və Çingizi dövlətlərinin sikkələri ilə qarışıq halda aşkarlanması Yaxın və Orta Şərq ölkələri ilə fəal ticarət və iqtisadi əlaqələrdən xəbər verir.



Beləliklə, XIII-XIV əsrlərin ikinci yarısında Azərbaycan Elxanilər imperiyasının ayrılmaz tərkib hissəsi olmuşdur. $3.750.000^2$ km ərazini əhatə edən bu imperiyada yüksək əyarlı, texniki səviyyədə hazırlanmış gümüş dirhəmlər pul dövriyyəsində əsas rol oynamışdır. Bu dövriyyə vasitələrinin içərisində Qarabağ zərbxanasının məhsulları müəyyən yer tutur.

**Azərbaycanda “işğal” zərbi (XIV əsrin ikinci yarısı).** XIV əsrin ikinci yarısında Azərbaycan passionar təkan zonasında baş verən hadisələrin tam mərkəzində idi. Burada üç qüdrətli türk ulusu – Cuçilər, Osmanlılar və Cığataylar Mərkəzi və Ön Asiyada hökmranlıq uğrunda rəqabət aparırdılar. Uğur qazanan Cığatayların məşhur sərkərdəsi əmir Teymur (Topal Teymur – Tamerlan, 1370-1405) oldu. Onun yaratdığı nəhəng Asiya monarxiyası üçün yeddi əsr ərzində müsəlman dünyasında pul-sikkə sisteminin əsas vahidi, artıq qiymətdən düşmüş dirhəmi əvəzləyəcək 6,2 q çəkiyə malik yeni böyük sikkə vahidi – ***“təngə”*** təsis edildi. Təngə eyni zamanda Teymurilərin hərbi-siyasi və iqtisadi çevrəsində yerləşən dövlətlər, o cümlədən Azərbaycanın idarəçiliyinə növbəli şəkildə yerli türk sülaləri Qaraqoyunlular-baharlılar,

Ağqoyunlular-bayandurlar və Şirvanşahlar tərəfindən də qəbul edildi. Teymurun əsas rəqibləri – Osmanlı soltanı I Yıldırım Bəyazidin (1389-1402) və Qızıl orda xanı Toxtamışın (1376-1395) üzərinə hərbi yürüşləri Azərbaycanın siyasi və təsərrüfat həyatına təsir göstərdi. Şimali Azərbaycan (Şirvanşahlar) Teymurilərin siyasi-hərbi nüfuz dairəsində qalaraq, öz təsərrüfat həyatını davam etdirirdi. Ölkənin cənub hissəsi isə Qiyasəddin Əhməd Cəlairi (1382-1410) və Qara Yusif Qaraqoyunlu (1389-1420) hərbi birləşməsi ilə Teymurilərin mübarizə meydanına çevrilmişdi.

## Azərbaycanda Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar və xanlıqlar hakimiyyəti dövründə

## Sikkə zərbi və pul dövriyyəsi

**Azərbaycanda Baharlı-Qaraqoyunlu sülaləsi zamanı təngə nominalları.** Teymurun ölümündən (1405) sonra Qaraqoyunlu tayfa birliyinin başçısı Qara Yusif 1408-ci ildə Teymurun oğlu Miranşah (1404-1409), 1410-cu ildə öz keçmiş müttəfiqi Əhməd Cəlairi üzərində qələbə çaldı. Bundan sonra Qara Yusif Azərbaycanın paytaxt şəhəri Təbrizdə oğlu Pirbudağı (1411-1418) taxta oturtdu. Bununla Azərbaycan dövlətinin idarəçiliyinə Qaraqoyunlu adı ilə tanınmağa başlayan baharlılar gəldilər. 1411-1468-ci illərdə dövləti idarə edən bu tayfa birliyi sikkə zərbi işində bəzi işlər həyata keçirmişlər. Bu zaman Azərbaycan dövlətinin sərhədlərinə Şərqi Anadolu və İraq daxil oldu. Bütün bu ərazilərdə Qaraqoyunlu sülaləsi padşahlarının mühüm dövlət aktları – xütbə və sikkə işi həyata keçirildi.



Zərbxanalarda əsas sikkə vahidi kimi gümüş təngə, xırda pul kimi mis fels və donativ (bəxşiş, təltif və s.) mahiyyətli qızıl dinar zərbi icra olundu. Qara Yusif taxt-tac varisliyinin ierarxiyasında öz statusuna ciddi əməl edirdi: sikkə zərbi və xütbə “əs-soltan əl-əzəm” -əzəmətli soltan titulu daşıyan Pirbudağın adından həyata keçirilirdi. Oğlu ilə birlikdə dövriyyəyə buraxdırdığı sikkələrdə özünü Yusif noyan bahadur adlandırırdı. Dövlətin fərmanları Pirbudağın adı ilə başlayırdı: Pirbudaq-xan bahadur yarlığından Əbu-Nəsr Qara Yusif bahadur sözümüz-Pirbudaq xan bahadurun yarlığına görə, Əbu-Nəsr Qara Yusif bahadurun sözünə görə ifadəsi yazılırdı..

Bizə gəlib çatmış numizmatik artefaktlara əsaslanaraq, qeyd etməliyik ki, bu dövlətdə onlarla şəhərdə sikkə zərbi həyata keçirilsə də, bu iş o qədər də intensiv olmayıb. Sikkələr əsasən paytaxt Təbrizdə və böyük şəhərlər – Urmiyə, Marağa, Mosul, Kaşan, Kirman, Soltaniyyə, Bağdad, Ərzincan, Mahmudabad, Gəştasbi, bəzi vaxtlarda Şabran, Bakıda zərb olunurdu. Bir sıra zərbxanaların emissiyaları epizodik xarakter daşıyırdı. Lakin təngənin çəkisi Teymurun nəvəsi Şahruxun (1405-1447) zamanında bir Orta Asiya misqalına (5,8 qr.) qədər düşərək, **təngəyi-şahruxi** adını aldı. Qaraqoyunlu tayfa birliyinin güclü başçısı və dövlətin yaradıcısı Qara Yusif qonşuları ilə – yaxın Şirvanşahlarla, uzaq Teymurilərlə, qohum Ağqoyunlularla barışmaz mövqedə olduğuna görə hər zaman xeyli güc və vəsait tələb edilirdi. Digər tərəfdən, dövlətin sosial və hərbi əsasını təşkil edən yerli türk tayfaları ənənəvi otlaq təsərrüfatına sadiq qalırdılar. Soyurqallar şəklində torpaqların paylanması əmtəə-pul tədavülünə mənfi təsir göstərməklə yanaşı, həm də torpaq sahiblərində mərkəzdənqaçma əhval-ruhiyyəsinin yaranması ilə nəticələnirdi.

Sultan İsgəndər (1420-1438) zamanında Şirvanşahlar, Teymurilər və Ağqoyunlularla hərbi toqquşmalar gücləndi. Bütün bunlar şəhərlərin inkişafına, əmtəə istehsalına və bölgələr arasında təməlli əmtəə mübadiləsinə maneə törədirdi. Baharlıların hakimiyyəti zamanı dövlətin sosial-iqtisadi və hərbi-siyasi vəziyyəti hakim sülalənin sonuncu padşahı, Azərbaycan dilində Həqiqi təxəllüsü ilə yazıb-yaradan şair Cahanşahın (1438-1467) zamanında bir qədər sabitləşdi. Onun dövründən nisbətən daha çox sikkə qalmışdır və onların bir hissəsi Azərbaycan Milli Tarix muzeyinin Numizmatika Fondunda qorunur. Cahanşahın Mərkəzi Asiyanın bəzi ərazilərinin işğalı ilə başa çatmış uğurlu Xorasan hərbi kampaniyası nəticəsində Azərbaycan dövlətinin sikkə hüququnun sərhədləri əhəmiyyətli dərəcədə genişləndi.

1962-ci ildə Göyçə gölü yaxınlığında tapılmış gümüş təngə dəfinəsi bunu təsdiq edir. Bu dəfinədə teymuri şahzadələrinə (Babur, Soltan Mahmud, Uluqbəy, Abdulla, Əbu-Səid, Şah Mahmud) məxsus, sonradan Cahan şah tərəfindən yenidən zərb edilmiş, kontmarka-təkrar zərb əlamətləri olan çoxlu sayda sikkə aşkarlanmışdır. Onlarla yanaşı dəfinədə Cahan şahın Xorasan hərbi kampaniyası ərzində ələ keçirilmiş bütün şəhərlərdə - Aberkuxda, Larda, Lahicanda, Kaşanda, Şeyx-Əbu-İshaqda, Şüştərdə zərb etdirdiyi sikkələr vardır.

**Azərbaycan dövlətində Bayandurlu-Ağqoyunlu sülaləsi zamanı təngə nominalı.**

Ağqoyunlu-Bayandurlu sülaləsinin fəallaşması Azərbaycanda əslində qohum olduqları baharlı-Qaraqoyunluların daxili və beynəlxalq ticarət əlaqələrini bərpa etməyə, hərbi-siyasi və iqtisadi təsərrüfat gücünü artırmağa mane oldu. Bu iki qohum etnik türk tayfa birliyinin rəqabəti həmin ərazidə adını çəkdiyimiz bayandurlu sülaləsinin (1453-1503) dövlətin başına hakimiyyətə gəlməsi ilə başa çatdı. Hakimiyyətin təməlini qoyan Həsən padşah (1453-1478) - qətiyyətli və uzaqgörən siyasətçi, qanunverici hökmdar kimi tarixdə tanınmaqdadır. Onun tərtib etdiyi **Qanunnamə-Qanunlar toplusu** orta əsrlərdə yalnız Azərbaycanda deyil, Osmanlı imperiyasında, İran coğrafi məkanında onun ölümündən sonra belə dövlətlərin idarə edilməsində istifadə olunurdu. Lakin Həsən Padşahın yaratdığı hakimiyyət onun oğlu və varisi Yaqubun (1478-1490) ölümündən sonra tənəzzülə uğradı və iki hissəyə parçalanaraq, az sonra onun dogma nəvəsi Şah I İsmayıl tərəfindən əsası qoyulmuş Azərbaycan Səfəvilər dövlətinin tərkibinə daxil oldu. Bayandurlu-Ağqoyunlular zamanında Azərbaycanın pul təsərrüfatında və əmtəə-pul mübadiləsində ciddi dəyişiklik baş vermədi. Onların sələfləri baharlıların sistemi ilə genetik bağlı olan pul-sikkə sisteminin əsasında duran gümüş təngənin orta çəkisi 4, 26 qram idi. Sülalənin ilk illərindən başlayaraq, təngələrin çəkisi azalmaöa doğru gedirdi. Sonuncu Ağqoyunlu padşahlarının dövründə təngənin orta çəkisi 2 q-a enmişdi. Dövrümüzə qədər Həsən Padşahın sikkələrinin az miqdarda gəlib çatması bizə həmin dövrün pul tədavülünün dinamikası haqqında ətraflı fikir söyləməyə imkan vermir. Görünür, dövlətin sikkə məhsulu yalnız saray xərclərini ödəmək, mükafatlar paylamaq üçün lazım olan qədər buraxılırdı. Sifarişçinin materialından sikkə zərbi, yəni sərbəst zərb haqqında mənbələr məlumat vermir, hərçənd hədiyyələr, xərac, vergi, cərimələr şəklində əldən-ələ, bir xəzinədən digərinə keçən böyük pul məbləğləri haqqında yazılı bilgilər az deyil. Lakin onların əksəriyyəti “ölü” sərvətlər – nəğd pul, nəcib metallardan olan estetik xarakterli bəzək əşyaları və digər dəyərli məmulatlar idi. Onlar hakimiyyət nümayəndələrinə, zadəganlara və varlı ailələrə məxsus olub, əmtəə mübadiləsi, yaxud maliyyə-ticarət əməliyyatları prosesində əldə edilməmişdi. Həsən padşahın xələflərinin dövründən nisbətən çox sikkələr aşkar edilmişdi. Xüsusilə dövlətdə hökm sürən ümumi siyasi-təsərrüfat xaosu zamanı taxt-tac iddiaçıları bir-birini əvəzləyərkən, güman ki, pul tədavülünün ehtiyaclarından daha çox öz sikkə

hüquqlarının qayğısına qalırdılar. Padşahlardan Bəysunqur (1490-1492), Rüstəm (1492-1497), Əhməd (1497), Murad (1497, ikinci dəfə 1502 1508), Məhəmməd-mirzə (1498-1502) və Əlvəndə (1498-1504) məxsus xırda gümüş təngələrdən ibarət kifayət qədər böyük bir dəfinəni görünür, məhz bu baxış bucağından nəzərdən keçirmək lazımdır. Belə bir dəfinə 1962-ci ildə Masallı bölgəsinin Tatyanoba kəndində tapılmışdır.

**Təngə Şirvanşahlar dövlətində (XIV-XVI əsrlər).** Əmir Teymurun Azərbaycana yürüşlərinə rəğmən, Şirvan dövləti şirvanşah I İbrahimin (1382-1417) müdrik siyasəti nəticəsində özünü istilalardan qoruya bildi. Buna görə Şirvan XV əsrdə çiçəklənir və varlanırdı. Bu tərəqqinin təməlində təngə üzərində qurulmuş pul-sikkə sistemi dururdu. Bununla yanaşı qeyd edək ki, baharlı-qaraqoyunlu və bayandurlu-ağqoyunlu sülalərinin hakimiyətindən fərqli olaraq, Şirvanşahlar dövlətində təngə xüsusi rol oynamışdı. Öncə qeyd etmək lazımdır ki, Şirvanşahların VIII əsrin sonlarından başlayan sikkə zərbi işi 1260-cı ildə, Hülaku xanın göstərişi ilə şirvanşah II Axsitanın öldürülməsindən sonra faktiki olaraq dayandırılmışdı. Bunun nəticəsi kimi Şirvan dövlətində sikkə zərbinin yoxluğu XIV əsrin II yarısında vaxtaşırı icra olunan sikkə emissiyaları, Azərbaycanda hegemonluq uğrunda bir-birilə rəqabət aparan Cəlairilər, Qızıl Orda (Qıpcaq) xanları və Teymurilərin həyata keçirdiyi “işğal zərbi” ilə qismən kompensasiya olunurdu. Bundan əlavə, XIV əsrin 50-ci illərinə aid anonim gümüş sikkələrin bəzi buraxılışlarının Şirvan şahların özləri tərəfindən həyata keçirildiyini nəzərə almaq gərəkdir. Şirvanşahlar dövlətinin pul təsərrüfatındakı vəziyyət hakimiyyətə şirvanşah I İbrahimin (13821417) gəlişindən və Teymurun təsis etdiyi təngəyə əsaslanan yeni pul sisteminin bərqərar olmasından sonra köklü şəkildə dəyişdi.





XV əsrdə sosial-iqtisadi yüksəliş dövrünü yaşayan Şirvan dövləti özəl tədavül vasitələri olmadan keçinə bilməzdi. Belə bir sikkənin buraxılması üçün siyasi şərait yalnız Teymurun ölümündən sonra (1405) yetişdi. Bu sikkə elə həmin ağırçəkili və yüksək əyarlı gümüş təngə idi. Onun zərbi şirvanşahların paytaxt şəhərləri Bakı, Şamaxı və Dərbənddə icra edilirdi. Sikkələr Şivanşah I İbrahimin adı olmadan, anonim zərb edirdilər. Təngə

tapıntılarının topoqrafiyasından görünür ki, anonim Şirvan gümüşü yalnız emitentin ərazisində, daxili bazarın ehtiyaclarını ödəmək üçün işlədilmirdi, vaxtaşırı  qonşu ölkələrin, o cümlədən Gürcüstanın pul tədavülü də Şirvan təngələrindən yararlanırdı.

Bütün Cənubi Qafqazda tapılmış çoxlu sayda tək-tək sikkələri hesaba almasaq, Şirvan təngələrinin bir neçə böyük dəfinəsi aşkarlanmışdır. Göyçə gölü yaxınlığında və Şərqi Gürcüstanda tapılmış sikkə dəfinələri xüsusi maraq kəsb edir. Məsələn, Kaxetiyada tapılmış dəfinənin tərkibində XV əsrin birinci yarısına aid Şirvan gümüş təngələrindən başqa, çoxlu sayda sikkələrin oxşatma tipləri də aşkar edilmişdir.

Nəcib metaldan olan sikkələrin metropoliyadan kənarda dövriyyəsi monetar pul tədavülü tarixində adi haldır. Belə sikkələrin, şübhəsiz ki, tam dəyərliləri, hətta düşmən dövlətə məxsus olsalar belə, sərhəd tanımır. Lakin Kaxetiya dəfinəsi ilə bağlı diqqəti çəkən cəhət odur ki, Şirvan sikkələri kəmiyyət etibarilə yerli sikkəri üstələyir və hətta qeyd etdiyimiz kimi, yerli gürcü bənzətmə sikkələri üçün prototip rolunu oynayır. Bu dəfinələrin digər xüsusiyyətlərini də qeyd etmək lazımdır. Birincisi, göstərilən oxşatma sikkələr Şərqi Gürcüstan və Kaxetiya çarlığı üçün keyfiyyətli gümüş zərbinin olmaması ilə izah edilir. Faktın əsas səbəbi kimi, çarlığın XV əsrin birinci yarısında sikkələrin müəyən dərəcədə korlanması ilə müşayiət olunan feodal pərakəndəliyi  dövrünü yaşamasını diqqətə çəkmək olar. İkincisi, Göyçə gölünün daxil olduğu Azərbaycan  dövlətinin baharlılar hakimiyyəti zamanı ərazisindən Şirvan sikkələrinin tapılmasını bu sikkələrin yüksək rəqabətə davamlılığı ilə izah etmək olar.

Şirvanşah I Fərrux Yəssarın (1465-1500) hakimiyyətə gəlişi Şirvan dövlətinin sikkə işində vacib dəyişikliklərlə əlamətdar oldu. Uzun fasilədən sonra Şirvanın ənənəvi suveren sikkə zərbi bərpa olundu;  sikkə istehsalı ölkənin birinci paytaxt Şamaxı zərbxanasında mərkəzləşdirildi. Lakin 1500-cü ildə Səfəvilərlə döyüşlərdəə ağır məğlubiyyətdən və Cabanı savaşında  I Fərrux Yəssarın ölümündən sonra təngənin çəkisi tez zamanda azaldıldı, hətta Şirvan dövlətinin süqutu zamanı nominalın çəkisi 0,5 q-a endirildi.

Bununla belə, Azərbaycan Səfəvilər sülaləsinin zamanında fəal xarici mübarizəsinə baxmayaraq, şirvanşahların sikkə zərbi 1549-cu ilə qədər davam etmişdir. Bəhram bəy (1500-1501), Soltan

Məhəmməd Qazi (1501), Soltan Mahmud (1502), II Fərrux Yəssar (1528) kimi az tanınan şirvanşahların nadir sikkələri bizə gəlib çatmışdır. Bu sırada Şirvanşah Bürhan-Əlinin (1548/9) unikal gümüş sikkəsi xüsusi diqqət çəkir. O, 1538-ci ildə Səfəvilər dövlətinin bəylərbəyliklərindən birinə çevrilmiş Şirvan dövlətinin süqutundan on il keçmiş öz sikkə zərbini və Şirvanşahların dövlətçiliyini müvəqqəti olaraq bərpa etməyə müvəffəq olmuşdu.

**Səfəvilərin sikkə zərbi pul dövriyyəsi**



Qaraqoyunlu-Baharlı və Ağqoyunlu-Bayandurlu hakimiyyətinin legitimliyi daha çox "silah gücünə" dayaqlanırdı. Özlərini Məhəmməd peyğəmbər nəslinin davamçıları ("əl-Hüseyni" nisbəsi ilə), ana xətti ilə Ağqoyunlu taxtının varisləri (sonuncu Səfəvi şeyxləri Cüneyd və Heydər Ağqoyunlu Həsən Padşahın müvafiq olaraq bacısı və qızı ilə evlənmişdilər) hesab edən Səfəvilər dünyəvi hakimiyyəti əldə etmək üçün təkcə real silahdan istifadə etmirdilər. Onlar xüsusi indikator olan - hərbiləşmiş şiəliyi, yaxud da son elmi araşdırmalara görə, imamiliyi, qızılbaşlığı əldə silah etdilər ki, bu da müsəlman dünyasını iki düşmən cəbhəyə ayıraraq, bütün sonrakı Azərbaycan və İran hökmdarlarının sikkə siyasətində dərin izlər buraxdı. Xüsusi olaraq, qeyd etmək lazımdır ki, çap işinin olmadığı şəraitdə dövlət ideologiyası təbliğatının ən effektli silahı bütün zamanlarda sikkə olmuşdur. Belə ki, sikkələr hər zaman tələbata uyğun olaraq, hökmdarlar tərəfindən xeyli sayda zərb edilir, ticarət münasibətlərinə daxil olaraq, xalq kütlələrinə, əhalinin bütün qruplarına güclü təsir göstərirdi.

Səfəvilər dövlətinin yaradıcısı I Şah İsmayılın (1501-1524) maliyyəçiləri ləngimədən onun "sikkə" hüququnu həyata keçirməyə başladılar. Salnaməçilərə görə, erkən yazda – 907-ci il, ramazan ayının 2-si (11 mart 1501) Naxçıvan yaxınlığında, Şərur döyüşündə bayandurlu Əlvənd üzərində qələbədən cəmi iki gün sonra İsmayıl Təbrizə daxil olur, burada şah elan olunaraq, öz adından zərb edilmiş sikkələrlə qarşılanır, yəni yeni hökmdarın adından sikkə zərbi kimi mühüm siyasi dövlət aktı, adətən, ondan əhəmiyyətinə görə heç də geri qalmayan daha bir təntənəli mərasimdən – culusdan (intronizasiya – taxta çıxma) əvvəl yerinə yetirilmişdi. Ona görə güman etmək olar ki, yeni pulların buraxılması göstərişi 907=1501/2-ci ilin əvvəlində verilmiş və İsmayılın adından sikkələr əvvəlcədən paytaxt şəhəri

Təbrizdə zərb edilmişdi. Ola bilsin, hətta İsmayılın şah elan olunacağı ehtimal olunan Novruz bayramı günü üçün nəzərdə tutulduğundan sikkə zərbi işi öncədən həyata keçirilmişdi.

I İsmayılın bizə qədər gəlib çatmış iri gümüş sikkələri (9,36 q) Təbrizdə 1501-ci ildə kəsilmişdir. Bu tarixi hadisə idi və salnaməçi Xondəmir onu öz dördlüyünün ikinci beytində belə qeyd etmişdir:

"Sənin adının qızıla bəzək verilməsi, ey şah,
Bu, qızılın verdiklərindən ən yaxşısıdır, ey şah!

20 iyun 1503-cü ildə Almabulağı adlı yerdə Ağqoyunluların-bayandurluların digər padşahı Murad üzərində qələbədən sonra I İsmayılın sikkə hüququ **İsfahana, Kaşana, Şiraza, Yəzdə, Kermana, Bağdada** və əvvəllər Ağqoyunlulara məxsus olan digər şəhərlərə yayıldı. Səfəvilərin Cənubi Qafqaza – Şirvanşahlar dövləti və Gürcü çarlığına etdiyi çoxsaylı yürüşlər onlardan xərac və tənzimat alınması, həmçinin I İsmayılın adından Şamaxı və Şabranda epizodik sikkə zərbi ilə nəticələndi. Mərkəzi Asiyada Şeybanilər dövlətinin (1500-1598) yaradıcısı Məhəmməd Şeybani-xan (1500-1510) üzərində qələbə mühüm əhəmiyyət kəsb edirdi. 27 noyabr 1510-cu ildə şah I İsmayıl onu Mahmudi kəndi yaxınlığında darmadağın etdi və bundan sonra Səfəvi və Şeybani dövlətləri arasında sərhəd xətti Amudərya çayı oldu. Əldə edilmiş qələbələr nəticəsində I İsmayılın xütbəsi və sikkəsi Səfəvilər dövlətinin fəth etdiyi və tərkibinə qatdığı bütün ərazilərdə həyata keçirildi.



**I İsmayılın pul-sikkə sistemi.** Şah I İsmayılın sikkə zərbi, bizə gəlib çatmış sikkələrə əsasən, iqtisadi, siyasi və ya hərbi əhəmiyyət daşıyan 60-dan çox zərbxana-şəhəri təmsil edir. Təbii ki, bütün zərbxanalar mütəmadi və intensiv fəaliyyət göstərmirdi. Xüsusilə, ucqar bölgələrin zərbxanaları bir, yaxud bir neçə emissiya həyata keçirir, özlərinin Səfəvi sikkə zərbinə mənsubluğunu təsdiq edir və fəaliyyətlərini başa vururdular. Lakin bu heç də dövlət sərhədlərinin dəyişməsi anlamına gəlmirdi. Səfəvilər imperiyasının ərazi bütövlüyü I İsmayılın hökmranlığı dövrünün sonuna qədər dəyişilməz qalmışdı və numizmatik materiallar bu faktı təsdiqləyir.

Paytaxt Təbriz zərbxanası Dar əs-Səltənət ("dövlətin məkanı, yaxud qapısı") epiteti ilə başlıca mərkəz olaraq qalırdı. Burada sikkələrin çəki və əyarının metroloji normaları müəyyənləşdirilir, nəcib metallardan olan sikkələrin ümumdövlət tipologiyasını təsdiqləyirdilər.

Aşkar olunan sikkələrə əsasən, Cənubi Qafqazın, Ön və Mərkəzi Asiyanın, müasir İranın böyük Səfəvi İmperiyasının tərkibinə daxil olan şəhərlərində təsis olunmuş bütün zərbxanalar qəbul edilən qaydalara riayət edərək, Aberkux, Abivərd, Amid, Amul, Ərciş, Astrabad, Bitlis, Van, Gəncə, Herat, Damqan, Dərrud, Dəmavənd, Dizful, Döyənək, Zəncan, İrəvan, İsfərain, İsfahan, Qəzvin, Qəndəhar, Qarciyan, Kaşan, Kerman, Qum, Lahican, Laştanişah, Mazandaran, Marağa, Mərv, Məşhəd, Nain, Naxçıvan, Nimruz, Nisa, Nişabur, Ordu, Rəşt, Rey, Savə, Səbzəvar, Semnan, Səraxs, Sari, Sultaniyə, Təbriz, Təməcan, Tonəkabun, Tun, Türbət, Turşiz, Şabran, Şamaxı, Şiraz, Şirvan, Xabuşan, Xəzanə, Həmədan, Harran, Xizan adlı zərbxanalarda sikkələr dövriyyəyə buraxırdılar.

I İsmayılın sikkə zərbində orta əsrlərdə geniş yayılmış sikkəüstü zərbetmə-təkrar zərb üsulu lazım gəldikdə tətbiq olunurdu. Bunun üçün hazır sikkəni bir az qızdırmaq və kiçik punson (metalın üzərində hər hansı qrafik işarəni basmaq üçün alət) ilə onun üzərinə ştempel-möhür basmaq tələb olunurdu. Səfəvilər dövlətinin sikkə işi üçün də xarakterik olan sərbəst zərb şəraitində sikkəüstü zərb gəlirli maddələrdən biri ola bilərdi. Şirvan dövlətinin və Ağqoyunlu-bayandurlu padşahı Əlvəndin sikkələrindəki I İsmayılın "Şah İsmayıl. Qanunidir" yazısı məlumdur. Səfəvi pul-sikkə sisteminin əsas dəyər vahidi gümüş sikkə "şahi, yaxud şahı" idi. Bu terminin mənşəyi, şübhəsiz ki, səfəvilər sülaləsi ilə əlaqədardır; belə ki, səfəvilər sələfləri olan Ağqoyunlu padşahlarından, Osmanlı soltanlarından və Mərkəzi Asiya xanlarından fərqli olaraq, monarx titulu olan "şah" sözü ilə özlərini adlandırılırdılar. Bununla bağlı qeyd edək ki, I İsmayıl Təbrizə daxil olandan sonra özünü şahənşah elan etmişdi. O, özünü keçmişin böyük imperiyalarının varisi saydığı halda, adi danışıqda onu sadəcə şah adlandırırdılar. Bu səbəbdən şeybani xanlarının əsas pul vahidi "xani" ("xan" sikkəsi) adlandığı kimi, onun sikkəsi şahi, şahı adlandırılmışdı. I İsmayıl yalnız şah, yəni dünyəvi dövlət başçısı deyil, həm də imam – yeni yaradılmış şiə-qızılbvaş icmasının dini başçısı hesab edilirdi. Bu təriqətin başçısının da əsas və birinci titulu şah kəlməsi olduğu elmə məlumdur.

Şahının ağırlığı standartı səfəvi çəki vahidi olan 4.68 q-lıq misqal əsasında təsbit olunmuşdu ki, bu da 24 noxuda (noxud - 1/24 misqala bərabər çəki ölçüsüdür) uyğun gəlir. Şahının nominal dəyəri 50 mis dinara, yaxud 25 mis ikidinarlığa bərabər idi. Səfəvilər ənənəvi çəki standartı – misqal əsasında yeni pul-sikkə sistemi yaradaraq, "sanballı" nominala – iki misqallıq sikkəyə üstünlük vermişdilər. Çox güman ki, onlar bir tərəfdən çox böyük bir ərazidə formalaşmaqda olan daxili və beynəlxalq ticarətin iri ödəniş vasitələrinə ehtiyacını nəzərə almışdılar; digər tərəfdən yeni yaradılmış teokratik imperiyanın qüdrətinə və onun müəssisinin "şah" sanına layiq ağırçəkili əsas sikkə vahidi – "şahı"ya xüsusi renome qazandırmaq istəmişlər.

Şahı səfəvilər sülaləsinin hakimiyyəti zamanı əsas pul-sikkə vahidi olaraq, Səfəvilərin bütün hökmranlığı dövründə zərb edilmişdir. Lakin onun çəki standartı – rəsmi çəkisi dəfələrlə dəyişmiş və nəhayət, XVI əsrin sonlarında, şah I Abbas (1587-1629) zamanında son dəfə sabitləşmişdi.

Yuxarıda qeyd olunanlara əsasən, I İsmayıl zamanında Səfəvilər dövlətinin pul-sikkə sistemi aşağıdakı şəkildə idi:

- tümən – 10 000 mis dinara bərabər hesab-say vahidi;
- şahı – əsas gümüş sikkə vahidi, 9,36 q = 50 dinara;
- 1/2 şahi – 4,68 q = 25 dinara;
- 1/4 şahı – 2,34 q = 12,5 dinara;
- 1/8 şahı – 1,77 q = 6,25 dinara;
- iki şahı – 18,72 q = 100 dinara;
- dörd şahı – 37,44 q = 200 dinara;
- beş şahı – 46,80 q = 250 dinara - on şahı – 93,60 q = 500 dinara;
- əşrəfi, qızıl sikkə – 3,55 q = 5 şahı və ya 250 dinara;
- dinar, mis sikkə – 4,68 q.

Göstərilən məlumatlara müvafiq olaraq:

- qızılın gümüşə rasiosu = 1:13 – 16;
- gümüşün misə rasiosu = 1:25;
- qızılın misə rasiosu = 1:330.

I İsmayılın mükəmməl pul-sikkə sistemi özündə gümüşlə yanaşı, qızıl sikkələri də ehtiva edir. Qızıl sikkə epizodik zərb edilir və əsasən, donativ xarakter daşıyırdı. Onu adətən təla (ərəb. qızıl), yaxud tillə, əşrəfi adlandırırdılar. Mis sikkə pul, qara-pul və ya siyah-pul adlanırdı. I İsmayıl

dövrünə aid az sayda bizə gəlib çatmış mis iki dinarlıqların orta çəkisi 8-9 q-a yaxındır. Onlar gümüşün misə 1:25 rasiosu ilə ikimisqal ağırlığında kəsilir və hər biri 50 dinara bərabər olan ikimisqallıq gümüş şahılarla, paritet tədavülü asanlaşdırmaq üçün buraxılırdı.

1514-cü ilin Çaldıran məğlubiyyəti I İsmayılın divanına çox baha başa gəldi. Təbrizi ələ keçirən osmanlı soltanı I Səlim Yavuzun (1512-1520) qənimət olaraq apardığı sərvətlər ölkədə pul materialının çatışmazlığına səbəb oldu və sikkə zərbində ciddi çətinliklər yaratdı. I İsmayılın fasiləsiz və sabit çəkiyə malik erkən sikkə zərbi hələ 1512-cü ildə, Çaldıran döyüşünə qədər pozulmuşdu. Bu fasilə 1516-cı ilə qədər davam etdi. Həmin illərin sikkələri bizə qədər gəlib çatmamışdır və bu fasilənin hərbi hazırlıqlarla bağlı, yaxud təsadüfi olması bəlli deyil. 1516-cı ildə bərpa olunan nadir emissiyalar şahının çəkisinin əhəmiyyətli dərəcədə (7.8 qrama dək) azalmasını göstərir. I İsmayılın sikkə işində baş vermiş bu dəyişikliklər, heç şübhəsiz, Çaldıran məğlubiyyətindən sonra pozulmuş dövlət maliyyəsini yaxşılaşdırmaq məqsədi ilə həyata keçirilirdi. I İsmayılın sikkələrindəki yazılar ərəb dilində, nəsx, nadir hallarda kufi xətti ilə həkk edilirdi. Bu yazılara din sahəsində rəsmi dövlət siyasətinin, həmçinin, şiə icmasının imamı ranqına yüksəldilmiş şahın titulaturasının təbliği vasitələri kimi xüsusi diqqət verilirdi Buna görə də ehtimal etmək olar ki, sikkələrin tipologiyası onların maddi mahiyyətini üstələyirdi. I İsmayılın sikkə tipologiyası olduqca zəngindir. Sikkənin üz tərəfində – şiə-qızılbaşlıq inanc rəmzi:

Aversdə: Allahdan başqa tanrı yoxdur, Məhəmməd onun rəsuludur, Əli Allahın yaxınıdır, 12 şiə imamının ləqəbləri (epitetləri) ilə birlikdə adları

Reversdə şahın adı və təmtəraqlı titulaturası: əs-sultan ibn sultan, əl-xaqan ibn xaqan, əl-adil, əl-kamil, əl-hadi, əl-vali, əl-alim əbu-l Müzəffər şah İsmayıl əs-Səfəvi, bahadur xan (soltan oğlu soltan, xaqan oğlu xaqan, ədalətli, kamil, hadi, vali, alim əbü-l-Müzəffər şah İsmayıl bahadır xan səfəvi") həkk edilirdi.

Digər titullar da istifadə olunurdu - "əl-əzəm" (ən böyük), "əl-qaim" (sarsılmaz), "əl-qazi" (din uğrunda mübariz) və "əl-Hüseyni" nisbəsi. Sonra şaha xoş arzular - "Allah dövlətini və hakimiyyətini daimi etsin" və müxtəlif şeir parçaları zərb edilirdi. Sonuncular sırasında I İsmayılın 27 noyabr 1510-cu ildə Şeybani xan üzərində qələbəsindən sonra, elə həmin ildə meydana gəlmiş ərəb dilində dördmisralı şer diqqəti cəlb edir:

“Möcüzələr yaradan Əlini səslə,
Sənin dərdlərinə o əlac edər.
Bütün qəm-qüssə yox olar, gedər
Sənin köməyinlə ya Əli, ya Əli, ya Əli”.

Bu emissiyaya mənsub sikkələrin əks tərəfində daha bir şeir həkk edilmişdir

“Döyülmüş qızıla məbada göz qoy,
Kor olar o göz ki, belə qızıla nəzər yetirər”.

Xüsusi olaraq qeyd etmək azımdır ki, XIII yüzillikdən bütün Yaxın və Orta Şərqdə geniş vüsət almış sufi təriqətlərinin şiəlik qoluna aid olan kəsimlərinin də eyni qafiyəli şer çağırışı olmuşdu. Bu təriqətlərdən qələndərilər, qədirilər, digərlərini, o cümlədən səfəviyyələri də misal çəkmək olar.

Numizmatik abidələrdə öz əksini tapmış daha bir hadisə, bu dəfə, Baburilərlə bağlı baş verdi. Məsələ burasındadır ki, bu dönəmdə I İsmayıl ilə Böyük Moğollar imperiyasının gələcək yaradıcısı Zəhir əd-Din Babur arasında müsbət siyasi münasibətlər yaranmışdı. Şeybanilər tərəfindən “ata ocağı” Mavərannəhrdən qovulan Babur, Buxara və Səmərqəndi yenidən ələ keçirmək üçün I İsmayıla hərbi yardım məqsədi ilə müraciət edir. Sünnü olmasına baxmayaraq, o, əvəzində şiə inanc rəmzi və 12 imamın adları olan sikkələr zərb edəcəyinə və şahın adından xütbə oxutduracağına söz verir. Baburun (1483-1530) zamanımızadək gəlib çatmış sikkələri bunu təsdiq edir: onlar şiə formulu ilə və 12 şiə imamının adları ilə kəsilmişdir. Bu, sikkə tipologiyasının dini təbliğat və siyasi sövdələşmə forması kimi istifadəsinin bariz nümunəsidir.

**I Təhmasibin sikkə “islahatları”.** I İsmayılın oğlu və varisi I Təhmasibin (1524-1576) zamanında əsas sikkə vahidi olan şahı ciddi dəyişikliklərə məruz qalır. Osmanlı imperiyası və Şeybanilər dövləti ilə yenidən başlayan müharibələr nəticəsində I Təhmasibin sikkə hüququnun yayılma arealı əhəmiyyətli dərəcədə məhdudlaşır. Lakin Səfəvilər imperiyasının qərb və şərqdəki ərazi itkiləri şimalda kompensasiya olunur. Burada silah gücünə ələ keçirilən Şirvan dövləti və Şəki vilayəti ləğv edilir, bu ərazilər Səfəvilər imperiyasının tərkibinə daxil edilərək, Səfəvilərin pul tədavülü sferasına qatılır. Bununla yanaşı, I Təhmasibin şəxsən nəzarət etdiyi xəzinə xərclərinin qüsursuz aparılmasına baxmayaraq, pul tədavülü mütəmadi olaraq ciddi çətinliklər yaşayırdı.Çətinlikləri mömin, həm də çox

xəsis şahın sanki özü yaradırdı. Yarım əsrdən çox davam edən hökmranlığı zamanı Təhmasib, dövlət xəzinəsində əsasən nəcib sikkələrdən ibarət zəngin sərvət toplaya bilmişdi. Çoxsaylı vergilərdən və mükəlləfiyyətlərdən, müsadirə və cərimələrdən, gömrük haqlarından gələn böyük gəlirlər xəzinədə qalırdı. Onlar nadir hallarda pul tədavülünə qayıdırdı və bu da Səfəvilər imperiyasında pullu ticarətdə sikkə çatışmazlığının, həmçinin qəlp sikkələrin meydana gəlməsinin əsas səbəblərindən biri idi.

I Təhmasibin hakimiyyətinin sonlarına yaxın (1576) dövlət xəzinəsində müasirlərin məlumatlarına görə, 380 min qızıl tümən və gümüş sikkə, osmanlı şahzadəsini qaytardığına görə osmanlı soltanından alınmış 500 min qızıl sikkə, hər biri 3000 misqal olan 600 gümüş külçə, 800 qızıl baş geyimi və digər qiymətli əşyalar (cəmi – 8400 kq, yəni 8 tondan çox) saxlanırdı. Üstəlik, yazılı mənbənin məlumatına əsasən, bu qədər sərvəti yığıb saxlamasına görə, şəriətin vacib bildiyi zəkatı (vacib sədəqə) ödəməkdən yayınmaq üçün şah bütün nəcib sikkələr yenidən əridilib, külçələrə çevrilərək, saxlamaq üçün müxtəlif qalalara göndərmişdi. Sikkələrin metroloji analizi göstərir ki, I Təhmasib zamanında onların çəkisinin qarşısıalınmaz azalması prosesi gedirdi. Hakimiyyətinin əvvəllərində onun sikkələri atasının çəki və əyar sisteminə əsasən zərb edilirdi. Lakin 1528-ci ildən başlayaraq, şahıları xeyli zəif çəki (6.2 q) ilə zərb edirlər, 1533-cü ildən sikkələr daha da yüngülləşir (5, 25 q), həm də yalnız nominal dəyəri 100 dinar olan iki şahılar zərb edilir. 1537-ci ildə iki şahının çəkisi bir daha azaldı və onun nominal dəyəri 100 dinar olmaqla, çəkisi bir misqala (4,68 q), şahının nominal dəyəri 50 dinar olmaqla çəkisi 2.34 q-a endirildi.

I Təhmasibin zamanından yalnız iki nominal məlumdur: şahı və bisti (farsca "iyirmilik", yəni iyirmi dinara bərabər olan və 1 q-a yaxın çəkiyə malik sikkə). Onun dövründə, I İsmayılın zamanından fəaliyyət göstərən bir sıra zərbxanaların fəaliyyəti dayanır. Onlardan bəziləri Səfəvilərin Osmanlı imperiyası və Şeybanilər dövləti ilə müharibələri nəticəsində itirilmiş, digərləri sadəcə artıq fəaliyyət göstərmirdi. Buna baxmayaraq, müasir Şimali Azərbaycanın ərazisində – Ordubad, Ərəş, Zəyəm, Bəm, Qumda bir sıra zərbxanalar məhz I Təhmasibin hakimiyyəti illərində fəaliyyətə başlamışdı.

I Təhmasibin oğlu və varisi II İsmayılın (1576-1578) qısamüddətli hakimiyyəti Səfəvilər dövlətinin tarixində və onun sikkə işində xüsusi iz

buraxmışdır. Onun hakimiyyəti qəddarlığı və qırğınları ilə fərqlənirdi. O, şiəliyin nüfuzunu azaltmaq, eləcə də əhalinin şiə və hiss olunacaq qüvvəyə malik sünnü hissələri arasında kompromisə nail olmaq üçün sərt tədbirlər gördü. Bu məqsədlə, ilk növbədə, sikkənin görünüşünü - onun tipologiyasını dəyişmək qərara alındı. Bu zaman yüzillər ərzində müsəlman dövlətlərində sikkələrin üst tərəfinin əsas tipologiyası kimi istifadə olunan ortodoksal islam inancı rəmzinin - "Allahdan başqa Tanrı yoxdur, Məhəmməd Onun rəsuludur", şiə əlavəsi - "Əli Allahın yaxınıdır" və 12 şiə imamının adlarının yerini bir beytlik şeir tutdu:

Məşriqdən Məğribədək imamla dolsa,
Yetərlidir Əli və nəsli olsa

II İsmayılın dini siyasət sahəsindəki sərt tədbirləri şiə ruhaniliyinin ciddi narazılığı ilə qarşılaşdı. Din islahatı işə salınsa da, II İsmayılın xəyalları həyata keçmədi. Taxta çıxdığı zamandan cəmi il yarım keçməmiş, 1578-ci ilin 24 sentyabrında o, zəhərlənərək öldürüldü. II İsmayılın zamanında zərbxanaların sayı xeyli azaldığından, onun adı ilə zərb edilmiş sikkələr az saxlanmışdır. Lakin bunu Səfəvilərin sikkə hüquqlarının ərazicə məhdudlaşması kimi nəzərdən keçirmək olmaz. Bizə qədər onun sikkələrinin az miqdarda gəlib çatmasının səbəbi, qismən, bu şahın hökmranlığının və onun ölümündən sonra sikkə işində baş vermiş dəyişikliklər qısamüddətli olmuşdu.

**Məhəmməd Xudabəndənin sikkələri.** Yeni pul vahidi "məhəmmədi" (mahmudi) II İsmayılın qardaşı və varisi Məhəmməd Xudabəndənin (1578-1587) hakimiyyətə gəlişi ilə Səfəvilərin sikkə işində əvvəlki tipologiyanın tam ləğvi ilə əlamətdar olmuşdur. Bu səbəbdən II İsmayılın sikkələri yenidən əridildi, yaxud tezavrasiya, dəfinə obyektinə çevrildi. Yeni şahın xüsusi fərmanı ilə ilk iki səfəvinin zamanında istifadə olunan – şiə formuluna uyğun sikkələrin zərbi bərpa olundu. Təəccüblü deyil ki, yeni tipli sikkə xudabəndə, yaxud məhəmmədi adını aldı. Onun çəkisi bir misqal gümüşə (4,68 q), yaxud 2 şahıya, nominal dəyəri isə 100 dinara bərabər idi. Yarı kor və zəif iradəli şah Məhəmməd Xudabəndənin idarəçiliyi Səfəvilər dövləti üçün fəlakətli oldu. Onun həyat yoldaşı Məhdi-Ülya, böyük oğlu Həmzə Mirzə və vəziri Mirzə Salmanın mərkəzi hakimiyyəti möhkəmlətmək və ipə-sapa yatmayan hərbi-köçəri tayfa başçılarını ona tabe etdirmək cəhdləri sonuncuların qətiyyətli təpkisi ilə qarşılaşdı. 1581-ci ildə Məhdi-Ülya, 1584-cü ildə Mirzə

Salman, 1587-ci ildə isə Həmzə Mirzə öldürüldü. Daxili siyasi çəkişmələrə qonşu dövlətlərin – Osmanlıların və Şeybanilərin təcavüzü əlavə olundu. Vəziyyət o dərəcəyə çatdı ki, onlar işğal etdikləri Səfəvi ərazilərində özlərinin sikkə və xütbə hüquqlarını həyata keçirməyə başladılar. Eyni zamanda, Səfəvi İmperiyasında tez-tez özünü II İsmayıl adlandıran "yalançı hökmdarlar" meydana gəldi. Daxili və dövlətlərarası vəziyyətin mürəkkəb olduğu belə bir zamanda Səfəvilər sülaləsinin üzvləri bir-birinin ardınca "şah" elan olundular. Xorasan valisi Abbas Mirzə üç dəfə şah elan edilmişdi- ilk dəfə 1581-ci ildə Heratda, sonra 1585-ci ildə Məşhəddə və 1587-ci ildə dövlətin paytaxtı Qəzvində. Mənbələrə görə, hər dəfə bu aktlar xütbə və sikkə ilə müşaiyət edilmişdir. Lakin onun sonuncu culusundan-taxta çıxmasından əvvəl kəsilmiş sikkələri yoxdur.

1587-ci ildə Qəzvində Təhmasib Mirzə və Abutalıb Mirzə şah elan edildilər. Yazılı mənbələrə görə, bu aktlar da xütbə və sikkə ilə müşayiət olunmuşdu. Lakin onların adlarından zərb edilmiş sikkələr haqqında da heç bir məlumat yoxdur. Son nəticədə Səfəvilərin taxtında daha çox I Abbas kimi tanınan gənc və enerjili şah Abbas Mirzə (1587-1629) oturdu. Ona istər daxildən, istərsə də sələfləri zamanında xarici siyasi hadisələrin dövlətə vurduğu yaraları sağaltmaq üçün bir neçə il tələb olundu. 1590-cı ildə əsas rəqibi olan Osmanlılarla sülh bağladıqdan sonra o, bütün Xorasanı tutmuş Şeybanilərə qarşı çıxış etdi. Burada, demək olar ki, 80 illik fasilədən sonra Səfəvilərin adı ilə xütbə və sikkə zərbi işi bərpa olundu.

I Abbasın dönəmində itirilmiş ərazilərin qaytarılması və mərkəzi hakimiyyətin gücləndirilməsi, təsərrüfat həyatının inkişafı, əmtəə-pul münasibətlərinin və ticari kapitalın canlanması üçün əlverişli şərait yarandı. Bunlar öz növbəsində, pul tədavülündə dəyişikliklər tələb edirdi. II İsmayılın və Məhəmməd Xudabəndənin hakimiyyəti illərində bir qədər pul kütləsi buraxılmışdı ki, bu da müəyyən zamanadək bazarın ehtiyaclarını ödəyirdi. Lakin onların zamanında daxili ticarət iflic, xarici yox dərəcəsində idi. Osmanlı soltanlarının və Şeybanilərin tutduqları ərazilərdə işğalçıların sikkələri tədavüldə idi.

I Abbasın zamanında baş verən müsbət dəyişikliklər - iqtisadi və siyasi şərait - pul təsərrüfatı strukturunun, ilk növbədə, sikkə sisteminin yeniləşməsini tələb edirdi. Bütün bunlar şahın sikkə islahatında öz əksini tapdı.

**Şah I Abbasın sikkə islahatı.** Şah I Abbasın ilk illərində dövlət zərbi Məhəmməd Xudabəndənin sikkə sisteminə uyğun həyata keçirilirdi. Əsas pul vahidi kimi nominal dəyəri 100 mis dinar olan birmisqallıq məhəmmədi və fraksiyaları – şahı (2,34 q = 50 dinar), 1/5 hissəsi – bisti (0,975 q = 20 dinar) buraxırdılar. 1595-ci ildən başqa çəki sisteminə uyğun yeni sikkələr meydana gəlir. Yeni pul vahidi öz təsisçisinin şərəfinə "abbasi" (Abbasın sikkəsi) adlandırıldı. MATM NF-da saxlanan 18 ədəd 1595-1617-ci illər ərzində buraxılmış bu sikkələrin orta çəkisi 7,62 qramdır.

Beləliklə, I Abbasın pul-sikkə sistemi aşağıdakı kimi idi:

- ❖ Tümən (hesab vahidi) = 10 000 dinar;
- ❖ Abbası (əsas sikkə vahidi) 7.8 q = 200 dinar = 2 məhəmmədi = 4 şahi = 10 bisti = 40 qazıbəyi;
- ❖ Məhəmmədi 3.9 q = 100 dinara =2 şahi =5 bisti = 20 qazıbəyi;
- ❖ Şahı – 1.9 q = 50 dinar = 2.5 bisti = 10 qazıbəyi;
- ❖ Bisti – 0.78 q=20 dinar = 4 qazbəyi; ½ bisti – 0.39 q = 10 dinar = 2 qazıbəyi;
- ❖ Qazıbəyi – 5.6 q = 5 dinar;
- ❖ Əşrəfi – 3.55 q = 5 abbası = 1000 dinar;
- ❖ Qızıl - gümüş nisbəti (rasiosu) – 1:11.

Yeni islahatın fiskal məqsədləri göz önündədir. Əgər əvvəlki məzənnədən (4,68 q gümüş, nominal dəyəri 100 dinar) çıxış etsək, o zaman 7,8 qramlıq, yaxud 1,2/3 çəkiyə malik abbasının nominal dəyəri 7,8x100:4,68, yəni təqribən 167 dinar təşkil edir.

Beləliklə, köhnə və yeni məzənnə arasındakı fərq 200-167=33 dinar təşkil edir. Bunu yeni sikkə məzənnəsinin bilərəkdən yüksəldilməsi kimi qiymətləndirmək lazımdır ki, bu da sikkə reqaliyasından gələn fiskal gəlir mənbələrindən biri idi.

Sikkə reqaliyasının məcburi məzənnə ilə işlədilməsi, sikkə işi praktikasında daim rast gəlinən adi istismar formasından - sikkənin çəkisinin və keyfiyyətinin (əyarının) azaldılmasından fərqli olaraq, müəyyən bir əsasa dayaqlanmalı idi. Pul tədavülünün belə bir məzənnəsinin yaranmasına təkan verən faktorlardan biri dövlətin böyük sikkə materialı ehtiyatlarına sahib olması idi ki, bu da ona öz zərbini həyata keçirməyə və bütün fiskal gəlirləri mənimsəməyə imkan verirdi. Çox güman ki, bu cür pul emissiyaları paytaxt zərbxanasında – İsfahanda həyata keçirilirdi. Əyalət zərbxanaları mərkəzi

zərbxananın himayəsi altında qalmaqla və hər işdə onun göstərişlərini yerinə yetirməklə bərabər, muxtar fəaliyyət göstərir, özlərinin istehsal proseslərini təşkil edir və öz-özlərini pul materialı ilə təmin edirdilər. Dövlətin əvvəlki sərhədlərini bərpa etdikdən, mərkəzi hakimiyyəti möhkəmlətdikdən və vergi sistemini nizamlaması səbəbləri sırasında I Abbas böyük ehtimalla zərb üçün gərəkli olan materiala malik olması olmuşdu. Ona I Təhmasibin qızıl və gümüş külçələrinin bir hissəsinin, yaxud hamısının irsən keçməsini də istisna etmək olmaz.

Orta əsrlərdə sərbəst zərb praktikasını nəzərə alaraq, güman etmək olar ki, Səfəvilər Azərbaycan dövlətinin idarəçiliyini həyata keçirən zaman buna əngəl törətməmişdilər. Belə zərb üsulundan gələn gəlirlər başlıca olaraq, sikkələrin “köhnələrə” və “yenilərə” bölünməsi prinsipinə uyğun xəzinəyə daxil olurdu. Fiziki şəxslərdən zərbxanalara gələn köhnə sikkələrin – məhəmmədilərin, şahıların yenidən zərbi xeyli gəlir gətirə bilərdi. Məsələn, yenidən zərb edilərkən onlar əvvəlki adlarını və nominal dəyərlərini saxlamaqla, tədavülə müvafiq olaraq 3,90 q və 1,95 q-a uyğun gələn çox zəifləmiş çəki ilə yeni məhəmmədi və şahı şəklində buraxılırdı. Köhnə və yeni məhəmmədi, yaxud şahının çəkiləri arasındakı fərq, hətta zərbin bütün xərclərini və əridilərkən metalın itkiyə uğramasını da çıxmaqla, hiss ediləcək qədər gəlir gətirirdi. Yeni pul-sikkə sistemi məcburi məzənnəsinə baxmayaraq, dövlətin bütün ərazisi boyunca yayıldı və dövlətin ərazilərində istifadədə olan Osmanlıların və Şeybanilərin sikkələrini tamamilə tədavüldən sıxışdırıb çıxardı. O, bəzi çəki dəyişiklikləri ilə Səfəvilər dövlətinin sonuna qədər qüvvədə qaldı. Yeni sikkə sistemi bazasında daxili və xüsusilə xarici ticarətin artımı baş verdi ki, bu dolayısı ilə Qərbi Avropa ölkələrinin iqtisadi yüksəlişi ilə bağlı idi. Qərb manufaktura məhsullarının satış bazarlarına və şərq xammal mənbələrinə ehtiyacı bu ticarətin XVI-XVII əsrdə Avropadan Hindistana dəniz yolununun açılması və Qərblə Şərq arasındakı tranzit karvan ticarətinin genişlənməsi ilə sonuclandı.

Nəticələrdən biri də Səfəvilər dövlətinə xarici, əsasən, Qərbi Avropa sikkələrinin güclü axını oldu. Azərbaycandakı sikkə tapıntılarına görə, bunlar Avstriyanın, Tirolun, Saksoniyanın, Elzasın, Moraviyanın, Zalsburqun, Transilvaniyanın gümüş talerləri, İspaniyanın piastrları, Florensiyanın skudoları, Polşanın qroşevikləri, Venesiyanın qızıl dukatları idi. Bu cür əcnəbi pullar yerli bazarda bərqərar olmuş paritet əsasında

tədavüldə iştirak edə bilərdi. Lakin daha asan olmaq üçün onları alqı-satqı prosesində səfəvi sikkələri ilə dəyişdirirdilər. Bu işlə sərraflar məşğul olurdular. Xarici sikkələr yerli sikkələrə dəyişdirilərkən, yaxud bilavasitə zərbxanalara yeni yerli kəsim üçün verilərkən, müəyyən edilmiş nisbət əsasında dəyərləndirilirdi. Belə ki, bir unsiya (28-30 q) çəkiyə malik yüksək əyarlı talerlər ümumi çəkisi 23 qrama yaxın gələn 10-13 şahi ilə dəyərləndirilirdi. Göründüyü kimi, bir talerin yeni zərbindən əldə edilən təmiz gəlir 28-23=7 qrama, yaxud 4 şahıya və ya bir abbasıya bərabər olurdu.

**Şah I Abbasın varislərinin sikkə zərbi.** Şah I Səfi (1629-1642), II Abbas (1642-1666) və I Süleymanın (1666-1694) zamanında sikkə kəsimi nəzərə çarpacaq dəyişikliklər olmadan həyata keçirilirdi. Tədavüldə 5 şahı, 5 abbası, (“pəncabbasi”, “pəncşahi”), abbası, məhəmmədi, şahı, bisti və lari kimi gümüş nominallar var idi. II Abbasın zamanında abbasının çəkisi 1 noxud (39x0,192=7,5 q) aşağı düşdü. Sikkə tipologiyası dəyişikliyə uğradı: sikkələrdə bir qayda olaraq fars dilində şer parçaları meydana gəldi. I Süleymanın dönəmində Səfəvilər dövlətinin ümumi təsərrüfat və siyasi böhranının ilk və bariz əlamətləri üzə çıxır. Abbasının çəkisinin daha bir noxud aşağı düşməsi (7,33 q-a qədər) və keyfiyyətinin pisləşməsi baş verir. Azərbaycanda olmuş alman səyyahı E.Kempferə görə, 1684-cü ildə xəzinəyə daxil olmuş 30000 tüməndən yalnız 300-ü tamdəyərli kimi təsdiqlənmişdi. I Süleyman zamanında “yaxşı” sikkələr zərb edilsə də, digər avropalı mənbənin xəbər verdiyinə görə, onlar həmin anda tədavüldən yox olurdu. Yaranmış vəziyyətdə dövlətin pul təsərrüfatında Xuzistandakı Hoveyz şəhərinin gümüş məhəmmədi sikkələri xüsusi şöhrət qazanır. Həmin dövrə aid və tərkibinin böyük hissəsi bu sikkələrdən ibarət olan dəfinələr bunu sübut edir.Qeyd etmək lazımdır ki, bu nominal o qədər məşhur olmuş və intensivliklə zərb edilmişdi ki, XVII əsrin sonlarına yaxın hətta gümüş suyuna çəkilmiş mis sikkəyə çevrilmişdi.

I Süleymanın varisi onun böyük oğlu – iradəsiz və fanatik **I Hüseynin** hakimiyyət illərində (1694-1722) zərbxanaların sayının azalmasına baxmayaraq, bizə qədər gəlib çatmış sikkələrinin sayına görə, onun dönəmi birinci yer tutur. Belə bir “dissonans zərbin” bolluğundan daha çox, sikkənin “əl altındakı” vəziyyətdən “torpaq altındakı” vəziyyətə keçməsinə təsir göstərmiş faktorların bolluğu ilə izah edilir. Məlumdur ki, ictimai sarsıntılar

dönəmində sikkələrin torpağa gömülməsi halları xeyli çoxalır. 1700-1711-ci illər abbasının orta çəkisi yalnız 7,30 q, yaxud 38 noxud təşkil edir. 1711-ci ildən yeni tip sikkələrin – dördbucaqlı, uzunsov pəncşahilərin-beş şahı, məhəmmədilərin və şahıların meydana gəlməsini pul təsərrüfatında nizam yaratmaq cəhdi hesab etmək olar.



Numizmatika Fondunda saxlanılan çoxlu sayda beşşahıların orta çəkisi 8,64 q-dır. Göründüyü kimi, nominal dəyəri yazılı mənbələrə görə,` 250 dinar olan beşşahıların buraxılışı mövcud sikkə sistemini təkmilləşdirməkdən daha çox, əlavə fiskal gəlir əldə etmək məqsədi daşıyırdı. Onun nominal dəyərinin abbasiya nisbətən 250-200:7.3 x 8.64=13 dinar artması yeni sikkələrin zərbindən əldə olunan gəlirə əlavə olaraq xəzinəyə daxil olurdu. Düzbucaqlı sikkələrin zərb edilməsi 1717-ci ildə pul tədavülündə yeni abbasılar meydana gələn zaman başa çatdı. "Təzkirət əl-Mülk" traktatına görə, bu sikkələr 5,46 q-a bərabər olan 7 danqa, yəni, demək olar ki, 2 q az çəki ilə zərb edilirdi. Lakin bu çəki azalması sonuncu olmadı: tezliklə abbasıların vəzni altı danqa, yəni 1 misqala – 4,68 q-a qədər aşağı endirildi.

Yazılı mənbələrə görə, sonuncu emissiyalar üçün xəzinədə olan qiymətli metallar, o sıradan şahın əcdadının qəbirlərindən çıxarılan qızıl, gümüş əşyalardan istifadə olunmuşdu. Səfəvilər dövlətində artan siyasi və iqtisadi böhran və siyasi hakimiyyətin iflası şəraitində həyata keçirilən sonuncu islahat pul tədavülü sferasının və vaxtın daralması səbəbindən uğur qazanmadı. Belə ki, az sonra, məhz I Hüseyn zamanında, iki yüzillik Səfəvilər dövlətinin tarixi faktiki olaraq başa çatdı. Formal olaraq o, daha bir neçə il yaşasa da, bu, bir zamanlar qüdrətli imperiyanın yalnız aqoniyası idi. Gilzailər tayfasının başçısı, Qəndəhar şəhərinin qələndəri (valisi) Mir-Veys özünün müstəqilliyini bəyan etdi, xütbə və sikkə zərbini həyata keçirdi. O, üzərində aşağıdakı beyt olan sikkə də zərb etdirdi:

"Rahatlıq yeri Qəndəharda sikkə kəsdi
Ölkə hökmdarının qulu, məşhur Mir-Veys".

Uveysilərin (Səfəvilər hakimiyyətini qəsb edənlərin – Mir-Veysin xələfləri Mahmudun (17221725) və Əşrafin (1725-1730) sülalə hakimiyyətini şərti olaraq belə adlandırılır), həmçinin Səfəvilərin son şahları II Təhmasib (1722-1732) və III Abbasın (1732-1736) gümüş sikkəsi – abbası

1717-ci ildə təsis olunmuş 5,46 q-lıq çəki ilə zərb edilirdi. Səfəvi imperiyası dönəmində onun sikkələri bir çox Azərbaycan şəhərində - Ərəş, Ərdəbil, Gəncə, Dərbənd, Zəyəm, İrəvan, Naxçıvan, Ordubad, Təbriz, Şamaxı və Şabranda zərb olunmuşdur.

## Əfşar dövlətinin pul-sikkə sistemi.

Səfəvilərin hakimiyyətinin zəifləməsindən sonra ayrı-ayrı bəylər-bəylikləri müvəqqəti hakimlər idarə edirdilər. Onların arasında ən uğurlusu II Təhmasibin zamanında Təhmasib-Quluxan tituluna layiq görülmüş, türk əfşar tayfasından olan Nadir idi. 1736-cı ildə Azərbaycanın Muğan düzündə keçirilmiş qurultayda o, Səfəvilərin sonuncu şahı III Abbasın şahlıqdan salınmasına nail oldu və özü şah elan edildi (1736-1747).

Türk tayfalarının içərisində özünün qəhrəmanlıqlarına, xüsusi sərkərdəlik istedadına, döyüşçülük qabiliyyətinə görə seçilənlər sırasında əfşarlar haqqında müəyyən tarixi məlumatlar olsa da, bu dövlətin yaradıcısı olan Nadir şah tərəfindən yaradılan pul sistemi ayrıca bir polemika mövzusu ən azından Azərbaycan tarixşünaslığında hələ ki, yoxdur. Halbuki bütün dünyanın tanıdığı və qeyri-adi dövlətçilik düşüncəsinə malik olan Nadir şah hakimiyyətinin ilk dövründən etibarən, bütövlükdə sələfləri olan səfəvilərin pul sistemini tamamilə dəyişmişdi.

Azərbaycanın numizmatika elminin ümumi tarixşünaslığında Nadirin hakimiyyətə gəlişi səfəvilərin zəifləməsi nəticəsində yerli hakimlərin - bəylərbəyilərin hökmdarlıq uğrunda savaşların başlanması və nəticədə son səfəvi şahı II Təhmasibin vaxtında “Təhmasib Qulu xan” tituluna layiq görülmüş türk əfşar tayfasının nümayəndəsinin hakimiyyətə gəlməsi qısa olaraq bu cür təsvir edilir: ”XVIII əsrin ikinci yarısında Azərbaycanın siyasi və sosial-iqtisadi vəziyyəti təsərrüfat böhranı ilə xarakterizə olunur. Bu, bir sıra mənfi amillərin nəticəsi idi. Birincisi, Nadir şahın bu ölkəyə etdiyi çoxsaylı dağıdıcı və qarət yürüşləri.İkincisi, onun varis epiqonları-Adil şah (1747-1748), İbarhim (1748-1749) və Şahruhun (1748-1750) Əfşarların sülaləsinin davam etdirilməsi yönümündə uğursuz cəhdləri; üçüncüsü, ayrı-ayrı tayfa birləşmələri başçılarının göstərdiyi sərt müqavimət”.

Əfşarların hakimiyyəti sikkələrə əsasən 1736-1802-ci ilə qədər pul zərbi işini həyata keçirmişlər.

**Nadirin şəcərəsi:**

I Nadir Şah – 1736-1747

Əliqulu xan-Adil şah – 1747-1748

İbrahim şah– 1748

Şahruh şah – 1748-1796

II Nadir – 1802

Əfşarların pul sisteminin araşdırılmasında numizmatika elmində tətbiq edilən ikonoqraik metodu maraqlı faktların üzə çıxarılmasına yardım edir.

**Nadir şahın sikkələri.** Nadir şahın ən erkən sikkələrindən biri Şamaxıda 1974-cü ildə aşkar edilən dəfinədə təyin edilmişdi. Bu sikkə Nadir şahın Muğanda hakimiyyətə gəlməsinin şərəfinə zərb edilmişdir. Bu sikkənin **aversində**: səkkiz guşəli möhürün daxili səthində fars dilində "İran tayfasından hökmdar, dünyanı fəth edən Nadir öz mülkünü dünyada məşhur etdi və qızıldan sikkə zərb etdirdi". Məşhəddə zərb edilmişdir" cümləsi zərb edilmişdir.

**Reversində**:eyni səkkiz guşəli möhürdə 3 sətrlik yazıda fars və ərəb dilində "Xoşbəxt taxt tacın vaxtı və hər baş verən hadisədə xeyir var". Sonuncu cümlədə əbcəd əlifbası xronoqramı vardır, yəni – "Al xmr fi ma baqa" – 1148/1736-cı illər.

Nadirin adından zərb edilən sikkələrdə qızılbaşlıq-şiəlik simvolları yoxdur. Onun hakimiyyəti zamanı pul sistemində və bazarında baş verən ən maraqlı yeniliklərdən biri də Hindistanın klassik "rupi"adlanan sikkələrinin oxşarlarının da zərb edilməsidir. Bu gümüş pulların orta çəkisi 1,15 qram idi.

**Aversdə:** irixətli dairənin daxilində "Şahlar şahı Nadir. Dünya sultanlarının Sultanı" ,.

**Reversdə:** "İsfahanda zərb edilib" sözləri fars dilində yazılmışdır .

Nadir şahın hakimiyyəti zamanı sikkələr üzərində olan möhürlərin məlumatları əsasən fars əlifbasında və dilində zərb edilirdi. Əsas fikirlər aşağıdakı kimi zərb edilmişdir:

1. Sikkə səltənətdə və cahanda İran torpağının hökmdarı Nadir tərəfindən zərb edilmişdir.
2. Sahibqran Şahlar Şahı Nadirin Cahan Səltənətində Sultan olduğu zaman.

3. Ayın üzü təzələndi. Nadir şahın sikkəsi zərb edildi.
4. Xeyirli işin baş verdiyi tarixdə zərb edilmişdir.
5. Sultan Nadirin hakimiyyətini və mülkünü Allah qorusun.
6. Qazi, Padşah Nadir Şahın mübarək sikkəsi.

Bununla belə, bəzi dünya muzeylərinin numizmatika fondunda qurudulmuş dəvə dərisindən pulabənzər formada kəsilmiş , üzərində aydın olaraq mürəkkəblə yazılmış və cızılmış yazılarda fars və Azərbaycan türk dilində olan, xalqın tam olaraq anladığı ifadələrdən istifadə edilən nominallar mövcuddur. Belə pulu əvəz edən dəyər vahidlərinin istifadəsinin səbəbi Nadir şahın hakimiyyəti zamanı fasiləsiz olaraq apardığı müharibələr zamanı bəzən əsgərlərin maaşının gecikməsi zamanı səhra şəraitndə hazırlanması, müvəqqəti xarakter daşıması ilə əlaqədar olmuşdur. Belə pullar üzərində: Posti şütür hökmi Nadir demə götür.

Dəvə dərisi demə, Nadirin hökmüdür, götür- kimi maraqlı əmr formasında cümlələr olurdu.

Nadirin hakimiyyətdə olduğu 11 ildə dövlətçilik atributu olan gümüş dirhəmlərdə, əsasən Nadirin titulları ayrı-ayrı illərdə onun qələbələri ilə əlaqədar dəyişilmişdi.Bununla belə şahın əsas titulu şah və soltandır.Bu iki titul sikkələr üzərində hələ səfəvilər zamanından mütləq olaraq zərb edilirdi. Sikkələrinin üzərində yalnız soltan titulu olan sikkələrin ayrıca bir tarixi vardır. Belə ki, Nadir şahın Hindistana uğurlu yürüşü zamanı ordan xeyli sayda gümüşdən olan "baburi" rupilərini ölkəyə gətirmişdi. Bu rupilərin orta çəkisi 11,5 qram idi. Baburi pullarının bir hissəsi təkrar istehsala göndərilərək, yeni, gümüş, aşağı çəkili olaraq, kəmiyyətcə 3 dəfə artıq sayda olan "nadiri" sikkələri buraxılmışdı. Məhz bu sikkələrin üzərində Nadir özünü yalnız qısa olaraq, sultan kimi göstərirdi. Digər titulu qazi, padşah, sahibqran sözləridir.

Beləliklə, tarixi, xronoloji aspektdən diqqət yetirdikdə, hakimiyyətə gəldiyi Muğan qurultayından dərhal sonra zərb ili göstərilmədən "Xeyirli işin baş verdiyi tarixdə zərb edilmişdi" cümləsi bu hadisəni təsdiq edir.

Eyni ildə baş verən hərbi uğurlar zamanı tutmuş olduğu şəhərlərin adı göstərilməklə, "Ayın üzü təzələndi. Nadir şahın sikkəsi zərb edildi"-cümləsi aydın şəkildə ayın rəmzi olan gümüş sikkələrin reversində süls xətti ilə fars dilində zərb edilmişdi. Diakritik nöqtələr dəqiqliklə nəbati obrazlar daxilində

göstərilmişdi.”Ayın üzünün təzələnməsi” ifadəsi yeni bir ayın əvvəli anlamında qəbul edilən bir ifadədir.

Maraqlıdr ki, sikkələrin nominal adı göstərilməsə də, bəzən sikkənin “mübarək” olması ayrıca göstərilirdi.Əslində bu söz sikkəyə verilən önəmin əsas göstəricisi hesab edilə bilər. Ona görə ki, hakimiyyətin əsas işi ən yeni tarixə qədər şərq ölkələrində islamın qəbul edilməsindən sonra məscidlərdə hökmdarın adından xütbə oxunması və yeni-mübarək, xoşbəxtlik, legitim hakimiyyət rəmzi olan sikkələrin zərb edilməsi olmuşdu. Amma bu söz yalnız Nadir şahın hakimiyyəti zamanı sikkələrdə ara-sıra zərb edilirdi.

İkonoqrafik analiz nəticəsində Nadir şahın həyata keçirdiyi əsas siyasətin bir qismi olan dini təriqətlərlə, daha dəqiq şiə və sünnü təriqətlərinin mübarizəsinin sona çatdırılması yolunda apardığı mübarizə, sikkələrdə tam olaraq öz əksini tapmışdır. Bu sikkələrdə artıq 12 imamın adları və klassik “Əliyyən Vəliyullah” kəlamını müşahidə etmirik. Bunların əvəzinə yalnız Allah kəlməsinə, zərb tarixi, zərb yerinin adı və şer formasında olan maraqlı fikirlərin fars dilində qrammatik cəhətdən səhvsiz, kalliqrafik baxımdan süls xətt növündən istifadə edilərək hazırlanan möhürlərə rast gəlirik. Pulların aversində ayrıca bir daxili xətli dairənin içərisində Nadirin adı və tarixi hadisələrə uyğun olaraq, titulları tək və ya bir neçə şəkildə zərb edilirdi. Reversdə pulların zərb tarixi əsasən rəqəmlərlə sətirlərlər arası, şəhər adı və qəbul edilmiş qaydaya uyğun olaraq hökmdarın hakimiyyəti barəsində arzu, diləkləri cümlə, yaxud şer şəklində zərb edilirdi. Bu cür tipdə olan sikkələrin bəzək elementləri kimi həndəsi xətlər, 3, 5, 8 ləçəkli çiçək obrazlarının imitasiyası əsas elementlərdən hesab edilir. Zərb üçün istifadə edilən gümüşün əyarı yüksəkdir. Pozulma faktoru kafi hesab edilir.

Əfşarların pul sisteminin əsas yeniliklərinin araşdırılmasında metroloji analizin və narrativ materialların mühüm əhəmiyyəti vardır. Belə ki, metroloji analizlərə görə əfşarların hakimiyyəti illərində səfəvilər zamanından pul işində qəbul edilmiş hökmdar adlarına uyğunlaşdırılmış sikkə zərbi işi davam etdirilmişdi. Belə ki, Nadirin hakimiyyətinin ilk zamanından buraxılan gümüş pullar “nadiri” adlandırılmışdır. Bu yeni və “inqilabçı” xarakterli nadirilərdən başqa, abbası, şahı, şeşşahı, məhəmmədi, imami adlı nominalları da istifadə edilirdi. Bununla belə, Azərbaycan xalqının yaddaşında islami sikkə nominallarının metala görə əsas adı hələ

yaşamaqdaydı. Belə bir fakt Ordubadın Vənənd kəndindəki məscidin epiqrafik yazısında öz əksini tapmışdır. Məhz Nadir şahın hakimiyyəti illərində yazılan bu kitabədə olan zəngin metroloji məlumatlarda həmin illərdə əhalinin gündəlik istifadə etdiyi ərzaq məhsullarının bazarda olan satış qiymətləri klassik gümüş dirhəmlərlə ifadə edilmişdir.

**Əli Qulu xanın (1747-1748) sikkələri.** Bu hökmdar Əliqulu xan adı daşımasına baxmayaraq, buraxmış olduğu sikkələrdə əsas titul kimi Adil şah -Ədalətli şah, sultan ifadəsini daha çox zərb etdirmişdi. Görünür bu səbəbdən tarixşünaslıqda o Adil şah kimi qəbul edilmişdir.Sikkələrdə onun əsas titulları sırasında soltan sözünə mütləq rast gəlinir.Əliqulu xan öz adından sikkə zərbində bəzən "sahib əz zaman-zamanın sahibi"-yəni islamda qəbul edilən Mehdinin adından da istifadə edirdi. Öz adı Əliqulu xan olan bu hökmdarın sikkələrin ikonoqrafik analizinə görə pulların avers və reversində əsasən aşağıdakı kəlmələri təyin etmək mümkün olmuşdur:

- ❖ Əlinin adına səltənət sikkəsi.
- ❖ Ədalətli dövranda sikkə zərb olundu. Şahın və Sultan Əlinin hakimiyyəti zamanı.
- ❖ Allah mülkünü qorusun.
- ❖ Əli ibn Musa ər-Riza zamanı ki, qızıl və gümüş cahanda bərqərar oldu.
- ❖ Sikkə Sahib əz Zamanın adından zərb edildi.

**İbrahim şahın sikkələri (1748-1749**) Bu hökmdarından adından dövriyyəyə buraxılan sikkələr öz bəzək elemetlərinə görə Əliqulu xanın adından buraxılan pullardan kəskin fərqlənmir. Şah titulu saxlanılmaqla, sahibqran kəlməsi də daxil edilmişdir.Əsas ifadələr aşağıdakılardır:

- ❖ Sahibqıran sikkəsi Cahan hökmdarı İbrahim şah tərəfindən zərb edilib.
- ❖ Nə vaxt ki qızıl və gümüş parladı İbrahimin sikkəsi sərəfləndi cümlələri daha çox təyin edirlir.

**Şahruh şahın (1748-1750)** sikkələri üzərində daha çox aşağıdakı fikirlərə rast gəlinməkdədir.

- ❖ İran dövləti yenidən gəldi və başında Şahruh Sahibqıran durdu.
- ❖ Cahanda Allahın hökmü ilə sikkə zərb edildi. Şahruh Rzanın astanasında
- ❖ Allah Şahruh sultanın mülkünü və hakimiyyətini qorusun .

Qeyd etmək lazımdır ki, Şahruhun atasının adı da  Rza Qulu idi.Amma ehtimal etmək olar ki, burada imam Rzanın adı göstərilmişdir.

II Nadirin adından sikkə zərbi haqqında məlumat bəzi əcənəbi ədəbiyyatda vardır. Amma  Azərbaycanda mövcud olan numizmatika fondlarında belə pullar haqqında heç bir məlumat olmadığından onlar haqqında heç bir analiz aparmaq mümkün olmamışdır.

Ümumilikdə, Əfşar sülaləsinin hakimiyyəti zamanı dövriyyədə olan sikkələr Azərbaycan xalqına aid olan etnik ərazilərdə kifayət qədər geniş istifadə edilmişdi. Arxeoloji qazıntılar zamanı aşkar edilən dəfinələrin tərkibində və təsadüfi tapıntılar zamanı mövcud olan bu pullar mədəni təbəqəyə görə, stratiqrafik analizlərin nəticəsinə görə bütövlükdə XVIII və XIX əsrin ilk yarısında kifayət qədər istifadə edildiyini sübut edir .

Ümumilikdə Əfşarların hakimiyyətinə aid sikkələrin və dəfinələrin Azərbaycanda rəsmi elmi qeydiyyatdan keçən nümunələri aşağıdakılardan ibarətdir:

**1**.1841-ci ildə Gəncə quberniyasının Şəki və Şuşa nahiyəsində 216 ədəd gümüş nadiri sikkələrindən ibarət dəfinə tapılmışdır. Dəfinədə 1737-1748-ci illərdə Nadir şahın adından Kabildə, Qəndəharda, Heratda, Məşhəddə, Şirazda, İsfahanda, Təbrizdə, Gəncədə, Tiflisdə və Nadirabadda zərb edilən sikkələr; Əli Qulu xanın-Adil şahın  adından İsfahanda, Qəzvində Təbrizdə 1747-1748-ci illərdə zərb edilən sikkələr;  İbrahim şahın adından Qəzvində, Təbrizdə və Tiflisdə 1747-1748–ci illərdə; Şahruhun adından 1748-1755-ci illərdə yuxarıda göstərilən şəhərlərin zərbi; Baburilərin adından 1 ədəd. Dəfinənin tərkibində göstərilən sikkələrdən başqa Şah III İsmayılın adından Rəştdə 1753-1754-cü illərdə, Kərim xan Zəndin adından Qəzvində 1761-1762-ci illərdə, Şirvan xanlarının adından Şamaxı zərbi1763-64-cü illərə aid, osmanlılara aid III Əhmədin adından (1703-1730) Təbrizdə zərb edilən qızıl onluq aşkar edilmişdi.

**2**.Bakı quberniyasının Göyçay nahiyəsinin İsmayıllı kəndindən 1900-cu ildə aşkar edilən dəfinədə ən erkən zərb 1717-ci ilə, ən son 1761-ci ilə aid olan gümüş sikkələrdən ibarətdir.

**3**.Bakı quberniyasının Ərəş nahiyəsinin Qaradaşlı kəndinə 1902-ci ildə 49 ədəd gümüş sikkədən ibarət dəfinədə səfəvilər, əfşarlar, zəndilər, və Gəncə və Şirvan xanlarına aid sikkələr olmuşdu.Sikkələr bütövlükdə XVIII əsri əhatə edirdi

**4**.Şamaxıda 1909 –cu ildə 73 ədəd gümüş sikkədən ibarət dəfinədə səfəvilər, əfşarlar, zəndilər, qacarlara aid sikkələr aşkar edilmişdi.

**5**.1935-ci ildə Muğan ərazisində aşkar edilən 393 ədəd gümüş sikkələrdən ibarət olan dəfinənin tərkibində Nadir şahın adından zərb edilən nominallar araşdırılmışdı.

**6**.1934-cüildə Gəncədə 200 ədəd sikkədən ibarət dəfinədə Nadir şahın adından Təbrizdə 1748-ci ildə zərb edilmiş gümüş sikkə vardır.

**7**. 1934-cü ildə Fizuli bölgəsindən 20 ədəd gümüş baburi rupiləri və Nadir şahın adından Azərbaycan şəhərlərindən Təbriz, Tiflis, İsfahan, həmçinin Rəşt və Qəzvində zərb edilən nadiri sikkələri aşkar edilmişdi.

**8**.1934-cü ildə Şəkidən aşkar edilən 68 ədəd cürbəcür gümüş sikkələrdən ibarət olan dəfinədə əfşarların bütün hökmdarlarınadından zərb edilən sikkələrlə bərabər Kərim xan Zəndin adından Təbrizdə və Qəzvində buraxılmış sikkələr tapılmışdı.

**9.** 1935-ci ildə İrəvan şəhərinin mərkəzində məktəb tikintisi zamanı 250 ədəd ayrı-ayrı nominallardan ibarət olan dəfinədə 10 ədəd Azərbaycan şəhərlərində zərb edilən nadiri və baburi sikkələri aşkar edilmişdi.

**10**. Şəkidə 1935-ci ildə aşkar edilən 100 dən artıq sikkə dəfinəsinin tərkibində Nadir şahın adından zərb edilən 24 ədəd nadiri və şeşşahi təyin edilmişdi.

**11**.1971-ci ildə Şamaxı dəfinəsində aşkar edilən 162 ədəd gümüş nominallar, 1718-1774-cü illərdə dövriyyədə olmuşlar. Onların içərisində 7 ədəd I Hüseyn Səfəvi tərəfindən Təbriz, Tiflis və İrəvanda zərb edilən gümüş abbası aşkar edilmişdir. Nadirin adından zərb edilən 4 ədəd sikkə Məşhəddə və İsfahanda zərb edilmişdi.

Azərbaycanın bəzi xanlıqlarında öz sikkə zərbi işinə başlayana qədər və ya yeni xan pulları ilə birgə eyni dəyərdə “nadiri” sikkələri də istifadə edilmişdi. Bu qəbildən Gəncə xanı Şahverdi xan (1747-1760), Məhəmməd Həsən xan (1760-1780) hakimiyyəti zamanı yerli zərbxanada üzərində “Soltan Nadir“ zərb edilən və orta çəkisi 4,6 qram olan gümüş “nadiri” sikkələri dövriyyəyə buraxılması faktlarını göstərmək olar. Belə numizmatik materiallar əslində pul sistemində varislik məsələsini təsdiq edir;yəni, bəzi xanlar özünü məhz Nadir şahın varisi kimi xalqa tanıtmaq üçün onun adından sikkələr zərb etdirmişlər.

Beləliklə, Azərbaycanın ən yeni tarixində mühüm rol oynamış Nadir şah Əfşar və onun sülaləsinin davamçıları zamanı həyata keçirilən əsas siyasi məqsəd-Səfəvilər zamanında yaradılan dövlətin sərhədlərinin bərpa edilməsi işi daha çox numizmatik materiallarda öz əksini tapmışdır. Dünyanı lərzəyə gətirib, məhvərindən çevirməyi bacaran Əfşar türkü Nadir şah hakimiyyətinin rəmzlərindən olan pullarda şəhər adlarını və tarixləri mütləq zərb etdirmişdi. Bu şəhərlər xalqımıza məxsus olan ərazilər idi. Dövlətin adını İran kimi təqdim edən Nadir şah əslində özünün türk olmasını və taxt- tacın ona aid olmasını ayrıca pullarda zərb etməyi, görünür, özünə borc bilmişdi. Fars dilindən və əlifbasından istifadə etməsi daha qədim tarixə malik olan bir yaddaşın nəticəsi ola bilərdi. Fars əlifbası dünya linqvistlərinin araşdırmalarına görə sasanilər dövründə formalaşmışdı. Bu əlifba orta fars adlanaraq, öz növbəsində qədim Parfiya əlifbası əsasında yaradılmışdı. Parfiya əlifbası antik dövrdə bütün Avrasiyada qəbul edilən qaydalara görə, aramey əlifbası əsasında formalaşmışdı. Fars dilinin tərkibində 50 faizdən bir qədər az türk sözləri var. Bundan başqa, yetkin orta əsrlərdə XII-XVIII əsrlərdə saraylarda əsas ünsiyyət vasitəsi fars dili hesab edilirdi. Saray- hakimiyyət, hakimiyyət - qanun, qanun- söz demək idi. Ali söz olan qanunların qorunduğu ən kiçik ölçülü maddi-mədəniyyət nümunəsi pullardır. Əfşarlar zamanı dəyişilən qanunlar, geri qaytarılan torpaqlar aydın şəkildə hər bir dövrün “pasport” xarakterini daşıyan pullarda tam olaraq göstərilmişdi. Bu, artıq ümumilikdə pul sisteminin dəyişilməsi idi. Xüsusi olaraq qeyd etmək lazımdır ki, əfşarların hakimiyyəti zamanı dövriyyəyə mis pullar buraxılmamışdı. Bu isə iqtisadiyyata önəm verilməklə yanaşı, daxili bazarın pul çatışmazlığının olmaması anlamını ifadə edən mühüm faktordur. Hətta xanlıq dövründə belə Nadir şahın adından yalnız gümüş pullar zərb edilmişdi. Nadir şahın məhz Hindistandan Babur şahın zamanında zərb edilən pulları kütləvi şəkildə öz məmləkitinə gətirməsi və yenidən əritdirərək, təzə rupilər zərb etdirməsi onun vaxtilə Şah I İsmayılla Babur arasında olan müqavilənin pozulması ilə əlaqədar bir mühüm addım olmuşdu. Zamanında Şah I İsmayıl Hindistana yürüşü dayandırmağının əsas səbəbi Baburun onun şərtlərinə razı olması və ərazisində onun adından şiə-qızılbaşlıq simvolları olan pulları zərb etdirməsinə razılıq verməsi olmuşdu. Bununla da, Babur Şah I İsmayıldan öz asılılığını rəsmi olaraq, dünyaya tanıtmışdı. Amma onun ölümündən sonra varisləri tərəfindən bu iş dayandırılmışdı. Təkrar Nadir Şah Hindistanın şimal

qərb torpaqlarını geri qaytardıqda, məhz Baburun zamanında dövriyyədə olan gümüş pulları yenidən zərb etdirib, bütün məmləkətdə, xüsusilə də Hindistanda dövriyyə rəsmi tədavül vasitəsi kimi buraxdırmışdı. Bununla da, oranın türk dövlətinə aid olamasını bir daha, artıq öz adından təsdiq etmişdi. İkinci belə bir təsdiq faktoru məhz bu pullarda Nadirin Şah titulundan istifadə etməməsidir. Bu pullarda bir titul –soltan titulu aversdə Nadirin adından əvvəl, şah sözü isə sonra zərb edilmişdi. Bununla da, əfşar Nadir şahın pul sisteminin bütün dəyişikliklərini türk numizmatikasının ən son uğuru kimi dəyərləndirmək olar.

**Azərbaycan xanlıqlarında sikkə zərbi və pul dövriyyəsi**



XVIII əsrin ikinci yarısına doğru Azərbaycanın siyasi və sosial-iqtisadi vəziyyəti təsərrüfat böhranı ilə xarakterizə olunur. Bu, bir sıra mənfi amillərin nəticəsi idi. Birincisi, Nadir Şahın çoxsaylı dağıdıcı və qarət yürüşləri; ikincisi, onun varisləri - Adil (1747-1748), İbrahim (1748-1749) və Şahruhun (1748-1750) Əfşarlar sülaləsinin davam etdirilməsi yönündə uğursuz cəhdləri; üçüncüsü, ayrı-ayrı tayfa birləşmələri başçılarının göstərdiyi sərt müqavimət. Bütün bu hadisələr nəticəsində Azərbaycanda 19 adda böyüklü, kiçikli xanlıqlar meydana gəldi.

Xanlıqlar şahlığın miniatür forması idilər. Onlar dövlət hakimiyyətinin bütün atributlarına - ərazi, sülalə, ordu, idarəetmə aparatı, bayraq, möhür və digər insiqniyalara malik idilər. Azərbaycanın ilk tarixşünas-alimi A.Bakıxanov "Gülüstani-İrəm" əsərində qeyd etdiyi kimi, xanlar "öz əyalətlərini irsi və müstəqil idarə edərək, suveren hakimlərə çevrildilər". Xanlar sikkə hüququndan da istifadə edir, lakin sikkələri anonim - eponimin adı göstərilmədən zərb edirdilər. Adlı zərb hökmdarın legitimliyindən daha çox, real müstəqilliklə bağlı olmuşdur.

İqtisadi cəhətdən zəif olan və daim öz aralarında düşmənçilik edən xanlar ali hakimiyyət səlahiyyətinə, ümumi konsensusa-razılığa doğru cəhdlər göstərsələr də, tam olaraq, Azərbaycanı birlərşdirə bilmədilər. Bəzi uzaqgörən xanların birləşmək və müstəqillik əldə etmək cəhdləri digərlərinin təkəbbürlü ambisiyaları ilə toqquşurdu. Ən güclü və geniş ərazili Azərbaycan xanlıqlarının yaradıcıları – Şəki xanı Çələbi xan və Qarabağlı Pənahəli xanın bu istiqamətdə apardıqları fəaliyyət müsbət nəticələr vermədi.

Ölkəni birləşdirmək və vahid Azərbaycan dövləti yaratmaq üçün yaxşı imkan əldən verildi. Son nəticədə Şimali Azərbaycanın 10 xanlığı XIX əsrin birinci rübündə Rusiya imperiyası tərəfindən silah gücünə işğal edilərək, Qafqaz canişinliyinin tərkibinə qatıldı. Digər doqquz xanlıq isə Pers monarxiyasının hakimiyyəti altında qaldı.

Qeyd etmək lazımdır ki, hələ uzun müddət - III İsmayıl Səfəvinin (1750-1779) regenti Kərim xan Zəndin (1753-1779) İran siyasi arenasında meydana çıxdığı dönəmədək xanlıqlarda sikkə zərbinə rast gəlmirik. Azərbaycanın pul tədavülündə xan zərbi yarananadək, əsasən, Əfşarların gümüş sikkə məhsulu - abbası, şahı nadiri, eləcə də, Böyük Moğolların rupiləri işlədilirdi. Nadirin uğurlu Hindistan yürüşündən gətirdiyi külli miqdarda baburi gümüşü - 11,5 qramlıq rupilərin bir hissəsi dövriyyəyə buraxılmış, digər hissəsi isə Nadirin pul-sikkə sisteminə uyğunlaşdırılaraq eyni çəkili, yeni əsas sikkə vahidi -nadiri kəsiminə sərf edilmişdi. Qeyd olunan sikkə qrupları ilə yanaşı, dövriyyədə sonuncu Səfəvilərin sikkələri - abbası, məhəmmədi, şahı, həmçinin şiə imamlarının adından basılmış gümüş sikkələr - "imami" adını almış abbası və şahılar mövcud idi. Azərbaycanın qərb bölgələrində osmanlıların "işğal" zərbinə məxsus sikkələr – onluq, beşlik və nimbeşlik-yarımbeşliklər dövr edirdi.

XVIII əsrin 60-70-ci illərində Kərim xan Zənd zamanında İran dövlətində siyasi şəraitin müəyyən qədər sabitləşməsi və Qubalı Fətəli xanın (1758-1789) səyləri nəticəsində bir neçə şimali Azərbaycan xanlığının müvəqqəti birləşməsi ölkənin təsərrüfat həyatına və ayrı-ayrı regionlar arasındakı ticari-iqtisadi əlaqələrin tənzimlənməsinə müsbət təsir göstərdi.

XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə aid sikkə dəfinələrinin (qeydə alınmış dəfinələrin sayı 50-ni keçir) tərkibi çox rəngarəngdir. Bu dəfinələrdə əvvəlcə Osmanlı soltanları və Üveysilərin sikkələri ilə qarışıq halda Səfəvilərin, Əfşarların və Baburilərin sikkələri üstünlük təşkil edir. XVIII əsrin son rübündə İranda hakimlik edən Zəndlərin və Qacarların anonim sikkələri, həmçinin Azərbaycan xanlıqları - əsasən Gəncə və Şirvan xanlıqlarının sikkələri işlədilir. Bundan sonra Rusiya qoşunlarının təcavüzü nəticəsində dəfinələrin tərkibi Rusiya imperiyasının sikkələri və qismən rus-gürcü, rus-polyak gümüşü adlandırılan sikkələrlə "zənginləşir". Xanlıqların pul-sikkə sistemlərində başlıca nominallar gümüş abbasılar və şahılar idi. Xanlıqların qızıl sikkələri məlum deyil. Çox güman ki, onların həmin sikkə

zərbinə hüquqları yox idi. Xırda pul kimi fulus, yaxud "qara pul" adı altında mis sikkələr buraxılırdı. Onları da gümüş sikkələr kimi, anonim buraxırdılar. Mis olduqlarına görə, onlar yalnız zərb olunduğu xanlıqda ticari ehtiyacları ödəyirdi. Bundan əlavə, hətta həmin xanlıqda belə onların dövriyyəsi zaman etibarilə çox vaxt bir il müddəti ilə məhdudlaşırdı. Bəzi mənbəylərə görə, Novruz bayramının (yeni il) gəlişi ilə hər il yeni mis sikkələr buraxılırdı. Onların üz tərəfində zərbin yeri və vaxtı göstərilirdi. Tarix hər zaman olmasa da, əsasən monqol-türk təqviminə görə - on iki illik "heyvan" silsiləsinin illərinə uyğun aparılırdı. Əks tərəfdə müvafiq heyvanın təsviri, yaxud ərəb və ya fars dilində yazı olurdu. Misal kimi, qeyd etmək olar ki, Bakı və İrəvan xanlıqlarının yalnız mis sikkələri elmə məlumdur. Ehtimal ki, bu xanlıqlarda daxili ticarətdə yalnız belə nominallardan istifadə edilmişdi. Xanlıqların ləğvi ilə zərbxanalar da fəaliyyətlərini başa vurdu. Lakin bəzi xanlıqların gümüş sikkələri - üzərində "işləyən" - rahi sözü təkrar zərb edilərək, yerli bazarlarda hələ uzun müddət dövriyyədə olmuş, tamamilə dövriyyədən çıxandan sonra qadın üst geyimlərinin bəzəyən aksessuar olaraq, numizmatik artefaktdan etnoqrafik raritetə çevrilmişlər.

**Gəncə xanlığının sikkələri.** Şahverdi xanın zamanı (1747-1760) Gəncə xanlığı ticarət-nəqliyyat kommunikasiyalarının mərkəzində yerləşən və iqtisadi cəhətdən Azərbaycanın ən inkişaf etmiş xanlığı olaraq, sikkə zərbinə hamıdan tez başlamışdı. Gəncənin zərbxanası əvvəllər də fasiləsiz fəaliyyət göstərirdi. Burada Osmanlı işğalı illərində (1728-1735) gümüş onluqlar, Əfşarlar zamanında Nadir şahın adından "əs soltan Nadir" kəlməsi zərb edilən gümüş abbasının (4,6 q), zərbi onun ölümündən sonra Şahverdi xan zamanında davam etdirilirdi. Məhəmməd Həsən xanın zamanı (1760-1780) "əs-Soltan Nadir" tipli abbasının zərbi davam edirdi. 1760-cı ildə bu sikkələr "Ya, Kərim!" ("Kərim" – Allahın 99 epitetindən biridir) xitabi ilə zərb edilən gümüş abbası (3,84 q) ilə əvəzləndi.

Həmçinin, "Sahib əz-Zaman"a ("Zamanın sahibi" – on ikinci şiə imamı Məhəmməd Mehdi) həsr olunmuş bir beytlik şeirlə abbasılar də zərb edilirdi:



Şəkil. 1. Gəncə xanlığı.İbrahim Əfşarın sikkəsi .



Şəkil. 2. Gəncə xanlığı. Şahruh Əfşarın adından.



Şəkil.3. Gəncə xanlığı.Anonim.



Şəkil 4. Gəncə xanlığı.Anonim.



Şəkil.5. Gəncə xanlığı.Anonim.Fulus.



Şəkil 6. Gəncə xanlığı.Anonim.Fulus



Şəkil. 7. Gəncə xanlığı.Gümüş abbasi.



Şəkil. 8. Gəncə xanlığı.Anonim.Fulus.

“Günəş və Ay qızıla və gümüşə döndü,

Sahib əz-Zaman adına sikkə oldu”.

Efemer xanlar – Hacı bəy və Rəhim bəy dönəmində (1783-1786) Gəncə zərbxanası eyni yazı və beytli, lakin çəkisi daha da azaldılmış (2-2,5q) gümüş abbasıların zərbini davam etdirirdi. Cavad xanın zamanı (1786-1804) abbasının orta çəkisi 2,5 qramı aşmır. Bu görkəmli dövlət xadimi və diplomatın hakimiyyəti illərində abbası və şahılardan başqa, bəzən nominal dəyəri 1000 dinar olan 5 abbasılıq (12,5 q) və nominal dəyəri 500 dinar olan 10 şahılıqlar (6 q-a yaxın) zərb edilirdi. Bu sikkələrdə :

– “Ya Allah!”, birinci şiə imamı Əliyə xitabən

– “Ya Allahın yaxını, Əli!”, yaxud 12-ci imam Məhəmməd Mehdiyə çağırışlar zərb edilirdi.

1796-cı ildə Ağa Məhəmməd xan Qacarın şah elan olunmasından sonra sikkələr Məhəmməd peyğəmbərə və şahın adına işarə olaraq – “Ya Məhəmməd!” çağırışı ilə zərb edilirdi.

**Qarabağ xanlığının sikkələri.** Pənahəli xan (1748-1763). Rəqiblərinə qalib gəldikdən sonra Pənahəli xanın yaratdığı geniş və güclü dövlətin əraziləri cənubda Araz çayından, şimalda Kürə qədər, qərbdə İrəvan xanlığından şərqdə Cavad nahiyəsinə qədər uzanırdı. Xanlıq hətta qüdrətli Ağa Məhəmməd xan Qacarın təzyiqinə belə duruş gətirə bilmişdi




Qarabağ xanlığı.
Anonim, Pənahabad, 1206 =
1791, pənabadi, gümüş

Bəhs olunan dövrdə xanlığın qüdrəti o qədər yüksəlmişdi ki, saray əyanları Pənahəli xanın oğlu İbrahimxəlil xana özünü şah elan etməsini təklif etmişdilər. Qarabağ xanlığının sikkə işi Azərbaycan numizmatikasında xüsusi yer tutur. Pənahəli xan tərəfindən tikilmiş və ilkin olaraq onun şərəfinə Pənahabad adlandırılmış qala-şəhər Şuşada pənahabadi, yaxud panabadi adlı orijinal gümüş sikkələr zərb edilirdi.

Azərbaycanın sikkə işi tarixində ilk belə hadisə idi ki, yerli sikkə zərb olunduğu şəhərin adı ilə adlandırılmışdı. Bununla yanaşı qeyd etmək lazımdır ki, Pənahəli xan dönəmində Pənahabad zərbxanasında kəsilmiş hər hansı bir sikkə bizə məlum deyil. Onun zamanında xanlıqda bütün Şimali Azərbaycanda olduğu kimi, Səfəvilərin abbasıları və şahıları, Osmanlı soltanlarının onluqları, Əfşarların abbasi, şahı və nadiri və Böyük Moğolların rupiləri işləyirdi.

**İbrahimxəlil xanın zamanı (1763-1806) x**anlıqda sosial-iqtisadi vəziyyətin yaxşılaşması, əmtəə-pul mübadiləsinin canlanması və xanın yürütdüyü uğurlu xarici siyasəti yeni sikkələr buraxmağı tələb edirdi. Bu tələbat İbrahimxəlil xanın pul-sikkə islahatı – yeni unifikasiya olunmuş pul vahidi çəkisi 7 danq – 5.43 q olan pənabadinin tətbiqi ilə tam şəkildə ödəndi. Əlavə olaraq, çəkisi 2.4 q olan yarımpənabadi zərb olunurdu. Pənabadinin üz tərəfində şiə inanc rəmzi, sonralar isə 12 imama həsr olunmuş beyt və - "Ya, Kərim!" çağırışı yerləşdirilirdi. Əhməd bəy Cavanşirə görə, pənabadi çar zərbinin on beş qəpiyinə bərabər idi. MATM NF-da həyata keçirilən metroloji analiz nəticəsində 23 pənabadinin orta çəkisi 5,2 q təşkil etdi ki, bu da nominal dəyəri iki yüz mis dinara bərabər olan abbasının çəkisindən iki dəfə artıqdır. Deməli, pənabadinin nominal dəyəri iki dəfə çox, yəni 400 mis dinar idi. Lakin yeni pul vahidinin zərbindən daha böyük fiskal gəlirin əldə edilməsi kimi ənənəvi üsulu nəzərə alsaq, ehtimal etmək olar ki, pənabadinin nominal dəyəri iki dəfə yarımdan çox, təqribən 500 dinara bərabər olmuşdur. Təbii ki, burada da yeni sikkələrin məcburi yüksək məzənnəsindən keçməmişdilər. Buna baxmayaraq, bu pul islahatı xanlığın artan iqtisadi potensialını, İbrahimxəlil xanın və onun baş vəziri, görkəmli Azərbaycan şairi və mütəfəkkiri Molla Pənah Vaqifin (1717-1797) siyasi müdrikliyini əks etdirir. Lakin İranda Qacarların hakimiyyəti bərqərar olandan sonra, İbrahimxəlil xan Fətəli xanın adından sikkə zərb etməyə məcbur olmuşdu.

**Mehdiqulu xan (1806-1820).** İbrahim Xəlil xanın oğlu və varisi olan Mehdiqulu xan yalnız formal olaraq xanlığın başçısı idi. Onun zamanında Şimali Azərbaycanda Rusiya hakimiyyəti bərqərar oldu. Ona görə də, Mehdiqulu xan Rusiya imperiyasının tacı təsvir olunmuş sikkə zərb etmək məcburiyyətində qaldı. Buna baxmayaraq, onun zamanından xanlığın ləğvinədək (1822) şiə formulu, eləcə də – "Günəş və Ay" beyti həkk olunmuş anonim gümüş abbasıların zərbi davam etmişdi.

**Şirvan xanlığının sikkələri.** Məhəmməd Səid (1763-1767). Bizə gəlib çatmış sikkələrə görə, xanlıqda sikkə zərbi Məhəmməd Səid xan tərəfindən köhnə və yeni Şamaxı xanlıqları birləşdirildikdən sonra, yəni 1763-cü ildə başlamışdır. Bu gümüş abbasıların orta çəkisi 4,5 q. olaraq, üz tərəfində – "Ya, Sahib əz-Zaman!", əks tərəfində – "Ya Kərim!" xitabları həkk edilmişdir. Fətəli xanın (1768-1775) hakimiyyəti illərində abbasinin çəkisi bir qədər də azalmış (3,84 q) və 1771-ci ildə sikkənin çəkisi artıq 3,07 q təşkil edirdi. Əsgər xan, Qasım xan (1789-1795) və Mustafa xanın (1794-1811) zamanında abbasının çəkisi daha da azalmış (12 noxud, yəni 2,3 q) və zərb işi fasilələrlə XIX əsrin 20-ci illərinin sonlarınadək davam etmişdir.



Şirvan xanlığı. Şamaxı, anonym 1184 = 1770/1, abbasi, gümüş

**Şəki (Nuxa) xanlığının sikkələri.** Hacı Çələbi xanın (1743-1755) zamanında xanlıq ərazi baxımından geniş, hərbi cəhətdən güclü olmuşdur. Çələbi xan Nadir şah Əfşarın dağıdıcı yürüşlərinə layiqli direniş göstərmişdir.



Şəki xanlığı. Anonim, Şəki, dörd qazbəyi-bisti, mis

Lakin xanlıq sikkə zərbini Kərim xanın hakimiyyəti illərində – 1787-ci ildə başlamışdır. Bu gümüş abbasıların çəkisi 2,3 q (3 danq) olub, üst tərəfində "Ya, Kərim", əks tərəfində "Ya, Sahib əz-Zaman" xitabları həkk edilmişdir. Məhəmməd Həsən xan (1781-1795) zamanında sikkə tipologiyası və metrologiyasında faktiki ciddi dəyişiklik olmadan, anonim gümüş abbasılar və onun fraksiyaları zərb edilirdi.

Fətəli şah Qacarın hakimiyyəti illərində “şahlıq” xanədanından asılılıq əlaməti olaraq, gümüş sikkələr 1214-1217-ci illərdə, Qarabağ və Gəncə xanlıqlarında olduğu kimi, Fətəli şahın adından kəsilirdi. Kürəkçay müqaviləsindən sonra (1805), xanlığın ləğvinədək (1819), Səlim-xan (1795-1806) və Cəfərqulu xanın (1786-1815) zamanında gümüş abbası və mis fulusların üst tərəfində Rusiya çarlıq tacının təsviri və zərb ili, əks tərəfində zərbxananın adı həkk edilirdi.



Şəki xanlığı.
Anonim, Nuxa,
1223 = 1808/9, abbasi
(taclı), gümüş



Şəkil. 3. Nuxa-Şəki xanlığı.Fulus.



Şəkil. 5. Nuxa-Şəki xanlığı.Fulus.

**Quba xanlığının sikkələri.** Fətəli xanın (1758-1789) fəaliyyəti nəticəsində bu xanlıq ciddi hərbi-siyasi və sosial-iqtisadi uğurlar qazandı. Tarixdə bu şəxsi daha çox “Azərbaycan torpaqlarının toplayıcısı” adlandırırlar.



Quba xanlığı. Anonim,
1798, 2 qazıbəyi, mis

Fətəli xan bir sıra qonşu xanlıqları fəth etmiş, digərlərini isə öz nüfuzuna tabe edə bilmişdir. Nəticədə, qısa müddətdə olasa belə, bütün şimal-şərqi Azərbaycan onun hakimiyyətini qəbul etmək məcburiyyətində qalmışdı. Quba zərbxanasının XIX əsrin əvvəllərindən daha erkən zamana aid numizmatik artefaktları məlum deyil. NF-nda saxlanılan 12 noxud (2,13 qr.) orta çəkiyə malik bir neçə abbası bu xanlığın məlum olan bütün sikkələridir. Bu sikkələr kobud faktura və səliqəsiz yazıları ilə seçilir. Onların əksəriyyətinin tarixsiz olması və - "işlək" əlavə zərbi ilə buraxılması zərbxanaların normal texniki avadanlığa və ixtisaslaşmış zərbxana ustalarına malik olmadığının göstəricisidir.

**Dərbənd xanlığının sikkələri.** 1759-cu ildə Fətəli xan Dərbənd xanlığını öz ərazisinə birləşdirmişdi. Dərbənd sikkələri də eynil çox az sayda bizə gəlib çatmışdır. Sikkələrin texniki səviyyəsi və kalliqrafik tərtibatı baxımından Dərbənd xanlığının sikkə işi Quba xanlığından seçilmir. Quba xanlığına birləşdirildikdən sonra hər iki xanlıqda vahid pul-sikkə sisteminin fəaliyyəti üçün zəmin yaransa da,ehtimal etmək olar ki, texniki təhcizatın yetərincə olmaması göz önündədir.



Dərbənd xanlığı.
Anonim, Dərbənd, 1220 = 1805/6, abbasi, gümüş

**Bakı xanlığının sikkələri.** Mirzə Məhəmməd xanın (1747-1786) uzunmüddətli hakimiyyəti illəri istisna olmaqla, bu xanlıq Fətəli xanın protektoratı altında olmuşdur. Bakıda və Abşeron yarımadasında aşkarlanmış numizmatik artefaktlara görə, daxili əmtəə-pul mübadiləsi, əsasən, qonşu xanlıqların abbası və şahıləri ilə, qismən də paytaxt Bakı zərbxanasının mis fulusları ilə həyata keçirilirdi. Böyük ticari-maliyyə əməliyyatlarında, konkret olaraq, Rusiya imperiyası ilə aparılan xarici ticarətdə, ola bilsin ki, Əfşarlar və Qacarların qızıl əşrəfilərindən, həmçinin Rusiyanın xüsusi olaraq, Yaxın Şərqin müsəlman ölkələri ilə ticarət üçün buraxdığı "bacaqlı" adlandırılan qızıl dukatlardan istifadə olunurdu.

Üzərində “Bədkübə” zərbxanasının adı göstərilən mis sikkələr 5 və 10 q çəkiyə malik iki nominalla – qazıbəyi və iki qazıbəyi ilə təmsil olunur. XIX əsrin 30-cu illərində basılmış bu sikkələrin üz tərəfində – balıq və vaxtı ilə Kiçik Asiya səlcuqu II Keyxosrovun (1237-1246) sikkələrini bəzəyən qədim türk rəmzi “Şir və Günəş” təsvirləri vardır.



Bakı xanlığı.
Anonim, Bədkübə,
qazıbəyi, mis

**İrəvan xanlığının sikkə sistemi və tədavülü.** İrəvan zərbxanasının sikkə zərbi Hülakilər sülaləsinin hakimiyyəti (1258–1357) dövründən həyata keçirilməsi nümizmatika elminə məlumdur. Sonrakı dönəmlərdə bu zərbxana kifayət qədər intensiv və demək olar ki, fasiləsiz sikkə zərbi işini davam etdirmişdir. Azərbaycanda numizmatika elminə məlum olan İrəvan zərbxanasının ilk məhsulu ərəb əlifbasının süls xətti ilə aydın şəkildə yazılmış gümüş sikkə nominallar Məhəmməd Olcaytunun (1304-1316) adından zərb edilmişdir. Bu cür sikkələr bəzi dünya muzeylərinin numizmatika fondlarında erməni pulu kimi saxlanılır və nümayiş etdirilir. Səfəvilər hakimiyyəti zamanı Azərbaycanın köklü və çox əhəmiyyətli şəhərlərindən olan İrəvanda gümüş dirhəmlər, şahı, bisti, abbası və digər sikkələrlə yanaşı, üzərində türk təqviminə uyğun olan bəzi heyvan obrazları zərb edilmis fuluslar da dövriyyəyə buraxılmışlar. Qızıldan hazırlanan dinarlar xüsusi hadisələrlə bağlı olaraq zərb edilərək hədiyyə və ya yığım-kapital üçün buraxılmışdır. Belə ki, bu zaman qızılın əsas alıcısı Hindistan olduğu üçün, belə sikkələr çox az miqdarda tapılmışdır və nadir numizmatik materiallar sırasındadır. 1747-ci ildə yaradılan İrəvan xanlığının əsas tədavül vasitəsi mis fuluslar olsa da, digər ölkələrlə ticarət münasibətlərini davam etdirmək üçün az sayda olsa da gümüş dirhəmlər dövriyyəyə buraxılmışdı. Xanlıqlar dövründə fasiləsiz sikkə zərbi Qacarlar hakimiyyəti zamanı, daha dəqiq 1212-1250 h.i./1797-1834-cü illərdə hakimiyyətdə olan Fətəli şahın hakimiyyət illərində həyata keçirilmişdi. Bu sikkələr haqqında geniş araşdırma sovetlər dövründə erməni numizmatı Muşeqyan tərəfindən

aparılmışdır. Müəllif 1968-ci ildə tədqiqat zamanı araşdırmaya yalnız Rusiyanın Ermitaj muzeyinin materiallarına əsaslanmışdır. Muşeqyanın yazdığına görə, buna səbəb Ermənistan muzeylərində İrəvan şəhərinə aid numizmatik materialların olmaması ilə bağlı olmuşdur.


2 a


3 a


4a


5a


6 a


7a


7f


8 a

Bu materiallar içərisində olan qızıl sikkələr də eynilə Ermitaj fondundan araşdırmaya cəlb edilməsinin səbəbi Rusiya-İiran müharibəsinin nəticəsində Türkmənşay müqaviləsinin şərtlərinə görə Rusiyaya ödənilən qızıl pulların əsasən və xüsusilə, İrəvanda zərb edilərək, istifadə etmədən Rusiyaya göndərilməsi, yəni kontribusiya üçün hazırlandığını sübut etmişdi.

Bu faktı XIX əsrdə Rusiyada Şərq numizmakasının əsasını qoyan alman şənşəli X.Fren əsərlərində bir neçə yerdə qeyd edərkən- “ex tributo Persico” söz birləşməsindən istifadə etmişdi. Yeri gəlmişkən ilk dəfə bu qızıl sikkələrdə İrəvan adı ilə birgə vilayətin tam adı Çuxur Səəd sözü də zərb edilmişdir.



9 a



10 a



11 a



12 a



14 a



15 a



16 a



17 a

Görünür həmin dövrdə Persiya adı ilə sənəd hazırlayarkən bu ərazinin yalnız İrəvan şəhərindən ibarət olması deyil, Çuxur Səəd vilayətinin, yaxud da səfəvilərdən qalma bəylərbəyindən ibarət olmasını göstərmək üçün qızıl

pulların zərb işində möhürə xüsusi əlavə edilmişdi. Belə ki, 1805-ci ildən Qacarların Azərbaycanda hakimiyyəti zamanı İrəvan zərbxanası əsas pul işini həyata keçirən bir məkana çevrilərək, Azərbaycanın Qafqazlardakı bazarlarını pulla təmin edən bir strateji cəhətdən önəmli şəhərə çevrilmişdi. Belə ki, bu ildən başlayaraq, qızıl və gümüşdən hazırlanaraq dövriyyəyə buraxılan sikkələrin ilk tarixi 1216 h.i-1801-1802-ci il olaraq, dirhəmlər, qızıl tümən adı ilə tanınan 1217 h.i.-1802-1803–cü illərin sikkələri olmuşdu.


18 a


21 b


23 a


25b


25c


25e


26 a


28a

Amma elmdə bəzi numizmatik kataloqlarda qızıl tümənlərin İrəvanda 1213h.i.-1798-99-cu illərdə buraxılmağa başlandığı haqqında məlumatlar

vardır. Çuxur Səəd yer adının qızıl tümənlərdə ilk dəfə zərb edilmə tarixi 1220 h.i.-1805-1806-cı illərə aiddir. Bu vilayət adının qızıl sikkələrdə zərb edilmə səbəbləri arasında obyektiv olanı Azərbaycanın pul tarixində bəzi böyük və önəmli şəhərlərin adlarının titullarının zərb edilmə adətinin ikinci dəfə sasanilərdən sonra pul zərbi işində yenidən bərpa edilməsi və yayılması ilə bağlı olduğunu ehtimal etmək olar. Belə ki, qacarların hakimiyyətində 30-a yaxın şəhər adlarının çox maraqlı titulları sikkələrdə zərb edilməyə başlamışdı. Bunlardan bizim üçün mühüm əhəmiyyət kəsb edənləri sırasında Təbriz şəhərinin titulu Dar-əs Sultan, Məşhəd-Ərz-i Müqəddəs və digərlərini misal kimi çəkmək olar. İrəvanın titulunun Səədli tayfalarının adı ilə əlaqədar olması öz-özlüyündə bir çox məsələlərə aydınlıq gətirən faktlardandır. Belə ki, İrəvan şəhərinin titulu onun ərazisi və etnik tərkibi ilə bağlıdır. İkinci obyektiv səbəb XIX əsrdə qacarlarla Rusiya arasında olan müharibə və Rusiyanın öz ərazilərini genişləndirmək üçün həyata keçirdikləri ekspansiyanı açıq-aydın göstərərək öz tarixi torpaqlarının sərhədlərini bir də hüquqi faktoloji dövlətçilik atributu olan sikkələrdə göstərilməsi, yaxud təbliğ edilməsi hesab edilməlidir. Bildiyimiz kimi, 1801-ci ildə Gürcüstanı işğal edən Rusiya 1804-cü ildə Gəncə xanlığını,1805-ci ildə Qarabağ xanlığını öz tərkibinə qatmışdı.1808 - ci ildə ruslar Üçmüəzzini, ardınca xanlığın tam işğalına başlamışdılar. Bununla belə qızıl sikkələrdə Çuxur Səəd yer, vilayət adının son zərb tarixi 1239 h.i.-1822-1823-cı illlər, gümüş dirhəmlərdə 1241 h.i.-1825-26-cı illərə təsadüf edir. Mis fuluslarda heç vaxt Çuxur Səəd adı göstərilmirdi. Sadəcə İrəvan adını aydın olaraq təyin etmək mümkündür. Qızıl tümənlərin ümumiyyətlə, bütün Azərbaycan xanlıqlarında o cümlədən İrəvanda az sayda buraxılmasının digər səbəbi, yerli əhalinin əsasən Təbrizin yüksək əyarlı, hüquqi paytaxt statuslu qızıl tümənlərindən istifadə etmələri olmuşdu. Rusiyaya təzminat üçün zərb edilən qızıl tümənlərdən başqa, Azərbaycan xanlılqarında Novruz bayramında Təbrizə hökmdar xəzinəsinə hədiyyə göndərmək üçün, İsfahana hökmdar iqamətgahına, həmçinin bəzi siyasi səbəblərə görə II İraklinin ölümünə qədər (1798-ci il) gürcü hökmdarına hədiyyəlik pullar hazırlanaraq, göndərilmə kimi adətləri olmuşdu. Bu barədə Quba xanının fərmanları barədə olan 1937-ci ildə çap olunan bir araşdırmada və 1982-ci ildə gürcü alimi Çeişvilinin əsərində qısa, amma dəqiq məlumatlar vardır.İrəvan xanlığının pul tədavülü haqqında digər maraqlı fakt

qızıl tümənlərin şəhərin Rusiya tərəfindən ilhaqından sonra davam etməsi barədə olan elmi məlumatlardır. K.Voronkeviç-Bassanc adlı bir rus hərbçisi Cənubi Qafqazın sikkə sistemini təsvir edərkən yazırdı ki, burada dövriyyədə 4 rubl gümüşə dəyişdirilən tümən, 2 rubla dəyişdirilən yarım tümən, bacaqlı adlı 3 rus rubluna bərabər olan pullar vardır.Bu məlumatlar 1840-cı ilə aiddir. Konkret olaraq, 1233 və 1235-ci h.ilinə aid olan gümüş və qızıl tümənlərin reversində əlavə "sin" hərfinin təkrar zərb-kontmarka kimi zərb edilməsidir. Bəzi alimlər bu hərfi fars dilindəki 3-se kimi də təqdim edirlər. Əslində bu işarə işarə səhih - düzgün sözünün qısaldılmış formasıdır, yəni köhnə pulların üzərində bu sözün birinci hərfini göstərərək, pulun ticarət üçün yararlı olduğunu göstərən xüsusi bir işarədir. Qeyd etmək lazımdır ki, Çuxur Səəd yer adı gümüşdən olan dirhəmlərdə çox az rast gəlinmişdi. Ümumiyyətlə, gümüş nominallar xanlıq dövründə demək olar ki, yerli zərbxanalarda çox az buraxılmışdı. Əvəzində Təbrizin sahibkiran və Qarabağın pənahabadi adlı gümüş nominalları İrəvan və ətrafında aşkar edilən tapıntılar arasında kifayət qədər mövcuddur. Bu fakt bir daha Azərbaycanın XIX əsrdəki tarixi ərazilərində əsas paytaxt statusunun Təbriz, cənubi Qafqazda isə Qarabağın olması ilə əlaqədardır. Beləliklə, İrəvanın xanlıq dövrünə aid olan bəzi sikkələrin numizmatik təsvirlərini aşağıdakı kimi təqdim etmək olar:

Avers: Xətli kartuşun daxilində "Sultan, sultan oğlu sultan, Fəth Əli şah Qacar" hökmdar adı islimi xətti ilə zərb edilmidi.

Reversdə: Cürbəcür möhür-kartuşlar daxilində zərb yeri-İrəvan zərb edilmişdi. İki tərəfdəki seqmetlərdə zərb tarixi-il və yuxarı hissədə ayrı bir seqmentdə "allaha şükür" kəlməsi göstərilmişdi.

Sikkələrin yazılarında islimi, nəcx və süls xəttindən geniş istifadə olunmuşdur. Orta çəki 10-11 qrama qədər, diametr 24-25 mm.dir. Çuxur Səəd sözü öncə, sonra İrəvan sözü göstərilir. Gümüş nominalların orta çəkisi 6-7 qram arasında olmaqla, dimaetri 18-21 milli metrdir.

Xanlıqlar hakimiyyəti dövründə İrəvanda 2, 5, 10, 14 q. çəkiyə malik 4 nominalda sikkələr-qazıbəyi adlı sikkələr misdən zərb edilirdi. Belə sikkələrin sonuncu zərb tarixi 1825-ci il olmuşdur. Sikkələrin üzərində bəzən təqvim üzrə heyvan obrazları zərb edilsə də, 1817-ci ildən şir və günəş obrazı sona qədər bu şəhərin əsas zərb əlaməti olmuşdu. Eyni obraz İrəvan xanlığının bayrağında öz əksini tapmışdır.

**Naxçıvan xanlığının sikkələri.** Xanlıq Ustaclı tayfasının Kəngərli qolunun tanınmış nümayəndələrindən olan Heydərquqlu xan tərəfindən 1747- ci ildə yaradılmış1763, yaxud da1766-cı ilə qədər idarə edilmiş və sonuncu Ehsan xanın zamanında 1828-ci ildə, yəni Rusiyanın işqalına qədər tanınmışdı.Naxçıvan xanlığının zərbinə mənsub yüksək texniki tərtibatı və kalliqrafik incəliyi ilə seçilən nadir gümüş abbasilər və mis fuluslar elmə məlumdur. Lakin onların azlığı bu xanlıqda sikkə işi haqqında ətraflı fikir yürütmək imkanı vermir.Elmdə belə bir mülahizə var ki, Naxçıvan xanlıq dovründə oz sikkəsini zərb etməmişdir. Dəyər vahidi kimi Azərbaycanın digər xanlıqlarının rəsmi pul vahidlərindən istifadə edilmişdi. Naxçıvanda zərb edilən bir neçə ədəd mis və sonuncu xan Kəlbəli xan aid edilən dirhəm məlumdur.



Naxçıvan xanlığı. Anonim, Naxçıvan, 1767/8, abbasi, gümüş

**Lənkəran (Talış) xanlığında sikkə sistemi və pul dövriyyəsi.** Cənub - şərq regionunda sikkə zərbi pul dövriyyəsi, S. Len-Poollun, E.A.Paxomovun, Ə. Rəcəblinin, A.Markovun əsərlərində araşdırılmışdır. S.Len- Poolun kataloquna görə, “Lanqri” – (Lankon) zərbxanası həyata keçirilməsi Hülakilərin hakimiyyəti (1258–1357) illərində fəaliyyət göstərmişdir. Sonrakı dönəmlərdə bu zərbxana intensiv və demək olar ki, fasiləsiz sikkə zərbi işini davam etdirmişdir. Yuxarıda adı qeyd olunan müəllifirin sayəsində Azərbaycanda numizmatika elminə məlum olan Lənkəran zərbxanasının məhsulu ərəb əlifbasının süls xətti ilə aydın şəkildə yazılmış gümüş sikkə nominalları Məhəmməd Ulcaytunun (1304-1316) adından zərb olunmsı qeyd olunur.

Y.A.Paxomov 1938-ci ildə Astara rayonunun Şahağacı kəndində tapılmış dəfinə əsaslnda, Sasani sikkə monoqramlarını araşdırılarkən, I Xosrovun (531-679) və II Xosrovun (590-628) adından zərb olunmuş gümüş draxmada “GİL” monoqramlı sikkələrin Azərbaycanın Talış (Lənkəran) ərazisndə yerləşən Gilan vilayət zərbxanasına aid olduğunu qeyd etmişdir.

Lənkəran zərbxanasına aid adilən sikkələr az miqdarda tapılmış və nadir numizmatik materiallar sırasındadır. Sikkələr hal-hazırda bəzi dünya muzeylərinin (İran İslam Respublikası, Ermənistan Respublikası, Almaniya) numizmatika fondlarında mühafizə olunur. Cənub-şərq bölgəsində XIX əsrin sonlarından – 2020-ci ilədək aşkarlanmış sikkə dəfinələrindən Lənkəran (Talış) xanlığının ərazisində Avropa dövlətlərinin, Gəncə xanlığının, Şirvan xanlığının sikkələrinin yığım vasitəsinə çevrilməsi haqqında araşdırmalar vardır.

Lənkəran (Talış) xanlığında sikkə zərbi və pul dövriyyəsi haqqında ən mükəmməl məlumat “Əxbərnamə” əsərində öz əksini tapmışdır. Əsərdə XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Lənkəran (Talış) xanlığında sosial-iqtisadi və siyasi tarixi haqqında geniş məlumat verilir. “Əxbərnamə” əsərində Mirzə Əhməd Mirzə Xudaverdi oğlu xanlığın pul dövriyyəsində Ağa Məhəmməd şah Qacarın (1789 - 1797), Fətəli şah Qacarın (1797 - 1834) rialı, tüməni, quranı, əşrəfi, şahı, Qarabağın Pənahabadi sikkələrindən istifadə edilməsi haqqında məlumat vermişdir.







Qacarlar dövlətinin I Şahənşahı
Ağa Məhəmməd Qacar
(1789 - 1797)

Qacarlar dövlətinin II Şahənşahı
Fətəli Qacar (1797 - 1834)

Ağa Məhəmməd Xan Qacar, hicri 1155-ci ilin məhərrəm ayının 27-də anadan olmuş Məhəmməd Həsən Xan Qacarın oğludur. Ağa Məhəmməd xan hicri 1193-cü ilin Səfər ayının 13 (Kərim xanın vəfat etdiyi gün) Şiraz

ətrafındakı bağlarda ov edərkən Şah Kərim xan Zəndinin ölüm xəbərini ona çatdıran kimi Tehrana qayıdır. O, İran şahlığına iddialı idi. Sonra Ağa Məhəmməd Xan Qacar Sarı və Astrabada gedir, Aşağıbaş tayfa başçılarının köməyi ilə Zəndləri devrərək, Gürgan, Mazandaran və Gilan vilayətlərini ələ keçirərək, hakimiyyətə gəlmişdir. Hicri tarixi ilə 1211-ci ildə, zilhiccə ayının 21-də Şuşada vəfat etmişdir.

Fəth Əli Şahın əsl adı Baba Xan olmasına baxmayaraq, o, tac qoyma mərasimində Fəth Əli adını seçmişdir ki, bu da onun əcdadı Fəth Əli Xan Qacarın adı idi. Fəth Əli şah hakimiyyətinin ilk illərində hakimiyyətini genişləndirməyə çalışmışdır. Qacarlar dövründə İran və Rusiya arasında Qafqaz torpaqları uğrunda müharibələr Fəth Əli Şahın dövründə baş vermişdir. Bu səbəbdən, Qacarlar dövlətinin parçalanması prosesi onun səltənətindən başlanmışdır.

Bu dövrdə Qacarlar dövlətində qızıl, gümüş və tunc sikkələr zərb olunmuşdur. Fəth Əli Şah da öz sikkələrini zərb etmək üçün Səfəvilər və Əfşarların sikkə sistemindən istifadə etmişdir. Bu o deməkdir ki, Fəth Əli Şah, öz adını və titullarını sikkə üzərinə zərb etdirmişdir. Bu dövrdə zərb olunan sikkələrin bizə gəlib çatan növlərindən biri də hicri 1233-cü ildə zərb edilən qızıl tüməndir. Bu sikkənin çəkisi 4,61 qram, diametri isə 231 mm-dir. Bu sikkənin:

Aversində: əl-Sultan İbn Əl-Sultan Fəth Əli Şah Qacar

Reversində: Çuxur Səəd İrəvan zərbi -sözləri həkk olunub.

Bu dövrün digər sikkələri arasında hicri 1216-cı ildə zərb edilmiş və çəkisi 10.22 qram olan gümüş rial olmuşdur. Belə bir sikkənin Areversində: əl-Sultan Fəth Əli Şah Qacar və zərb tarixi

Reversində: şir, günəş təsviri və şəhərin adı həkk olunub.

Göstərilən dövrə aid sikkələrin üçüncü növü tuncdan hazırlanan nominalların demək olar ki, hər iki üzünün təsviri eyni olmaqla, zərb tarixi hicri 1234-cü il, çəkisi 14,5 qram, diametri 21 mm-dir.

**Xanlıq dövrünün vergi sistemində pul məsələləri.**

Vergilərdən ayrı-ayrı əyalətlərdə çöpbaşının miqdarı eyni deyildi və yerli qaydalara əsaslanırdı. Məsələn, Qarabağ əyalətində ilk dəfə 1823-cü ildə tətbiq edilən otbaşı vergisi hər 500 qoyundan 22 manat, hər 100 baş qaramaldan 30 manat, hər 100 baş atdan 50 manat Qarabağ pulu ilə hesablanırdı.

Şəki əyalətində otbaşının miqdarı hər 100 baş davardan seçmə 1 qoyun və 50 qəpik çürüyə bərabər idi. Çürük-Şəki xanlığının pul vahididir. 50 çürük 21 qəpik rus gümüş pul vahidinə bərabərdir.

1828-ci ildə Şirvan əyalərtində, tərkibində 100-1000 baş qoyun olan hər sürüdən yay otlaqları üçün 3,6 manat alınırdı. Qış otlaqları üçün eyni tərkibli hər bir sürüdən çöpbaşı haqqı 3 manat 16 qəpiyə bərabər idi. Salyan maldarlarından yay və qış otlaqlarından istifadə müqabilində hər sürüdən (200-2000 baş) 12 manata Şirvan pulu tələb edilirdi. 1 manat Şirvan pulu 60 qəpik rus gümüş puluna bərabər idi. 1829-cu ildə Qarabağ əyalətindən çöpbaşı hesabına xəzinəyə 505 manat daxil olmuşdu. Burada hər baş qaramalın otlaması üçün 2- 2, 5 qəpik, hər qaramalın xərci 15 qəpiyə bərabər idi. Hər baş at üçün 25 qəpik Qarabağ pulu alınırdı. 1 manat rus gümüş pul vahidi 8, 33 Qarabağ puluna bərabər idi. Göstərilən arxiv və etnoqrafik məlumatlarının məlumarlarına  görə hesab etmək olar ki;

**1**.Qarabağın "pənahabadi" adlı gümüş nominallarının hələ XIX əsrin əvvəllərində çox qiymətli olması bir daha sübuta yetirilir. Hətta bu nominallar rus gümüş pullarından xeyli dərəcədə dəyərli olması sübut edilir.

**2.**Numizmatika və Azərbaycanın iqtisadiyyat tarixində məlum olmayan "çürük" sikkə nominalı ticarətdə çox işləndiyinə görə, tez korroziyaya uğradığına görə, çürümüş kimi göründüyündən, bu xırda pul vahidi belə adlandırılmışdı.

**3.**Elmdə ilk dəfə manat nominalının Azərbaycan Cumhuriyyəti zamanı kağız pullarda dövriyyəyə buraxılması haqqında olan mülahizə kökündən yanlışdır. "Manat" sözü xalqımızın leksikologiyasında hələ XIX əsrin əvvəllərindən məlum olduğu göstərilən  faktlarla təsdiqlənir. Bundan başqa XIX əsrin ikinci yarısında çap olunan bəzi dövri mətbuatda, konkret "Kəşkül", "Ziya" qəzetlərində də bəzi alqı-satqı haqqında olan məlumatlarda manat sözündən  istifadə edilməsini izləmək mümkündür.

**Azərbaycan Rusiya pul dövriyyəsi sferasında.** XIX əsrin birinci rübündə Rusiya imperiyası tərəfindən Şimali Azərbaycanın işğal edilməsindən sonra Azərbaycan xanlıqları ləğv edildi. Onların torpaqlarını yeni yaradılmış Bakı, Yelizavetpol, İrəvan quberniyalarının və Rusiya imperiyası Qafqaz canişinliyi Bakı qradonaçalnikliyinin tərkibinə daxil etdilər. Bununla da yerli zərb başa çatdı və Şimali Azərbaycan Rusiyanın pul tədavülü sferasına qatıldı. Bundan sonra ölkə Rusiya imperiyasının 1917-ci

ildə çökməsinə qədər Rusiyanın qızıl və gümüş bimetalizminə əsaslanan pul-sikkə sisteminin qanunları ilə yaşamışdı. Rusiya imperatoru I Pyotr (1689-1724) zamanında təsis olunmuş Rusiya pul sikkə sisteminin əsas vahidi 100 mis kopeykaya bərabər olan gümüş rubl olmuşdur.

Bütün metal pulların adı kimi, rus danışıq dilində işlədilən moneta sözü Azərbaycan dilinə manat kimi transformasiya edilərək, Azərbaycan Respublikasının əsas pul vahidinin adı olaraq, manat və onun yüzdə biri qəpik adlandırılmışdır.

1896-cı ildə aparıcı dünya dövlətlərinin, o cümlədən ABŞ, Böyük Britaniya və Rusiya imperiyasının qərarı ilə həyata keçirilən pul islahatı nəticəsində dünyanın maliyyə və pul-bank sistemini tənzimləmək məqsədilə maliyyə-pul sistemi qızıl monometallizmi üzərində quruldu, dövlətlərin qızıl ehtiyatları ilə təmin olunmuş milli kağız pullar – banknotlar buraxıldı. Bu, çoxəsrlik monetar pul dövriyyəsi dövrünün başa çatması və yeni – kağız pul nişanları dövrünün başlanması idi.

Lakin Birinci dünya müharibəsi (1914-1918) nəzərdə tutulan addımları tam şəkildə həyata keçirməyə imkan vermədi. Bu dövr müharibəyə cəlb olunmuş dövlətlərin iqtisadi-təsərrüfat, maliyyə, bank strukturlarının iflası ilə əlamətdar oldu. Bu, daha çox Alman və Rusiya imperiyalarına təsir göstərdi. Başlıca nəticələrdən biri isə qızıl standartı üzərində qurulmuş dünya pul-maliyyə sisteminin dağılması oldu.

## QAFQAZIN NUMİZMATİKASI: GÜRCÜSTAN VƏ ERMƏNİSTAN

**Gürcüstanın numizmatikası.** Gürcüstanın numizmatika elıminin əsası M.P.Baratayev tərəfindən 1844-cü ildə qələmə alınan və çap edilən “Gürcüstan çarlığının numizmatika faktları” adlı əsərlə qoyulması hesab edilir. Rus və fransız dillərində çap olunan bu kitabda Gürcüstanın ilk numizmatik materialları xronoloji baxımdan VI əsrə aid edilir və “Xosrov-İberiya sikkələri “adlanır. Demək, antik dövrə aid olan və müasir Gürcüstandan tapılan sikkələr bura daxil deyildi. Demək olar ki, eyni zamanda M.R.Brosse, İ.Bartolomey bəzi elmi məqalələrində “Gürcü numizmatikası” terminlərindən istifadə edərək müəyyən məqalələr çap etdirmişlər.1852-ci ildə fransız V.Lanqlua Gürcüstanda tapılan sikkələrin ilk sistemli təsnifatını hazırlayır.Əsər 1861-ci ildə düzəlişlər və əlavələrlə

yenidən çap olunur. 1910-cu ildə “Gürcüstanın sikkələri” adlı əsər D.Kapanadze tərəfindən dərc edilir. Ondan sonra Y.Paxomov, İ.Cavaxaşvili, C.Makalatiya, İ.Lomouri və başqaları bu elmlə ciddi məşğul olmuşlar.

Beləliklə. əvvəlcə onu qeyd etmək lazımdır ki, gürcülərin qədim təqvimi “koronikon” adlanır və rəqəmlərlə deyil, rəqəm anlamı daşıyan hərflərlə göstəriliridi. Təqvim xristian dini kitablarına əsasən dünyanın yaranışı hesab edilən 5604-cü ildən 532 il çıxmaqla başlayır. 13 dövr (hər dövr 12 il olmaqla) keçdikdən sonra gürcü təqvimi 780-ci ildən başlayır. Bu ildən sonra Gürcüstanda zərb edilən sikkələrdə təqvim hicri təqvimi ilə göstərilir, XVIII əsrdən başlayaraq miladi ilə göstərilir.

M.ö.VI əsrdə Cənubi Qafqazda, indiki Gürcüstanda iki-Kolxida (Kolx) və İberiya adlı dövlətlər yaranmışdı. Əhalisi əsasən yerli katvellərdən ibarət olmuşdu. Kolxidanın ərazisi Qara dəniz sahillərindən indiki Sinop şəhərinədək (Türkiyə), oradan Böyük Qafqaz silsilə dağlarının cənub ətəklərini əhatə edirdi. Burada aşkar edilən ən qədim sikkələr elmdə “kolxidkalar” adlanır və əsasən indiki Trabzon və Suxumi arasındakı ərazilərdən tapılmışdı. Kolxidka adlanan sikkələrin yerli zərbxanaların məhsulu olması aşağıdakı faktlarla dəqiqləşir:

**1.** Bu sikkələr geniş topoqrafiyaya malikdirlər. Statistikaya görə, Gürcüstanın tarixində ikinci dəfə belə geniş ərazilərdə yayılan sikkələr XII-XIII əsrin əvvəllərində Tamar və Rusudanın adından zərb edilən sikkələr olmuşdur.

**2.** Bu sikkələr Gürcüstanın daxili bölgələrinə aid olduğuna görə, kolxlar arasında ilk pul əmtəə münasibətinin göstəricisi hesab etmək olar.

**3.** Gürcüstanın ərazilərindən kənarda aşkar edilmədiyinə görə bu sikkələrin zərb işində Qara dəniz sahilində yerləşən, eyni tarixi dövrə aid yunan polislərinin-ticarət koloniyalarının iştirakı istisna təşkil edir; yəni kolxidkalardan ibarət olan dəfinələrdə yunan şəhər dövlətlərinə aid sikkələr yoxdur.

**4.** Kolxidkaların üzərində yüzillərlə yerli əhalinin panteonu hesab edilən şir obrazı dəyişilməz olaraq qalır.

Beləliklə, m.ö. VI əsrdə buraxılan ilk kolxidkalar-didraxmalar nadir tapıntılardandır. Bu sikkələr gümüşdəndir, tökmə üsulu ilə hazırlanmışlar. Didraxmaların:

Aversində başı arxaya çevrilərək, ağzı geniş şəkildə açılmış, dişləri qıcanməş şir yerdə oturmuş şəkildə göstərilmişdir

Reversində: öküz başlı, qadın bədənli obraz dizləri üstdə oturmuş şəkildədir. Dördkünc çökəklik vardır.

Miladdan öncə V əsrdə zərb edilmiş didraxmalarda obrazlar nisbətən dəyişilmişdir.

Avers: Sağa tərəf baxan insan başı obrazı

Revers: Eyni obraz 2 dəfə kiçildilmiş şəkildə, amma bir-birinin üzünə baxan 2 insan başıdır. Eynilə dördkünc çökəklik obrazı vardır.

Hər iki variantın çəkisi 8-10 qramdır. Nominal dəyəri nisbətən az olan draxmalardır. Çəkisi 5-5, 50 qr.

Başqa bir sikkənin

Aversində: Şir başı düz istiqamətdə baxır.

Reversində: Öküz başı sağa baxır. Kiçik kvadrat çökəklik vardır. Tribol-yarımdraxma  çəkisi- 2, 21-2, 60 qr

Aversində: Sağa yönələn, ağzı geniş açılmış şir başı obrazı,

Reversində: Şir sağa baxan şəkildədir. Kvardrat obrazı vardır. Tetradraxma - 13, 80 qr.

Aversində: Sola baxan ağzı açıq şir başı obrazı vardır.

Reversində: Tanrı Peqas at arabası üzərində: atların yalmanı dik, ağızları açıq şəkildədir.

Yarım draxma - tribol çəkisi 1, 3-2, 5 qr.

Aversində: Sağa baxan insan başı obrazı,

Reversində: Öküz başı sağa tərəf. Kvadrat yoxdur.

Bu tip sikkələr m.ö. IV-II əsrlərə qədər dövriyyədə olmuşlar.

Kolxidkaların zərb edilməsi m.ö.IV-II əsrlərdə dövriyyəyə Makedoniyalı İsgəndərin və Selevki Lisimaxın qızıl staerlərinin "oxşatma"larının daxil olması ilə sona çatır. Keçən əsrdə bəzi dünya numizmatları bu sikkələri "Qafqazın barbar oxşatmaları" adlandırırdılar. Belə ki, oxşar tipli sikkələr ayrı-ayrı yüzilliklərə aid alaraq, Abşeron yarımadasından Taman ərazisinə qədərki yerlərdən tapılmışdır. Gürcüstanın qərb bölgələrində tapılan belə sikkələr nə qədər geniş coğrafiyada yayılsa da, Qafqazın cənub-qərbinə, daha dəqiq, əsasən qədim Kolxidaya daha çox aidiyyatı vardır. Fərq ondan ibarətdir ki, İsgəndərin qızıl staterlərinin oxşatmaları İberiya ilə dağlıq ərazinin sərhədlərində, Lisimaxın staterlərinin

oxşatmaları isə Qərbi Gürcüstanın Qara dəniz sahillərində tapılmışdır. Göstərilən yüzilliklərdə Gürcüstanın qərbində 2 böyük vilayət-Eqrisi və Arqveti yerləşmişdi. Ola bilər ki, bu sikkələrin oxşarı məhz həmin vilayətlərə aiddir.

Dünya numizmatika elmində həm İsgəndərin, həm də Lisimaxın adından zərb edilən qızıl staterlərin özlərinin yaşadıqları illərdə buraxıldığı təsdiqlənmiş faktdır. Ölümündən sonra hər iki hökmdarın adından zərb edilən qızıl staterlər bütün ellin dünyasında hələ 200 il sonra da istifadə edilmişdir. Deməк, Kolxidadan aşkar edilən "barbar bənzətmə"lərin dövriyyədə olması m.ö.III-II əsrləri əhatə edir. Belə oxşatma sikkələırin digər bir özəlliyi onların üz tərəfində İsgəndərin və Lisimaxın adlarının göstərilməməsidir. Əsasən bir söz – bazilevs-hökmdar aydın oxunur. Daha da kobud şəkildə buraxılmış sikkələr m.ö. I əsrə aiddir. E.ə.I və eranın-II əsrlərinə həm də Romanın sikkələrinin "oxşatmaları" dövriyyəyə qatılır. Bütün "oxşatma" sikkələr anepiqrafik-yazısızdır. Eyni tipli sikkələr həm də Şimali Qafqazdan aşkar edilmişdir. Buna görə də Qafqazın qərb hissəsi dedikdə Gürcüstanın qərbi, Şimali Qafqazın dağlıq hissəsini, yəni Terek çayının qərb sahillərini əhatə etdiyini diqqətdə saxlamaq lazımdır.

II əsrdən etibarən Dioskuriy şəhərinin mis sikkələri daxili dövriyyəyə buraxılır. Çəkiləri 1, 37; 1, 52; 2, 95; və 4, 28 qr.

Avers: Dioskurinin papağı üzərində 6 və ya 8 guşəli ulduz obrazları vardır.

Revers. Hakimiyyət rəmzi- əsa və hər iki tərəfində yunan əlifbasında şəhərin adı oxunur.

Belə sikkələrin zərb edildiyi zaman həm də Pont hökmdarı VI Mitridatın hakimiyyətinə təsadüf edir. Bu zaman gümüş sikkələrin zərbi sona çatır. Mis sikkələr əsasən, müasir Suxumidən aşkar edilmişdir.

Eramızın I əsrlərində Romanın şərqə ekspansiyasının güclənməsi və Kolxidanın işğalı həyata keçirməsi əslində qədim "ədviyyat yolunun" tutulması səbəbindən kəskinləşmişdi. Strabonun, Plininin məlumatlarına görə, Hindistan və Çindən gələn yol Mərkəzi Asiyadan Amudərya çayı ilə Xəzərə, oradan Kür vasitəsi ilə Qara dənizə çatırdı. Bu yolun tam nəzarətə alınması Romanın digər dövlətlərlə mübarizəsini gücləndirmişdi. Nəticədə, Gürcüstanın qərb torpaqlarında romalıların güclənməsi onların sikkələrinin buradan kütləvi olaraq tapılması ilə sübuta yetirilir. Bu sikkələr içərisində

Oktavian Avqustun (m.ö.27-e.14) denariy adlı nominalları çoxluq təşkil edir. Belə sikkə nümunələri Gürcüstanda eranın II-III əsrlərində belə əsasən qəbir abidələrindən aşkar edilmişdir.

Xüsusi olaraq, şərq ölkələri ilə ticarət münasibəti üçün Roma imperatorlarından Avqust zərb etdirdiyi sikkələr üzərində oğlanları Qay və Lutsiyanın portretlərini göstərilməklə öz ölkəsindəki pullardan fərqli sikkə tipi Gürcüstan ərazisində xeyli sayda tapılmaqdadır. I-III əsrlərdə hətta belə sikkələrin çatışmazlığı yarandıqda yerli hökmdarlar oxşatmalarını dövriyyəyə buraxmışlar. Sasanilərin Qafqazı işğal etməsi prosesi Gürcüstanın numizmatik materiallarında öz əksini birbaşa tapmışdı. İndiki Gürcüstanda VI əsrdən tez yerli gürcü-sasan sikkələri yoxdur. Yalnız **IV Hörmüzdün (579-590)** hakimiyyəti zamanı burada zərb edilən sikkələrdə xaç işarələrini zəif detallarla da olsa, izləmək mümkündür. İkinci, yerli gürcü yazı elementləri sırasında bu zaman sikkələr üzərində gürcü əlifbasının mtavruli şriftindən istifadə edilərək sözlər və cümlələr zərb edilməyə başlamışdı. Bu əlifba vasitəsi ilə sasanların sonuncu dövrlərində artıq gürcü hökmdarlarından I Qurgenin (881/891), I Stefanosun (590/92-605) adları əvvəlcə monoqram şəklində, sonra isə bütöv və aydın zərb edilirdi. Sasanların dini rəmzi olan atəşdan yerinə xaç işarəsi göstərilirdi. Bu işarə əvvəlcə sikkələrin aversində sasan şahənşahlarının baş hissəsinin arxa tərəfində, sonralar sikkələrin reversində aydın seçilir. Bu artıq sasanların dövlətinin sonunun yaxınlaşmasının əsas göstəricilərindəndir. Belə sikkələr Gürcüstanın numizmatik materialları tarixində ilk müstəqil, milli, yerli sikkələrdir. Sonuncu sasan-gürcü sikkələri I Stefanos (590/92-605) tərəfindən dövriyyəyə buraxılmışdı. Bundan sonra bütün Qafqaz, o cümlədən Gürcüstan bütövlükdə Xilafətin tərkibinə daxil olmuşdu. Təxminən 100 il bütün Qafqaz uğrunda ərəb-xəzər müharibələri olduğuna görə, xilafətdə sikkə zərbi eynilə 100 ildən sonra 705-ci ildə bərpa edilsə də, Gürcüstan ərazisində 826-cı ildə yenidən yaradılmışdı. Bu ildən başlayaraq, X əsrin ortalarına qədər sikkə zərbi işini indiki Gürcüstan ərazisində türk mənşəli Cəfərilər sülaləsi həyata keçirmişdi, daha doğrusu yaradılan Tiflis müsəlman əmirliyində həyata keçirmişdi.Bu güclü əmirliyə qarşı Gürcüstanın qərb və cənub vilayətləri (Abxaziya, Tao-Qvardjeliya) 180 il mübairə aparsalar da, qalib gələn Tiflis olmuşdu. Cəfərin oğlu Mansur, onun oğlu Əli və Cəfərin hakimiyyətləri zamanı 953-1028-ci illərdə gümüş böhranı nəticəsində

dirhəmlərin keyfiyyəti xeyli aşağı düşmüş və Azərbaycanın yerli hakim sülalərindən olan sacilərin, salarilərin, şirvanşahların, şəddadilərin sikkələrindən, həmçinin son abbasilərin pul sistemindən fərqlənməmişlər. Bununla belə, Gürcüstanın parçalanmış vilayətlərinin birləşməsində, mərkəzləşmiş dövlətin yaradılmasında ticarət əlaqələrinin gücləndirilməsinin xeyli xidmətləri olmuşdu.

**Mərkəzləşmiş Gürcüstan çarlığının sikkələri**: Xilafətin zəifləməsi və Bizansın güclənməsi ilə X əsrin ortalarında Gürcüstanın birləşməsi üçün münbit şərait yaranmışdı. III David(961-1001)Bizans imperatorlarından "kuropalat" titulu alaraq, oğlu Baqratı Kartlinin (975) və Abxaziyanın (978) hakimi təyin edərək birləşmiş gürcü Baqratilər dövlətinin əsasını qoydu.Bu sülalənin ən görkəmli nümayəndəsi Qurucu IV David (1089-1125) hesab olunur. Onun hakimiyyəti zamanı cəfərilər Tiflis müsəlman əmirliyindən qovuldular və buranı yeni paytaxt elan etdilər. Bu zaman yüzillərlə cəfərilərin yaratmış olduğu pul və pul işini, ticarət və ticarət münasibətlərini pozmadan, Gürcüstanda müsəlman kufi sikkələrinin dövriyyəsini qüvvədə saxlanılmışdı. Bunun digər mühüm bir səbəbi də yerli əhalinin əksəriyyətinin müsəlman türkləri olması idi.

X əsrin ortalarından başlayaraq, gürcü çarları yeni "bizanstipli" gümüş sikkələr dövriyyəyə buraxmağa başladılar. Bu sikkələrin orta çəkisi 1 qramdan artıq deyildi. Sikkələrin aversində "Xristos Davidi bağışla", reversində Kuropalat və xaç işarəsi çətinliklə sezilən belə kiçik nominallar böyük dövriyyəyə daxil deyildilər. Yalnız bir müddət keçdikdən sonra onlardan xarici iqtisadi əlaqələrdə ehtimal ki, istifadə etmişlər. Bunu sübut edən faktlardan belə sikkələrin Baltik dənizi sahillərindən, Avropanın bəzi yerlərindən tapılmasını göstərmək olar.

Bu yüzillikdən başlayaraq, yazıları gürcü əlifbasının asamtavruli şriftində olan, üzərində III Baqratın adı və bizanssayağı titulları olan gümüş nominallar dövriyyəyə buraxılmışdı. IV Baqrat (1027-1072) "novolesimas" kimi yeni titul aldıqdan sonra, gümüş nominalları tam olaraq "gürcüləşdirmişdi". IV David ümumiyyətlə, titullarının sayını artıqrmaqdan başqa, özünü sikkələr üzərində "abxazların, kartvellərin, ranların, kaxların, ermənilərin çarı" kimi göstərərk, sikkələrdə geniş məlumatlar zərb etdirmişdi.

Gümüş böhranın şərq ölkələrində yaranması qızılın dövriyyədə aktivləşməsinə gətirib çıxardı. Bu zaman Bizansla bərabər, həm də Qurucu Daviddən sonra hakimiyyəti idarə edən Tamar (1184-1210) və Rusudanın (1222-1245) hakimiyyətinə qədərki zaman Gürcüstan ərazisi Şərq intibahının çərçivəsinə daxil olan xristian ölkələri sırasında idi. XII-XIII əsrin əvvəllərində xarəzmşah Cəlal-əd-din Mankburnu gürcülərin yerli sikkələrini yenidən kontrmarka vurduraraq, dövriyyəyə buraxdırdı. Bu zaman sikkə işində baş verən maraqlı bir hadisə III Georgiy və onunla birgə hakimiyyəti idarə edən qızı Tamar (1184-1210) öz adlarını monoqram kimi sikkələrdə zərb etdirməsi faktıdır.

XIII əsrin əvvəllərində Gürcüstan iki yerə-şərq və qərb hissələrinə bölündü. Bu zaman monqol tipli sikkələrdən başqa, monqol-gürcü sikkələri dövriyyəyə buraxılırdı. Sikkələrdə gürcü hakimlərinin adı gürcü əlifbasında göstərilirdi. 1245-ci ildə yeni tipdə buraxılan sikkələr dünya və gürcü numizmatikasına ərəb dövrünün elementini daşıyan maraqlı söz birləşmələri ilə daxil olmuşdu. Belə sikkələrin aversində üz tərəfdə ərəb əlifbasında "Dünyanın Xaqanının qulu çar David", 1253-cü ildən üzərində Ulu David (VII David 1247-1270) kimi sözlər zərb edilirdi. Hər iki David adlı gürcü hökmdarları monqollara qarşı üsyanla tarixə düşmüşlər. Buna baxmayaraq, 1261-ci ildən monqollar Tiflisdə Munke kaanın (1248-1259) adından, sonralar 1261-1280-ci illərdə "kaanik"lər olaraq, anonim sikkələr dövriyyəyə buraxmışdılar. 1280-1295-ci illərdə xristian-Hülaki gümüş dirhəmlər buraxmağa başladılar. Belə sikkələrdə həm gürcü, həm də uyğur türk paqs-pa əlifbasından istifadə edilrdi. Zərb tarixi hicri ilə rəqəmlərlə göstərilirdi. XIII əsrin sonunda II Dimitriy hakimiyyətində (1293-1322) gürcü yerli milli sikkələri müvəqqəti də olsa, yenidən dövriyyəyə qayıdır. Amma VIII David (1293-1322) və III Vaxtanqın (1297-1308) hakimiyyəti illərində Tiflisdə xristianlıq simvolları ilə gümüş sikkələrdə elxan Qazan xanın adı olmaqla, həmçinin gürcü əlifbası ilə mis fuluslar dövriyyəyə buraxılmışdı. Bu dövr gürcü tarixində müsəlman ölkələrindən tam asılı bir vaxt idi. Bu mühüm faktı həm də sikkələr üzərində olan İsa Məsihin titullarının belə ərəb dilində və əlifbasında olması bir daha təsdiqləyir. Bu titullar -Bədr-əl Məsih, Zakir -əl Məsih, Hüsam- əl Məsih və s. kimi zərb edilirdi. Göstərilən sikkələrin zərbi ilə yerli pul zərbi tarixi Gürcüstanda demək olar ki, sona yetir və uzun

illər klassik işğal dönəminə aid olan elxan və cəlair sikkələri dövriyyəyə buraxılmağa başlayır.

**Kirmaneuli çarlığının "pərakəndəlik dövrü"nün sikkə işi və pul dövriyyəsi.** XIII əsrin sonları- XIV əsrin əvvəllərində qərbi Gürcüstana xeyli miqdarda "Trapezund asprası" adlı gümüş sikkələr daxil olmuşdu. Bunun səbəbi Gürcüstanın bu ölkə ilə güclü ticarət əlaqələrinin olmasıydı. Bu zaman qərbi və cənubi Gürsüctanda bu sikkələrin oxşatmaları da buraxılmağa başlayır. Bu sikkələrin əsil aspralardan fərqi ondan ibarətdir ki, Gürcüstanın eyni adlı sikkələrində "Süleyman möhürü" zərb edilirdi. Bəzi hallarda gürcü mtavruli şriftində gürcü çarlarının adları belə zərb edilirdi. Misal kimi, Sameqrlovo vilyətinin 1341-1396-cı illərdə hökmdarı olan I Vamikin adı zərb edilən sikkə nadir tapıntılardan olduğunu göstərmək olar.

Gürcüstanın siyasi həyatında maraqlı hadisələrdən biri dövlətin Cəlairilərlə baglı pul işinin olmasıdır. Belə ki, Cəlairilərin hakimiyyəti zamanı Gürcüstanda gümüş dirhəmlərin bir tərəfində Əhməd Cəlairin (1382-1410) və VII Georginin (1393-1407) adları olmaqla, Tiflis zərbxanasında klassik müsəlman sikkə nümunəsi kimi, yəni üz tərəfdə müsəlman kəliməsi, reversdə hər iki hökmdarın adı ərəb dilində zərb edilmişdi. Eyni zamanda Tiflis müsəlman əmirliyində zərbxana anonim gümüş dirhəmlər zərb edilirdi. Eynilə Qızıl Ordanın qıpçaq hökmdarı Canı bəyin (1341-1357) və Berdi bəyin (1357-1359) adından "işğal zikkələri" zərb edilirdi.

XV-XVI əsrin əvvəllərində Qafqazda baş verən müharibələr və işğallar nəticəsində yerli gümüş sikkələrin çəkisi 0,5 qrama qədər düşdü. Bununla gümüşün əyarı xeyli aşağı salınaraq, bilon-mis sikkələr şəklinə düşmüşdü. Bu zaman Gürcüstan ərazisində aşkar edilən dəfinələrin tərkibində olan sikkələr içərisində Osmanlı və Şirvanın sikkələrinin oxşatmaları belə aşkar edilməkdədir. Belə sikkələr ağır çəkili gümüş təngələr olsa da, tərkibində ucuz və dəyərsiz metallar üstünlük təşkil edirdi.

XVI əsrin sonlarında Gürcüstanın yerli sikkələri uzun illər dövriyyəyə buraxılmır, əvəzində səfəvi dövlətinin və bəzi zamanlarda siyasi hadisələrlə əlaqəli osmanlı sikkələri ticarətdə istifadə edilirdi. Bu sikkələr abbasi, uzaltu, şahi-şauri, nadiri, onluq, beşlik kimi nominallar idi.

Səfəvilərdən sonra əfşarların hakimiyyəti zamanı bu proses davam etmiş, yalnız qacarlardan sonra başlayaraq, Kartli-Kaxetiyanın 1801-ci ildə Rusiya imperiyasına birləşdirilməsinə qədər Tiflis zərbxanası klassik çəki

standartlarına uyğun gümüş nominallar, yəni 0,75, 1,50, 3,00, 4,00 qr. çəkidə yerli sikkələr dövriyyəyə buraxırdılar.

Ümumikdə analiz etdikdə, Gürcüstan ərazisində XVII-XVIII əsrin əvvəllərində səfəvi və az miqdarda olan osmanlı nominalları ilə bərabər, bəzi gürcü canişinləri tərəfindən səfəvi sikkələrinin eyni tipində Kartlidə Vaxtanqın (1703-1714), Sivimon (1712-1714), Bakarın (1717-1719) adlarından mis sikkələr buraxaraq, üzərində bilinquallıq əlaməti kimi həm ərəb, həm gürcü əlifbasından istifadə edildiyi alimlər tərəfindən təsdiqlənmişdi. 1744-cü ildə Kartalini taxtında 1300 illik hakimiyyətini qeyd edən Baqrationlar Tiflis zərbxanasında Teymuraz (1744-1762), II İrakliy (1762-1798) və XII Georginin (1798-1800) adından sikkələr zərb etdirdilər. Kartli-Kaxetiyanın birləşməsi şərəfinə ayrıca mis sikkələr dövriyyəyə buraxıldı. Qeyd etmək lazımdır ki, sonuncu gürcü hökmdarları çoxdan dövriyyədən çıxmış yerli sikkələr üzərində təkrar zərb işini həyata keçirməyə daha çox üstünlük verirdilər. Bu sikkələr elmdə daha çox "baqrati pulları" kimi tanınır. Belə sikkələr Şah I Abbasın adından buraxılan sikkələrin adına uyğunlaşdırılaraq, abazi adlanırdı. Sikkələr üzərində "Ya Kərim" sözləri olaraq, bütün Azərbaycanda XVIII əsrdə buraxılan sikkələrdən heç bir elementlə fərqlənmirdi. Belə sikkələrin buraxılma tarixi təxminən 50 il olaraq, 1752-1798/99 - cı illəri əhatə edirdi. 1783-cü il Georgiyevsk traktatından sonra Tiflis zərbxanası tamamilə ləğv edildi və Gürcüstan Rusiyanın monetar rubl sisteminə daxil edildi. Amma çox az bir müddətdən sonra , daha dəqiq 5 sentyabr 1804-cü ildə Tiflis zərbxanası elə işğalçı Rusiya rəsmi olaraq yenidən açılaraq və 1834-cü ilə qədər işlədi. Bu zaman adıçəkilən zərbxanada rus-gürcü sikkələri dövriyyəyə buraxılırdı. Bu sikkələrin üz tərəfində Tbilisi, reversində "gürcü sikkəsi" sözləri rus və gürcü dillərində zərb olunurdu. Nominallar-40, 20 və 10 qəpik olaraq, ikiabazlıq, abaz, yarıabaz-100 altuni, 2,1 və 0,5 qəpiklik mis pullar adlanırdı. Rəqəmlər gürcülərin öz numerasiyasına uyğun zərb edilirdi.

**Ermənistan sikkələri.** Dünya numizmatika elmində ciddi olaraq (ermənilərdən başqa bunu heç kim yazmayıb) Ermənistan numizmatikası deyilən bir məfhum yoxdur. Bununla belə, keçən yüzillikdə və indiki yaşadığımız XXI sərin ilk 20-30 ilində göstərilən kontekstdə qeyri- elmi xarakter daşıyan xeyli sayda kitablar və məqalələr çap olunmaqdadır. Bunlardan nisbətən obyektivliyə yaxını keçən əsrdə buraxılan X.Muşeqyanın

“Ermənistanın pul dövriyyəsi” adlı kitabıdır. Son illərdə elmə ”zorla və xüsusi həyasızlıqla”öz tərəfdarları tərəfindən qəbul etdirilən məqalələr, əsasən Azərbaycan sikkələrinin araşdırmasına həsr olunmaqdadır. Bu qeyri-ciddi araşdırmaların əsas məqsədi dünya tarixində olmayan, cənubi Qafqazda Böyük Ermənistanın şərq hissəsinin guya ki, Azərbaycan türkləri tərəfindən nə zamansa işğal edilməsini sübut etməyin faktları kimi təqdim edilir. Amma bütün bunlar ciddi elmi dairələrdə sözsüz ki, qəbul edilmir. Buna görə də, Qafqazın numzimatikası elminin əsasını qoyan Y.A.Paxomov keçən əsrin birinci yarısında yazmış olduğu əsərlərin adında belə Ermənilərin sikkələri barədə heç nə yazmamışdı. Onun iki böyük əsəri yaşadığı 60 ildən artıq bir müddətdə Gürcüstanın və Azərbaycanın numizmatikası əsərləridir. Bunlardan başqa, alimin 9 cilddən ibarət olan əsərinin adında ermənilərin adı yenə də yoxudr. Hər halda bu cür böyük alimlər səhv etməmişlər. Yaşadığımız coğrafiyaya gəlmə olan yad xalqın süni yaradılan tarixinin hansı numizmatikası-dövlətçilik atribusiyası ola bilər ki? Ən azından bunların yazdıqları kimi qədim əlifbası varsa, niyə bu əlifbanın sikkələrdə bir hərfi belə yoxdur? Digər belə sulların yalnız bir cavabı var: belə bir dövlətin varlığının Qafqaza aidiyyatı heç zaman olmayıb. Təxminən 100 ilə yaxın mövcud olan Armeniyanın da bizim ərazilərimizə deyil, heç Avropanın, Asiyanın tarixinə heç bir aidiyyatı yoxdur.

Ermənistanın sikkə tarixi Cənubi, Şimali, Şərqi və Qərbi Qafqazla heç zaman heç bir əlaqəsi olmamışdı. Yalnız bəzi tarixi kəsimlərdə indiki Türkiyə Respublikasının cənub-qərbində müəyyən miqdarda bəzi zamanlarda sikkə zərbi həyata keçirilmişdi. Bu ərazi Makedoniyalı İsgəndərin ölümündən sonra Arteşislərin hakimiyyətinə keçmiş və II Tiqranın (m.ö.95-55) hakimiyyəti zamanı gümüş tetradraxmalar və antik-ellin tipində tuncdan sikkələr dövriyyə buraxmışlar. Bu sikkələr üzərində yazılar yunan dilində və əlifbasında icra edilmişdi. Orta əsrlərdə Kiçik Asiyada qısa müddətdə yaradılan Ərməniyyənin müstəqil dövlətçilik tarixi heç zaman olmamışdı. Bu faktı belə sikkələrin olmaması bir daha təsdiqləyir. Bu kiçik hakimlik hər zaman Romanın, Parfiyanın, Bizansın, Sasanilərin, Ərəblərin, Səlcuqluların, Osmanlıların, Azərbaycanın Qaraqoyunluları, Ağqoyunlu, Səfəvi, Əfşarların, Qacarların ərazisində olaraq, yerli sikkələrdən istifadə etmişlər. Ayrıca bir Ermənistan zərbxanası heç bir sikkələrdə aşkar edilməmişdi.

Rusların işğalçı siyasətinin ilk dövründə XIX əsrin birinci yarısında Azərbaycanın etnik ərazisi olan İrəvan xanlığında 1828-ci ildə erməni vilayəti yaradılmış və 1849-cu ildə burada Qafqaz Ermənistanı adlı quberniya yaradılmışdı. Bütün Qafqaz Rusiya İmperiyasının ərazisinə daxil edilərək, rus rubl sisteminə keçid olduğundan burada da heç bir yerli erməni pulları zərb edilməmişdi.

# TÜRK NUMİZMATİKASI:MƏRKƏZİ ASİYA VƏ XƏZƏR DÖVLƏTİNİN NUMİZMATİKASI

“Türk, Turan numizmatikası” məfhumu numizmatika elmində ən yeni yarixdə Mərkəzi Asiya sikkələrinin araşdırılması zamanı elmə daxil edilmişdi. Azərbaycan sözsüz ki, bu terminə daxil olan sikkə əlamətlərindən kənarda heç zaman qalmamışdı. Amma dərs vəsaitinin ümumi strukturuna uyğun olaraq, ölkəmizin numizmatik təsviri Qafqaz coğrafiyası daxilində oxucuya təqdim edilmişdi. Xronoloji baxımdan sözsüz ki, ilk türk əlifbasının istifadə edildiyi numizmatik materiallar Parfiyadan başlayır, Mərkəzi Asiyada zaman-zaman yerli türk etnosları tərəfindən yaradılan dövlətlərin əmtəə-pul münasibətlərinin sikkələrində davamlı öz əksini tapmışdı.

Mərkəzi Asiya xalqlarının pul və pul işi haqqında ilk yazılı məlumatların müəllifi X əsrdə yaşamış tacik əsilli tarixçi Narşahi və onun çox dəyərli əsərlərindən olan “Tarixi Buxaro”- Buxaranın tarixi əsərini göstərmək olar. Əsər tacik dilində yazılmış və bir fəsil bütövlükdə islamaqədərki gümüş sikkələrin tarixinə, hazırlanma texnologiyasına və bu dövlət işinin digər vacib məqamlarının izahına həsr olunmuşdu. Fəsil Buxara hökmdarı Kana tərəfindən üzərində portreti olan sikkələri zərb etdirmək əmrinin təsviri ilə başlayır. Müəllif xronoloji ardıcıllıqla X əsrə qədərki, yəni özünün yaşadığı samanilər dövrünə qədər xalqın hansı sikkələrdən, hansı dəyərdə və necə istifadə etmələri haqqında müəyyən məlumatlar vermiş, sonda samanilərin gümüş dirhəmləri haqqında daha geniş izahı qələmə almışdı. X əsrdə Buxara və ətraf bölgələrin bəzilərində dövriyyədə olan pullar haqqında məlumatlar müəyyən qədər dövrün digər ərəb və tacikdilli əlyazmalarında, xüsusilə tarix və coğrafiya üzrə olan yazılı məlumatlarda yer almışdı. Bu ənənə sonrakı dövrlərdə Mavərənnəhrin digər mütərəqqi yaradıcı insanlar tərəfindən davam etdirlmişdi.

İndiki Tacikistanın qədim dövr sikkələri haqqında ilk elmi araşdıqma N.N.Zabelina tərəfindən aparılmış və 1952-ci ildə məqalə şəklində çap olunmuşdu. Məqalədə Yunan - Baktriya hökmdarı Yevkraditin (m.ö.171-145) adından zərb olunan 3 draxma, Geliokl (m.ö.145-130 ) adlı hökmdarın sikkələrinin oxşarı, 1 ədəd Yevtidemin (m.ö.235-200) sikkələrinin oxşarı, Kuşan hökmdarlarından Soter Meqasın (80-90), Vim Kadvizin (80-103) adından olan mis sikkələr, Kanişin(100-144 ) adından buraxılmış qızıl sikkələr

araşdırlmışdı. Adıçıkilkən sikkələr Tacikistan ərazisindən tapılsa da, həmin illərdə onların elmi pasportları olmadığına baxmayaraq, alim kifayət qədər bu nominalların məhz yerli zərb olduğunu sübut edə bilmişdi. Bu məqalə əslində nəinki Tacikistan ərazisində pul və pul işi məsələsinə, həmçinin bütöv Mərkəzi Asiyanın islamaqədərki dövrünün ticarət və pul dövriyyəsi məsələsinə həsr edilən çox dəyərli bir araşdırma hesab olunur.

Mərkəzi Asiyanın sikkə işi barədə həyata keçirilən növbəti ciddi araşdırmaların müəllifi Y.A.Davidoviç hesab olunur. Belə ki, xanım numizmat-alim yaradıcılığının demək olar ki, bütün dövrlərini bu coğrafiyanın pullarının və pul işinin incəliklərinə həsr etmişdi. Çoxsaylı ciddi elmi məqalələrin ilk monoqrafiya şəkilli kitabı 1979-cu ildə “Tacikistanın qədim və orta əsrlərinə aid dəfinələri” dərc olunmuşdu. Tacikistanın qədim dövr sikkələrini sistemli şəkildə öyrənən və elmi ictimaiyyətə çatdıran digər bir alim Y.V. Zeymalın yaradıcılığı ayrıca qeyd etmək lazımdır. Müəllif öz əsərlərində yuxarıda adıçəkilən qədim dövr Mərkəzi Asiya dövlətlərində zərb edilən sikkələrlə yanaşı, həm də əcnəbilərə aid olan, daha konkret buradan ara-sıra tapılan Roma, Bizans sikkələrini də elmi dövriyyəyə uğurla daxil etmişdi.


Şəkil 2.Şəhrinavdan tapılan
I Antioxun tetradraxması


Şəkil 3. Danqaradan tapılmış
Yevkraditə aid tetradraxma

Zeymal Y.V. 1983-cü ildə “Tacikistanın qədim sikkələri” adlı dəyərli monoqrafiyasını dərc etdirmişdi. Kitabda alim Tacikistan ərazisindən Əhəməni dönəmindən başlayaraq, dövriyyədə olan sikkələr və dəfinələr haqqında sırf elmi əsaslarla analiz həyata keçirmişdi. Bu kitablar günümüzədək Mərkəzi Asiyanın numizmatik materiallarının öyrənilməsi üçün demək olar ki, “əlifba” hesab olunur. Kitabda öz yerini tapmış məşhur tapıntılrından XIX əsrin ən maraqlı sikkə dəfinəsi sayılan “Amudərya

dəfinəsi” xüsusi olaraq araşdırlmışdı. 1878-ci ildə Tacikistanın Kubadi bölgəsindən tapılmış bu dəfinədə 200-dən bir qədər artıq qızıl və gümüşdən hazırlanan nadir zərgərlik məmulatları və 1500 ədəd m.ö. V-III əsrlərə aid qızıl və gümüş sikkələr aşkar edilmiş və araşdırlmışdı. Dəfinə 1897-ci ildən Britaniyada London muzeyində saxlanılır.

Sonralar Tacikistanın ayrı-ayrı bölgələrindən tapılmış sikkə və sikkə dəfinələrinin öyrənilməsi tacik mənşəli alim D.Davudi tərəfindən həyata keçirilmişdi. Belə ki, numizmat-alim özünün “Xatlonun qədim və orta əsrlərdə pul dövriyyəsi” başlıqlı əsərində adıçəkilən bölgədən aşkar edilən numizmatik materialları öyrənmiş və ayrıca kataloqlar tərtib etməklə pul dövriyyəsinin dövrü təsnifatını dəqiqləşdirmişdi. Alimin əsas elmi nəticəsi bu bölgənin əhalisinin sikkələrlə tanışlığının və bu dəyər vahidindən ticarət münasibətlərində istifadə etmə tarixinin m.ö.V əsrdən başlanması ilə bağlı faktoloji sübutları üzə çıxarmasıdır. Numizmat-alim 2009-cu ildə “Tacikistanın sikkə dəfinələri” adlı monoqrafiyasında ümumilkdə 97 dəfinənədən 21-nin qədim dövrə aid olaması kimi mühüm elmi nəticə əldə etmişdi. Qədim dövrə aid olan bu dəfinələr Mərkəzi Asiyanın son arxaik və antik dövrün tarixi üçün çox dəyərli faktın üzə çıxmasına və təsdiqlənməsinə gətirib çıxarmışdı. Belə ki, 70 ildən artıq dünya numizmat, tarixçiləri tərəfindən mübahisə obyektinə çevrilən əsas problemlərdən olan Tacikistanın bu coğrafiyada qədim və erkən orta əsrlərdə mövcud olan Yunan- Baktriya, Kuşan kimi dövlətlərin ərazisində yerləşməsi məsələsi öz həllini və təsdiqini məhz aşkar olunan numizmatik materialların vasitəsilə tapmışdı.



Şəkil 4. Danqaradan tapılmış II Yevtidemin tetradraxması



Şəkil 5. Hovalingdən tapılmış I Selevkə aid draxma

Bu çox böyük elmi nəticədir. Bu nəticənin əldə edilməsində bir çox elmi araşdırmaçılar, o cümlədən arxeoloji araşdırmaların nəticələri illərlə alimlər

tərəfindən cəlb edilsə də, tarixçi alim D.Davudi numizmatik materillarla tam olaraq sübuta yetrimişdi.

Tacikistanın qədim dövr numizmatikasını zənginləşdirən digər bir nəhəng elmi dəyərə malik dəfinə 2008-ci ildə Vahş dərəsində yerləşən Xalkadjar qədim şəhər yerindən tapılmışdı. Dəfinədə 1000-ə qədər sikkələr əsasən Kuşan dövlətininə aid olan pul nominalları olmuşdu. D.Davudi və A.Şaripov 2010-cu ildə "Vahş dərəsindən Kuşan pulları dəfinəsi" adlı kitabda göstərilən dövlətinin hökmdarlarından olan Vim Kadfiz, Kaniş, Xuvişk adlı hökmdarlara aid olan 532 ədəd sikkəni təyin etmişlər. Alimlərin araşdırmalarına görə, adı çəkilən Xalkajar adlı qədim şəhər yerinin yaxınlığında aparılan arxeoloji araşdırmalar zamanı 10 dəfinə tapılmışdı ki, onların tərkibində olan sikkələr Şimali Baktriyanın intibah dövründə pul təsərüfatında və iqtisadi əlaqələrində baş verən mühüm məsələləri dəqiqləşdirməyə imkan vermişdi.



Şəkil.6.Xalkajardan tapılmış hökmdar Xuvişkə aid olan qızıl denariy



Şəkil.7. Çormaqzakdan taplan Vasudevin adından buraxılan qızıl denariy.

100 ilə yaxın bir müddətdə təkcə göstərdiyimiz müasir Tacikistan ərazisində aparılan elmi araşdırmaların ümumi elmi nəticələri sübut edir ki;

- Yerli xalqların pulla tanışlığı m.ö.V əsrdə artıq tam olaraq həyata keçirilməyə başlamışdı. Bu pullar dariklər və sikl, Kiçik Asiyanın bəzi şəhərlərinin sikkələri, yunan şəhərlərinin denariy və draxmaları olmuşdu.
- Yerli pul zərbi işinin intensiv olaraq işə düşməsi m.ö.IV əsrin sonları və III əsrdən başlamışdı. Bu dövrdə yerli əhali Makedoniyalı İsgəndərin, Selevkin və digər ellin dövrünün hakimiyyət nümayəndələrinin adından buraxılan pulları ilə bərabər, həm də artıq Yunan-Baktriya, Kuşan dövründə öz pullarını dövriyyədə istifadə etmişlər.

Kuşan dövlətinin tərkibində olarkən dövriyyəyə buraxılan qızıl sikələrin çəkisi 8 qr, misdən olan nominalların orta çəkisi 16-17 qram ətrafında olmuşdu.

**Kuşan numizmatikası**

Kuşan dövlətinin ilk yerli sikkələri Mərv şəhərinin zərbxanasında Parfiya hökmdarı I Mitridatın (171-138-ci illər)adından zərb edilmişdi. Bu sikkələr gümüş draxma, tetradraxma və obollar idi. I-II əsrlərdə Parfiyanın önəmli müttəfiqlərindən olan Margianda yerli tuncdan olan sikkələr-draxmaların zərb hüququ əldə edilmişdi. Tip baxımından bu draxmalar ümümi Parfiya pul sistemindən fərqlənməsə də, aversdə yerli hökmdarların portretləri açıq-aydın göstərilirdi. 224-cü ildə müasir İranın cənub vilayətlərindən olan İstəxr hökmdarları Parfiyanın mərkəzi vilayət və şəhərlərini zəbt edərək, ərsakların sonuncu hökmdarı olan V Artabanın (213-224)taxtını devirdilər. Parfiyanın "taleyindən" istifadə edən Kuşan hökmdarları II əsrin sonu - III əsrin əvvəllərində Margianı tutdu. Buna baxmayaraq, Margianda yerli sikkələr yenə də öz hökmdarlarının adları ilə hələ uzun müddət ticarətdə istifadə edilirdi. Margianın yerləşdiyi Murqab ərazisi Kuşan dövlətinin tərkibinə daxil edildi. Burada Kuşan hökmdarlarında I Kaniş (278-301), Vasiş (302-305), Xuviş (306-338), sonuncu hökmdar Vasudevin (342-376) adından zərb edilən sikkələr aşkar edilmişdi. Bəhs olunan sikkələr misdən hazırlanaraq, daha çox obollara bənzər olaraq, üz tərəfində Şiva tanrısının obrazı əlində üçdişli silahla, müqəddəs öküz obrazı - Nandi qarşısında durmuş şəkildə zərb edilmiş sikkələrdir. Reversdə hökmdar ayaq üstdə, əlində silah, sağ əlində hansısa bitki qalıqlarını atəşdana səpələdiyi kimi göstərilmişdi. Burada artıq iki dinin əlamətlərini izləmiş oluruq-buddizm - şivaizm, zərdüştlük - atəşpərəstlik və ola bilər ki, qismən xristianlıq elementləri vardır. Bu cür tipdə olan sikkələrin zərbi Kuşan dövlətinin sasanlar tərəfindən işğalına qədər, yəni IV əsrin ilk yarısına qədər, tam bir yüzillik davam etmişdi. Sasanların tərkibində olduqları vaxt Kuşan sikkə tipi bir qədər dəyişdirilmiş şəkildə; yəni Şiva və Nandi obrazları azacıq dəyişdirilərək, əks tərəfdə sasanilərin yerli canişinləri- kuşanşahlarının portretləri realizm üslubunda zərb edilirdi. IV əsrin ortalarından başlayaraq, Mərvdə yeni tipli sikkələr zərb edilməyə başladı. Artıq Mərv şahlarının obrazları sanki sasaniləşdirilərək, baş

geyimləri, tac formaları mükəmmələşdirildi. Maraqlı tac forması iki qanadlı qartal şəklində idi. Bəzi sikkələrdə dairə şəkilli tac formaları da vardır. Bu dairəvi taclar sanki iri mirvarilərlə bəzədilmiş şəkildədir. Bəzi sikkələrdə qadın tanrı obrazları vardır. Sasan hökmdarı Perozun(459-484) hakimiyyəti zamanı "kiçik yuecji" adı ilə Çin mənbələrindən tanınan türk kidarit tayfalarının qələbəsi nəicəsində Mərvdə kuşan sikkə sisteminin oxşatmaları zərb olunmuşdu. Bu sikkələr təmiz türk numizmatik materialları- pulları idi.

**Soqd numiamtikası**

İlk dəfə 1947-ci ildə Pencikent qədim şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən zəngin maddi-mədəniyyət nümunələri sırasında həm də xeyli sayda sikkələr olmuşdu. Bu sikkələrin öyrənilməsi ilə O.İ.Smirnova məşğul olmuş və ilk dəfə Mərkəzi Asiyada daxili hissədə kvadrat boşluq olan Soqd dövlətinə aid sikkələr təyin edilmişdi. Bu şəkildə tuncdan olan sikkələr hələ 1933-cü ildə Muq dağında aşkar edilməsinə baxmayaraq, ciddi araşdırmalar məhz Pencikənd qazıntıları zamanı başlamışdı və dünya numizmatika elminə yeni bir termin - Soqd numizmatikası anlayışı daxil olmuşdu. O.Smirnova bu sikkələr üzərində tamamilə fərqli əlifba ilə zərb edilən üç insan adını –Varxuman, Qurak və Turqar adlı hökmdarlarını adlarını təyin etmişdi. Bundan başqa, qazıntı sahələrindən Çaç şəhərinə (indiki Daşkənd şəhərinin qədim adıdır) aid həmin zamanlar üçün nadir sayılan sikkələr və erkən abbasi fusulusları tapılmışdı. Alim 1963-cü ildə "Pencikəndin qədim şəhər yerinin sikkələrinin kataloqu"nu çap etdirmişdi. Kataloqda təsvir edilən 991 ədəd sikkədən 331 ədədi Soqd dövlətinin Səmərqənd bölgəsinə, 331 ədədi yerli Pencikənd şəhər hakimlərinə, qalanı digər Soqd və Türkeş hökmdarlarına aid olan nadir numizmatik materiallardır.



Şəkil 8.Soqd hökmdarı Şişpirin adından zərb edilən VII əsrin II yarısına aid olan tunc sikkə nümunəsi

Soqdun numizmatik materialların öyrənilməsinin ikinci dövrü O.Smirnovanın 1981-ci ildə çap etdirdiyi ikinci kataloq oldu. Bu kataloqda Pencikənd şəhər yerinin qazıntılarından tapılan sikkələrlə yanaşı, bəzi müasir Mərkəzi Asiya şəhərlərinin sikkə nümunələri, o cümlədən Səmərqənd kimi mərkəzi şəhərlərinin muzeylərinin numizmatika fondunun materialları daxil edildi. Kataloqda 168 ədəd tunc Soqd dövlətinə aid sikkələr öz yerini tapmışdı. Belə ki, sikkələr üzərində olan yazılar yalnız soqd əlifbasında olmuşdu.

Maraqlı elmi nəticələrdən biri müəllifin numizmatik materiallarla yanaşı, digər mənbələrdən istifadə edərək, ərazidə yerli əhalinin türk xalqlarından ibarət olaması və bu dildə danışması və yazması barədə sübutları olmuşdu.

Soqd numizmatikası ilə ciddi məşğul olan və xeyli sayda araşdırmaların müəllifi olan digər bir numizmat alim Y.A.Davidoviç olmuşdu. Xanım alim özünün monoqrafiyalarının birində Soqd dövlətinə aid 10 dəfinəni araşdırmaya çox uğurla cəlb etmişdi. Numizmat alim D.Davudi özünü namizədlik dissertasiyasını "Pencikəndin V-VIII əsrlər pul dövriyyəsi"mövzusuna həsr etmişdi.

Son 50 ildə Mərkəzi Asiyanın numizmatikası ilə ciddi araşdrımalar aparan dünya şöhrətli alim E.V.Rtveladzenin və onun tələbələrindən A.Musakayeva, Q.Əliyevanın əsərlərini xüsusi olaraq qeyd etmək lazımdır.

**Buxarxudatların pulları**

Soqd dövlətinin V-VIII əsrlər tarixində tunc sikkələrlə yanaşı, sasani hökmdarı Perozun sikkələri və onların varvar bənzətmələri, həmçinin eyni hüquqla yəqin ki, Buxarxudat draxmaları dövriyyədə olmuşdu. "Buxarxudat draxmaları" adı altında qəbul edilən sikkələr əslində ikonoqrafik baxımdan sasani hökmdarı V Varaxranın (420-438) adından buraxılan gümüş sikkələrin prototipləri hesab olunur. V Varaxranın sikkələri Mavərənnəhr ərazisinə onun uğurlu hərbi yürüşləri zamanı daxil olmuşdu. Bu yürüşlərin nəticəsində yerli əhalidən alınan verginin məhz adıçəkilən hökmdarın adından buraxılan sikkələrlə alınması haqqında hətta Firdovsinin "Şahnamə" əsərində bir-neçə sətirdən ibarət məlumat vardır. Onun ölümündən sonra Sasanlar konkret olaraq, Buxara şəhərində hakimiyyətdən uzaqlaşdırılmış və yerli hökmdarlar ya bu sikkələr üzərində təkrar zərb işini həyata keçirmək yolu ilə, ya da bu sikkələrin yerli növlərini dövriyyəyə buraxmaqla pul

çatışmazlığına imkan verməmişlər. Bütün elementləri yerli sikkələrdə saxlamaqla, yalnız Parfiya əlifbasını soqd yazıları ilə əvəz etmişlər. Erkən ərəb yürüşləri zamanında bu sikkələr üzərində yenidən dəyişən əlifba olmuşdu. Portret bir qədər sxemləşdirilərək, sasani dövrünə aid əsas göstəriciləri qoruyub saxlamışlar. Bu sikkələrin zərbi və rəsmi dövriyyə çərçivəsi XII əsrin ilk onilliyinə qədər qüvvədə qalmışdır. Buxarxudat sikkələrinin Tacikistan ərazisində tapılması tarixi keçən əsrin 50-ci illərindən başlayaraq, günümüzədək davam etməkdədir. Qeyd etmək lazımdır ki, Pencikənd ərazisindən 5 belə dəfinədə yalnız göstərilən tipdə sikkələr tapılmış və araşdırlmışdı.



Şəkil 10. Ayni bölgəsinin Vaşan adlı yerindən tapılan Buxarxudat draxması

**Toxaristan numizmatikası**

"Toxaristan numizmatikası" silsiləsinə aid sikkələr müasir Tacikistan ərazisindən, daha dəqiq cənubda Kulyabda aşkar edilmişdi. İlk 8 ədəd belə sikkələr 1952-1953-cü illərdə Munçaq-təpə adlı şəhər yerindən arxeoloji qazıntılar zamanı aşkarlanmışdır.



Şəkil 11.V-VIII əsrə aid edilən, Baktriya yazıları ilə buraxılan, Vahş dərəsi, Sari Kupruk şəhər yerindən aşkarlanan mis sikkələr

Alimlərin araşdırmalarına görə, bu sikkələr əsasən 4 tipə bölünür və əsasən V-VI əsrlərə aid edilir. Kafirkala qədim yaşayış yerindən tapılan sikkə dəfinəsində, ümumilikdə 245 ədəd gümüş draxmalar öyrənilmiş və numizmatika elminə daxil edilmişdi. Vaxt etibarilə sonuncu Toxaristan

sikkələri VIII əsrə aid edilir. Bu zaman Şərqi Türk xaqanlığının sərhədləri indiki Mərkəzi Asiyanı əhatə etməsi belə sikkələrlə təsdiqlənir.



Şəkil 12.Urşak Vahş hökmdarının adından buraxılan mis sikkə.V-VIII əsrlər.



Şəkil№.13. Şimal-şərqi Toxaristanın sasani draxmaları.

**Şimal-şərqi Toxaristanın sasani draxmaları**

Şimal-şərqi Toxaristanın (indiki Tacikistan) erkən orta əsr ticarət tarixində yerli mis sikkələrlə birgə, həm də sasanların gümüş draxmaları dövriyyədə olmuşdu. Belə sikkələrdən ibarət ilk sikkə dəfinəsi 1952-ci ildə Düşənbə şəhəri yaxınlığında tapılmış və N.N. Zabelina tərəfindən məqalə şəklində çap olunmuşdu. Dəfinədə I Yezdigerdin, V Varaxranın, II Varaxranın adından buraxılan sikkələr olmaqla, V əsrə aid edilən pullar toplanmışdı. Sonrakı illərdə belə sikkələr və bəzi dəfinələrin tərkibində sasanların pulları daha çox sayda tapılmış, ayrı-ayrı alimlər tərəfindən araşdırlmışdı.

Aparılan numizmatik analizlər və ciddi elmi araşdırmalar göstərilən ərazidə V-VIII əsrlərdə dövriyyədə əsasən sasani draxmaları və onların oxşatmalarının olması, həmçinin bu oxşatmalarda Baktriya və Soqd əlifbasından geniş şəkildə istifadə edilməsini, bununla da burada eftalitlərin-ağ hunların hakimiyyətinin bərqərar olmasını təsdiqlənir.

**Ərəb-sasani draxmaları**

Tacikistanın cənubunda VII əsrin ikinci yarısından başlayaraq, ərəb-sasani draxmaları dövriyyədə istifadə edilir. Belə sikkələrin ilk nümunələri 1965-ci ildə Saysayed şəhər yerindən tapılmışdı. Sikkələr bir çox alimlər tərəfindən, həmçinin D.Davudi tərəfindən araşdırlmış və çap olunmuşdu.

**Erkən və yetkin orta əsrlərin müsəlman sikkələri.** VIII əsrin əvvəllərindən başlayaraq, Mərkəzi Asiyada əməvi dirhəmləri geniş

yayılmağa başlamışdı. Bu cür sikkələr əsasən Pencikənd və Ayni şəhər yerlərindən aşkar edilmişdi. İlk dəfə A.M.Belenitskiy 1966-cı ildə 704-735-ci illərdə İrak ərazisndə zərb edilmiş əməvi dirhəmləri hqqında məlumatlar çap etmişdi. Sonrakı illərdə tapıntıların intensivliyinə əsasən bir çox əsərlər elmi ictimaiyyətə çatdırılmışdı.

Orta əsrlərin numizmatik problemlərinin Mərkəzi Asiyada öyrənilməsi Y.A.Davidoviçin elmi fəaliyyə ilə daha çox bağlıdır. Alimin ilk məqalələri  məhz Tacikistanda aşkar edilmiş orta əsrlərin müsəlman sikkələri ilə əlaqədar olmuşdu. Ümumilikdə, 20 il ərzində xanım alim 4 monoqrafiya, 80-dən artıq ciddi məqalələ hazırlayıb çap etdrmiş və bununla da “dünya müsəlman numizmatikası” elminə məhz Mərkəzi Asiya ərazisindən tapılmış sikkələrin və dəfinələrin analizi ilə çox böyük töhvə vermişdi. Ayrıca onun əsərlərində Buxarxudat sikkələrinin 3 böyük təsnifatı-gitrifi, müsəyyabi, mühəmmədi adlı qrupun tam atribusiyası xüsusi əhəmiyyət kəsb edir.



Şəkil14.Xovalin bölgəsindən tapılan Rəbi.b.Ziyadın (670-ci il)adından zərb edilən ərəb sasani dirhəmi



Şək.15. Samani əmiri Nasr. B. Əhmədin və Xuttalyan hökmdraı Cəfər b. Əhmədin adından zərb edilmiş gümüş dirhəm



Şəkil.16.Samani əmiri Abd-əl Məlikin adından olan iri dirhəm (Xulbukdan tapılmış)



Şəkil 17. Sultan mahmudun adından zərb edilmiş  dirhəm (Cami bölgəsindən)

Y.A.Davidoviçin araşdırmalarına görə, hər üç tip sikkələri bir-birindən ayıran metal olmuşdu;yəni gitrifi-misdən, mühəmmədi-aşağı əyarlı gümüşdən, müsəyyəbi-yüksək əyarlı gümüşdən zərb edilmişdi. Samanilərin zamanında Mərkəzi Asiyanın bazarlarında dövriyyədə olan müsəlman dirhəmləri "İsmaili" adlanaraq, Samanilər dövlətinin banisi ilə əlaqədar olmuşdu.

Orta əsrlərin Mərkəzi Asiyaya aid sikkə zərbi ilə məşğul olan alimlərdən D.Davudinin əsrləri də qeyd edilməlidir. Alim numizmat əsərlərində Samanilərin nadir mis fuluslarını araşdırmışdı. Təkcə "Tacikistanın sikkə dəfinələri" əsərində müəllif 7 samani dövrü dirhəmlərindən ibarət dəfinə araşdırmış və elmə daxil etmişdi.

1008-ci ildə Qəznəvilərin Samaniləri tarixindən səhnəsindən çıxarmaları yeni dirhəmlərini və dinarlarını dövriyyəyə daxil edilməsinə gətirib çıxardı. Mərkəzi Asiyada bu skkələr həm tək-tək, həm də dəfinə şəklində tapılmaqdadır. İlk dəfə rəsmi arxeoloji qazıntılar zamanı 1953-cü ildə Xulbuk şəhər yerində sultan Mahmud və Məsud tərəfindən buraxılan dəfinə tapılmışdı. Keçən əsrin 60-70-ci illərində tapıntıların sayı artmışdı. Bu dəfinələri də əsasən Y.A Davidoviç araşdırmış və mühüm elmi nəticələri bu coğrafiyanın tarixinə daxl etmişdi.



Şəkil 18. Çaqatailərin anonim gümüş dinarı. Termez, 7691367-68-ci illər. Danqaradan



Şəkil 19. Əmir Teymur və Mahmud xanın adından gümüş təngə



Şəkil 20.Xisar, 907 h.i.-1501-1502-ci illər



Şəkil 13. Xuttalyana aid mis mis sikkə (XVI əsrin əvvəli)

Tacikistan ərazisindən, xüsusilə onun şimalından son orta əsrlərə aid tapılan sikkələrin əsas kütləsini Qaraxanlara aid olan pullar təşkil edir. Ayrıca dünya numizmatika elmində “Qaraxanlar numizmatikası” termini mövcuddur. Bunun da əsas meyarları sırasında bu dövrün sikkələrində hökmdarların adı deyil, titulları, ləqəbləri zərb edilməsi əsas hesab edilir. Bu titulların dəqiq olaraq, kimə aid olması, nə zaman alınmasını bilmədən sikkələrin atribusiyası mümkün olmadığından əslində Qaraxanların pul işi mürəkkəblik yaratmışdı.

Araşdırılan dövrdə dövlətdə, bütövlükdə Mərkəzi Asiyada 14 zərbxana fəaliyyət göstərirdi. Ərazidə Xarəzmşahlarin, Qurilərin, Səlcuqların, Canıların, Çağatayların, Teymurilərin, Şeybanilərin sikkələrinin müvafiq zamanlarda dövriyyədə olması aşkar edilən sikkələr və dəfinələrlə sübut edilmişdi. Bu cür zəngin sikkə və dəfinələrin öyrənilməsində bir çox alimlərin zəhməti vardır.



1.Əmir Daniyalın adından qızıl sikkə, Buxara, 1232/1816-17



2.Əmir Xudayar xanın adından təngə, 1272/1855-56



3



4

3.Mis tanqa, Buxara, 1337/1918-1919

4. XIX əsrə aid mis tanqa

Y.A.Davidoviç, D.Dovudi və digər alimlərin araşdırmalarının nəticəsində Mərkəzi Asiyada ticarət və ticarət əlaqələrinin çox geniş inkişaf etməsini, xarici ölkələrlə iqtisadi münasibətlərin kifayət qədər inten-

sivləşməsini sübut edən əsas, önəmli tarixi, faktoloji materillar qismində məhz aşkar edilən dəfinələr və sikkələr çıxış edirlər.

**Müasir Qırğızıstan** dövlətinin numizmatik materialları və yaxud, başqa cür ifadə etsək, İpək yolu xəttində aşkar edilən sikkələrin qeydiyyatı Mərkəzi Asiyada numizmatika elminin əsasını yaradan M.Y.Masson tərəfindən keçən əsrin əvvəllərində qoyulmuşdu. Konkret olaraq, Qırğızıstandan tapılan numzimatik materiallar haqqında ilk rəsmi elmi məlumat görkəmli alim tərəfindən 1947-ci ildə elmə daxil edilmişdi. M.Y.Massondan sonra bu ölkənin numizmatik materialları ilə ciddi məşğul olan alim onun tələbəsi olan M.N.Fyodorov , E.V.Rtveladze və digər alimlər olmuşdu. Göstərilən yüzillikdə Şərqi Türkistanın tarixində İpək Yolunun fəlaiyyəti zamanı dövriyyədə olan numzimatik materialları ilə Y.V.Zeymal məşğul olmuşdur. Bu əsərlərin araşdırmalarının nəticəsinə görə, Qırğızıstanın pul və pul təsərrüfatının ümumi tarixi dörd böyük dövrə bölünür:

1.M.ö.I əsrdən-eramızın III əsrinə qədər
2.IV-VII əsrlər
3.VII-X əsrlər
4.X-XIII əsrlər

I dövrün əsas xüsusiyyəti ondan ibarətdir ki, bu zaman bütövlükdə Mərkəzi Asiyada, o cümlədən Qırğızıstan ərazisində Çinin pul sistemi və qonşu ölkələrin sikkələri dövriyyədə olmuşdu. Belə ki, Qırğızıstan ərazisindən keçən ticarət arteriyası Çinin Xan sülaləsi tərəfindən başlayaraq, Qərb istiqamətində Davan dövlətinə (müasir Fərqanə), Soqd, Xarəzm, oradan Parfiya və Roma imperiyasına qədər davam edirdi. Bu yol üzrə müvafiq olaraq, göstərilən dövlətlərin sikkələri dövriyyədə olmuş və bu böyük ərazidə yaşayan xalqlar tərəfindən tanınaraq, qəbul edilmişdi. Çinin erkən Xan sülaləsi zamanı imperator U-Di (m.ö.146-86-cı il)pul islahatı keçirmiş və yeni-5 çju, yaxud şu adlı sikkələr dövriyyəyə buraxmışdı. Tökmə üsulu ilə hazırlanan bu pullar demək olar ki, bütün yuxarıda göstərilən İpək yolu istiqamətlərində geniş yayılmışdı.Təkcə 1988-ci ilə olan elmi hesabatlara görə, Qırğızıstandan belə pullardan ibarət 42 dəfinə tapılmışdı. Maraqlıdır ki, bu dəfinələrin əksəriyyəti qəbir abidələrindən tapılmışdı. Bu səbəbdən hətta arxeoloqlar uzun müddət hesab edirdilər ki, bu pullar yalnız bəzək əşyası kimi istifadə edilmidşi. Bu fakt Çinin narrativ

mənbələrində də öz təsdiqini tapır - "davanlılar Çindən qızıl və gümüş pillar alıb, pul kimi yox, bəzək kimi işlədirdilər". Böyük İpək yolunda əsas sikkələr qüdrətli Parfiya dövlətinə aiddir. Bunun əsas səbəbi ondan ibarət olmuşdur ki, Parfiya mövcud olduğu müddətdə Roma və Çin arasında vasitəçi rolu oynamışdı. Ona görə də əsas rəsmi dəyər vahidi Parfiya hökmdarlarının adından zərb edilən keyfiyyətli qızıl və gümüş nominallar olmuşdu. Qırğızıstanda ilk Parfiya sikkəsi XIX əsrin sonlarında aşkar edilmişdi. Bu sikkələr IV Mitridatın (129-147) adından buraxılan gümüş draxmalar olaraq, Oş vilayətində, I Oroda aid (m.ö.90-80) İssık Göl şərq sahillərində, yerli hakimlərin iqamətgahında Romanın hökmdarlarından Vespasianın (69-79), Adrianın (118-138), Diokletianın (284-305) adından ayrı-ayrı yerlərdə buraxılan denariy və draxmalar aşkar edilmişdi. Son illər Qırğızıstan ərazisində, əsasən Çuy vadisində Kuşan dövləti zamanına aid olan Romanın rəsmi sikkələri aşkarlanmışdı. Bunlardan Kara-Ciqaç şəhər yerində Böyük Konstantinin (272-337) adından olan follis, Karabalta şəhər yerindən II Litsiniyanın (315-336) sikkələrini qeyd etmək olar.

Beləliklə, Qırğızıstan ərazisində I dövr ticarət münasibətlərində Romanın, Parfiyanın, Çinin sikkələri rəsmi dəyər vahidi kimi istifadə edilmişdi.

II dövrdə ümumiyyətlə, Mərkəzi Asiyanın mədəni, iqtisadi həyatında kəskin dəyişikliklər baş vermişdi. IV-VII əsrlərdə köçəri tayfaların və ümumiyyətlə, " xalqların böyük köçü" baş vermişdi. Bu hərəkət antik dövrün sonunu tezləşdirdi. Bir çox qədim dövlətlər dağıldı, şəhərlər məhv oldu, o cümlədən Qədim Roma məhv oldu. Miqrasiyalar nəticəsində həm də müasir Qırğızıstan ərazisində, o cümlədən Yeddisu-Semireçya deyilən yerdə soqd tərəfdən köçüb gələnlərin - köçkünlərin koloniyaları yarandı. Bu yüzilliklərdə xarici ticarətdə əsas dəyər vahidi sasanların gümüş draxması idi. Şahənşah Peroz (459-484) hakimiyyəti zamanı sasanların rəsmi draxmaları kütləvi olaraq, Mərkəzi Asiyanın əsas pul vahidi idi. Təkcə Şərqi Türküstandan belə sikkələr 682 ədəd tapılmışdır. Qırğızıstanın Talas vilayətindən, Ak-Beşim şəhər yerindən II Hörmüz (302-309), IV Hörmüzün (579-590) draxmaları aşkar edilmişdi. Bizans İpək Yolu ilə satın aldığı ipəyi öz pulu-qızıl solidlə alırdı. Bu səbəbdən Qırğızıstanın yerli əhalsi bu pulları qəbul edir, qoruyurdular. Bu barədə bəzi əlyazmalarda məlumatlar vardır. Bizansın pullarından Qırğızıstandan daha çox aşkar edilən II İraklinin (610-

641) adından zərb edilən solidlər və az sayda Bizansın brakteat sikkələri aşkar edilmişdi.

Bizim eranın I minilliyinin ikinci yarısını dünya tarxinə “Türk dövrü” kimi daxil olmuşdu. Bu zaman bütün Mərkəzi Asiyada pul işi tənəzzülə uğrasa da, ticari əlaqələr geniş arealı əhatə etmişdi. İstifadə edilən sikkələr əsasən yerlərdə misdən tökmə üsulu ilə hazırlanırdı. Qırğızıstanda Ak-Beşim, Krasnoreçenskiy və digər yerlərdən belə sikkələr tapılmışdı.

Beləkilə, ikinci dövrün əsas dəyər vahidləri Bizansın solid və follisləri, sasanların draxmaları və türk dövlətlərinin dövriyyəyə buraxdıqları mis sikkələr bütün Mərkəzi Asiyada, həmçinin Qırğızıstanda dövriyyədə olmuşdu.

III dövrdə Çində Tan (618-907) sülaləsinin hakimiyyətinin gücləndiyi bir dövr olmuşdu. Bu zaman Türk xaqanlığı iki-qərb və şərqi hissələrə bölünmüşdü. Tan sülaləsinin təsiri parçalanmış türk torpaqlarında o dərəcədə güclənir ki, əsas dəyər vahidi yenidən Çinə aid olan pullar olmuşdu. Təkcə Qırğızıstanın Çuy vadisində aşkar edilən Çinin ortası kvadrat şəkilli pulları onu sübut edir ki, VIII əsrin ilk onilliklərində əsas pul vahidləri funksiyasını məhz bu valyutalar təşkil edirdi. VIII əsrin əvvəllərində üzərində soqd əlifbası ilə Türkeş xaqanının adı və titulu olan sikkələr buraxılmağa başlandı. Bunlardan başqa, Çinin Tan sikkələrinin oxşarı bu zaman yerli zərbxanalarda buraxılmağa başladı. Bu yerli sikkə nominalları X əsrin əvvəllərinə qədər intensiv şəkildə dövriyyədə olmuşdu. Bunlardan başqa yaxın sərhədlərdə yerləşən Uyğur xaqanlığının hökmdarı olan Bokuk xaqanın (795-808) adından buraxılan sikkələri də, görünür müəyyən qədər istifadədə olmuşdu. Əcnəbilərə aid olan pul nominallarından Şimali Hindistanın VIII əsrin ortalarına aid olan üzərində atlı və öküz obrazları olan gümüş, tunc və billon sikkələri qeyd etmək lazımdır. Xilafətin yaranması ilə Mərkəzi Asiya bütövlükdə bu müsəlman imperiyasının tərkibində olduğu üçün burada klassik müsəlman sikkələri-dinar, dirhəm, felslər dövriyyəyə daxil edildi. 819-999-cu illərdə samanilər dövlətinin yaranması ilə indiki Qırğızıstanda bu dövlətin sikkələrindən istifadə etmişdi. Konkret olaraq, samanilərin zamanında Qırğızıstanın Uzgend ərazisində zərbxana işləmişdi və samanilərə aid olan bir qisim sikkələr burada zərb edilmiş, dövlətin ərazisində dövriyyədə olmuşdu.Yeddisu ərazisində bu zaman hakimiyyət karlukların əlində olsa da, burada bir çox türk tayfaları-

yaqma, çigili, tuxsi, türkeşlər, qıpçaqlar, oğuzlar və başqaları yaşayırdılar. 991-1211-ci illərdə Mərkəzi Asiyada yaradılan Qaraxanlar dövlətinin hakimiyyəti zamanı Mərkəzi Asiyada ticarət və mədəniyyətdə görünməmiş intibah yaranmışdı. Sonrakı yüzilliklərdə Qızrğızıstanın Mərkəzi Asiyanın dövlətlərinin digər dövlətlərinin tərkibində olduğu kimi əmtəə pul münasibətləri eynilə davam etmişdi.

Beləliklə, 1500 il gərgin fəaliyyətdə olan İpək yolu müasir Qırğızıstanın iqtisadi, mədəni tarixində izlər qoyub getmişdi. Burada aşkar edilən sikkələr demək olar ki, bu yol üzərində olan bütün dövlətlərin sikkələrin hərəkətini özündə əks edir. Bununla belə zaman-zaman burada yerli zərb işi yaranmış və ehtiyac yarandıqda siyasi hakimiyyətə görə dəyişik sikkələr zərb etməklə məşğul olmuşlar.

## XƏZƏR DÖVLƏTİNİN NUMİZMATİKASI

**Xəzərlərin sikkə işi.** Keçən əsrdə Volqaətrafı və Uralətrafı ərazilərdə aparılan arxeoloji qazıntılar nəticəsində tunc metal külçələrilə bərabər sasanlar, bizans və ərəb-müsəlman pulları aşkar edilmişdi. Ümumiyyətlə, Bizansın pullarıının ən erkən zərb nümunələri V-VII əsrlərə aid olaraq, Avropada, Asiyada deyil, xeyli sayda Xəzər xaqanlığının ərazilərində tapılmaqdadır. Ayrıca Bizansın qızıl solidləri (VI-VII əsrlər) Şimali Qafqazdan, Volqaboyu, Donətrafı, Dneprin orta və aşağı axarında xeyli sayda tapılmışdı.

Numizmatik və arxeoloji materiallara əsaslanaraq, Xəzər dövlətinin dəqiq yaranma tarixini təsdiq etmək hələ ki, mümkün deyildir. Amma narrativ və digər mahiyyətli mənbələrə əsaslanan bəzi alimlər V əsrdə hunların imperiyasının dağılmasından sonra Atillanın varisləri hakimiyyətində Avar Xaqanlığı yaradılmaqla bərabər, şərqdə onun kiçik oğlu Hernak, yaxud da İrnik xəzərlərə canişin kimi göndərilmişdi. Xəzər dövlətinin yaranmasında, formalaşmasında və güclənməsində xəzərlərdən başqa, bulqarlar, iskillər, barsillər, suvarlar və digər türk xalqları iştirak etmişlər. Xəzərlərin etnik əraziləri Qafqaz olmuş və dilçilərin son araşdırmalarına görə as-kas-xas-xəzər adlı güclü türk xalqı Qafqazda çox qədimlərdən yaşamış və öz dövlətlərini yaratmışlar.

Beləliklə, Volqaboyu və Uralətrafı ərazilərdə gümüşdən olan Bizansın geksaqram adlı nominalları imperator İrakliy (610-641) tərəfindən buraxılmış pullar idi. Cənubi Qafqazda belə geksaqramlardan ibarət olan xeyli sayda dəfinələr və tək- tək sikkələr tapılmaqdadır. Bundan başqa, Şərqi Avropada Qaradəniz sahillələrinin şimal hissəsindən tapılan məşhur Kubrat dəfinəsi, Volqaboyu və Uralətrafından tapılan Bartım və Şestokov dəfinələri elmdə öz yerini tapan maraqlı sikkələrdən ibarət artefaktlardır. Bunlardan Bartım dəfinəsində İraklinin adından 264 ədəd sikkə (1950-ci ildə tapılmışdı), Şestakov dəfinəsində sasanların (V-VI əsrlərinə aid olan) sikkələri ilə qarışıq nominallar elmə məlumdur. Maraqlıdır ki, Bartım dəfinəsindəki eyni tipli sikkələr heç zaman dövriyyədə olmamışlar. Tarixdən məlumdur ki, 611-ci ildə sasanlar Suriyanı, 614-cü ildə Yerusalim və Misiri tutmuşdular. Bu zaman sasanlara qarşı vuruşan Bizans imperatoru İraklinin yardımına xəzərlər qoşun göndərmişlər.Ola bilər ki, bu səbəbdən dəfinədəki sikkələr istifadə edilmədən torpağa "dəfn" edilmişdi. VII əsrdən etibarən bu tip sikkələr daha çox dövriyyə qatılmaqlarının əsas səbəbi kimi xəzərlərin ticarət münasibətlərini və şəhər tikintisini gücləndirmələri əlaqəli olması barədə olan nəzəriyyə özünü doğruldur. Belə dini, ticarət mərkəzlərindən Bələncər Şimali Qafqazda yerləşmişdi. Bu şəhər öz ölçülərinə görə möhtəşəm bir quruluşda-iki müdafiə divarının eni 10 metr olmaqla, 16 min kvadrat metrlik bir ərazidə tikilmişdi. İkinci belə bir klassik şəhər Səməndər şəhəridir.Bəzi arxeoloqların rəyinə görə Səməndər şəhəri Bələncərdən cənubda yerləşmişdi. Amma dəqiq lokalizasiya hələ tam təsdiqlənməmişdi. Bu mərkəzi şəhərlərə əcnəbi ölkələrin sikkələri xəzərlərin apardıqları müharibələr, ticarət əlaqələri və dostluq münasibətləri nəticəsində daxil olurdu. Bu barədə müəyyən yazılı məlumatlar vardır. Amma şəhər mədəniyyətinin güclənməsi, iqtisadi və mədəni əlaqələrin genişlənməsi tez bir vaxtda yerli sikkələrin zərbini vacib bir tələbata çevirmişdi.

Xəzərlərin sikkə işi ilk dəfə sasanlarin hakimiyyəti zamanı meydana gəlmişdi. Son illər Azərbaycanın cənub - şərqində, şimal-şərqində təsadüfi tapıntılar zamanı belə nadir sikkələr aşkar edilmişdi. Təəssüf ki, bu sikkələr rəsmi qeydiyyata alınmadığından biz onların tam elmi elmi analizini təqdim edə bilmirik. Eyni zamanda maraqlıdır ki, Bizansın sikkələrinin varvar oxşatmaları zərb edilmiş və hər iki imperiyada qəbul edilmişdi. Belə tapıntılardan Bələncərdən tapılan Mavrikiy Tiberinin (582-602), İraklinin

(613-616) və onun oğlanları İrakliy Konstantin (613-641), həmçinin İrakli və İrakliy Konstantinin adından oxşar qızıl solidlərin tökmə sikkələri tapılmışdı.

Orta əsrlərin bütün dövlətlərində olduğu kimi, Xəzər xaqanlarının əsas gəlirləri əhalidən yığılan vergilərdən, həmçinin işğal edilmiş ərazilərdən yığılan töycü, vergilərdən əldə edilirdi. Rus dilli salnamələrin bəzilərində, konkret olaraq, Xəzər xaqanlığının parçalanması zamanı orada toplanan bəzi vergilər haqqında məlumatlar vardır. Bizim üçün maraqlı olan tudun-tütün - tüstü vergisidir ki, bunun gümüş pulla alınması barədə olan fikirlər xəzərlərdə göstərilən yüzillikdə puldan geniş şəkildə istifadə edildiyini sübut edir.VIII əsrdən başlayaraq, Xəzər dövlətində kufə dirhəmləri geniş yayılmışdı. Bu zaman dövlətin paytaxtı Şimali Qafqazdan Volqaətrafı ərazilərə keçirilmişdi. Xəzər dövlətində rəsmi olaraq, islamın qəbul edilməsi tarixi 737-ci ilə təsadüf edir. Bunun səbəbi 640-cı ildən etibarən ərəblərlə aparılan müharibələr olmuşdu. Kufə dirhəmləri Volqaboyundan xəzərlər vasitəsilə şərqi slavyanların ərazilərinə daxil olurdu. Oradan Mərkəzi və Şimali Avropaya müsəlman sikkələri kimi ilk dəfə daxil olurdu.

XIX əsrin məşhur numizmat alimləri xəzərlərin sikkə zərbinin öyrənilməsinə xüsusi diqqət ayırmışlar. Belə əsərlərdən X.Fren aversində "Arz-əz-Kasar" zərb edilən sikkələri araşdırmış və bu zərb yerinin adını "Xəzər torpağı" kimi tərcümə etmişdi. V.Tizenhauzen üzərində zərb yeri "Kasr-əs səlam" yer adını, A.Sore "Kasr al- Kadr" toponimini xəzərlərə aid etmişlər. Xəzərlərə aid başqa və daha maraqlı bir araşdırma rus alimi A.Bıkov tərəfindən həyata keçirilmişdi. Elmdə "Devits dəfinəsi" kimi tanınan bu sikkələr alim tərəfindən ümumilikdə 86 ədəd və 12 tipdən ibarət olan bütün materialları analiz edərək, sikkələrdəki epiqrafik yazılarda hərflərin ərəb yazılarının bütün formalarından fərqli olaraq, hərflərin bir-birinə birləşməməsini müşahidə etmişdi. Bu element türklərə aid olan bütün əlifbalara-soqd, xarəzm, tohar və digərlərinə aid olan əsas əlamətdir; yaxud da Mahdi adında "h" hərfi türk əlifbalarında olduğu kimi yoxdur; Muhammadiyya Hammadiya kimi zərb edilmişdir. Bu cür vacib elementlərə görə, alim bu dəfinədəki bütün sikkələrin xəzərlərin yerli oxşatma zərb nümunəsi olduğunu xüsusi olaraq qeyd etmişdi. Əslində bu sikkələr tamamilə yeni ərəb-türk sikkələri idi. Əlifba ərəb əlifbası olmağına baxmayaraq, yazılışına, qrafik quruluşuna və bəzi hərflərin ümumiyyətlə qeyd edilməməsinə görə fərqli sikkələr məhz xəzərlərə aid idi. Sonuncu bir

maraqlı bir məqam 12 tip sikkələrdən 8 tipinin üzərində hakimiyyətdə olan xəlifin adının ümumiyyətlə göstərilməməsidir. Yalnız xəlif Mahdinin (775-785) hakimiyyəti zamanı onun adı bütün sikkələrdə aydın olaraq oxunur. Digər tiplərdə xilafətdə üçüncü şəxs olan vəzir Fədl ibn Səhlin adı aydın oxunur. Yalnız 3 ədəd sikkədə IX əsrin 30-cu illərində hakimiyyətədə olan xəlif əl-Məmunun adı oxunmuşdur. Bu sikkələrin üzərində olan budaq formalı damğa xəzər türklərinə aiddir.



1



3



2



4

Şəkil 1-4. Xəzər türk tayfasının damğası və Davudun işarəsi olan gümüş dirhəmlər

İsveçdən aşkar edilmiş  və üzərində həm ərəb, həm də xəzər runi türk əlifbasında yazılar olan bilinqual  sikkənin yazılarında hökmdar Naryık adı oxunur.  Bu insanın adı başqa bir qab üzərində də oxunmuşdu. Ehtimal etmək olar ki, Naryak-İrnik yuxarıda adını çəkdiyimiz türk hökmdar-canişinin adıdır.

Ayrıca qeyd etmək lazımdır ki, İtilin-Volqa sahilindəki mərkəzi şəhərləri Xazaran adlanırdı.Ona görə  ehtimal etmək olar ki, məhz bu ərazilərin adı sikkələrdə yer adı "Ərz əz Xəzər" kimi göstərilirdi. İudaizm dinini qəbul etdikdən sonra xəzərlərin hakim dairələri əsasən oxşatma sikkələr dövriyyəyə buraxmışlar. Bunlardan "kanık" adlanan xaqan sikkələrini göstərmək olar. Bu sikkələr samani dövrünün sikkələrinin oxşarı olmuşdu.

**Üzərində Davudun işarəsi olan xəzər türklərinin sikkəsi**

Tanınmış rus salnaməçisi Konstantin Baqranorodnıy”Xalqların idarə edilməsi haqqında “adlı əsərində xəzərlər haqqında yazırdı:”Xazariya yaxınlığında qədim türklər yaşayırlar.Mənim orada olduğum vaxt onları türk deyil, sovart-asfal adı ilə çağırırıdılar”. Sözsüz ki, bu söz birləşməsi türk savir-eftalitlər ittifaqına aiddir. Beləliklə, V əsrdən etibarən sikkə zərb etməyə başlayan xəzərlərin etnik tərkibinin türk olması numizmatik materiallarla tam təsdiqini tapır.

## TÜRK NUMİZMATİKASI: OSMANLILARIN SİKKƏ SİSTEMİ VƏ NUMİZMATİKASI

**Osmanlı dövlətində sikkə sistemi və pul vahidləri.** Osmanlı numizmatikasına olan maraq ilk dəfə İsmayıl Qalib adlı alimin əsərində hələ XIX əsrin sonlarında öz əksini tapmışdı. Bu kitab ilk dəfə osmanlı hökmdarlarına aid olan bəzi o zamankı muzey materiallarına görə tərtib edilən kataloq idi. XX əsrdə bəzi tarixçi, iqtisadçı alimlər həm osmanlı sikkələrinə aid, həm də ümumiyyətlə sikkə tarixi ilə əlaqədar maraqlı əsərlər nəşr etdirmiş və elmi ictimaiyyətə çatdırmışlar. Bunlardan Dursun Ali Yaz adlı alimin “Paranın tarihi”, Bülent Arının “Anadolu’da Paranın Tarihi”, Sinan Marufoğlunun bəzi məqalələrini göstərmək olar. Ayrılıqda səlcuqlu numizmatik materialları, bəzi sultanların sikkə islahatları barədə əsərləri qeyd etmək olar.

XI əsrdə Anadolunun türklərin əlinə keçməsiylə Anadolu səlçuqluları, Saltuk, Danişmənd bəylikləri kimi yeni qurulan dövlətlər Bizans sikkələrinin oxşatmalarını, həmçinin üzərində kontrmarka olan sikkələr zərb etməyə başlamışlar. Bu cür sikkələrdən ibarət olan dəfinələrdən 2200 ədədində kontrmarka olan cəmi 13500 ədəd sikkədən ibarət olan Mardin dəfinəsi, tərkibində 2000 felsdən 140 ədədində eyni təkrar zərb elementləri olan Diyarbəkr dəfinəsi barədə müasir Türkiyə mütəxəssislərinin əsəsrlərində məlumatlar vardır.

   

Sikkələrin bəzilərində ərəb, bir qismində bilinquallıq əlaməti olaraq, ərəb–yunan əlifbalaraında olan olan yazılar araşdırlmışdı: məs., Danişmənd əmirlərindən Məlik Qazinin (ölüm tarixi 1134) sikkələrində adı yunan əlifbasında - ΜΕΛΗΚ ΓΑΖΗ, yaxud da danişməndlərin Malatya əmiri olan Zülqərneynin sikkəsində "Ο ΜΕΓΑC ΑΜΗΡΑC ΔΟVΛΧΑΡΝΑ" kimi zərb edilmişdi.

Anadolu səlcuqlu dövlətində ilk sikkələr Sultan I Məsud tərəfindən zərb edilmişdi. Bu sikkələrdən birinin üzərində I Aleksey Kommnenosun portreti vardır. Saltuklu əmirlərindən İzzəddin Saltuk ben Əlinin (1132-1168) adından zərb edilən başqa sikkə qrupunda II İoann Kommnenosun (1118-1143) və müqəddəs Georginin obrazı aydın olaraq təyin edilmişdi. Məngüçək əmiri Fəxrəddin Bəhramşahın (1162-1225) adından zərb edilən sikkələrdə anonim Bizans imperstorunun portreti vardır. Danişməndlərin Sivas bəyi Məlik Şəmsəddin İsmayıl (1164-1172) sikkələrində əksər hallarda taxtda əyləşən İsa Məsihin obrazı eynilə III Romanosun (1028-1043) sikkələrində olan portretin analogiyasıdır. Nəsrəddin Məhəmməd Danişmənd bəyi olaraq hakimiyyət illərində (1162-1170) adışəkilən imperatorun sikkələrindəki Məryəm Ana obrazlarının təqlidini həyata keçirmişdi.Artuklu bəylərinin sikkələrində başında nimb-müqəddəs dairə olan İsa peygəmbər obrazı istifadə edilmişdi.

Bu nümunələrə əsasən erkən Anadolu türk bəyliklərində islanın qəbul edilməsinə baxmayaraq, uzun müddət xristianlıq motivlərindən sikkə içində yararlanmaqları əslində maraqlı siyasi gedişin bir təzahürü ola bilər.

   

Biz bu təqlid üsulunu elə ərəblərin ilk fəthləri zamanı müşahidə etmişdik. Bizans ərazisinin ərəblər tərəfindən işğalı zamanı dövriyyəyə buraxılan sikkələr elə bu dövlətin özünün pulları olmuşdu. Ərəblər sadəcə yazı elementləri əlavə edərək, ikili pul sistemini uzun müddət davam etmişdilər. Görünür bu tarixi yaddaş türk bəylikləri tərəfindən də eynilə davam etdirilmidi. Belə ki, iqtisadi işğal hərbi ekspansiyadan daha çətin olduğundan insanların tanıdığı və qəbul etdikləri sikkələrdə azacıq yenilik üsulu əvvəlcə ərəb əlifbasından başlamış, sonra monoepiqrafik üsula tam keçid alınmışdı.

Qeyd olunan sikkələrin zərb işi Anadoluda hələ xəlif Muaviyənin Suriyada vali olduğu zamanlarda üzərində Herakleios (610-641), II Constans (642-668) və Constantinus (664-685) obrazları olan sikkələri həm oz zərbxanasında, həm də az sayda da olsa Kiprdə zərb etdirib dövriyyəyə buraxılışnda izlənilir. 647-658-ci illərdə dövriyyəyə daxil olan sikkələrdə Məhəmməd peygəmbərin adının baş hərfi və ya "Vəfa Allahdandı", Bələd-şəhər və başqa sözlər zərb edilmişdi.Muaviyanın xəlif olduğu 660-680-ci illərdə dövriyyə buraxılan sikkələr sırf Bizans pulları olaraq, ərəb kəlmələri təkrar zərb elementi kimi əlavə edilmişdi.Belə sikkələrin birinin numizmatik təsviri aşaıdakı kimidir:

Aversdə: Solda, üzərində ayaq üstdə duran İmparator fiqurunun yer aldığı Əməvi felsi. Sağda: Muaviye dövründən İmperator büstü. Yazılar yunanca.

Reversdə: ərəb dilində və əlifbasında "yaxşı" (ΚΑΛΟΝ) - (طيب) yazılmışdır.

Beləliklə, Osmanlı İmperiyası XIV əsrin əvvəllərində Anadolu Səlcuqlu dövlətinin irsi üzərində qurulmuş və Anadolunun mərkəzi olmaqla XX əsrin əvvəllərinə qədər bütün Orta Şərqi, qismən Qafqazı, Qara dənizi və şimalını, Mərkəzi Avropa, Adriatik dənizini və bütün Şərqi Aralıq dənizini idarə edən böyük bir dövlət olmuşdur. Bu qədər böyük ərazini əhatə edən Osmanlı dövlətində, 700 ilə yaxın hakimiyyəti dövründə müxtəlif pul vahidlərindən istifadə olunmuşdur.

1326-cı ildən 1477-ci ilə qədər yalnız gümüş sikkələr tədavüldə olduğu üçün bu dönəmi -**mədən sistemi,** ya da monometalizm dövrü adlanır. Osmanlı imperatorluğunda, sikkələr 3 illik zərb edirdi. Sikkələrin

nizamlanması **“sahib-i əyar”** adlı məmur tərəfindən idarə olunurdu. Osmanlı İmperiyasında taxta çıxan hər bir Sultan öz adına sikkələr zərb etdirirdi.

XVI əsrdən etibarən Osmanlı iqtisadiyyatında **"kuruş"** adlanan Avropaya aid olan iri gümüş sikkələr görünməyə başlayır. Pul təlabatını ödəmək üçün 1688-ci ildə **mankur-manqır və ya möhür** adlanan mis sikkələr zərb edilir. Hər manqır bir axça dəyərində idi. 1691-ci ildə bu tip saxta pulların asanlıqla hazırlanması və qeyri-sabitlik yaratması səbəbindən tədavülü dayandırılmışdı.

XVII əsrin sonlarında pul dövriyyəsini tənzimləmək üçün axçalar Osmanlı “para”larını əvəz etməyə başlayır. 1 para=3 axça, 1 kuruş=40 paraya dəyişdirilirdi. İlk gümüş pullar 1690-cı ildə zərb edildi.

1844-cü ildə “Tənzimat fərmanı” ilə buraxılan “Taşih-i Ayar”ın sikkə mövzusuna yenidən baxılır. Nəticədə 1 qızıl lirə 100 gümüş paraya bərabər hesablanmağa başlanır. İkiqat metal sistemi yenidən qəbul edilir. "Taşih-i Ayar" fərmanından sonra 100 və 50 kuruş qızıl, 20, 10 və 5 kuruş gümüş sikkələr Osmanlı pul dövriyyəsinsinə buraxılır.

Ümumiyyətlə, Osmanlı imperatorluğunda (1299-1922) sikkə anlayışlarının izahı aşağıdakı kimidir:

- ❖ **Dinar:** İslam dövlətlərində istifadə olunan qızıl pul;
- ❖ **Dirhəm:** Həm çəki vahidi, həm də gümüş valyuta olaraq istifadə olunur;
- ❖ **Akça:** “bəyaz, parlaq, təmiz” mənalarını bildirməklə ağ sözündən yaranmışdır. Gümüş valyuta və Osmanlı İmperiyasına məxsus ilk zərb edilən pullar.
- ❖ **Para:** Osmanlı İmperiyasında gümüş sikkələr.
- ❖ **Məcidiyyə:** Osmanlı Sultanı Abdülməcidin hakimiyyətinin altıncı ilində (1260h.i.=1844-cü ildə) onun adına kəsilən qızıl və gümüş sikkə.
- ❖ **Mangır:** Misdən hazırlanmış pul. Bu gün də insanlar arasında istifadə olunan “dəyərsiz”anlamlı bir ifadədir.
- ❖ **Kuruş:** Osmanlılara aid qəpik vahidi.
- ❖ **Cehbez:** Sərraflar, dövlətdə pulun əyarına diqqət edən şəxs.
- ❖ **Məskukat;** metal pullar və onlarla bağlı araşdırma edən elm sahəsi
- ❖ **Dərbxana:** pul zərb edilən yer, yaxud zərbxana.

- ❖ **Kaime:** Osmanlı iqtisadiyyatında kağız pul üçün istifadə olunan bir termindir.
- ❖ **Tuğra (ərəb. طغراء):** - Gerb, dövlət nişanı. Osmanlı dövlətində sultanın şəxsi imzası və möhürü kimi istifadə olunan, ərəb hərfləri ilə yazılmış xəttatlıq nişanəsi. Əsasən dövrün hökmdarının zərb etdiyi sikkənin üzərinə vurulardı.

İlk kağız pullar 1862-ci ildə dövriyyəyə buraxılmışdır. Bu pul 200 kuruşa bərabər idi. Osmanlıda istifadə olunan pulların dövrləri:

- ❖ I-Akça dövrü (1327-1688)
- ❖ II-Kuruş dövrü (1688-1879)
- ❖ III-Lira-Kuruş dövrü (1879-1980)

**Akça dövrü-**Osmanlıda ilk zamanlar sikkə gümüşdən edildiyi üçün ağ (ağ, təmiz, parlaq) akça adlanırdı. Gümüş pul kimi ilk dəfə istifadə edilən sikkələr XV əsrdən sonra ümumi mənada Osmanlı pulu mənasına gəlirdi. “Akçe-i Osmani” adı altında istifadə edilən pul vahidi, Sultanların dövrünə görə fərqli adlar almışdı. İlk axçaya bənzər sikkənin üzərində **"Darebe Osman-i bin Ertuğrul"- Ərtoğrul oğlu Osmanın zərbi”** ifadəsi yazılmışdı və Osman Qazi dönəmi (1299-1326) zərb edilsə də, dəqiq zərb tarixi və yeri bəlli deyil. Bu gümüş sikkənin diametri 15 mm, çəkisi 0.68 q idi. Ən köhnə Osmanlı sikkələri davamlı və mütəmadi olaraq, ikinci Osmanlı Sultanı Orxan Qazi (1326-1362) tərəfindən zərb edilmişdi.Bu səbəbdən Orxan Qazi axça sisteminin banisi hesab olunur. Bu sikkə 1327-ci ildə (h.t. 727) Bursada zərb edilmişdi. Zərb edilmiş sikkənin aversində, kartuşun mərkəzində **“Kəlmey-i Şəhadət”**, kənarlarında dörd **“Rəşidi” xəliflərinin adları**, reversində “Orxan bin Osman” və “Bursa”şəhərinin adı zərb edilmişdir. Bursa adının altında Orxan Qazinin bəyliyinin 3-cü ili və zərb tarixi 727, Qayı boyunun simvolu vurulmuşdur. Qeyd etmək lazımdır ki, bu sikkələrdə zərb tarixi Osmanlılara aid olan siyakat üsulu göstərilirdi.Siyaqat üsuslu Osmanlıda siyasi yazışma üçün istifadə edilən gizli bir yazı tərzi hesab olunur.

Klassik olaraq, uzun müddət akçaların tərkibi 95% gümüşdən ibarət olub, əsasən 0.37 dirhəm (1.136 qr.) çəkisində olub, yəni 100 dirhəm gümüşdən 266,5 akça kəsilirdi. Müxtəlif padişahlar dönəmində bu rəqəm iqtisadi və digər səbəblərdən dəyişilirdi. II. Bayazid dövründə akçanın dəyəri

100 dirhəm gümüşdən 426,5 akça kəsiləcək səviyyəyə gəldi. Yavuz Sultan Səlim taxta keçdiyi dönəmdə 400 akça 100 dirhəm gümüşdən hazırlanırdı.

Orxan Qazidən sonra I Murad dönəminə qədər akça ilə yanaşı, mis hamar pullar kəsilməyə başladı. I Bəyazıd dönəmində dövriyyəydə olan pulların üzərində yer adı verilməsə də, zərb tarixi qeyd olunurdu. Bu akçalar 90% gümüş tərkibli olurdu. Bu zaman osmanlıda hələ yerli qızıl pullar zərb olunmurdu. Dəyərli qızıl pul qismində tacirlər Venesiya dukatından istifsadə olunurdu. Bir dukat 40 akçaya bərabər hesablanırdı. "Fitrət dövrü" Osmanlıda Musa Çələbi Ədirnədə, Süleyman Çələbi Amasiyada öz adlarından pullar kəsdirmişdilər. Əmir Teymurun Osmanlılar üzərində hökmranlığı zamanı I Mehmed 1404-cü ildə (h.t. 806) Teymurun adını öz adının yanında sikkələrdə zərb etdirirdi. Bu nominal olaraq Əmir Teymurdan asılılığı göstərən əsas işarələrdən hesab olunurdu. Çəki və dəyər baxımından digər Osmanlı sikkələri ilə eyni olan bu pulun:

Aversində: Kəlmey-i Şəhadət, "Duribe Bursa 806 "

Reversində: Demur (Timur) Han Gürgân, Muhammed ibn Bâyezid Hân Halledallahü Mülkühü" cümlələri zərb edilmişdi.

Bu cür sikkə zərbi işi 10 ilə qədər davam etdi.Sonra Osmanlı xanədanlığı özünü toparladı və asılılıqdan çıxdı. Xüsusi olaraq qeyd etmək lazımdır ki, I Bəyazid I Mehmet dönəminə qədər ilk Sultan idi ki, öz adından zərb etdirdiyi pulların üzərinə titulunu "han" və "Sultan"kimi həkk etdirmişdir- Sultân ibn Sultân Muhammed ibn Bâyezîd Han". Bundan başqa o, "Halledallahü mülkühû" ifadesini dəyişdirib, son Osmanlı pullarına qədər davam edən "Azze nasruhü" söz birləşməsi ilə əvəz etmişdi. II Murad xan dönəmi sadəcə Ədirnə və Bursda kəsilən pulların üzərində Qayı boyu damğası vurulurdu.Bundan başqa, Ankara, Amasya kimi şəhərlərdə də darbxanələr-zərbxanalar vardı. Onun dövründə kəsilən akçalar 100 dirhəmdən 375,5 akçaya bərabər dəyərində idi. Fateh Sultan Mehmed xan dövrü Osmanlılarda ilk dəfə qızıl pullar zərb edilib. "Sultani"adı verilən bu pullar 3,510 qram ağırlığında olub, 23,5 əyarında idi. Eyni zamanda Osmanlının Konstantiniyyədə -gələcək İstanbulda açılan Haliç zərbaxanası onun dövründə quruldu. Bu dövrdə kəsilən akçaların ön tərəfində "Sultân'ül-Berreyn və Hâkân-ül-Bahreyn əs-Sultân İbn-is-Sultân" ifadəsi, digər üzünde "Muhammed ibn Murâd Han halledallahü mülkühû duribe fî Kostantiniyye sene 875" cümlələri zərb edilirdi.II Mehmet dönəmi "akçanın küsüratı"

deyilən, yəni ondan qalan parçlardan, istehsal çıxarından kəsilən mis pullar zərb olundu. Bu sikkələrə “mangır” deyilirdi. Bir dirhəm misdən kəsilən pul, akçanın 1/8 hesab olunurdu. Bir mangırın yarısı çəkisində olan pula, yarım mangır, ¼ hissəsinə isə “cırık mangır” deyilirdi. Mehmetin ölümündən sonra oğlu Cem Sultan, atasının ölümündən sonra Bursada 18 günlük hakimiyəti dönəmində də pul kəsdirmişdi.

II Bəyazid dönəmi akçaların gümüş əyarı 90%-dən 85%-ə düşüb. Onun dönəmində 10-luq akçalar kəsilməyə başladı: hətta son dönəmlərində 1 altun 60 akça dəyərində idi. İstanbul, Bursa, Ədirnə, Gelibolu, Trabzon, Konya, Üsküp kimi mərkəzi şəhərlərdə zərbxanalar fəaliyyət göstərirdi. I Səlim zamanında İstanbul, Amasya, Ədirnə, Amid, Bursa, Cəzirə, Dəməşq, Harput, Mardin, Mosul, Misir, Urfa ve Tiredə şəhərlərində sikkələr kəsilirdi. Səlimin kəsdirdiyi akçaların ən ağırı 3,5 qram olup, bir dirhəm gümüş 4,5 akça ve bir altun 13 akça dəyərində idi. I Səlim Misirdə altun ve gümüş sikkələrdən başqa mis pullar zərb etdirmişdi. Oğlu I Süleyman dövrü kəsilən pullar Bağdâd, Belgrad, Cezayir, Hələb, Maraş, Modova və digər işğal edilən yerlərdə zərbxanalar fəaliyyət göstərməyə başladı. Onun dönəmində akçaların çəkisi 3,75, 3,50, 2,75, 2,50 qrama qədər aşağı salınmışdı. Nəticədə, yüz dirhəm gümüşdən beş yüz akça kəsilərək dövriyyəyə buraxıldı. Oğlu II Səlim dönəmi akçanın dəyəri və çəkisi bir qədər də aşağı salındı. XVI əsrin sonlarında olan yeni sikkə qanununa görə;

1584-1586 devalvasiyası ile 100 dirhəm gümüşdən 800 yerinə, 950 akça kəsilməsi nəzərdə tutulmuşdu. Buna görə 1586-cı ildə ağırlığı 0.384 qram olan akçanın çəkisi daha çox aşağı salınaraq, 0.323 qrama çatdırıldı. Əvvəllər 0.384 qram ağırlığında olan akçalardan 120-si, yəni 46.80 qram gümüş ile bir qızıl alınırkən, indi eyni qızıl, bu dəfə daha çox kiçildilib və akçalarin 120-sinin ağırlığı olan 38.76 qram gümüşə bərabər hesablanaraq, alına bilərdi.

II Səlim zamanı Misirdə "Medinei" adlı qızıl sikkə zərb edilmişdir. Bir “Sultani” qızılının dəyəri 41 Medinei qızılı idi. II Səlim, eyni dövrdə "Səlimi" adı ilə yeni sikkələr zərb etdirdi.Onun zamanında bir qızıl 60 akçaya və beş akça bir dirhəm gümüş dəyərində idi. III Murad vaxtı osmanlılarda pul sisteminin zəifləməsi nəticəsində əvvəllər yüz dirhəm gümüşdən 500 akça zərb edilirdisə, indi 800 akça kəsilirdi. III Muraddan "mağrug" akçaların zərbi dövlətin pul sistemindəki axçanın dəyər ölçüsünü

qeyri-sabit etdi. Bu dövrdə ilk dəfə Hələb və Bağdadda zərb olunan akçaların üzərində Osmanlı tuğrası vurulmağa başlandı.1600-ci illərdə(H. 1009) pul sistemində edilən bəzi tənzimləmələrlə 1 qızıl 120 akçaya bərabər edildi. Bu dövrdə qızıl sikkələrin çəkisində və nizamında hər hansı bir dəyişiklik yox idi, həmçinin sikkələrin bəzək elementlərindən şəkillərinə və naxışlarına toxunulmadı. Şəhzadə Mustafanın bir müddət taxtı ələ keçirməsi, II Osmanın gəlişi ilə sonlandı.

Ara müharibələri Osmanlıda pul sistemini zəiflətmiş,akçaların ölçü və çəki sistemi pozulmuşdu. II Osmanın taxta çıxmasından sonra pul zərbinin təkmilləşdirilməsinə ehtiyac olduğu üçün natamam və az ölçülü akçalar toplanaraq yeni 1,5 qramlıq akçalar zərb edildi. Rahatlıq üçün, bir dirhəm ağırlığında 10 Osmanlı akçasından olan sikkələrdən "Onluq İdmani" akçası hazırlandı. Ancaq I Mustafanın yenidən taxtı ələ keçirməsi ilə bu onluqların dəyəri düşdü.

IV Murad zamanı olan hakimiyyətin qərarı ilə hərblər və cülus bəxşişini dörd dəfə ödəmə səbəbindən sikkənin heç bir dəyəri yox idi, artıq bir qızıl 250 akça dəyərində idi. Bunun bir çarəsi olaraq, sədr-əzəm Merzifonlu Qara Mustafa Paşanın tədbirləri və cəhdləri ilə beş qramdan bir az daha ağır olan "para" adı verilən yeni bir sikkə kəsildi.

Beləliklə, qızılın dəyəri 120 akçaya, quruş isə 80 qəpiyə endirildi.Bu dövrdən etibarən sikkələrin üzərində zərb olunmuş işarələrdə "El-Muzaffer daamâ" ifadəsi zərb edilməyə başladı.

Akçanın bu qədər dəyərdən düşməsi ilə, ilk dəfə 1687-ci ildə Osmanlı Sultanı II Süleyman tərəfindən verilən qərarla "quruş"sisteminə keçildi. Bu pul sistemi Osmanlıların səltənətinin sonuna qədər davam etdi.

**2. Quruş Dönəmi (1688-1880).** Bu illərin əsas xüsusiyyəti, o zamana qədər sadəcə Avropa quruşları istifadə olunarkən, yerli quruşların zərb edilməsinin başlanmasından ibarət olmuşdu. Quruş, əslində XIII yüzildə ilk dəfə Çexiyada, Fransada kəsilmiş olan bir pul növü idi. Daha sonralar Avropanın müxtəlif ölkələrinə yayılan bu pul növü, hər ölkənin dil qanunlarına görə dəyişik tələffüzlərlə adlanırdı. Məsələn, İtalyanca Grosso, Macarca Grache, Almanca Grecheu və.s kimi.

Demək, Osmanlı İmperatorluğunun quruluşundan istifadə olunan bu pullar Avropa pulları idi. Quruşlardan başqa, alman talerlərini istifadə edirdilər. Talerlər osmalılda 9 dirhəmə - 27.648 qram çəkiyə malik olurdu.

Buna Riyal quruş deyilirdi, qızıl quruş Venesiya dukatına deyilirdi. Osmanlıda zərb edilən yerli quruşlar, əsasən Holland pullarının və Əsədilərin sikkələrinin oxşarı kimi zərb edilirdi. Bu zaman Hollandiyada quruş adlı pullar ümumiyyətlə tədavüldən çıxarılmışdı. Qızıl 160 akça dəyərindəydisə, yeni quruşların dəyəri ilk zamanlar 80 akça dəyərində hesablanırdı. Bunun daha kiçiyi 1/40 hissəsi, yəni 2 akça dəyərində “para” deyilən pul vahidi idi. Bu pulların zərbindən geriyə qalan metalla mangır adlanan ucuz mis pullar hazırlanaraq, tədaüvlə buraxıldı.

II Süleyman dövrü maliyyə sıxıntılarına görə pulların dəyəri durmadan yenidən aşağı düşürdü. Bu dövrdə “İbrahim Çələbi” deyilən dəyəri az olan ulduzlu altunlar zərb olunmağa başlandı. Əyarı yüksək olanlara cüt, aşağı olanlara tək damğa vurulurdu. Damğasız pullar qanuni hesab olnmurdu. Bu dövrdə ən yüksək pul vahidi qızıl olaraq, bir neçə növü vardı. Bunlardan “Şerifi altun” 270, “ulduzlu altun” 300 akça dəyərində idi. II Əhməd dönəmində mangır deyilən mis pullar tədavüldən qalxdı.

II Mustafa dövründə tədavüldə olan və işlək bütün Avropa mənşəli pulları aradan qaldırmaq üçün bu pullar toplandı. Onların üzərindəki yazılar və işarələr silinərək, Osmanlı tuğrası vuruldu, “Sultan-ül Berreyn” yazıldı, digər üzündə kəsilmə vaxtı və yeri qeyd edildi.

III Əhməd zamanında İstnabulda 70, Misirdə 60 əyarında gümüş pullar kəsilirdi. Ancaq bunları dəyişdirərək, hiyləbazlıq edən bir qrup insana görə bu pullar toplandı və 1715-ci ildə **“Cedid Zer-i İstanbul”** adlı pullar zərb edildi. Bunların yüz dənəsi 110 dirhəm olub,kənarları zincirli və dairəsinin ətrafı naxışlı idi. Bir üzünə tuğra, digərinə isə **“Duribe fi İslambol”** yazılmışdı. Bu pullara Misirdə “funduk” deyilirdi.

I Əbdülməcid dönəmində pul sistemində islahatlar keçirildi. Qızılda İngilislərin 22 əyarı əsas götürüldü.İlk dəfə kağız pullar tədaüvlə buraxıldı, amma bir müddət sonra dayandırılıd. 1843-cü ildə ilk dəfə 100 quruşluq bir liralıqlar kəsilməyə başladı. Artıq bu yeni bir dönəmə keçidin təməlini qoymuşdu. 1844-cü idlə 10 quruş qiymətində məcidiyyə, 5 quruşluq dəyərində “yarım məcidiyyə” zərb edildi.

1851, 1862 və 1877-ci illərdə Osmanlıda “ Osmanlı bankı” kağız pullar-kağimə pulları tədavülə buraxmış, lakin bir müddət sonra dayandırmışdı. V Murad dönəmi İstanbulda zərb edilən qızıl pulların üzərindəku tuğranın bir az yuxarısında ay-ulduz, Misirdə zərb edilən eyni

sikkələrin aversində bir çiçək budağı rəsmi vardı.1879-cu ildən sonra “məcidiyyə” deyilən pullar tədavüldən çıxarıldı.

V Mehmed Rəşad dönəmi son dəfə Osmanlıda pul islahatı keçirildi. **“Təvhid-i Məskukat Qanun-i”** adını alan qanuna görə, pulların təməl ölçüsü qızıl və pul vahidi quruş təyin edildi. Qızıl əvəzi kimi, 40 para dəyərində nikeldən quruşlar zərb edildi. Quruşun parçası olan 20, 10, 5 paraları nikeldən; 2,5,10 və 20 quruşlar gümüşdən; 25, 50, 250 və 500 quruşluq pullar isə qızıldan zərb edildi. Bu dövrdə gümüş və qızıl pulların üzərində padşahın tuğrasının sağ tərəfində culusun -taxta çıxışın 7-ci ilinə qədər Rəşad, ondan sonra isə El-Gazi sözləri zərb edilmişdi.

VI Mehmed Vahəddin dönəmi (son padşah) tərkibi 22 əyardan olan qızıl pullar V Mehmed dönəmindəki ilə eyni tipli olaraq zərb edilir. Lakin onun pullarının üzərində hər hansı bir ay-ulduz, çiçək və ya yazı yox idi.

Osmanlı dönəmi zərb edilən bir çox qızıl və gümüş pullar cümhuriyyətin ilk illərində istifadə olunub.





Bursa 1326-ci il Orxan bin Osman Bursa 1326-ci il Orxan bin Osman

Bursada 1326-ci ildə Orxan Bəy tərəfindən zərb edilən pul.

Avers: Kəlmey-i Şəhadət və ilk dörd Rəşidiyyə xəlifələrinin adları.
Revers: Orxan bin Osman, zərb yeri və tarix göstərilib.

**Beləliklə, öz adına pul kəsdirən osmanlı hökmdarlarının sikkə nümunələri:**

**I-Fateh Sultan Mehmet və II-Sultan II Bəyazid xan**



I Fateh Sultan Mehmetin
qızıl sikkəsi



II Sultan II Bəyazid xanın
qızıl sikkəsi

II Mehmetin İstanbulu fəthindən 24 il sonra “Sultani”adını verdiyi, Osmanlının ilk qızıl puludur. Venesiya dukatına rəqib olmuş, ondan daha çox işlənmişdir. Zərb tarixi 1475-ci il (882 h.) Sikkənin ön tərəfində: **”Daribun nadri sahibül izzi ve’n nasri filberri ve ve’lbahri’**, arxa tərəfində: **Sultan Mehmed bin Murad Han azze nasrahu duribe fi Kostantiniyye sene 882”** yazılıb, mənası: Altunu zərb etdirən quruda və dənizdə izzət, yardım və zəfər sahibi olan Murad Xan oğlu Sultan Mehmet Allahın nusrətiylə əziz olsun. Kostantiniyyədə 882 tarihinde zərb edildi.

**II Sultan II Bəyazid və III-Yavuz Sultan I Səlim xan**

Bəyazid qardaşı Cem Sultanla taxt mübarizəsi zamanı və sonra tək hakimiyyəti ələ keçirəndən sonra da öz adına sikkə zərb etdirmişdi.

Onun zamanında zərb edilən sikkələrin ön üzündə “**Sultanül berreyn ve hakanül Bahreyn es-Sultan ibn üs Sultan”** arxa üzünde **“Sultan Bayazid bin Mehmed Han azze asrahu duribe fi Kostantiniyye sene 886**” təyin edilmişdi.Tərcüməsi- “İki torpağın və iki dənizin xaqanı, Sultan oğlu Sultan”, arxa tərəfində “Mehmet xan oğlu Sultan Bəyazid Allahın yardımı ilə əziz olsun. Konstantiyyə 926-cı ildə zərb edilib”cümlələri vardır.

II Bəyazid xan tərəfindən 1508-ci ildə Ankarada zərb edilən bir akça. Ön hissədə "**Sultan Beyazıd bin Mehmed han**", arxa hissədə **"azze nasrühü duribe Ankara fi 886"** cümlələri zərb edilmişdi



II Sultan II Bəyazidin gümüş akçası



III Yavuz Sultan I Səlim xanın

gümüş akçası

Sultan Səlim 8 illik səltənəti dövrü yeni bir qitəyə ayaq açması və xəzinəni doldurması ilə tanınan bir osmanlı hökmdarıdır. Onun Çaldıran döyüşündən sonra Şah İsmayılı məğlub etməsindən sonra sikkələrin üzərində "Sultan" ifadəsi ilə yanaşı "şah" ifadəsi əlavə olunmuşdu. Bu sikkələrə Şahi adı verilmişdi. Misir fəth ediləndən sonra "müqəddəs torpaqların qoruyucusu" mənasında **"Hadim ül Haremeyn'üş şerefeyn"** ifadəsi sikkələrdə zərb edilirdi. Dövriyyəyə buraxılan yeni sikkələrin ön tərəfində "**Daribun nadri sahibül izzi ve'n nasri fil berri ve'lbahri**" arxa tərəfində "**Sultan Selim Şah bin Bayezid Han azze nasrahu duribe fi Kostantiniye sene 918**" yazılıb. Mənası ön hissədə: Bu sikkəni zərb etdirən qarada və dənizdə izzət və yardım sahibi, arxa tərəfdə - zəfər sahibi Bəyazid xan oğlu Sultan Səlim, Allahın yardımı ilə əziz olsun. Konstantiyyə 918-ci ildə zərb edilib"cümlələri göstərilmişdi.

Süleyman yeganə Sultandır ki, onun dövründə 3 qitədə 60-dan çox zərbxana Osmanlı sikkəsi zərb edirdi. O atası Yavuz Səlim kimi sikkələrinə "şah" ve "Hadimül Haremeyn üş şerefeyn" ifadələrini yazdırırdı. Onun Hind-Asiya ticarət yollarında istfadə olunan sikkələrinə **"şahi"** və ya **"Lari"** sözləri zərb edilirdi.

**IV Sultan Süleyman Qanuni və V Sultan II Əhməd xan**



IV Sultan Süleyman Qanuninin Qızıl şahi sikkəsi



V Sultan II Əhməd xanın gümüş lari sikkəsi

Bu sikkənin ön tərəfində **"Sultanül berreyn ve hakanül Bahreyn es Sultan ibn üs Sultan"**, arxasında **"Sultan Süleyman bin Selim Han azze nasrahu duribe fi Kostantiniyye sene 926"** ifadəsi var. Bunların da mənası "İki torpağın və iki dənizin xaqanı, Sultan oğlu Sultan" arxa tərəfində isə "Konstantiyyə 926" yazılıb.

II Əhməd xalq arasında həm də sevilən və tanınan şair,dindar və xəttat idi. Onun dövründəki zərb olunan sikkələrə “zoltan” adı verilmişdi. Sikkənin ön tərəfində: **“Sultanül berreyn ve hakanül Bahreyn es Sultan ibn üs Sultan”**, arxa tərəfində ise **“Sultan Ahmed bin İbrahim Han daime mülkühu duribe Kostantiniyye fi sene 1102”** yazılıb.

**VI-Sultan III Səlim xan**



VI Sultan III Səlim xanın gümüş sikkəsi



VI Sultan II Osman xanın qızıl sikkəsi

Mənası isə “İki dənizin Sultanı və torpağın (qitənin) xaqanı, Sultan oğlu Sultan” arxa tərəfdə isə, “İbrahim xan oğlu Sultan Əhmədin mülkü daim var olsun, Konstantiyyə 1102 ildə zərb edilib” cümlələri təyin edilmişdi.

III Səlim dönəmi zərb olunan pullarda həm “İslambol”-İstanbul şəhərinin erkən yazılış forması, həm də Konstantiyyə zərb edilirdi. Lakin İslmabol şəhər adı adətən savaşlar dönəmi zərb olunan pullarda göstərilirdi.Bu sikkələrin dəyəri 100 para olub,ön tərəfində nöqtəli möhürün daxili səthində Sultanın tuğrası və tuğranın altından iki çizginin arasında **“Duribe İslambol fi 1203”** ifadəsi, arxasında **“Sultan ül berreyn ve hakanül Bahreyn es Sultan ibn üs Sultan”** ifadəsi var. Maraqlıdır ki, özünü sələfləri kimi iki dənizin və iki torpağın xaqanı adlandıran Səlim öz adını deyil, sadəcə sultan oğlu sultan olduğunu zərb etdirmişdi.Zərb tarixi və yeri İslambol 1203-cü ild göstərilimişdi.

**VI Sultan II Osman xan**

II Osmanın hakimiyyətinin ilk illərində tədavüldə dəyəri çox aşağı saxta akçalar toplanaraq, yeni -cədid akça adında sikkə zərb etdrildi. Sikkənin ön tərəfində **“Sultanül berreyn ve hakanül Bahreyn es Sultan ibn üs Sultan”,** arxasında **“Sultan Osman bin Ahmed Han azze nasrahu duribe fi Kostantiniyye sene 1027”** yazılıb. Bunun mənası-ön hissədə:

” iki dənizin Sultanı və iki torpağın xaqanı Sultan oğlu Sultan Əhməd oğlu Osman”, arxa hissəsində “Allahın nüsrəti ilə əziz olsun. Konstantiyyə 1027-ci ildə zərb edilib” cümlələri göstərilmişdi.

**VII Sultan Əbdülməcid xan**





**VII Sultan Əbdülməcid xanın gümüş sikkəsi**

**VIII-Sultan II Əbdülhəmid xanın qızıl sikkəsi**

Əbdülməcid xan Avropa meylli və cəmiyətin yeniləşməsi üçün əsas addımları atan bir Sultan olub. Onun 1840-ci ildə təsdiq etdiyi “Təsis-i Sikkə “qanunnaməsinə görə, yeni tip qərb standartlarına uyğun **“məcidiyyə”** adı verilən sikkələr zərb olunmuşdu. Əbdülməcid dövrü sikkələrdə tuğranın yanına gül qonçəsi rəsmi vururlurdu. Obrazın alt hissəsində culusun 16-ci ilini göstərən “**sene 16**” yazılıb. Arxa tərəfində çiçək nöqtəvari ləçək bəzəməsinin ortasında yazılan **“Azze nasruhu duribe fi Kostantiniyye 1255”** yazısı, Allahin nüsrəti (yardımı ilə) əziz olsun.1225-ci ildə Konstantiyyədə zərb olunub” cümlələri aydın şəkildə təyin olunur

İqtisadi sıxıntıları aradan qaldırmaq üçün pul tədavülündə müəyyən dəyişiklik edən Əbdülhəmid xan, “Məskuk”- sikkə deyilən qızıl sikkə kəsdirmişdi. Buna “Həmid altunu” da deyilirdi. Üst hissədə 7 ulduz və onun altında dəfnə yarpaqları, EL-Gazi sözü yazılmış, Əbdülhəmidin şəxsi tuğrası vurulmuşdur. Tuğranın altında culusun 7-ci ili mənasında “İl 7” yazılıb. Çələng işarəsinin altında 25 ibarəsi isə 25 məksuk- kuruş olduğunu göstərir. Arxasıda isə başda bir ulduz, dəfnə çələngi və ”**Azze nasruhu duribe fi Kostantiniyye 1293**” göstərilmişdi. Mənası-Allahın yardımı ilə əziz olan. 1293-Konstantiyyədə zərb olunub”cümlələri vardır.




Osmanlıda bütün padşahların tuğraları.

## ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. Cəfərov M.V.Azərbaycan Respublikasinin Cənub-Şərq bölgəsində tapılmış “gümüş böhranı” dövrünə aid sikkələr. // Tarix və onun problemləri. Bakı Dövlət Universitetinin elmi məqalələr toplusu, Bakı: 2011. s.195-203.
2. Cəfərov M.V. Azərbaycan Respublikasının Cənub-şərq regionunda numizmatik tapıntıları Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi. Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı Dövlət Universiteti. 25 aprel, 2015. 24 səh.

3. Cəfərov M.V.Azərbaycan Respublikasının Cənuş-şərq regionunda aşkarlanan antik dovrün sikkələri. Görkəmli tarixçi alim Cara Aşurbəylinin anadan olmasının 110 illiyinə həsr olunmuş “Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu” mövzusunda Respublika Elmi Konfransı. Bakı, 23.06.2016., səh.53-60,
4. Cəfərov M.V.Cənub-şərqi Azərbaycanın antik dövrdə ticarət əlaqələri. (Numizmatik materiallar əsasında) Lənkəran Dövlət Universitetinin, Elmi xəbərləri., İSSN 2617-8036 Humanitar elmlər № 2, 2018., səh. 25-31.
5. Cəfərov M.V.Azərbaycanın Respublikasının Cənub-Şərq Regionunda numizmatik abidələrin tədqiqi tarixindən.// İstiqlal muzeyinin 100 illiyinə həsr olunmuş “Muzey arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası” mövzusunda III Elmi konfransın materialları” Bakı, 18.06.2019. səh. 46-51.
6. Cəfərov M.V.Baxşıyev Ə.A., Azərbaycan tarixinin tarixşünaslığı. (XIX-XX əsrin 90-cı illərinə qədər). Monoqrafiya Bakı, “Avrora” nəşriyyatı, 2021. 218 səh.
7. Cəfərov M.V. Məmmədova A.M., Bürcəli sikkə dəfinəsi XIII – XIV əsrlərə dair numizmatik faktdır. Lənkəran Dövlət Universiteti, Elmi xəbərləri., İSSN 2617-8036 Humanitar elmlər № 1, 2021., səh. 5-11.
8. Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Əxbarnamə., Bakı., 2009, Fars dilindən tərcümə edən: Əli Hüseynzadə, 159 səh.
9. Pirquliyeva Q. Numizmatikanın əsasları. Bakı: Nafta Press, 2009, 167 s.
10. Pirquliyeva Q.Ə. İçərişəhər tarix muzeyinin numizmatika fondunun kataloqu. Bakı: Şərq-Qərb, 187 səh.
11. Pirquliyeva Q.A. XIV əsrin sonu - XV əsrin əvvəllərində Azərbaycanın pul dövriyyəsi və metrologiyası (numizmatik materiallar əsasında). Bakı, “Ağrıdağ”, 2001,167 s.
12. Pirquliyeva Q.A. XIV əsrin sonu - XV əsrin əvvəllərində Azərbaycanın pul dövriyyəsi və metrologiyası (numizmatik materiallar əsasında). Bakı, “Ağrıdağ”, 2001,167 s.
13. Pirquliyeva Q.A. Azərbaycanın mis pulları. Bakı, “MBM”,2007, 122 s.
14. Pirquliyeva Q.A. Bir Şirvanşahlar dəfinəsi. Kitab-kataloq. Bakı, “Afpoliqraf” ,2015,154 s.
15. Pirquliyeva Q.A. Qarabağ.Tarixi-mədəni irsimizdən. İstanbul,”Maxi”, 2021,145 səh. Həmmüəllif V.Quliyeva.

16. Pirquliyeva Q.A. Xristian sivilizasiyalarının tarixi oçerki. Ərəbə işğallarından səlib yürüşlərinə qədər (VIII-XI əsrlər). II cild. Moskva, “ROSSPEN”, 2022, 302 səh. Redkollegiya. s.122-1
17. Pirquliyeva Q.Ə. Parfiya və Azərbaycanın erkən dövlətlərinin iqtisadi əlaqələrinin tarixşünaslığından. Lənkəran Dövlət Universitetinin “Elmi xəbərlər” Humanitar elmlər, nömrə 1, 2021.səh.54-64
18. Pirquliyeva Q.Ə. Əfşarların pul sisteminin özəllikləri. Naxçıvan Dövlət Universitetinin,“Elmi əsərlər” №4, Naxçıvan, 2021, səh. 54-62
19. Pirquliyeva Q.Ə. Azərbaycan Cumhuriyyətində əmtəə-pul münasibətləri. 21-23 may 2018-ci ildə BDU-da keçirilən “Azərbaycan Xalq Cumhuriyyəti -100:Müsəlman Şərqində ilk parlamentli Respublika” adlı Beynəlxalq konfrans materialları. Azərbaycan, Bakı, 2018.s.120-128.
20. Pirquliyeva Q.Ə. Şirvan Azərbaycan Səfəvi dövlətinin tərkibində-Ticarət əlaqələri kontekstində. 23-24 oktyabr 2018-ci ildə Bakıda keçirilmiş “Müasir AzərbaycandanTarixi Şirvanşahlar dövlətinə səyahət” adlı Beynəlxalq Elmi konfransın materialları. Azərbaycan, Bakı, 2018 s.132-148.
21. Pirquliyeva Q.Ə. Sikkəşünaslıq materialları müstəvisində Parfiya və qədim Azərbaycan arasında olan münasibətlər. BDU “Xəbərlər” Humanitar elmlər seriyası, 2019-cu ilin 4-cü sayında, səh.107-115
22. Pirquliyeva Q.Ə. Orta əsrlərdə Azərbaycan və Bizans arasında əmtəə-pul münasibətləri (sikkə materialları əsasında) BDU-nun “Xəbərlər”- elmi məcmuəsinin 4-cü sayı. Bakı, “Bakı Universiteti”, 2007 s.109-112.
23. Pirquliyeva Q. Numizmatikanın əsasları. Bakı, 2009. 168 səh
24. Rəcəbli Ə.M. Azərbaycan sikkələri. Bakı: Xalq bank, 2012, 356 səh.

**Rus dilində**

25. Азертюрк Т.Генезис тюрков и тюркского языка (на основе клинописи) 1 том, Баку, 2019
26. Бабаяров Г.Б. Древнетюркские монеты Чачского оазиса (VI–VIII вв. н.э.). Ташкент: изд. Национальной библиотеки Узбекистана им. Алишера Навои, 2007. 120 с.
27. Бартольд В.В. Двенадцать лекций по истории турецких народов Средней Азии // Собрание Сочинений. Т. V. М.: «Наука», 1968. С. 19–192
28. Бернштам А.Н. Историко-культурное прошлое Северной Киргизии по материалам Большего Чуйского канала // Избранные труды по

археологии и истории кыргызов и Кыргызстана. В 2-х томах. Т. 1. Бишкек, 1997. С. 140-173.
29. Беленицкий А.М. Клад серебряных монет из Пенджикента // ЭВ, XVII. М.-Л, 1966, с. 92-100.
30. Быков А.А. Из истории денежного обращения Хазарии в 8-9 вв. //Восточные источники по истории народов Юго-Восточной и Центральной Европы. - Т. 3.- с. 26-67.
31. Гваберидзе Ц.М. Каталог медных монет Ильханского Ирана. Тбилиси: Мецниереба, 1994. 178 с.
32. Давидович Е.А. К медным номиналам конца XV- начала XVI вв. по данным чекана Хисара и Кундуза // Сообщение ТФАН СССР, вып. 24. Сталинабад, 1950, с. 39-45.
33. Давидович Е.А. Нумизматическая коллекция Ленинабадского областного историко-краеведческого музея // ИООН АН Тадж. ССР, вып.2. Сталинабад, 1952, с.65-82.
34. Давидович Е.А., Зеймаль Е. В. Денежное хозяйства Средней Азии в переходный период от древности к средневековью (к типологии феодализма) // Ближный восток. Товарно-денежные отношения при феодализме. М., 1980, с. 70-80.
35. Довуди Д. Худжандский клад. Душанбе,1998, 118 с.
36. Довуди Д. Денежное обращение древнего и средневекового Хатлона (Vв. до н.э.- нач. XX в.н.э). Душанбе, 2006, 156 с.
37. Довуди Д. Монетные клады Таджикистана. Душанбе, 2009, 225 с.
38. Джалагания И.Л., Джапаридзе В.В. Нумизматические находки Дманисской археологической экспедиции (1936-37, 1960-66, 1968-70, 1972-73, 1975-77 гг.). // Археологические памятники феодальной Грузии. 1987, вып. V. 168 стр.
39. Джафаров М.В. Топография куфических кладов, найденных в юго-восточном регионе Азербайджанской Республики // Вестник КазФЭА-Семей-2012 №1(16), г. с. 50-54.
40. Джафаров М.В. Монеты XVI века, найденные в юго-восточном регионе Азербайджанской Республики. // Международная научно-практическая конференция Семей-2012, Вестник КазФЭА «Актуальные вопросы модернизации: Экономика, об-разование, управление, политика и бизнес» Семей, 9 ноября 2012 г.

Международная научно-практическая конференция, №3 (16). s.270-276.

41. Джафаров М.В. Куфические монеты, найденные на территории юго-восточного региона Азербайджанской Республики (В конце VII и первой половине VIII веков). Ученые записки Орловского Государственного Университета № 2 (52), 2013. с.21-26.
42. Зеймаль Е.В. Кушанские монеты из собрания Института истории, археологии и этнографии АН Таджикской ССР // ИООН АН Тадж. ССР. Вып.1 (22). 1960, с. 115-128.
43. Зеймаль Е.В.. Клад римских денариев из Таджикистана // НЭ. Вып. III. 1962, с. 141-146.
44. Зеймаль Е.В. Политическая история древней Трансоксианы по нумизматическим данным // Культура Востока. Древность и раннее средневековье. Л. 1978, с. 192-214.
45. Зеймаль Е.В. Древние монеты Таджикистана. Душанбе, 1983. С.230.
46. Камышев А.М. Монеты на Великом шелковом пути их влияние на возникновение денежных отношений в Семиречье // Материалы международной научной конференции. (Бишкек 26–27 сентября 2001 г.). Бишкек, 2002. С. 58-65.
47. Камышев А.М. Раннесредневековый монетный комплекс Семиречья. Бишкек, 2002. С.145.
48. Литвинский Б. А., Соловьев В. С. Средневековая культура Тохаристана. М. 1985. с. 137.
49. Магомедов М.Г. Образование Хазарского каганата. - М., 1983. - с. 50.
50. Магомедов М.Г. Образование Хазарского каганата. - М., 1983. -с. 50.
51. .Мусакаева А.А. Туранские монеты III – VIII вв. Ташкент: ГМИУ, 2013. 194 с. Становление и динамика развития денежных отношений в Западном Согде в эпоху античности и раннего средневековья (Туранские монеты. Часть 2). Ташкент: Фан ва технология, 2014. 352 с
52. Мусакаева А. К истории денежного обращения в Западном Согде (Клад подражаний тетрадрахмам Евтидема из Бухары), Общественные науки в Узбекистане, 1986, № 6, с.35-38;

53. Пахомов Е.А., Монеты Азербайджана: Вып.I. Баку: Известия АН Азерб.ССР, 1959, 79 с.
54. Пахомов Е.А., Монеты Азербайджана. Вып.II. Баку: Известия АН Азерб.ССР, 1963. 158 с.
55. Пиргулиева Г.Денежное обращение и метрология монет Азербайджана конца XIV – нач. XV вв. Баку, 2001. С.189.
56. Пиргулиева Г. Вопросы метрологии Азербайджанских монет XV-XVI вв В сб.: «Археология и этнография Азербайджана», №1, 2005.
57. Пиргулиева Г. Медные монеты Азербайджана. Баку, 2007. с.160.
58. Плетнева С.А. Об этнической неоднородности населения северо-западного хазарского пограничъя // Новое в археологии. -М., 1972. -с. 108.
59. Ртвеладзе Э.В. Великий шелковый путь. Энциклопедия. Ташкент: «Узбекистон миллий энциклопедияси», 1999. 280 с.
60. Раджабли А.М.Нумизматика Азербайджана (Очерки истории монетного дела и денежного обращения Азербайджана). Баку: Елм ва Хаят, 1997, 232 с.
61. Раджабли Али.Монетное дело Азербайджанского государства Сефевидов. Баку, «Зия», 2014. 232 с.
62. Сейфедини М.,Байрамов Р. Денежное обращение и монетное дело в Азербайджане в 16-19 вв. Баку: Елм, 2001, 150 с.
63. Федоров М.Н. Нумизматические источники // Источниковедение Кыргызстана (с древности до XIX в.). Бишкек: «Илим», 1996. С. 274–283.

**Türk dilində**

64. Ahmet Altıntaş "Türkler, Selçuklu Türkiyesi`nde para" Cilt: 7 s: 386-392.
65. Karadeniz Teknik Üniversitesi Giresun FenEdebiyat Fakültesi / Türkiye. 2012 s.40.
66. Belgin Demirsay. - "Osman Hamdi bey ve Gerçekle İlişkiler", Kültür Bakanlığı Yayınları: 2003,s 326
67. Bülent ARI-Anadolu'da Paranın Tarihi / Ankara: Türkiye Cumhuriyet Merkez Bankası,2011, s 30-35
68. Cüneyd Okay "Subhi Paşa (Sami Paşazade)" Yaşamları ve Yapıtlarıyla Osmanlılar Ansiklopedisi. 1999, C.2 s.549,

69. Cafarov M.V. Lankaran (Talış) hanlığından geçen tranzit ticarət yolları ve para devriyesi // Turan Stratejik Araştırmaları Merkezinin Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi, Ankara, 2012, İlk Bahar, cilt:4, Sayı: 14. s.154-158.
70. Didem Küçükayten, Numizmatik ders notları.2010., s 25-38
71. Diren Çakılcı "İsmail Galib Bey and Takvîm-i Meskûkât-ı Osmâniye", Bodrum, 2016, s.124
72. Kafkazda numizmatik gelişme tarihi. 10-12 may 2018-ci ildə İstanbulda keçirilən" V Uluslarsaı tarih egitimi Sempozyumu"nun materialları.Türkiyə, İstanbul, 2018. c.71.

**İngilis dilində**

73. Dovudi D. Finds of Umayyad and Samanid Dirhams in Tajikistan – Hoards and Single Fainds (8th – 11th centuries). Simposium on Islamic numis-matics, from the 8th to the 11th century. At The Danish Insti-tute Damascus, Syria 5-november. Programme Abstracts. Kufic Coins, Damascus 2007, pp. 7-19.
74. Diler Ö. Ilkhans. Coinage of the Persian Mongols. İstanbul, 2006. 656 p.
75. Cafarov M.V.Activity of local Sassanid Azerbaijani mints. Hodja Akhmet Yassawi 6th International Conference on Scientific Research May 13-15, 2022 / Lankaran, Azerbaijan s.92-98. 7 səh.
76. Lane-Poole St. Catalogue of Oriental Coins in the British Museum. Vol. VI. The Coins of the Mongols in the British Museum. Classes XVIII-XXII. Ed. by R.S. Poole. London, 1881. 300 p. IX pl.
77. Pirquliyeva Q.A. Les mots de:musee histoire,les analises numizmataque, les monnais de Roma et Bizanse, les monnaies de culvre et darcent. XII İnternational scientific and praktical conferense"Actual priorities of modern sciense education and practice".Paris, Fransa,mart 29-april 01 2022.s.292-301
78. Pirquliyeva Q.A. Relationships between Parfiya and Ancient Azerbaijan in the Context of Synthesis materials."Open Access Jornal of Archaelogy and Antropology", Nyu-York, 2019 Aprel, 2 s.
79. Pirquliyeva Q.A. A Short Essay on the Numizmatik of Karabakh. 2 nd. International Balkans, Anatolia, Caucasia and Turkistan (Middle Asia) Geography Art, Culture, History and Folklore Congress / Art Activity

“Prof. Dr. Ali Recebli Armağanı (In Honour of Prof. Dr. Ali Recebli)” 09-10-11-12 Mayıs/May 2022, Aydın-Türkiye. s.491-4

**İnternet resursları.**

80. Каталог-определитель: продажа монет и банкнот иностранных государств.- URL : http://www.numfil.ru
81. Клуб «Нумизмат» (библиотека, объявления, общение, новости, ценынамонеты, описаниемонет). - URL : http:// numizmatik.ru
82. Античная нумизматика. - URL :http://www.coins.msk.ru/ Форум по исламской нумизматике.- URL: http://asmir.com/Forum/ (http://annales.info/hazar/small/coins.

# MÜNDƏRİCAT

Ön soz........................................................................................ 3
NUMİZMATİKA FƏNİNİN TARİXŞÜNASLIĞI, PREDMETİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ.................................................................. 7
Pul və sikkə anlayışları.................................................................... 18
Əmtəə mübadiləsi. Dəyər nəzəriyyəsi.................................................. 19
Pul-sikkə sistemləri.......................................................................... 21
Pulaqədərki əmtəə mübadilə vasitələri. Pulun hazırlanma texnologiyası.................................................................................... 24
Sikkənin istehsal üsulları, sikkə materialları........................................... 29
Sikkə zərbi tarixi haqqında.................................................................. 30
Monometal və bimetal çəki-sikkə sistemləri.......................................... 33
ANTIK PUL - SİKKƏ SİSTMELƏRİ.................................................... 34
Numizmatika elminin əsas mənbələri.................................................. 36
Sikkələrin zərb tarixi haqqında.............................................................. 39
Pul nominallarının adları haqqında....................................................... 44
Pulların dövriyyəsi haqqında................................................................ 45
Numizmatikanın öyrənilmə metodları haqqında..................................... 49
KİÇİK ASİYANIN SİKKƏLƏRİ. QƏDİM YUNAN PULLARININ İKONOQRAFİYASI...................................................................... 54
Qədim Yunanıstanın sikkə möhürləri-emblematikası............................. 55
Qədim Yunanstanda bank-kredit məsələləri.......................................... 66
Makedoniyalı İskəndərin Şərq yürüşü və Əhəməni monarxiyasının çökməsi. Polis təsərrüfatının canlanması............................................. 69
Əmtəə pul münasibətlərinin inkişafı. Ellin mədəni mühiti və ellin periferiyasında sikkə zərbi.................................................................. 71
Roma imperiyasinin sikkələri. Avropada sikkə zərbi və pul dövriyyəsi.................................................................................... 73
ORTA ƏSRLƏRDƏ AVROPANIN BƏZİ DÖVLƏTLƏRİNİN PUL SİSTEMLƏRİ.......................................................................... 79
Erkən orta əsrlərdə Avropada sikkə zərbi.............................................. 83
Avropanın yetkin orta əsrlərdə pul və maliyyə məsələləri.............................................................................................. 86
Rusiyanin pul-sikkə sistemi.................................................................. 99
ŞƏRQ ÖLKƏLƏRİNDƏ ANTİK VƏ ORTA ƏSRLƏRDƏ PUL VƏ PUL İŞİ......................................................................................... 107
Çinin numizmatikası........................................................................... 119
QAFQAZIN NUMİZMATİKASI: Azərbaycanın monetar pul dövriyyəsi və sikkə zərbi.................................................................... 122

QAFQAZIN NUMİZMATİKASI: Gürcüstan və Ermənistan.................. 221
TÜRK NUMİZMATİKASI: MƏRKƏZİ ASİYA VƏ XƏZƏR DÖVLƏTİNİN NUMİZMATİKASI...................................................... 232
TÜRK NUMİZMATİKASI: OSMANLILARIN SİKKƏ SİSTEMİ VƏ NUMİZMATİKASI........................................................................ 251
ƏDƏBİYYAT SİYAHISI........................................................................ 269

**Qanira Pirquliyeva**
**Mayis Cəfərov**

# NUMİZMATİKA

**(Ali məktəblər üçün dərs vəsaiti)**

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Həmidə Bağırova, Nurdan Məmmədova

Yığılmağa verilmişdir: 25.12.2023
Çapa imzalanmışdır: 06.02.2024
Format: 70×100 1/8; şərti çap vərəqi 34
Sifariş № 08; tiraj 100 nüsxə
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com